**Müctəba Sadət**

# MÜQƏDDƏS SÜBH
# (ƏL-FƏCRUL-MUQƏDDƏS)

***İmam Məhdi (əleyhissəlam), vəd olunmuş günü öncədən bildirən əlamətləri və zühur ilinin hadisələri***

BAKI – 2017

**30.08.2017 DK-850/H**

## RƏHMAN, RƏHİM ALLAHIN ADI İLƏ!

Allah Rəsulu *(sallallahu əleyhi və alih)* Cabir ibn Abdullah Ənsari ondan “Qaimin qeybi dövründə şiələr ondan faydalana biləcəkmi?” – deyə soruşduqda, belə cavab verdi: “Bəli, məni peyğəmbər olaraq göndərən kəsə and olsun ki, onlar mütləq ondan faydalanacaq və qeybi dövründə vilayətinin nuru ilə işıqlanacaqlar. Necə ki, buludlar günəşi örtsə belə, insanlar ondan fayda əldə edərlər”.[1]

İmam Əli ibn Hüseyn *(əleyhissəlam)* buyurmuşdur: “Kim Qaimimizin qeyb dövründə vilayətimiz üzərində sabitqədəm olsa, Allah ona Bədr şəhidləri kimi min şəhidin mükafatını əta edər”.[2]

## İTHAF OLUNUR

Ey Allahın yer üzərində *(gizli şəkildə)* saxladığı və bəndələrindən olan höccəti... Şübhəsiz ki, mən sənə qarşı eşq və şövqən yanıb alışıram... Səndən uzaq düşmək və ayrı olmaq səbəbilə qüssə çəkirəm... Ey ağam, sənə tərəf nail oluna biləcək bir yol varmı? Saf *(və şücaətli)* simanı və mədh olunan *(və vüqarlı)* zülfünü nə vaxt görəcəyəm?

Ey Mövlam, bu səhifələri sənə hədiyyə edirəm. Xəta etmiş olsam belə, qəbul olsa, nə gözəl olardı... Nə mal-dövlətin, nə də övlad-uşağın fayda verməcəyi bir gündə faydaverici olardı.. Həmçinin sənin xeyir-dua verməyin şamil olunan kəslərlə birlikdə bizi də qərar verərdi...

---

[1] Biharul-ənvar, c.52, s.93; İlamul-vəra, s.372.
[2] İlamul-vəra, s.402.

# MÜQƏDDİMƏ

Hadisələr və xəbərlər gündəlik olaraq sürətlə yayılır, burada viranedici zəlzələlər, orada güclü fırtınalar, burada hərbi inqilab *(və çevriliş)*, orada amansız müharibə, burada təyyarə düşməsi, orada qorxunc yol qəzası... Bax beləcə, gündəlik olaraq ard-arda hadisələr sürətlə baş verir. Bu hadisələrin izdiham vəənginliyində insan – ona İmamımız Sahibəzzəmanın *(əccələllahu fərəcəh)* zühurunun yaxınlaşması ilə əlaqədar mühüm dəlalət və bariz əlamət verməsi mümkün olan hadisə və xəbərləri ya unudur, ya unutmağa çalışır, ya nadanlıq edir, ya da yadından çıxır.

İnsanların əksəriyyəti, ümumiyyətlə zühur əlamətlərinin nə olduğunu bilmir. Nə onlar barədə bir məlumata malikdir, nə də onlar barədə eşitmişdir. Heç ağlına belə, gəlməmişdir. Onların bəziləri bu əlamətlər barədə eşitsə də bu əlamətlər ona mübhəmlik gətirmişdir. Çoxluğuna baxmayaraq, onlardan baş çıxara bilmir. Odur ki, bir çox insan onlar barədə şəkk-şübhəyə düşür. Hətta qəti olanını digərindən ayırd edə bilməz duruma gəlmişlər.

Bu kitabda, imkan daxilində, İmam Məhdinin *(əccələllahu fərəcəh)* zühur əlamətlərini işıqlandırmaq naminə təşəbbüs göstərəcək və zaman baxımından silsiləvi hadisələrin forması əsasında bablara ayırmağa çalışacağam ki, müqəddəs sübhün intizarında olan mömin onları izləyə və gözləyə bilsin. Bir çox kitablar əlamətləri növlərinə görə yalnız iki yerə ayırmağa çalışmışdır: hökmən baş verəcək və qeyri-qəti əlamətlər. Ya da bu əlamətləri növlərinə ayırmadan icmali şəkildə qeyd etmişlər. Ancaq mən zühur hadisələrinin əlamətlərini silsiləvi periodlara aid hadisələr formada sıralayan bir kəs görməmişəm. Ancaq hal-hazırkı zaman dönəmində möminlər üçün əhəmiyyətli olan budur. Çünki "Məhdilik" iddiasına aldanmasınlar və çox olma səbəbilə hadisələr onları qamarlamasın. Bu, üçüncü fəslin mövzusudur. Burada zühur ilinin ikinci yarısının hadisələri aylıq-xronoloji şəkildə tərtib olunmuşdur *(Rəcəb ayından Məhərrəm ayınadək)*. Biz bu barədə tarix baxımından aydın şəkildə

açıqlayan, yaxud il üçün müəyyənləşdirmə aparmadan, bir gün və ya bir ay kimi müəyyən bir vaxt bəlirləmək baxımından təsbit edən şərafətli rəvayətlərə etimad etmişik. Bu bizim bu fəsldəki bəhsimizin metodudur. Qəti baş verəcək bütün zühur əlamətlərinin bəlirlənməsinə müvəffəq olmuşuq. Həmd Allaha məxsusdur.

Orada bir sıra zühur əlamətləri vardır ki, müəyyən bir zaman müəyyənləşdirilməsi əsasında nəticə çıxara bilməmişik. Odur ki, onları qeyd etməmişik. Bu barədə təhqiqat aparılmasına ehtiyac vardır. Bu cüz *(üçüncü fəsl)* kitabın əsas və sütununu hesaba qatmış, həmçinin yazılma arxasıdakı əsas səbəb İslam kitabxanasındakı boşluğu doldurmaqdır.

Ön sözə gəlincə, ya da başqa bir ifadə ilə desək, mövzunun araşdırılmasının girişinə gəlincə, səy göstərdim ki, *(İmam Məhdinin (əleyhissəlam) varlığı barədə)* düşüncə və qavramanın əsasını dartışım. Həmçinin Qurani-kərim və şərafətli hədislərdən ibarət statistik məlumatlar və göstəricilərdən istifadə edərək şəkk-şübhə edənlərə rəddiyyə vermək üçün sağlam elmi üsluba etimad etmiş, habelə hər iki qaynaqdan açıq-aydın misallar çəkmişəm.

Birinci fəslə gəlincə, ixtisarla kiçik qeyb dövrünə toxunmuşam: böyük qeyb dövrü düşüncəsinin qəbul edilməsi üçün tədricən camaatı hazırlaşdırmağın necə başlanması, habelə kiçik qeyb dövründən böyük qeyb dövrünədək qeyb mövzusunda dərəcələrə bölünmənin baş verməsi və bununla camaatın ona alışması və öyrəşməsi, bundan əlavə, kiçik zühurdan böyük zühuradək *(müqəddəs sübh)* zühurla əlaqədar əmr...

İkinci fəslə gəlincə, orada zühurun ümumi xariqüladə əlamətləri, axirəzzamanda baş verən pozğunluqlar, fitnə və haqsızlıqlar dövrünün zühur və ədalət dövrünə tərcih edilməsi barədə danışmışam. Bu məzmun rəvayətlərə görə açıq-aydındır. Sonra çalışmışam ki, xəbərlər və gələcək baş verməmiş hadisələri öncədən xəbər vermək kimi, zühur əlamətlərini dartışım ki, tarix boyunca onlardan hansısa biri baş veribmi? Biz bunu sübut etmiş və sübuta yetmiş misallardan bəzisini sadalamışıq.

Dördüncü və sonuncu fəsldə isə, zühurun şərtləri barədə araşdırma aparmış, bunu məsələlər *(nöqtələr)* şəklində açıqlamışam. Xüsusiyyət və xarakterizələri isə elə baxımdan qeyd etmişəm ki, bu şərtlər cəm olduğu təqdirdə müqəddəs sübh gerçəkləşmiş sayılsın. Bu səbəbdən zühur əlamətlərilə zühur şərtləri arasında olan fərq barədə danışmışam.

Dördüncü fəslin ikinci hissəsinə gəlincə, bəda və zühur əlamətləri mövzusunda tədqiqat aparmışam. Bunu bilmək gərəkdir ki, bəda fəlsəfi və etiqadi bir mövzudur. Əksər alimlər bu barədə bəhs etmiş və onun haqqında yazmışlar. Onun zühur əlamətlərilə əlaqəsinə gəlincə isə, olduqca az kəs vardır ki, bu barədə yazmış olsun. Hətta o həddədir ki, az qala ya qeyd edilməmiş, ya da bir neçə sətirlə olduqca müxtəsər şəkildə toxunulmuşdur. Bəhs üçün ona daxil etdiyim, həmçinin imkan qədərində çalışdığım odur ki, bəhsin dilini və ifadənin üslubunu yüngülləşdirim.

Ümumi şəkildə, yazı dilinin yüngülləşdirilməsinə və düşüncənin dərinləşdirilməsinə etimad bəsləmişəm ki, kitab böyük kütlə üçün tam mənimsənilmiş, asanlıqla əldə edilə bilən olsun.

Kitabın "Müqəddəs sübh" adlandırılmasına gəlincə isə, sübh vaxtının bir çox şeylərə görə İmam Məhdi *(əleyhissəlam)* ilə əlaqəsinə görədir: Onun sübh vaxtı doğulması, sübh vaxtı zühur etməsi, Cəbrailin *(əleyhissəlam)* ona dəlalət edəcək nida çəkməsinin Ramazan ayında sübh vaxtı olması...

İmam Sadiqdən *(əleyhissəlam)* ***"And olsun fəcrə** (sübhə, dan yerinə) **və on gecəyə"*** ayəsinin təfsiri barədə belə buyurduğu nəql olunmuşdur ki, fəcrdən məqsəd Qaimdir *(əleyhissəlam)*. Həmçinin "Qədr" surəsinin təfsiri ilə əlaqədar həzrətdən nəql olunmuşdur ki, ***"dan yeri sökülənə qədərdir"*** ayəsinin mənası "Qaimin qiyamı və zühuhuruna qədərdir" – deməkdir.[3]

Allahdan müvəffəqiyyət diləyirik.

---

[3] Ən-Nəcmus-saqib, c.1, s.73; İlzamun-nasib, c.1, s.105, 107.

# GİRİŞ

***Birinci: Məhdi Qurani-kərimdə***

***İkinci: Məhdi şərafətli sünnədə***

İmam Məhdi mövzusu olduqca həssas məsələlərdən birinə çevrilmişdir. Xüsusilə də, özəl olaraq bu dönəmdə. Belə ki, camaatın bir qismi mövzunun əsası və ayrıntılı detalları barədə sorğu aparmağa başlamış və nəticədə bu barədə çəkişmə və fikir ayrılıqları ortaya çıxmışdır. Təəssüflər olsun ki, İmam Məhdinin varlığı barədə inanc bir-birini günahkar çıxartmaq üçün mövzuya və istehza predmetinə çevrilmişdir. Məsələnin əsası barədə şübhə imamiyyə *(on iki imamçı)* şiələrinin ziddinə yazılmış kitablar tərəfindən ortaya atılmışdır. Bu kitablarda şiələr illüziya səbəbilə düşüncənin *(İmam Məhdi ibn Həsən Əskərinin (əleyhissəlam) varlığına etiqad bəsləmək)* quraşdırılmasında ittiham olunurdular. Onlar iddia edirdilər ki, *(imamçı)* şiələr bu düşüncə, yaxud nəzəriyyəni hər bir vasitə ilə gücləndirmək yönündə təşəbbüs göstərirlər. O həddə qədər ki, bu düşüncə xəyali bir fərziyyədən dartışılmayan və şübhə edilməyəcək açıq-aydın bir həqiqətə çevrilmişdir.

İmam Məhdinin *(əleyhissəlam)* varlığı və onun yüzlərlə illərdən bəri çoxdan doğulmuş olması ilə əlaqədar fikir ayrılıqları o həddə çatmışdır ki, İbn Xəldun, Əhməd Əmin Misri və onların ardınca gələn bir sıra fərdlər bu hədislərin Allah Rəsulu *(sallallahu əleyhi və alih)* tərəfindən sadir olmasına belə, şübhə etmişlər. Əlimizdə olan çoxlu dəlillər onu göstərir ki, şəkk-şübhə onlar tərəfindən olmuş, yaxud tərəddüd etmələrinə səbəb olmuşdur. Belə bir nəticə xəbərlərin zəif olması üzündən olmamışdır. Əksinə, onlar belə nəticəyə gəlirdilər ki, Məhdi barəsində nəql olunan rəvayətlər elə məsələlərə şamil olunmuşdur ki, onların nəzərində bu, təsdiq edilməyəcək qədərdir. Ya da onlar səhih hədisləri digərlərindən ayırd etməyi bacarmamışlar.

Hər halda, hər bir şeydən öncə bizə gərəkdir ki, Məhdinin *(əleyhissəlam)* şəxsiyyəti və kimliyinin əlamətləri barədə

təvatür həddinə çatmış aydın şəkildə buyurulanları *(nəss)* və rəvayətləri bəlirləyək ki, daha bu barədə mübhəmçiliyə heç bir macal qalmasın. Əslində, Məhdi *(əleyhissəlam)* barədə nəql olunan rəvayətlər çoxluq baxımından elə bir həddədir ki, hansı məzhəbdən olmasına baxmayaraq, istənilən islam tədqiqatçısı onun təvatür həddində olmasını inkar edə bilməz. Doğrusu, sərtlik və təəssübkeşlik baxımından ən qatı islam firqələri belə, bu məsələyə boyun əymiş və onu inkar etməmişlər. Habelə, Məhdi *(əleyhissəlam)* barədə nəql olunan xəbərlərin doğru olmasını sübut edəcək bəzi traktatlar yazmışlar.

Təbii ki, bəhsimizin sahəsi Məhdi *(əleyhissəlam)* barədə olan Quran ayələri, rəvayət və nəslərin hər birini gözdən keçirmək deyil. Sadəcə, mövzu barədə qeyd olunan nəslərin həcmini açıqlayacaq statistik göstəriciləri və möhtəvanı təqdim etməklə kifayətlənəcəyəm. Kim daha artığını axtarırsa, Qurani-kərimə, təfsir və hədis kitablarına müraciət edə bilər.

## BİRİNCİ: MƏHDİ QURANİ-KƏRİMDƏ

Qurani-kərim İmam Məhdi *(əleyhissəlam)* və onun hökümətinin qurulması barədə bir neçə yerdə və bir sıra ayələrdə xəbər vermişdir. Hədislərdə qeyd olunanlara əsasən, İmam Məhdiyə *(əleyhissəlam)* yönəlik ayələr olduqca çoxdur. Onların bəzilərini günümüzdə yaşayan Əlamə Seyid Sadiq Hüseyni Şirazi “Məhdi Quranda” adlı kitabında toplamış, sadəcə 106 Quran ayəsini əhli-sünnənin qaynaqlarından cəm və nəql edərək qeyd etmişdir. Onların əksəriyyəti Qunduzinin “Yənabiul-məvəddət” kitabındandır ki, İmam Məhdi Müntəzər *(əleyhissəlam)* barədə təfsir, yaxud təvil, yaxud tənzil, yaxud tətbiq, ya da təşbih olaraq şərh olunmuşdur.

Biz İmam Məhdiyə *(əleyhissəlam)* yönəlik 118 ayənin toplusunu gələcək siyahıda qeyd edəcəyik və bu barədə “Məhdi Quranda” və “İlzamun-nasib” kitabına etimad etmişik.

## MEHDİ QURANİ-KƏRİMDƏ

| Nömrə | Surə | Ayələrin sayı | Ayələrin nömrəsi |
|---|---|---|---|
| 1 | Bəqərə | Səkkiz | 2, 3, 60, 124, 148, 155, 261, 285 |
| 2 | Ali-İmran | Üç | 83, 141, 200 |
| 3 | Nisa | Beş | 47, 59, 69, 83, 159 |
| 4 | Maidə | Üç | 12, 14, 54 |
| 5 | Ənam | Beş | 31, 40, 89, 115, 158 |
| 6 | Əraf | İki | 48, 187 |
| 7 | Ənfal | İki | 39, 75 |
| 8 | Tövbə | Üç | 16, 33, 36 |
| 9 | Yunis | Bir | 20 |
| 10 | Hud | Dörd | 8, 21, 80, 86 |
| 11 | Yusif | İki | 94, 110 |

| | | | |
|---|---|---|---|
| 12 | Rəd | Bir | 29 |
| 13 | İbrahim | İki | 5, 24 |
| 14 | Hicr | Dörd | 36, 37, 38, 75 |
| 15 | İsra | Dörd | 5, 6, 13, 33 |
| 16 | Ənbiya | Üç | 12, 13, 105 |
| 17 | Həcc | Yeddi | 7, 41, 55, 60, 65, 77, 78 |
| 18 | Nur | Bir | 55 |
| 19 | Şuəra | İki | 4, 21 |
| 20 | Nəml | İki | 82, 83 |
| 21 | Qasas | İki | 5, 6 |
| 22 | Rum | Üç | 4, 5, 6 |
| 23 | Səcdə | İki | 21, 29 |
| 24 | Əhzab | Bir | 33 |
| 25 | Səba | Beş | 18, 51, 52, 53, 54 |
| 26 | Sad | Beş | 39, 79, 80, 81, 88 |
| 27 | Zumər | İki | 56, 69 |
| 28 | Ğafir | Bir | 7 |
| 29 | Fussilət | Bir | 53 |
| 30 | Şura | Dörd | 1, 17, 18, 23 |
| 31 | Zuxruf | İki | 61, 62 |
| 32 | Duxan | Dörd | 10, 11, 12, 13 |
| 33 | Casiyə | Bir | 14 |
| 34 | Muhəmməd | Bir | 18 |
| 35 | Fəth | İki | 25, 28 |
| 36 | Qaf | İki | 31, 42 |
| 37 | Zariyat | Bir | 23 |
| 38 | Qamər | Bir | 1 |
| 39 | Ər-Rəhman | Bir | 41 |
| 40 | Vaqiə | İki | 10, 11 |
| 41 | Hədid | Bir | 17 |
| 42 | Mucadilə | Bir | 22 |
| 43 | Saff | İki | 9, 14 |
| 44 | Təğabun | Bir | 8 |
| 45 | Cinn | Bir | 24 |

| | | | |
|---|---|---|---|
| 46 | Muddəssir | Üç | 8, 9, 10 |
| 47 | Təkvir | Bir | 15 |
| 48 | Buruc | Bir | 1 |

İmam Məhdiyə *(əleyhissəlam)* yönəlik bu qədər böyül sayda şərafətli ayələri qeyd etdikdən sonra burada mövzunun əsası barədə şəkk-şübhəyə yer qalırmı? Yoxsa bu düşüncə imamiyyə şiələrinin illüziya və xəyalından doğan bir düşüncədir?!

Biz bəzi dəyərli ayələri təqdim edəcəyik ki, hazır durub *(diqqətlə)* qulaq asan kimsə üçün hidayət *(doğru yolu göstərmək)* olsun və Məhdinin *(əleyhissəlam)* zühurunun əlamətləri, Beyda çökməsi, çığırtı və sair Qiyamət üçün yanaşı baş verəcək bəzi hadisələri açıqlayan üçüncü fəslin misralarında təqdim edəcəyimiz ayələrdən fərqlidir. Bu da istənilən faydadan məlumatlı olmaqdan ötrüdür.

1 – Allah-taala buyurmuşdur: ***"Yoxsa onlar Allahın dinindən başqa bir din axtarırlar? Halbuki göylərdə və yerdə olan hər bir məxluq istər-istəməz Ona təslim olmuş və Ona da qaytarılacaqlar"***.[4]

Rüfaə ibn Musa deyib ki, İmam Cəfər Sadiqin *(əleyhissəlam)* Allahın "halbuki ona təslim olmuşdur... istər-istəməz" – ayəsi barədə belə buyurduğunu eşitdim: "Qaim Məhdi qiyam etdikdə yer yalnız orada Allahdan savayı heç bir məbud olmadığına və Muhəmmədin Allahın Rəsulu olduğuna şahidlik nida edilərək qalacaqdır".[5]

Bu dəyərli ayə Məhdi Müntəzərin *(əleyhissəlam)* çağına işarədir. Çünki onun zamanında yer üzündə kəlmənin hamısı Allah üçün olacaqdır. Belə ki, yer üzərində olan hər bir kəs Allah-taalaya təslim olacaq və boyun əyəcəkdir. Bu isə nə sabiq peyğəmbərlər *(əleyhimussəlam)* çağında olmuşdur, nə Allah

---

[4] Ali-İmran, 83.
[5] Şirazi, "Mehdi Quranda", s.15.

Rəsulunun *(sallallahu əleyhi və alih)* dönəmində olmuşdur, nə də ondan sonrakı dövrlərdə olmuşdur.

2 – Allah-taala buyurmuşdur: ***"Əgər imanınız olsa Allahın sizin üçün saxladığı şey daha xeyirlidir"***.[6]

İmam Baqirin *(əleyhissəlam)* belə buyurduğu nəql olunmuşdur: "Məhdi *(əleyhissəlam)* çıxdıqda *(zühur etdikdə)*, kürəyini Kəbəyə söykəyəcəkdir. Onun yanına üç yüz on üç nəfər ardıcılı toplaşacaqdır. Söylədiyi ilk şey bu ayə olacaqdır: ***"Əgər imanınız olsa Allahın sizin üçün saxladığı daha xeyirlidir"***.

Sonra deyər: "Mən Allahın saxladığı, xəlifəsi və sizin üzərinizdəki höccətiyəm". Ona salam verən hər bir kəs bu cür salamlaşacaqdır: "Əssəlamu əleykə, ya Bəqiyyətəllahi fil-ard *(Salam olsun sənə, ey Allahın yer üzərində saxladığı!)*"[7]

3 – Allah-taala buyurmuşdur: ***"Allahın vədidir, Allah əsla Öz vədinə xilaf çıxmaz, lakin camaatın əksəriyyəti*** (bunu) ***bilmir"***.[8]

Hüzeyfə ibn Yəman Peyğəmbərin *(sallallahu əleyhi və alih)* belə buyurduğunu nəql etmişdir: "Zülmkar padşahlardan bu ümmətin vay halına! Onlar itaətkarları necə öldürər və hürküdərlər? Bircə onlara itaət göstərənlər istisnadır. Belə ki, mömin təqvalıdır *(yaxud təqiyyə edəndir)*, onlarla dildə qeyri-təbii davranar, ancaq qəlbi ilə onları tanıyar *(yaxud qəlbi ilə onlardan qaçar)*. Allah İslama izzətini qaytarmaq *(onu yenidən izzətli etmək)* istədikdə hər bir inadkar zorbanı sındırar. Allah istədiyi hər bir şeyə qadirdir. Həmçinin qüdrəti çatır ki, fəsada düşdükdən sonra ümməti islah etsin".

Sonra buyurdu: "Ey Hüzeyfə, əgər dünyadan bircə gün də qalsaydı, Allah o günü mütləq uzadardı ki, əhli-beytimdən olan bir nəfər padşahlıq etsin. Döyüşlər onun əli əsasında cərəyan edər. O, *(həqiqi)* İslamı üzə çıxarar".

---

[6] Hud, 86.
[7] Əl-Məhdi fil-Quran, s.57.
[8] Rum, 6.

Sonra buyurdu: "Allah öz vədinə xilaf çıxmaz. O tez hesab çəkəndir".[9]

Bu, dəyərli Elçi, Quran həqiqqətlərinin, açıqlamalarının və məramlarının bilicisi *(sallallahu əleyhi və alih)* tərəfindən bu dəyərli ayəni nəvəsi İmam Məhdiyə *(əleyhissəlam)* tətbiq etməsidir.

4 – Allah-taala buyumuşdur: ***"Dedi: "Ey Rəbbim, elə isə mənə onların dirildiləcəkləri günə kimi möhlət ver". Allah buyurdu: "Sən möhlət verilənlərdənsən. Məlum vaxtın gününədək"***.[10]

Həsən ibn Xalid deyib ki, İmam Əli ibn Musa Rza *(əleyhissəlam)* "Məlum vaxtın gününədək" ifadəsi barədə buyurdu: "O, Qaimimizin çıxış *(zühur etmə)* günüdür".

Ona dedilər: "Ey Allah Rəsulunun balası, siz Əhli-beytdən olan Qaim kimdir?"

Buyurdu: "Övladlarımdan dördüncüsüdür. Kənizlər xatununun oğludur. Allah onun vasitəsilə yer üzünü hər bir haqsızlıq və zülmdən təmizləyəcəkdir".[11]

5 – Allah-taala buyurmuşdur: ***"O kəslərə ki, əgər yer üzündə onlara qüdrət*** *(hakimiyyət və güc)* ***versək namaz qılar, zəkat verər,*** *(insanları ağıl və şəriət tərəfindən)* ***bəyənilən bütün işlərə vadar edər və*** *(onları)* ***hər bir nalayiq işdən saxlayarlar. Bütün işlərin sonu Allaha məxsusdur"***.[12]

Əbülcarud İmam Baqirin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Bu ayə Məhdi və əshabı barədə nazil olmuşdur. Allah onları yer üzünün məşriq və məğriblərinin sahibi edəcəkdir. Allah onlar vasitəsilə dini ortaya çıxaracaq, hətta zülm və bidətdən heç bir əsər-əlamət görülməyəcəkdir".

Habelə o həzrətin *(əleyhissəlam)* belə buyurduğu nəql olunmuşdur: "Bu ayə axırıncı imamadək Ali-Muhəmmədə aiddir.

[9] Əl-Məhdi fil-Quran, s.107.
[10] Hicr, 36, 37, 38.
[11] Əl-Məhdi fil-Quran, s.64, İlzamun-nasib, c.1, s.69.
[12] Həcc, 41.

Allah Məhdi və əshabını yer üzünün məşriq və məğriblərinin sahibi edəcəkdir. O dini üzə çıxaracaqdır. Səfehlər haqqı öldürdükləri *(öldürməyə çalışdıqları)* kimi Allah da onun və əshabının vasitəsilə bidət və batili öldürəcəkdir *(kökünü kəsəcəkdir)*. O həddə qədər ki, zülmdən heç bir əsər-əlamət görülməyəcəkdir. Onlar yaxşılıqlara əmr edər, pisliklərdən çəkindirərlər".[13]

6 – Allah-taala buyurmuşdur: ***"Və o zaman ki, Rəbbi İbrahimi kəlmələrlə*** *(bəzi işlərlə)* ***imtahana çəkdi. Beləliklə, o*** *(İbrahim)*, ***onları kamil surətdə yerinə yetirdi"***.[14]

Müfəzzəl ibn Ömər deyib ki, İmam Cəfər Sadiqdən *(əleyhissəlam)* ***"Və o zaman ki, Rəbbi İbrahimi kəlmələrlə sınağa çəkdi"*** – ayəsi barədə soruşdum.

Buyurdu: "O həmin kəlmələrdir ki, Adəm öz Rəbbindən əldə etdi və Allah onun tövbəsini qəbul etdi. Adəm belə dedi: "Ya Rəbb, səndən Muhəmməd, Əli, Fatimə, Həsən və Hüseynin haqqına xatir diləyirəm ki, tövbəmi qəbul edəsən". Beləcə, Allah onun tövbəsini qəbul etdi. Doğrusu, Allah tövbələri çox qəbul edəndir, rəhimlidir".

Müfəzzəl deyir ki, ona dedim: "Ey Allah Rəsulunun balası, bəs ***"beləliklə, onları kamil şəkildə tamamladı"*** – deməklə nəyi nəzərdə tutur?

Buyurdu: "Nəzərdə tutur ki, onları Qaim Məhdiyə qədər – on iki imam olaraq tamamladı *(və adlarını kamil surətdə çəkdi)*. *(Həmin imamların)* doqquzu Hüseynin övladlarındandır".[15]

Buna baxmayaraq, demək mümkündür ki, Qurani-kərim bir sıra işarələri toplayaraq *(ehtiva edərək)*, ümumi şəkildə vəd olunmuş günü, orada saleh bəndələrin qələbə çalmasını İslam dininin digər bütün dinlərə qələbə çalması ilə bəşarət vermişdir.

Məsələn, bu şərafətli ayələr kimi: "Ənbiya" surəsi, 105-ci ayə; "Nur" surəsi, 55-ci ayə; "Qasas" surəsi, 5-ci ayə; "Tövbə"

---

[13] İlzamun-nasib, c.1, s.76.
[14] Bəqərə, 124.
[15] Əl-Məhdi fil-Quran, s.6, İlzamun-nasib, c.1, s.179.

surəsi, 33-cü ayə; “Saff” surəsi, 9-cu ayə və sair. Bu ayələrin hər biri möminləri Allahın nüsrəti ilə müjdələyir ki, o gün gələcək, orada İslam bütün yer üzərində idarəçilik edəcəkdir. Tək olan Allaha ibadət ediləcək, şirk və küfrün kökü kəsiləcəkdir. Aləm məşriq əsrilə sevinəcək *(yaxud məşriq əsri sayəsində rifah içərisində yaşayacaq)*, bəşəriyyətin xilaskarı Məhdi Müntəzərin *(əleyhissəlam)* əli ilə iman və salamatlıq dolacaqdır.

## İKİNCİSİ: MƏHDİ ŞƏRAFƏTLİ HƏDİSLƏRDƏ

Peyğəmbər *(sallallahu əleyhi və alih)* və pak imamlardan *(əleyhimussəlam)* İmam Məhdi *(əleyhissəlam)* haqqında rəvayət olunan hədislər təvatür həddinə çatmışdır. Şiələr və sünnilər onu öz kitablarında nəql etmişlər. Bu hədislər öz çoxluğu və təvatür olması ilə səhihliklərini təsdiqləyir. Həmçinin az qala hər bir hədis kitabları, yaxud "tərcümə" *(tərcümeyi-hal)* və "sirə" *(avtobioqrafiya)* ensiklopediyalarında bu xəbərlər mövcuddur.

Belə ki, böyük Elçi *(sallallahu əleyhi və alih)* İslam ümmətini onun zühuru ilə hər bir toplantı, bayram, yığıncaqda müjdələyir, ara-sıra müsəlmanlara on iki imam zəminində *(onların arasında)* İmam Məhdi *(əleyhissəlam)* ilə gözaydınlığı verirdi ki, *(adıçəkilən şəxs bu imamlar arasında)* on ikincidir. Bəzən isə onun haqqında xəbər verir və təkid edirdi ki, Fatimə Zəhranın *(səlamullahi əleyha)* övladlarındandır. Həmçinin İmam Hüseynin *(əleyhissəlam)* sülbündəndir. Habelə o, Hüseynin *(əleyhissəlam)* övladlarından doqquzuncudur. Bəhs və tədqiqat zəminində hər bir ağıl sahibinə aydın olacaq ki, Məhdi *(əleyhissəlam)* mövzusu Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* dövründə qəti məsələlərdən sayılmışdır. Həmçinin müsəlmanlar ədaləti bərqərar edəcək, zülmü aradan aparacaq, aləmin işini islah edəcək bir kəsin zühurunun intizarında olmuşlar. O səbəbdəndir ki, onlar mövzunun əsası barədə sorğu-sual aparmayıblar. Ən böyük soruşdurma apardıqları şey isə təfərrüat məsələlər çərçivəsində dövr edirdi. Yəni onun əsli, nəsəbi, adı və künyəsi, xüsusiyyət və xislətləri, zühurunun əlamətləri, qeybə çəkilmə səbəbi haqqında, həmin gün nə etmək gərəkdir və sair bunun kimi məsələlər barədə sorğu-sual aparırdılar.

İmam Məhdi *(əleyhissəlam)* barədə rəvayət olunan şərafətli hədislər olduqca çoxdur və açıq-aydındır. Belə ki, onun əsası,

nəsəbi, doğulması və sair bunun kimi məsələlərdə şəkk-şübhəyə heç bir macal verilməmişdir. Şəkçilərin bu mövzu barədə şiə ideologiyası ətrafında həyəcan təbili çalaraq təşəbbüs göstərdikləri bir sıra fitnələr vardır ki, bəzi statistik göstəriciləri tezliklə qeyd edəcəyəm. Mən çox sayda rəvayətləri açıqlayacaq və bu barədə Seyid Lütfullah Safi Gülpayqaninin "Müntəxəbül-əsər" kitabına etimad göstərəcəyəm.

## MEHDİ ŞƏRAFƏTLİ HƏDİSLƏRDƏ

| Nömrə | Hədislrərin mənası | Hədislərin sayı |
|---|---|---|
| 1 | İmamlar on iki nəfərdir. Onların birincisi Əli, sonuncusu Məhdidir. | 91 |
| 2 | İmamlar on iki nəfərdir və sonuncuları Məhdidir. | 94 |
| 3 | İmamlar on iki nəfərdir və onların doqquzu Hüseynin sülbündəndir. | 139 |
| 4 | İmamlar on iki nəfərdir. Onlardan doqquzu Hüseynin sülbündəndir və doqquzuncuları Qaimləridir. | 107 |
| 5 | İmamlar adları ilə on iki nəfərdir. | 50 |
| 6 | Məhdi Əhli-beytdəndir *(Peyğəmbər itrətindəndir)*. | 389 |
| 7 | Məhdi Əmirəlmöminin övladlarındandır. | 214 |
| 8 | Məhdi Fatimənin övladlarındandır. | 192 |
| 9 | Məhdi Hüseynin övladlarındandır. | 185 |
| 10 | Məhdi Hüseynin övladlarının doqquzuncusudur. | 148 |
| 11 | Məhdi Əli ibn Hüseynin övladlarındandır. | 185 |
| 12 | Məhdi Baqirin övladlarındandır. | 103 |
| 13 | Məhdi Sadiqin övladlarındandır. | 103 |
| 14 | Məhdi Sadiqin övladlarından altıncıdır. | 99 |
| 15 | Məhdi Musa Kazimin övladlarındandır. | 101 |

| | | |
|---|---|---|
| 16 | Məhdi Kazimin övladlarından beşincidir. | 98 |
| 17 | Məhdi Rzanın övladlarından dördüncüdür. | 95 |
| 18 | Məhdi Muhəmməd Cavadın övladlarından üçüncüdür. | 90 |
| 19 | Məhdi Hadinin övladlarındandır. | 90 |
| 20 | Məhdi Həsən Əskərinin oğludur. | 146 |
| 21 | Məhdinin atasının adı Həsəndir. | 147 |
| 22 | Məhdinin adı Peyğəmbərin adına, künyəsi də künyəsilə uyuşur. | 48 |
| 23 | Məhdi kənizlər xatununun oğludur. | 9 |
| 24 | Məhdi imamların on ikincisi və sonuncusudur. | 136 |
| 25 | Məhdi yer üzünü ədalətlə dolduracaqdır. | 123 |
| 26 | Məhdinin iki qeyb dövrü vardır. | 10 |
| 27 | Məhdi İsa ibn Məryəmin qarşısında namazda müsəlmanlara imamlıq edəcəkdir. | 25 |
| 28 | Doğulması, doğum tarixi və anasının bəzi durumları barədə | 214 |
| 29 | Hansılar ki, zühurunu müjdələyir. | 657 |
| 30 | Zühurunun əlamətləri barədə | Üçüncü fəslə müraciət et |

İmam Məhdinin *(əleyhissəlam)* nəsəbini açıqlayan şərafətli hədislərin statistik məlumatlarından geniş sayda olanlarını qeyd etdikdən sonra daha onun doğulması və nəsəbi barədə şəkk-şübhəyə heç bir yer qalmır. Mən məsumlardan *(əleyhimussəlam)* rəvayət olunan bəzi hədisləri təqdim etməklə kifayətlənəcəyəm.

***1 – Dəyərli Peyğəmbər (sallallahu əleyhi və alih):***

Əbu Bəsir İmam Sadiqdən, o da ataları vasitəsilə Əmirəlmömininin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: “Allah Rəsulu *(sallallahu əleyhi və alih)* buyurmuşdur: “Məhdi

övladlarımdandır. Onun adı mənim adım, künyəsi isə künyəmdir. O, yaradılış *(fiziki görkəm)* və əxlaq baxımından camaat arasında mənə ən çox bənzəyəndir. Onun qeyb və çaşqınlıq dövrü olacaqdır ki, camaat dinlərindən azacaqlar. Məhz həmin an, parlaq ulduz *(meteorid)* kimi gəlib, yer üzünü zülm və haqsızlıqla dolmuş olduğu kimi, haqq-ədalətlə dolduracaqdır".[16]

***2 – Əmirəlmöminin Əli ibn Əbu Talib (əleyhissəlam):***

İkinci Əbu Cəfər İmam Cavad ataları vasitəsilə Əmirəlmömininin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Bizdən olan Qaimin qeyb dövrü vardır. Onun müddəti uzun çəkəcəkdir. sanki onun qeyb dövründə şiələri cövlan *(dövrə vuran)* dəvələrtək gedib-gəldiyini, *(özlərinə)* otlaq yer axtarıb, ancaq tapa bilmədiklərini görürəm. Bilin ki, kim həmin dövrdə öz dinində sabitqədəm olsa, qəlbi imamının qeybinin uzun çəkməsi səbəbindən daşlaşmasa, belə bir kəs Qiyamət günü mənim dərəcəmdə mənimlə birlikdə olar".

Sonra buyurdu: "Bizim Qaimimiz zühur etdiyi zaman boynunda heç kəsin beyəti olmaz və məhz buna görədir ki, onun doğulması gizli tutular, şəxsiyəti qeybdə olar".[17]

***3 – Fatimə Zəhra (əleyhəssəlam):***

Yunis ibn Zəbyan İmam Cəfər ibn Muhəmməddən, o, atası İmam Muhəmməd ibn Əlidən, o atası İmam Əli ibn Hüseyndən, o, atası İmam Hüseyndən belə nəql etmişdir: "Mənə anam Fatimə *(əleyhəssəlam)* dedi: "Mən səni dünyaya gətirdikdə Allah Rəsulu *(sallallahu əleyhi və alih)* yanıma daxil oldu. Mən səni ona sarı parçada verdim. O həmin parçanı atıb, ağ rəngdə parça götürüb, səni ona bükdü. Sonra sağ qulağına azan, sol qulağına isə iqamə oxudu.

[16] İlamul-vəra, s.399; Muntəxəbul-əsər, s.182; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.54; Kəmalud-din, c.1, s.286.
[17] İlamul-vəra, s.400; Muntəxəbul-əsər, s.255; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.63; Kəmalud-din, c.1, s.303.

Sonra isə dedi: "Ey Fatimə, götür onu. O imamlar atasıdır. Onun övladlarından doqquz nəfər saleh əməl sahibi imamlar vardır və doqquzuncusu onların Məhdisidir".[18]

### *4 – İmam Həsən (əleyhissəm):*

Əbu Səid Əqisa İmam Həsənin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Məgər bilmirsinizmi ki, Xızır *(əleyhissəlam)* gəmini deşdiyi, divarı qaldırdığı, oğlan uşağını öldürdüyü zaman bunun hikmət tərəfini Musadan gizli saxladığı təqdirdə bu, Musa ibn İmranın qəzəbinə səbəb olmuşdu? Bir halda ki, bu, Allah-taala dərgahında hikmət və həqiqət idi. Məgər bilmirsinizmi, bizdən elə bir kəs yoxdur ki, dövrünün tağutunun beyəti onun boynuna düşməsin? Yalnız Ruhullah İsa ibn Məryəmin *(əleyhissəlam)* – arxasında namaz qılacağı Qaim istisnadır! Belə ki, Allah-taala onun doğulmasını gizli tutacaq və onun kimliyini gizlədəcəkdir ki, heç kəsin boynunda beyət olmasın. Kənizlərin xanımının oğlu, qardaşım Hüseynin övladlarından həmin bu doqquzuncu *(imam)* zühur etdikdə Allah onun qeyb dövründəki ömrünü uzadacaq, sonra isə Öz qüdrəti ilə yaşı qırxdan aşağı olan bir gənc şəklində onu aşkar edəcəkdir. Bu, Allahın hər şeyə qadir olmasının bilinməsinə görədir".[19]

### *5 – İmam Hüseyn (əleyhissəlam):*

Əbu Abdullah ibn Ömər deyib: "Hüseyn ibn Əli ibn Əbu Talibin *(əleyhissəlam)* belə dediyini eşitdim: "Əgər dünyadan yalnız bir gün belə, qalmış olsaydı, Allah həmin günü övladlarımdan biri çıxıb, yer üzünü zülm və haqsızlıqla dolmuş olduğu kimi, haqq-ədalətlə doldurana qədər uzadardı. Mən Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* bu cür söylədiyini eşitmişəm".[20]

---

[18] Muntəxəbul-əsər, s.89.

[19] İlamul-vəra, s.400; Muntəxəbul-əsər, s.206; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.68; Kəmalud-din, c.1, s.316.

[20] İlamul-vəra, s.402; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.69; Kəmalud-din,

### *6 – İmam Səccad (əleyhissəlam):*

Səid ibn Cübeyr deyib: “Zeynulabidin Əli ibn Hüseynin *(əleyhissəlam)* belə buyurduğunu eşitdim: “Bizim Qaimimizdə peyğəmbərlərdən olan xüsusiyyət *(oxşarlıq və sünnə)* vardır. Atamız Adəmdən *(əleyhissəlam)* bir xüsusiyyət, Nuhdan *(əleyhissəlam)* bir xüsusiyyət, İbrahimdən *(əleyhissəlam)* bir xüsusiyyət, Musadan *(əleyhissəlam)* bir xüsusiyyət, İsadan *(əleyhissəlam)* bir xüsusiyyət, Əyyubdan *(əleyhissəlam)* bir xüsusiyyət və Muhəmməddən *(sallallahu əleyhi və alih)* bir xüsusiyyət. Adəm və Nuhdan olan xüsusiyyət ömrün uzunluğu, İbrahimdən olan xüsusiyyət doğulmasının gizli olması və insanlardan uzaq durma, Musadan olan xüsusiyyət qorxu və qeyb; İsadan olan xüsusiyyət insanların onun barəsində fikir ayrılığında olması; Əyyubdan olan xüsusiyyət sıxıntılardan sonra qurtuluş; Muhəmməddən *(sallallahu əleyhi və alih)* olan xüsusiyyət isə qılıncla çıxmaqdır”.[21]

### *7 – İmam Baqir (əleyhissəlam):*

Əbülcarud Ziyad ibn Münzir İmam Baqirdən *(əleyhissəlam)* nəql edərək belə demişdir: “O mənə dedi ki, ey Əbülcarud, fələk döndüyü zaman insanlar “Qaim ölübdür, ya da həlak olubdur; o hansı dərəyə getmişdir?”, – dediklərində, həmçinin *(onu)* axtaran kəs: “O necə *(mövcud)* ola bilər, bir halda ki, onun sümükləri belə çürümüşdür”, – dedikdə, həmin vaxt ona ümidvar olun, onu *(və ya onun dəvətini)* eşitdiyinizdə onun yanına gedin, hətta qarın üzərində sürünməklə olsa belə!”.[22]

---

c.1, s.318; əl-İrşad lil-Mufid, c.2, s.340.

[21] İlamul-vəra, s.402; Muntəxəbul-əsər, s.300; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.74; Kəmalud-din, c.1, s.322.

[22] İlamul-vəra, s.402; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.77; Kəmalud-din, c.1, s.326.

***8 – İmam Sadiq (əleyhissəlam):***

Səfvan ibn Mihran İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: “Kim bütün imamları iqrar, lakin Məhdini inkar etsə, bütün peyğəmbərləri təsdiq edib, Muhəmmədin *(sallallahu əleyhi və alih)* nübüvvətini inkar edən kəs kimidir”.

Ona deyildi: “Ey Allah Rəsulunun oğlu, bəs övladlarından olan Məhdi kimdir?”

Buyurdu: “Yeddincinin övladlarından beşincidir. Onun şəxsiyyəti *(kimliyi)* sizdən qeybdə olar və adını çəkmək sizə halal olmaz”.[23]

***9 – İmam Kazim (əleyhissəlam):***

Yunis ibn Əbdürrəhman deyib: “Musa ibn Cəfərin *(əleyhissəlam)* yanına daxil olub dedim: “Ey Allah Rəsulunun oğlu, sən həqiqəti bərqərar edəcək *(Qaim)* kəssən?”

Buyurdu: “Mən həqiqəti bərqərar edən kəsəm, lakin yer üzünü Allahın düşmənlərindən təmizləyib, oranı zülm və haqsızlıqla dolduğu kimi haqq-ədalətlə dolduran Qaim mənim övladlarımdan beşincisidir. Onun bir qeybi vardır ki, müddəti – canına görə qorxduğundan uzanacaqdır. Həmin qeybdə qövmlər *(dəstə-dəstə insanlar)* mürtəd olacaq, digərləri isə sabitqədəm qalacaqdır”.

Sonra buyurdu: “Xoş olsun Qaimimizin qeybində ipimizdən yapışan, bizə qarşı dostluq münasibətində *(və ya vilayətimizdə)* sabitqədəm olan, düşmənlərimizdən uzaq duran şiələrimizin halına! Onlar bizdəndirlər, biz də onlardanıq. Onlar bizdən imam olaraq razı qalmış, biz də onlardan şiə olaraq razı qalmışıq. Xoş olsun onların halına, yenə də xoş olsun onların halına! Allaha and olsun ki, onlar Qiyamət günü dərəcələrimizdə bizimlə birlikdədirlər”.[24]

---

[23] İlamul-vəra, s.403; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.80; Kəmalud-din, c.2, s.333; Muntəxəbul-əsər, s.218.

[24] Kəmalud-din, c.2, s.361; İlamul-vəra, s.407; Muntəxəbul-əsər, s.219; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.83.

***10 – İmam Rza (əleyhissəlam):***

Əhli-beyt şairi Dibil ibn Əli Xüzai İmam Əli ibn Musa Rzanın *(əleyhissəlam)* yanına daxil olub, "Ayələr mədrəsəsi tilavətdən boş qalmışdır" – qeyd edilən məşhur qəsidəsini oxudu. Bu yerə qədər ki, söylədi: "O *(əleyhissəlam)* mənə dedi: "Qəsidənə iki beyt artırmayımmı?

Dibil dedi: "Bəli, ey Allah Rəsulunun oğlu".

Bu zaman dedi: *(Məzmunu)*

Tusda bir qəbir vardır ki, sahibinin müsibəti bədəninin bütün əzalarını məhşərə qədər alovlandırır

Bu, Allahın Qaimi göndərib bizi bu kədər və sıxıntıdan azad olunana qədər davam edəcəkdir".

Dibil dedi: Sonra onun yanında qəsidənin qalan hissəsini oxudum. Bu yerinə çatdıqda: *(məzmunu)*

İmamın xürucu *(zühur etməsi)* sözsüz baş verəcəkdir

O, Allahın adı və xeyir duası ilə qiyam edəcəkdir

Bizim aramızdan bütün haqq və batili seçəcəkdir

Və nemətlərlə mükafatlandıracaq və müsibətlərlə cəzalandıracaqdır.

O *(əleyhissəlam)* bərk ağladı. Sonra başını mənə tərəf qaldırıb buyurdu: "Ey Xuzai, Ruhülqüds sənin dilinlə bu iki beyti oxudu. Heç bilirsənmi bu imam kimdir və nə vaxt qiyam edəcək?"

Dedim: "Xeyr, ey sərvərim. Yalnız sizdən olan imamın çıxacağını *(zühur edəcəyini)*, yer üzünü fəsaddan təmizləyəcəyini, zülmlə dolduğu kimi oranı ədalətlə dolduracağını eşitmişəm".

Buyurdu: "Ey Dibil, məndən sonra imam oğlum Muhəmməd, ondan sonra onun oğlu Əli, ondan sonra onun oğlu Həsən, ondan sonra isə onun oğlu Höccət Qaim *(qiyam edən, ilahi qanunları bərqərar edən)*, qeybi dövründə intizarı çəkilən *(Müntəzər)*, zühurunda isə itaət olunandır. Əgər dünyanın ömrünə bir gün qalsa belə, Allah həmin günü o qədər uzadar ki, *(İmam Məhdi)* zühur edər və dünyanı zülmlə dolduğu kimi ədalətlə doldurar. Lakin nə zaman *(zühur edəcəkdir)*? Belə ki, bu, vaxtdan xəbər verməkdir".

Atam mənə öz atasından, o da öz atalarından *(əleyhimus-səlam)* nəql etmişdir ki, Allah Rəsulu *(sallallahu əleyhi və alihi)* buyurmuşdur: "Onun misalı Qiyamət günü kimidir. O sizə qəflətən gələcəkdir".[25]

***11 – İmam Cavad (əleyhissəlam):***

Səqr ibn Əbu Duləf deyib: "Əbu Cəfər Muhəmməd ibn Əli Rzanın *(əleyhissəlam)* belə dediyini eşitdim: "Məndən sonra imam oğlum Əlidir. Onun əmri mənim əmrim, sözü mənim sözümdür. Ona itaət mənə itaətdir".

Dedim ki, ey Allah Rəsulunun oğlu, bəs Əlidən sonra imam kimdir?

Buyurdu: "Ondan sonra imam oğlu Həsəndir. Onun əmri atasının əmri, sözü atasının sözü, ona itaət atasına itaətdir".

Sonra susdu.

Dedim: "Ey Allah Rəsulunun oğlu, Həsəndən sonra imam kimdir?"

O hönkürtü ilə ağladı, sonra dedi: "Həsəndən sonra oğlum – haqqı bərqərar edəcək *(Qaim)*, intizarı çəkilən *(Müntəzər)* olan imamdır".

Dedim: "Ey Allah Rəsulunun oğlu, nə üçün Qaim adlanıb?"

Buyurdu: "Çünki o, xatirəsi öldükdən *(yəni yaddan çıxdıqdan)*, inananların çoxu imamlığına mürtəd olduqdan *(dindən çıxdıqdan)* sonra qiyam edəcəkdir".

Dedim: "Nə üçün ona Müntəzər deyilir?

Buyurdu: "Çünki qeyb günləri çox olacaq, müddəti uzun çəkəcəkdir. Müxlislər *(xalis möminlər)* onun xürucunun *(zühur etməsinin)* intizarını çəkəcək, şübhə içində olanlar onu inkar edəcək, inkarçılar onun xatirəsini ələ salacaq, *(zühur üçün)* vaxt təyin edənlər həmin vaxt *(qeyb barəsində)* yalan danışa-

[25] Kəmalud-din, c.2, s.372; İlamul-vəra, s.318; Muntəxəbul-əsər, s.221; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.84; Divanu Dibil əl-Xuzai əl-Duceyli, s.143; Hivaratu həuləl-Munqiz, s.49.

caq, batilə uyanlar *(yaxud tələskənlər)* qeyb dövründə həlak olacaq, təslim olanlar isə nicat tapacaqlar".[26]

***12 – İmam Hadi (əleyhissəlam):***

Əbdüləzim Həsəni deyib: "Ağam Əli ibn Muhəmmədin *(əleyhissəlam)* yanına daxil oldum. Məni görüncə dedi: "Xoş gəlmisən, ey Əbülqasim! Sən bizim həqiqi dostumuzsan".

Əbdüləzim deyir: "Mən dedim ki, ey Allah Rəsulunun oğlu! İstəyirəm öz dinimi sənə təqdim edim *(və göstərim)*. Əgər bəyənilən olsa, Allah-taala ilə görüşənədək *(onun hüzuruna çıxanadək)* onda sabitqədəm olaram".

Buyurdu: "Əbülqasim, danış".

Dedim: "Mən inanıram ki, Allah-taala təkdir; Ona bənzər heç nə yoxdur; O, iki həddən xaricdir: ibtal və təşbih həddi . Allah cisim, surət, ərəz *(bəlirti, əlamət)* və cövhər deyil. Əksinə, Allah cismləri mücəssəm, surətləri təsvir edən, ərəz və cövhərləri yaradandır. Allah hər bir şeyin Rəbbi, onun maliki, qurucusu, yaradanıdır *(ortaya çıxaranıdır)*.

Mən inanıram ki, Muhəmməd *(sallallahu əleyhi və alih)* Allahın bəndəsi və Rəsuludur. O, peyğəmbərlərin sonuncusudur. Qiyamət günününədək ondan sonra bir peyğəmbər yoxdur. Onun *(gətirdiyi)* şəriəti şəriətlərin sonuncusudur və bu şəriətdən sonra Qiyamət gününədək heç bir şəriət olmayacaqdır.

Mən inanıram ki, Peyğəmbərdən *(sallallahu əleyhi və alih)* sonra imam, xəlifə, əmr sahibi Əmirəlmöminin Əli ibn Əbu Talibdir. Sonra Həsən, sonra Hüseyn, sonra Əli ibn Hüseyn, sonra Muhəmməd ibn Əli, sonra Cəfər ibn Muhəmməd, sonra Musa ibn Cəfər, sonra Əli ibn Musa, sonra Muhəmməd ibn Əli və sonra da sənsən, ey mövlam!"

---

[26] Kəmalud-din, c.2, s.378; İlamul-vəra, s.409; Muntəxəbul-əsər, s.224.

Əli ibn Muhəmməd *(əleyhissəlam)* buyurdu: "Məndən sonra isə oğlum Həsəndir. Bəs camaat ondan sonrakı xələflə *(canişinlə)* necə olacaqlar?"

Dedim: "Ey mövlam, o necədir?"

Buyurdu: "Çünki onun şəxsiyətini görməyəcək, adını yad etmək isə onlara halal olmayacaq, o vaxta qədər ki, qiyam edəcək və yer üzünü zülm və haqsızlıqla dolduğu kimi haqq və ədalətlə dolduracaqdır".

Dedim: "İqrar *(və təsdiq)* edirəm. İnanıram ki, onların dostları Allah dostları, düşmənləri isə Allah düşmənləridir; onlara itaət Allaha itaət, sözlərindən çıxmaq Allahın sözündən çıxmaqdır. İnanıram ki, merac həqiqətdir, qəbir sorğu-sualı həqiqətdir, Cənnət və Cəhənnəm həqiqətdir, sirat və mizan həqiqətdir, Qiyamət qopacaqdır, bu barədə heç bir şəkk-şübhə yoxdur. Allah-taala qəbirlərdə kim varsa diriIdəcəkdir. İnanıram ki, vilayətdən sonra vacib fərzlər *(yerinə yetirilməsi Allah tərəfindən vacib edilən əməllər)* namaz, zəkat, oruc, həcc, cihad, yaxşılıqlara göstəriş vermək, pisliklərdən çəkindirməkdir".

Əli ibn Muhəmməd *(əleyhissəlam)* buyurdu: "Ey Əbülqasim, Allaha and olsun ki, bu, Allahın bəndələri üçün razı qaldığı dinidir. Buna görə də bu dinin üzərində möhkəm dur. Allah səni dünya və axirət həyatında sabit *(və möhkəm)* sözlə sabitqədəm etsin".[27]

### *13 – İmam Əskəri (əleyhissəlam):*

Əhməd ibn İshaq Əşəri deyib: "Əbu Muhəmməd Həsən ibn Əlinin *(əleyhissəlam)* yanına daxil oldum. Ondan özündən sonrakı canişin barədə soruşmaq istəyirdim. Özü sözə başlayaraq dedi: "Ey Əhməd ibn İshaq, Allah-taala nə Adəmin *(əleyhissəlam)* dövründən bu yana yer üzünü məxluqat üzərində bir höccət olmadan boş qoymuşdur, nə də Qiyamət qopanadək boş qoyacaqdır. Onun sayəsindədir ki, bəlanı yer sakinlərinin üzə-

[27] Kəmalud-din, c.2, s.380; İlamul-vəra, s. 410.

rindən dəf edir. Ona görədir ki, yağış yağdırır və yer üzünün *(nemət və)* bərəkətlərini çölə çıxarır".

Dedi: "Mən dedim: "Ey Allah Rəsulunun oğlu, səndən sonra imam və canişin kimdir?"

O, tələsik ayağa qalxdı, evə daxil oldu, sonra çiynində üç yaşlı bir uşaqla qayıtdı. Onun üzü on dörd gecəlik ay kimi parlayırdı.

Buyurdu: "Ey Əhməd ibn İshaq, əgər Allah dərgahında və höccətlərinin yanında xətir-hörmətin olmasaydı, bu oğlumu sənə göstərməzdim. O, Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* adaşı və həmkünyəsidir. O elə bir kəsdir ki, yer üzünü zülm və haqsızlıqla dolduğu kimi haqq və ədalətlə dolduracaqdır.

Ey Əhməd ibn İshaq, onun məsəli bu ümmət arasında Xızır *(əleyhissəlam)* və Zülqərneyn kimidir. Allaha and olsun, o elə bir şəkildə qeybə çəkiləcək *(onun elə uzun bir qeyb dövrü olacaqdır)* ki, həmin zaman ərzində yalnız o kəs həlak olmaqdan qurtuluş tapacaq ki, Allah-taala onu imamət inancında sabitqədəm və fərəcin tezləşməsi üçün duada müvəffəq etmişdir".

Əhməd ibn İshaq deyir: "Dedim: Ey mövlam, bir nişanə vardırmı ki, qəlbim onunla xatircəm olsun?"

O uşaq *(əleyhissəlam)* fəsahətli ərəb dilində danışaraq buyurdu: "Mən Allahın yeri üzərində Onun *(gizli)* saxladığı *(Bəqiyyətullah)* və düşmənlərindən intiqam alanam. Ey Əhməd ibn İshaq, gördükdən *(və müşahidə apardıqdan)* sonra əlamət axtarma!"

Əhməd ibn İshaq deyir: "Mən şad-xürrəm çölə çıxdım. Həmin günün sabahısı onun *(İmam Əskərinin)* yanına qayıdıb dedim: "Ey Allah Rəsulunun oğlu, mənim boynuma qoyduğun minnətin sayəsində şadlığım çoxdur. Bəs *(de görüm)* onun barəsində baş verəcək Xızır və Zülqərneynin malik olduğu bənzərlik *(sünnət)* nədir?"

Buyurdu: "Ey Əhməd, uzunmüddətli qeybdir".

Dedim: "Ey Allah Rəsulunun oğlu, onun qeybi uzun çəkəcəkdir?"

Dedi: “Rəbbimə and olsun ki, belədir. O yerə qədər ki, ona inananların çoxu *(dindən)* dönəcəklər. Yerdə qalan yalnız o kəsdir ki, Allah-taala ondan vilayətimiz üçün əhd-peyman almış, qəlbində iman yazmış *(qoymuş)* və Özü tərəfindən bir ruh vasitəsilə onu dəstəkləmişdir.

Ey Əhməd ibn İshaq, bu, Allahın əmrindən olan bir əmr, Onun sirrindən olan bir sirr, qeybindən olan bir qeybdir. Buna görə də sənə verdiyimi götür, onu gizli tut və şükür edənlərdən ol ki, sabah İlliyyunda *(Cənnətin ən ali mərtəbəsində)* bizimlə birlikdə olasan”.[28]

### *14 – İmam Məhdi (əleyhissəlam):*

Müqəddəs nahiyə tərəfindən İshaq ibn Yəquba sadir olan tövqidə qeyd etmişdir: “Qeybin baş vermə səbəbinə gəlincə, Allah-taala buyurur: ***“Ey iman gətirənlər! Sizə agah olunca xoşunuza gəlməyəcək şeylər barəsində soruşmayın”***.[29]

Həqiqət budur ki, atalarımın *(əleyhimussəlam)* hamısının boynunda dövrünün zülmkarlarının beyəti vardı. Amma mən çıxdığım zaman heç bir zülmkarın beyəti boynumda olmayacaq. Qeyb dövrümdə məndən faydalanmağın vəchinə *(necəliyinə)* gəlincə, buludların gözlərdən qeybə çəkdiyi günəşdən faydalanmaq kimidir. Həqiqətən də, ulduzlar səma əhlinə aman olduğu kimi mən də yer əhli üçün amanam. Sizə fayda verməyən bir şey haqqında sual qapısını bağlayın və özünüzü sizdən istənilməyən *(tələb olunmayan)* şeyləri öyrənməyə zəhmətə salmayın. Fərəcin tezləşməsi üçün çoxlu dua edin ki, o elə sizin fərəcinizdir”.[30]

---

[28] Kəmalud-din, c.2, s.384; İlamul-vəra, s.412; Muntəxəbul-əsər, s.228; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.188.
[29] Maidə, 101.
[30] Kəmalud-din, c.2, s.485; Ğeybətu əş-Şeyx ət-Tusi, s.177; İlamul-vəra, s.424; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.214.

İmama *(əleyhissəlam)* yönəlik dəyərli ayələrdən, həmçinin İmam Höccət haqqında Allah Rəsulu *(sallallahu əleyhi və alih)* və Əhli-beyt imamlarından *(əleyhimussəlam)* rəvayət olunan səhih, mütəvatir rəvayətlərdən bu qədər təfsilatlı qeyddən sonra İmam Məhdi və onun doğulması mövzusunda ziddiyyət, yaxud fikir ayrılığı, yaxud şəkk, ya da ictihada macal qalırmı? Bir halda ki, ağıl və ürf baxımından bu xəbər və hədislərin səhih olması qaçılmazdır. Həmçinin İmam Məhdinin doğulmamış olması da imkansızdır. Bu qədər açıq şəkildə buyrulanlardan sonra *(hələ də)* qane olmayan kəsə onun hal-hazırda doğulmuş olmasına inanması vacibdir. Əks təqdirdə, onun rəyini zibil səbətinə atmaq, həmçinin Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* dinindən çıxması gərəkdir. Çünki şərif hədisdə belə gəlmişdir:

Ğiyas ibn İbrahim İmam Sadiqdən, o da atalarından belə nəql edib ki, Allah Rəsulu *(sallallahu əleyhi və alih)* belə buyurmuşdur: “Kim övladlarımdan Qaimi inkar etsə, məni inkar etmiş kimidir”.[31]

[31] Kəmalud-din, c.2, s.412; İlamul-vəra, s.399; Muntəxəbul-əsər, s.492.

# BİRİNCİ FƏSİL

## *Birinci hissə: Qeyb dövrü (uzunmüddətli və qısamüddətli)*

## *İkinci hissə: Zühur (ən kiçik və ən böyük)*

# BİRİNCİ HİSSƏ

## QEYB DÖVRÜ (QISAMÜDDƏTLİ VƏ UZUNMÜDDƏTLİ)

Müsəlmanlar və xüsusilə də möminlər Elçinin *(sallallahu əleyhi və alih)* dəvətinin başlanğıcından bəri, islam hökmləri və şəriət təlimlərini birbaşa olaraq Elçinin *(sallallahu əleyhi və alih)* özündən əldə edirdilər. Ondan sonra pak, məsum imamların əli ilə mənimsədilər. Belə ki, hökmlərin birbaşa əldə edilməsində onlara mane olacaq heç bir şey yox idi. Ona görə də, möminlər, yaxud mömin sosial bazaya həmin hökmlərlə bağlı hansısa bir şübhənin yoluxması mümkün deyildi. Çünki o, məsum imam tərəfindən qaynaqlanırdı. Əgər şəriət hökmündə hansısa bir şübhə qarşılarına çıxmış olsaydı, onda birbaşa olaraq məsum imama çatdırmaqla həmin məsələnin doğrusunu asan şəkildə əldə etmiş olardılar. Çünki məsumların varlığı onların gözü qarşısındaydı. Belə olduqda isə, şəriət hökmünü tərəddüdsüz tətbiq etmək labüddür. Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* dönəmindən İmam Əskərinin *(əleyhissəlam)* zamanına qədər *(260-cı il)* möminlərin alışdığı durum bu cür olmuşdur.

Məhdinin *(əleyhissəlam)* imaməti dönəmində vəziyyət dəyişdi. Bundan öncə möminlər üçün məsum imamla birbaşa olaraq görüşmələri əldə edilən idi. Onlar imam vasitəsilə şəriət hökmlərini əldə edirdilər. Lakin sonra məsum imamı görmək çətinləşdi. Bu səbəbdən, şəriət hökmünü, xüsusilə də bu hökmə dəlalət edən aydın bir dəlil olmayan hökmləri – din alimi tərəfindən ictihad kimi – fəqihdən eşitdikləri zaman əksər müsəlmanların içinə şəkk-şübhə sızmağa başladı. Bu, möminlərlə əlaqədar yeni bir mərhələ idi. Onlar iki yüz altmış il

boyunca buna öyrəşməmişdi. Baxmayaraq ki, imamlar *(əleyhimussəlam)* öz əshablarını səfər və döyüşlər zamanı bu cür vəziyyətlərə adaptasiya olmaq üçün dözümlü olmağa hazırlaşdırırdı. İstisna bu idi ki, məsumla rahatlıqla əlaqə qurmaq mümkün və ən pis durumlarda olsa belə, ona müraciət etmək asan olurdu.

Məhdinin *(əleyhissəlam)* imaməti dövründə yaranmış bu yeni vəziyyətin, həmçinin modern mərhələnin yaranmasının ardınca, camaat bu mərhələyə alışqan olmadığına, həmçinin psixoloji olaraq özlərini buna hazır etmədiklərinə görə, həm də məsumla görüşə bilmədikləri və ortaya yeni çıxan islam hökmləri və məsələlərilə əlaqədar ona müraciət etmək imkanları olmadığından qısamüddətli qeyb dövrünün tərtibatı başladı. Bu dövr Məhdinin *(əleyhissəlam)* imamlıq və səfir təyin etməklə toplum idarəçiliyi dövrü idi. Halbuki səfirlərin məsələsi məsul və müttəfiq kəslərin zehninə yad bir şey olmamışdır. Çünki bundan öncə iki əskəri imamın *(on və on birinci imamlar)* nizamı bu barədə alışqanlıq formasında durmuşdu.

Odur ki, uzunmüddətli qeyb və İmamın *(əleyhissəlam)* gözlərdən gizli olması düşüncəsini tədricən qəbul etməkdən ötəri insanların hazırlaşdırılması başladı. Bu proses qısamüddətli qeyb şəraitinin tərtibatı və dörd səfirin təyini müddətində baş verdi.

*(Həmin dörd səfir aşağıdakı kəslər idi)*

***Birnci səfir:*** Osman ibn Səid Əmri – hicrətin 260-cı ili başlamış və 5 il müddətinə davam etmişdir;

***İkinci səfir:*** Onun oğlu Muhəmməd ibn Osman Əmri – 40 il müddətində olmuşdur.

***Üçüncü səfir:*** Əbülqasim Hüseyn ibn Ruh Nobəxti – 21 il müddətində olmuşdur.

***Dördüncü səfir:*** Əli ibn Muhəmməd Səmuri – hicrətin 329-cu ilinə qədər 3 illik müddətdə davam etmişdir.

Beləliklə, qısamüddətli qeyb dövrü altmış doqquz il, altı ay və on beş gün civarında davam etmişdir.[32]

Səfirliyin əsas hədəfi zehinləri uzunmüddəlti qeyb dövrünə hazırlamaq, həmçinin tədricən insanları İmamın *(əleyhissəlam)* gizliliyinə alışdırmaq olmuşdur. Eyni zamanda səfirliyin məqsəddə tutulması toplunun mənfəətinin ayaqda durmasına yönəlik olmuşdur. Xüsusilə də, imamlara *(əleyhimussəlam)* sadiq sosial baza istiqamətində olmuşdur. Həmin məsləhətlər İmamın uzaqlaşması və həyat arenasından gizlənməsi baxımından təbii olaraq gerçəkləşmişdir. Aşağıdakılar bunlardandır:

***Birinci:*** Hökmlərin şəxsən məsumdan əxz olunması *(imamların (əleyhimussəlam) dövründə olduğu kimi)*;

***İkinci:*** Birbaşa olaraq fəqih, yaxud məsumun *(əleyhissəlam)* səfiri ilə görüşmək *(fəqih, yaxud məsumla görüşən səfir)* – qısamüddətli qeyb dövrü;

***Üçüncü:*** Görüşmək, yaxud hökmləri fəqihdən əxz etmək *(məsumla (əleyhissəlam) görüşməyən fəqih)* – uzunmüddətli qeyb dövrü.

Əgər belə tədriclik olmasaydı, onda durum qarışıq olardı, yaxud vəziyyət pis nəticəyə səbəb ola bilərdi. Məsələn, Məhdinin *(əleyhissəlam)* varlığını mütləq şəkildə inkar etməyə yol açardı. Lakin məhz burada, imamların bu tədrici irəliləmə ilə bağlı hikməti qaynaqlanmışdır.

Qısamüddətli qeyb dövrü və uzunmüddətliq qeyb dövrünün başlanması ilə əlaqədar bu bəsit müqəddimədən və İmam Məhdi *(əleyhissəlam)* tərəfindən: "Rəhman, Rəhim Allahın adı ilə. Ey Əli ibn Muhəmməd Səmuri, Allah sənin barədə qardaşlarının əcrini böyük etsin ki, *(qarşıdakı)* altı gün ərzində öləcəksən. Buna görə də işini topla *(özünü ölümə hazırla)* və ölümündən sonra məqamını icra edəcək heç kəsə vəsiyyət etmə. Çünki

[32] İmam Mehdi ensiklopediyası, qısamüddətli qeyb dövrünün tarixi, Muhəmməd Sədr, s.416.

ikinci qeyb dövrü baş verəcəkdir. Zühur isə yalnız Allah-taala icazə verdikdən sonra olacaqdır. O, uzun bir müddətdən, qəlblərin qəsavət bağlamasından və yer üzü zülmlə dolduqdan sonra baş verəcəkdir. Tezliklə şiələrimin yanına *(məni)* gördüklərini iddia edən kəslər gələcəkdir. Bilin ki, kim məni Süfyaninin çıxışı və seyhətdən *(səmadan gələn çığırtıdan)* öncə gördüyünü iddia etsə, yalançı, iftiraçıdır. Uca və Əzəmətli Allahdan başqa heç bir güc və qüvvə yoxdur!”[33] – deyə, uzunmüddətli qeyb dövrünün başlanması ilə əlaqədar sadir olan tövqidən *(imza)* sonra İmam Məhdinin *(əleyhissəlam)* uzunmüddətli qeyb dövrünə yetişmək üçün yürütmüş oluğu proqramın axırıncı hissəsinə yetişirik. Hansı ki, bu dövrdə İmam Məhdi *(əleyhissəlam)* vəd olunan gün üçün ayırılıb gizli saxlanılan olmalıdır. Səfirlər yolu ilə xalqa yetişənlər vasitəsilə qısamüddətli qeyb dövrü İmam Məhdinin *(əleyhissəlam)* varlığınının isbatı üçün kifayət etmişdir. Habelə camaatın İmamın qeybə çəkilməsinə alışdırılması və onun gizli olması düşüncəsini asanlaşdırmaq naminə hər bir şəffaflıq vacib edilmişdir. Belə ki, bundan öncə onlar imamların zühur *(ortada olma, göz ilə görülmə)* dövrünün çağdaşı idilər və İmamla üz-üzə durmağa imkanları çatırdı.

İmam Məhdinin *(əleyhissəlam)* gizli olması tədricən baş vermişdir. Belə ki, bu zamanın əvvəlində onun gizli olması daha az olmuş və hər dəfə zaman keçdikdə, onun gizli olması daha da artmışdır. O həddə qədər ki, az qala dördüncü səfirin dövründə onun özündən savayı heç kəsdən imamı görməklə bağlı bir şey nəql olunmamışdır. Bu dönəm sona yaxınlaşdıqca, imamların *(əleyhimussəlam)* zühur dövrünün *(yəni onları aşkar şəkildə görən)* insanları sona çatdı *(dünyalarını dəyişmiş oldular)* və İmamın *(əleyhissəlam)* qeybinə, həmçinin onun hicab arxasından *(görünmədən)* idarəçilik düşüncəsinə alışıq olan

---

[33] Qısamüddətli qeyb dövrünün tarixi, Muhəmməd Sədr, s.415; İlamul-vəra, s. 417; Cənnətul-məva, s.318.

yeni nəslin ortaya çıxması başladı. Beləliklə, uzunmüddətli qeyb dövrü anlayışı və imamın tam şəkildə sosial bazadan gizlində olması zehni baxımdan kamil şəkildə hazırlanmış oldu.

Bu, hadisələrin cərəyan etməsi və gizlilik barədə tədricliyin təbii silsiləvi ardıcıllığı olduqca açıq-aydındır. Bununla yanaşı, İmam *(əleyhissəlam)* ümumi plan gedişatında rabitə saxlayırdı və buna Şeyx Müfidin *(h.336–413)* mərcəiyyətinə köməklik etməsini göstərmək olar. Nəzərə alaq ki, qısamüddətli qeyb dönəmindən sonra uzunmüddətli qeyb dövrünün başlanğıcında İmama aid məsul *(məsul, etibarlı)* mərcəiyyət olmuşdur *(yaxud İmam onu ilk mərcə kimi hesab etmişdir)*. O həddə ki, imanlı sosial baza üçün mərcə və din alimləri barədə etibarlılıq yaransın.

Bətnində diri körpəsi olan vəfat etmiş qadının hadisəsi ilə əlaqədar Şeyx Müfidin verdiyi fətvanın hekayəti tanınmış məşhur hekayətlərdəndir.[34] Belə ki, daha sonra İmam *(əleyhissəlam)* tərəfindən fətva düzəldilmişdi.

İraqda Qərəvilərdən biri belə qeyd edirdi ki, Şeyx Müfidin oturduğu yerə gəlib, ondan ölmüş, lakin bətnində diri körpə olan qadın barədə soruşdu. O sual verdi ki, qadın belə dəfn edilməlidirmi, yoxsa bətni yarılmalı və uşaq oradan çıxarılmalıdır? Şeyx cavab verdi ki, qadını elə bu cür dəfn edin. Həmin adam çıxıb gəldiyi kimi geri döndü. Yol əsnasında ardınca sürətlə gələn bir atlı gördü. Ona çataraq minikdən enib, dedi: “Ay kişi, Şeyx Müfid deyir ki, bu vəfat etmiş qadının qarnını yarın və uşağı çıxarın. Sonra isə dəfn edin”. Qərəvi bu düzəlişə riayət etdi. Bir müddət sonra Şeyx Müfidə baş verənləri xəbər verdi. Şeyx dedi ki, kimisə göndərməmişdir və şübhəsiz ki, atlı Sahibəzzəmanın *(əleyhissəlam)* özü olmuşdur. Odur ki, Şeyx öz evində oturub, çölə çıxmadı. Nəhayət, Sahibul-əmr *(əleyhissə-*

[34] Riayətul-İmamil-Məhdi *(əleyhissəlam)* lil-mərace və uləmail-əlam, Əli əl-Cuhrumi, s.61.

*lam)* tərəfindən ona belə bir tövqi gəldi: "Fətva vermək sizin üzərinizdədir. Bizim üzərimizdə olan isə sizi düzətmək və xətadan qorumaqdır". Odur ki, Şeyx Müfidin qayıdıb yenidən fətva minbərində əyləşməkdən başqa bir çarəsi olmadı.

Burada işarə etmək gərəkdir ki, hədəfimiz bu hadisədən ucadır. O isə, təqvalı təqlid mərcələri, zahid, əzəmətli alimlərin isbatıdır ki, onlar davamlı olaraq əsrin İmamı *(əleyhissəlam)* tərəfindən xüsusi inayət mövqeyində olmuşlar. İstər bu inayət və qoruma görüş şəklində, yaxud dəyər verməklə, yaxud təşəkkür ifadə etməklə, yaxud xeyir-dua etməklə, ya da yol göstərmək və istiqamətləndirməklə, yaxud da səhv və xətaların düzəldilməsilə olsun və s. Necə ki, İmam *(əleyhissəlam)* onun tərəfindən Şeyx Müfidə – Allah rəhmət eləsin – sadir olan yazının açıqlamasında işarə etmişdir. Belə ki, yazı əsnasında demişdir: "Şübhəsiz ki, biz sizi hesaba almaqda diqqətsiz deyilik *(sizi nəzarətsiz qoymamışıq),* nə də sizi yaddan çıxarmamışıq. Əgər belə olmasaydı, sözsüz ki, sizə bəla nazil olar və düşmənlər sizin kökünüzü kəsərdi".[35]

[35] Əl-İhticac lit-Təbərsi; Biharul-ənvar, c.53, s.175.

## İKİNCİ HİSSƏ

## ZÜHUR (ƏN KİÇİK VƏ ƏN BÖYÜK)

Əsrin vəlisi İmamın *(əleyhissəlam)* qeyb dövrü iki hissəyə – qısamüddətli və uzunmüddətli qeyb dövrünə bölündüyü kimi, onun zühuru da iki hissəyə – ən kiçik və ən böyük zühura *(müqəddəs fəcr)* bölünür.

Bu düşüncəni geniş izah etmək üçün vurğulayırıq:

Qısamüddətli qeyb dövrü baş verdi və şiələrin  həmin zaman məsum imamları *(əleyhissəlam)* ilə birbaşa bağlantısı vardı. Onlar İmamdan *(əleyhissəlam)* tam şəkildə ayrılmağa hazır deyildilər. Bu ona görə idi ki, onlar  məsum imamları *(əleyhissəlam)* ilə birbaşa rabitə olmadan necə yekdil fikirdə olmağı və birləşməyin necə mümkün olduğunu qavramırdılar. Habelə bilmirdilər ki, İslam hökmlərini, şəriət təlimlərini və göz önündə olduğu dönəmdə İmama müraciət etdikləri onlarla sair mövzuları necə tapacaqlar. Qeyb dövründə həmin mövzuları onlar özləri öz öhdələrinə götürməli idilər.

Qısamüddətli qeyb dövründə kimsə İmama yetişə bilmirdi. Lakin şiəninn İmamla əlaqə qurması dörd səfir vasitəsilə olurdu. Əks təqdirdə, camaat çaşqınlığa düşə bilərdi. Qısamüddətli qeyb dövrü ərzində – təqribən yetmiş il boyunca – özlərini buna öyrəşdirmişdilər. Həmçinin yeni bir nəsil doğuldu və uzunmüddətli qeyb dövrünə zehni baxımdan daxil olmağa hazır oldular.

Həmçinin başqa bir cəhətdən də doğrudur ki, insanların hazır olması və öyrəşməsi üçün qeyb mövzusunun tədrici yolla baş verməsi qısamüddətlilikdən uzunmüddətliliyə doğru baş verdiyi kimi, zühurla əlaqədar məsələ də ən kiçik zühurdan ən böyük zühura *(müqəddəs sübh)* doğrudur. Bunun mənası odur ki, ən kiçik zühur – baxmayaraq ki, bu əsnada insanlar Bəqiyyə-

tullahla *(ruhumuz ona fəda olsun)* birbaşa qarşılaşmayacaqlar – ən böyük zühurun müqəddiməsi sayılan bir sıra tutarlı hadisələrin ortaya çıxmasına şahidlik edəcək.[36] Bəzi rəvayətlərdə gəldiyi kimi, bunun nurlu günəşə bənzədilməsi – biz onlardan birinin kitabın əvvəlində qeyd etmişik – mümküdür. Bilirik ki, tamamən qürub etməzdən öncə yoxa çıxana və zülmət qaranlıq qərarlaşana qədər müəyyən vaxt ərzində günəşin şüaları qalır. Günəşin doğması da bu cürdür. Çünki bu, birbaşa olaraq baş vermir. Əksinə, öncə ağ xətt, sonra fəcr, sonra nuru solğun olur və günəş doğub səmada saçana qədər tədricən işığı artmağa başlayır. Höccət ibn Həsənin *(əleyhissəlam)* zühuru da bu cürdür. O, vilayət səmasında nurlu günəş kimidir. Ondan öncə ən kiçik zühurun baş verməsi labuddür ki, müqəddəs vücudunun kamil şəkildə zühur etməsi üçün yer üzü hazırlıq tapsın. Bu, onun qeyb dövründə gerçək şəkildə hasil olan şeydir. Elə isə onun uzunmüddətli qeybi qısamüddətli qeybdən öndə durduğu kimi, heç bir şübhə yoxdur ki, qısamüddətli qeybin yolu da mütləq şəkildə qısamüddətli zühur yolundan fərqli olacaq. Çünki ən kiçik zühuru ilə üfüqün nuru gələcək hadisələri təmsil edən halda yayılacaqdır:[37]

### ***Birinci: Fikirlərin yetişməsi, elm və texnologiyanın önə keçməsi***

Bəşəriyyət üçün böyük elmi qabiliyyət və heyrətamiz kəşflər ortaya çıxmışdır. Belə ki, insan təqribən yetmiş il öncə səfərə çıxarkən heyvanlara süvar olurdu. Halbuki indi avtomobil, qatar və təyyarədən istifadə edir. Həmin dövrdə insanın əlində telefon, mikrafon, televizor, radio, mobil smartfon və kompyüter yox idi. Lakin indi bütün bu cihazlara malikdir. Həmçinin o dönəmlərdə insan neft məhsullarından, habelə metal və mədən

---

[36] Meracur-ruh, Seyid Həsən Əbtəhi, s.57.

[37] Əl-Muslihul-ğeybi, Seyid Həsən Əbtəhi, s.144.

qaynaqlarından istifadə etmək bacarığında deyildi. Halbuki hal-hazırda neft və mədən resurslarından ən gözəl şəkildə istifadə etmək bacarığındadır. Bəlkə də on doqquzuncu əsrdən bu yana, insanın bu qısa müddət ərzində başarmış olduğu şeylər bütün cari yaşam ərzində bütün kəşfləri, bilgiləri və istehsal etmiş oluğu şeylərin hamısı ilə müqayisə olunmayacaq şəkildədir.

Ona görə də deyirik ki, bəşərin zəkasındakı bu ixtiralar və nəhəng irəliləyiş Höccətin *(əleyhissəlam)* zühurunun müqəddiməsidir. Çünki Sahibəzzəmana *(əleyhissəlam)* beyət etmək istəyən insanların bacarıqlarının və elmi imkanlarının olması gərəkdir ki, Bəqiyyətullahın *(əleyhissəlam)* təqdim edəcəyi mövzulara inansınlar və onları başa düşsünlər. Çünki rəvayətlərdə qeyd edildiyi kimi bir göz qırpımında məşriqdən məğribə gedəcəkdir *(yerini dəyişdirəcəkdir)*.

Muhəmməd ibn Əlidən *(əleyhissəlam)* rəvayət olunmuşdur ki, "füqəda" bir dəstədir ki, öz fərşlərindən yoxa çıxıb Məkkədə olarlar. Bu isə Allahın ayəsidir: ***"Harada olsanız, Allah sizin hamınızı gətirəcəkdir"***.[38]Onlar Qaimin *(əleyhissəlam)* əshabıdır.[39]

Həmçinin məlumdur ki, peyğəmbərlər, rəsullar və imamların *(əleyhimussəlam)* möcüzələrinin öz dövrlərinin qanun və elmlərinə uyğun olması vacibdir. Odur ki, İmam Məhdi Müntəzər *(əleyhissəlam)* elə bir zamanda zühur edəcək ki, orada texnoloji elmlər, silahlandırma öndə olacaqdır. Belə ki, kosmosda süni peyklər hərəkət edər və Mars planeti üçün, həmçinin simli, simsiz və internet əlaqələri vasitələri üçün insan ixtiralarının yetkin hala yetişər. İmamın *(əleyhissəlam)* Bari Allah tərəfindən möcüzəsi olacaqdır. Belə ki, rəvayətlərdə qeyd edilmişdir ki, bir yerdə danışdıqda yer üzünün sakinləri heç bir müasir cihazdan istifadə etmədən onu eşidəcəklər.

Əbu Cəfər Muhəmməd ibn Əlinin *(əleyhissəlam)* belə buyurduğu nəql olunmuşdur: "Seyhət *(hayqırtı, çığırtı)* yalnız Ra-

---

[38] Bəqərə, 148.
[39] Numani, "əl-Ğeybə", s.213; "Kəmalud-din və təmamun-nemət", s.654.

mazan ayında olacaqdır. Çünki Ramazan ayı Allah ayıdır. O isə Cəbrailin bu məxluqa hayqırtısıdır".

Sonra buyurdu: "Bir carçı səmadan Qaimin adı ilə *(onun adını çəkərək)* nida edər. Məşriq və məğribdə olan hər kəs *(bu nidanı)* eşidər. Elə bir uzanan qalmaz ki, durmasın, nə də ayaq üstə olan olmaz ki, oturmasın, nə də elə bir oturan olmaz ki, ayaqları üstə bu səsdən qorxmuş halda durmasın. Beləcə, Allah bu səsdən ibrət alıb *(onu diqqətə alıb) (bu dəvətə)* cavab verən kəsə rəhm edər. Belə ki, o səs Ruhul-əmin Cəbrailin səsidir".[40]

Dünyanın *(müxtəlif)* yerlərinə səs və görüntü çatdırmaq naminə elektronik zəka, inkişaf etmiş cihazlar, süni peyklər və sair şeylərdən istifadə edən alim və aydın kəslər Sahibəzzəmanın *(əleyhissəlam)* imkanlarına təslim olacaqlar. O kəs ki, səsi cihazsız, yaxud süni peyksiz çatdıracaq. Onlar onu xariqulada bir insan kimi qəbul edəcək, ona inanacaq və digərləri də mütləq onlara qoşulacaqdır.

Rəvayətlərdə zikr olunmuşdur ki, Höccət *(əleyhissəlam)* ərazi və qitələr arasında nəqliyat üçün buludlara minəcək.

Əbu Abdullah *(əleyhissəlam)* demişdir: "İmama izin verildiyi zaman Allahı Onun ibranicə olan adı ilə çağıracaq. Bundan sonra üç yüz on üç nəfər səhabəsi payız buludları kimi onun üçün hazır ediləcək. Onlar bayraqlar sahibidir. Onların içərisində elələri olacaq ki, gecə ikən yataqlarında yoxa çıxıb səhəri Məkkədə açacaqlar. Elələri də olacaq ki, gündüz vaxtı buludlarda yol getdikləri görüləcək. Onlar adları, atalarının adları, xüsusiyyətləri və nəsəbləri ilə tanınacaqlar".

Dedim: Sizə fəda olum, onlardan hansı birisi imanca ən yüksəkdir?

Buyurdu: "Gündüz vaxtı buludda yol gedənlər. Onlar itənlərdirlər. Bu ayə onlar barədə nazil olub: ***"Harada olursanız olun, Allah hamınızı*** *(bir araya)* ***gətirəcək"***.[41]

---

[40] Ğeybətun-Numani, s.170; Ğeybətut-Tusi, s.274.

[41] Ğeybətun-Numani, s.213; Kəmalud-din və təmamun-nemət, s.672; Muntəxəbul-əsər, s.476.

Təbiidir ki, ağıl sahibləri və təyyarələr, süni peyk və raketlər düzəldən alimlər məntəqələr arası öz əshabı ilə buludlara süvar olan İmamı *(əleyhissəlam)* müşahidə etdikdə ona təslim olacaq, *(qarşısında)* kiçik düşmüş halda diz çökəcəklər.

Bunu belə əsaslandırmaq olar ki, bu cür düşüncə və elmi kəşflər bəşərə İmam Bəqiyyətullahın möcüzələrini dərk etmək bacarığına çatmaq imkanı yaradacaq ki, bunu təbii olaraq etmişdir *(daha heç bir texniki vasitədən istifadə etməmişdir)*. Ya da Allah-taala bu elmi fikirləri həmin dövrdə böyük zühuru *(Müqəddəs sübh)* qarşılamağa *(və qəbul etməyə)* hazır olması üçün yetişkin hala gətirəcəkdir.

***İkincisi: İnsanların İmamdan (əleyhissəlam) asılı olması və adının dildən-dilə dolaşması***

Bu günlərin bizim üçün alışılmış hala gələn işlərdən biri olması – bu zaman kəsimini vurğulayırıq – budur ki, əksər insanlar sıxıntılara tuş gələrkən və özlərini böyük və təhlükəli hadisələrlə üz-üzə qaldıqlarını gördükdə İmam Məhdinin *(əleyhissəlam)* məsələsi və zühur əlamətlərinə qarşı çox önəm göstərirlər. Həmçinin ümid işığının onlara bəxş etdiyi, yaxın, ya da uzaq gələcəkdə baş verəcəklərə dair bir az işıq saçmasından paylarına düşən şeylərin axtarışını aparırlar.

Bu zaman kəsimi ərzində bir sıra yazıçı və müəlliflər görürük ki, əllərində olan birbaşa buyurulmuş kəlamlardan *(nəslərdən)* başa düşülməsi onlara müyəssər olanlarla uyğun gələn hadisələrin gələcəyini bəlirləmək üçün böyük səylər sərgiləyir və bu aşkar rəğbətə uyğun zəhmət çəkirlər.

Diqqət edirik ki, İmam Məhdiyə *(əleyhissəlam)* yönəlik xüsusi bablar və kitablar birinci islami dövrlərdə yalnız hədislərin nəqlinə istinad etməklə kifayətlənirdi. Sonrakı dövrlərdə ona kəlami münazirələrin əsası əlavə oldu. Ardınca irfan və təsəvvüf ünsürü əlavə edildi... Axırıncı zaman kəsimində bu mövzuda əksər islam ölkələrində onlarla kitablar və məqalələr çıxmışdır. Onlardan az olmayan sayı sitat gətirmə, münazirə üslubunu keç-

məyə və təhlil, fəhm və idrak üslubuna etimad etməyə çalışmışdır. Tələb olunan da budur... Məsələ yalnız şiələrlə məhdudlaşmır. Əksinə, hətta sair tayfa və məzhəblərə də aiddir *(onlar da bu yolda kifayət qədər zəhmət və səy göstərməyə çalışmışlar)*.[42]

Müqayisə üçün, bu əsrdəki şiələr öncəki nəsildən Sahibəzzəmana qarşı diqqət və xatırlamaq baxımından daha çoxdur. Belə ki, İranda az bir zaman öncə "Nüdbə duası" üçün bircə yığıncaq belə yox idi.[43] Amma bu gün ev dua məclisləri başlamış və müqəddəs adını anan böyük məclislər halına gəlmişdir. Həmçinin onun *(əleyhissəlam)* varlığının isbatı barədə kitablar tərtib edilir, başqa bir təzahür həddinə çataraq, şərafətli doğum günündə bayram təşkil etməklə orada İmamın adı zikr olunur. Bir sözlə, insanların diqqətini çəkəcək, hətta ümumi kəslər üçün yayğın və müqəddəs adını bildirəcək hala gəlmişdir.

Höccətin *(əleyhissəlam)* adlarının və xüsusiyyətlərinin bu şəkildə mədrəsələr, məscidlər, küçələr, yığıncaqlar, ümumi insanlar arasında yayılması Bəqiyyətullahın yer üzərində nurunun fəcrinin doğmasına dəlil deyilmi? Digər tərəfdən, biz fərəhlənir və sevinirik ki, aləmə şölə saçan müqəddəs sübhün işığının üzə çıxdığı zamanda yaşayırıq. Həm də ümid edirik ki, gözlərimiz nuranı zühurunun camalı sayəsində zövq duyacaqdır.

***Üçüncüsü: Aləm sabit (birləşmiş və təkallahlı) dünya hökuməti axtarışındadır***

Tarixə müraciət etsək, görərik ki, birləşmiş ümmətlərin quruluş təşkili iki böyük dünya müharibəsinə gətirib çıxarmışdır:

---

[42] Bu sahədə kitablardan rastlaşdığım sonuncusu cumhurdan olan birinə aiddir: Əbdüləlim Əbdüləzim Bəstuniyə aid araşdırma. O, iki cilddən ibarətdir. Birincisi "əl-Məhdi əl-Muntəzər", digəri isə "əl-Məusuatu fi əhadisil-Məhdi" adı altındadır... Baxmayaraq ki, araşdırmada çoxlu xəta, səfsələr və bir sıra təəssübkeş fikirlər vardır. O, Məkkədəki "Daru İbn Həzm"-in nəşrindən və Təhamə kitab evinin yayımındandır. Birinci nəşr, h.1420-m.1999.

[43] Əl-Muslihul-ğeybi, Seyid Həsən Əbtəhi, səh.147.

Birinci və ikinci. Dünya milyonlara çatmış insanların canlarına dəyən irihəcmli itkiləri gördükdən sonra liderlər bu cür bir quruluşun təşkili barədə düşünmüşlər ki, hətta əgər dövlətlər və xalqlar arasında müharibəni xəbər verəcək dünyəvi problemlər ortaya çıxdıqda cəmiyyət müdaxilə etsin, həmçinin müharibə ortaya çıxmadan *(vəziyyəti)* dəyişdirmək üçün bu durumu maarifləndirmək naminə toplantı keçirtsin.

Müsəlmanlar səviyyəsində bizim əsrimizdəki kimi zaman olmamışdır ki, Məkkədə İslam dünyasının əlaqəsi təşkil olunsun. Belə ki, hər il bir dəfə alimlər toplansın... Əlavə olaraq, ərəb dövlətləri cameəsi kimi çoxlu dünya quruluşları, tərəfkeşsiz toplumlar və s. olsun.

Bu düşüncə və dövlətçilik quruluşlarının təşkili aləmin əmin-amanlıq, stabillik və ədalət yaradacaq tək bir dünya hökümətinə ehtiyac duyduğunu göstərir. Bu cür cəmiyyətlərin təşkili və belə bir quruluşa ehtiyac duymaq İmam Məhdinin *(əleyhissəlam)* dünya hökümətinə duyulan zəruri ehtiyacla bağlı əməl və düşüncələr anlamına gəlmirmi?

Bu isə müqəddəs sübhün doğuşuna ən kiçik zühur üçün aydın bir dəlildir... Biz ən yüksək səsimizlə "Ya Sahibəzzəman! Həqiqətən, aləm sənin dünya hökümətinin intizarındadır" – deyə nida çəkirik.

***Xatırlatma:***

Biz "ən kiçik zühur" dedikdə müqəddəs zühurun vaxtını təyin etməyi nəzərdə tutmuruq. Allaha pənah! Çünki onu yalnız Allah-taala bilir. Bİz sadəcə bu təcəlli və aşkarda olanların müqəddəs zühurunun başlanğıcı ola bilməsini deyirik. Ola bilər ki, heç belə də olmasın. Ola da bilər ki, onun ardınca zülmət qaranlıq gəlsin. Bu o deməkdir ki, əmrin hamısı ilahi iradənin altındadır və Allah-taala istədiyini edəndir.

# İKİNCİ FƏSİL:

# ZÜHURUN ÜMUMİ ƏLAMƏTLƏRİ

***Birinci hissə: Zühurun ümumi əlamətləri***

***İkinci hisssə: Tarix baxımından öncədən verilmiş qəti xəbərlər***

# BİRİNCİ HİSSƏ

## ZÜHURUN ÜMUMİ ƏLAMƏTLƏRİ

Bəşəriyyətin, xüsusilə də İslam ümmətinin müqəddəs sübh ortaya çıxanadək, həmçinin Peyğəmbərdən "Məhdi *(əleyhissəlam)* yer üzünü zülm və haqsızlıq dolduğu kimi haqq-ədalətlə dolduraqcaqdır" – deyə nəql olunan mütəvatir hədisdən nəticə çıxararaq, çətin və sərt zülm, sitəm, sapqınlıq durumlarından keçməsi labüddür. Şərafətli rəvayətlərə müraciət etdikdə görürük ki, orada dövrün çətinliyi və fəsadı mütləq şəkildə qeyd olunmur. Əlavə olaraq, müəyyən hadisələrə də işarə edilmişdir... Bu prinsipdən çıxış edərək, bir neçə məsələni xülasələşdirə bilərik:

***1 – Yer üzünün zülm və haqsızlıqla dolmasına dəlalət edən xəbərlər***

Bu, əhatəli bir məzmundur, bəlkə də rəvayətlərin mütəvatir olanıdır.[44] Vəd olunan gün Məhdinin *(əleyhissəlam)* zühurundan öncə yer üzünün zülm və haqsızlıqla dolacağını açıq-aydın şəkildə bildirən nəss formasındadır.

***2 – Fitnələrin mövcud olması və onların hürkütücü həddə qədər cərəyan edib artması***

Əbu Abdullah Sadiq *(əleyhissəlam)* uzun bir hədisin gedişatında "azdırıcı, qorxunc fitnələrdən"[45] söz açmışdır. Həmçinin İmam Cavaddan *(əleyhissəlam)* rəvayət olunmuşdur ki, belə buyurmuşdur: "Qaim *(əleyhissəlam)* insanlar güclü qorxuya düçar

---

[44] Bax: Bəşarətul-İslam, s.18.
[45] Məusuətul-Mehdi tarixul-ğeybətil-kubra, s.242.

olduqları, zəlzələlər və fitnələrin baş verdiyi, insanlara bir bəla üz gətirdiyi, ondan əvvəl isə taunun baş verdiyi bir zamanda, ərəblər arasında güclü döyüş baş verdiyi, insanlar arasında güclü ixtilaf baş qaldırdığı və dinlərində parçalanıb hallarının dəyişildiyi bir zamanda qiyam edəcək" *(Hədisin ardı vardır)*.[46]

Fitnənin bir sıra mənaları vardır. Biz onlardan aşağıdakıları qəsa şəkildə qeyd edirik:

– İmtahan, sınamaq, incələmək;
– Küfr, azğınlıq, günah;
– Camaatın düşüncələrdə fikir ayrılığına düşməsi;
– Qətl və camaat arasında döyüş əsnası baş verənlər.

***3 – Zamanın çətinliyindən və canın şiddətli sıxıntısından dözümsüzlüyə dəlalət edən xəbərlər***

Onlardan bəziləri aşağıdakılardır:

Əbu Abdullah Sadiqdən *(əleyhissəlam)* belə nəql olunmuşdur ki, qeyb dövründəki möminlər şiddətli fəqirlik, uzun çəkən bəla, narahatlıq və qorxuya qatlanacaqlar.[47] Belə ki, bir adam qardaşının qəbrinin yanından keçərək "Ey kaş onun yerinə mən olaydım" – deyər. Aydındır ki, narahatçılıq və ölüm təmənna etmək yolundan sapmış cəmiyyət içərisindəki fərdin başına gələn müşkül və çətinliklər görməyin *(yaxud bu şəraitdəki zehniyyətin)* nəticəsidir.

***4 – Çaşqınlıq, düşüncə və ideologiyadakı xaosun meydana çıxmasına dəlalət edən xəbərlər***

Məsələn, İmam Əmirəlmöminindən *(əleyhissəlam)* İmam Məhdi *(əleyhissəlam)* barədə danışarkən belə buyurduğu rəvayət olunmuşdur: "Çaşqınlıq və qeyb baş verəcək, orada qövmlər yolunu azacaq və sairləri isə hidayət tapacaqlar".[48]

---

[46] Ğeybətun-Numani, s.180; Biharul-ənvar, c.52, s.231.
[47] Mausuətul-Mehdi yarixul-ğeybətil-kubra, s.245; Muntəxəbul-əsər, s.434.
[48] Ğeybətun-Numani, s.104; əl-mausuəh, s.246.

Burada nəzərdə tutulan "heyrət" *(çaşqınlıq)* ifadəsinin bir neçə cəhəti vardır. Məsələn, ümmət içərisində adi fərdi yolundan azmağa təşviq edəcək nadanlıq, ayrılıq, düşüncə baxımından yönəlik batil cərəyanların nəticəsi sayılan dini ideologiyada olan çaşqınlıq... Yaxud İmam Məhdinin *(əleyhissəlam)* özü barədə olan çaşqınlıq.[49] Bu mənada ki, onun qeyb dövrünün uzun çəkməsi camaatı İmamın şəni barədə şəkkə və ixtilafa, yaxud qeyb dövründə başçısız, istiqamətləndirici və idarəçi olmadan vacib cihad haqqında çaşqınlığa düşməsinə səbəb olar.

***5 – Hərb və qətliamlara dəlalət edən xəbərlər***

Bir sıra şərafətli hədislər zühur əsrində olan siyasi vəziyyəti xarakterizə edir. Belə ki, həmin dövrdə stabillik əldən verilər, hərb və qətllər artar: "Bu əmrdən öncə "buyuh qətl" olacaq... Deyildi ki, "buyuh" nədir? Buyurdu: "Sakitləşməyən *(süstləşməyən)* davamlılıq".[50]

Bir sıra rəvayətlər isə hərb və döyüşləri yer üzünün üçdə ikisinin gedəcəyi ilə xarakterizə edir. Əmirəlmöminin *(əleyhissəlam)* buyurmuşdur: "Məhdi yer üzünün üçdə biri qətlə yetirilməyənə, üçdə biri ölməyənə və üçdə biri qalmayana qədər çıxmayacaq".[51]

Bu xəbərlərin əlamətini başqa cür də gözdən keçirmək mümkündür. Çünki indiki zamanda rəvayət terminologiyası ilə deyil, bir sıra bilgi və terminlərlə uyğun gəlir. Məsələn, görünüşü bu cür bənzətmək olar: Fikri sapqınlıq, ictimai inhiraf, əxlaqi pozğunluq, iqtisadi bərbadlıq, siyasi azğınlıq və s. Ola bilər, təfsilatla buna işarə edən ən üstün şey elə Rəsulun *(sallallahu əleyhi və alih)* hədisidir.

İbn Abbasdan belə rəvayət olmuşdur: "Biz Allah Rəsulu *(sallallahu əleyhi və alih)* ilə birlikdə "vida həcci"ndə həccə get-

---

[49] Bax: Bəşarətul-İslam, s.86; Biharul-ənvar, c.52, s.228.
[50] Əl-Muməhhidun lil-Məhdi, s.49; Biharul-ənvar, c.52, s.182.
[51] Ayətullah Sədr, "əl-Məhdi", s.198; Yəumul-xilas, s.564.

dik. Allahın Rəsulu əli ilə Kəbənin qapısının halqasından yapışdı, sonra üzünü bizə tutub dedi:

“Sizə Qiyamətin əlamətləri haqqında xəbər verimmi?”

Həmin vaxt camaat arasında Peyğəmbərə daha yaxın durmuş Salman Farsi dilləndi: “Ey Allahın Rəsulu! Bəli, xəbərdar et!”

Peyğəmbər buyurdu: “Həqiqətən də, namazı korlamaq, şəhvətlərə uymaq, nəfsi istəklərə meyl etmək, əmlak sahiblərini böyütmək və dini dünyaya satmaq Qiyamətin şərtlərindəndir. Belə bir zamanda duz suda əridiyi kimi, mömինin ürəyi də əriyib öz içində həll olar. Çünki mömin xoşagəlməz işləri gözü önündə görər, amma onu dəyişməyə gücü çatmaz”.

Salman dedi: “Ey Allah Rəsulu, yəni bunlar doğrudanmı baş verəcək?!”

Allahın Rəsulu buyurdu: “Bəli, ey Salman, and olsun O kəsə ki, canım Onun əlindədir, bu işlər olacaq! Həmin vaxt xalqa zülmkar əmirlər, fasiq vəzirlər, sitməkar icra başçıları, xəyanətkar müdirlər idarəçilik edər”.

Salman dedi: “Ey Allah Rəsulu, Bunlar doğrudanmı baş verəcək?”

Allahın Rəsulu buyurdu: “Ey Salman, and olsun o Allaha ki, canım onun əlindədir – bəli, olacaq! Belə bir şəraitdə pis və nadürüst işlər *(xalq arasında)* ləyaqətli iş hesab olunar; gözəl, bəyənilən işlərə isə pis baxılar. Xəyanətkar adam əmanətdar kimi tanınar, əmanətdar kəsə isə xain deyilər. Yalançı adam təsdiq olunar, düz danışanı isə yalançı hesab edərlər”.

Salman dedi: “Bunlar hökmən olacaq işlərdir, ey Allahın Rəsulu?!”

Peyğəmbər buyurdu: “Bəli, ey Salman, and olsun O kəsə ki, canım Onun əlindədir! O zaman qadınlar kişilərə ağalıq edərlər. Kənizlərlə *(mühüm siyasi işlərdə)* məşvərət edərlər. Uşaqlar minbərə çıxıb xütbə oxuyar. *(Xalqa təbliğat işlərini bu cür təcrübəsiz, savadsız adamlar aparar)* Yalan danışmaq *(bir fənd bilinib)* zərif işlərdən hesab olunar. Zəkat vermək zorla alınan bac

hesab edilər. Qənimət isə *(beytül-maldan, xalqın büdcəsindən oğurlanan, güc yetən hər bir şey)* qazanc sayılar. İnsanlar ata və analarına cəfa edər, dostları ilə isə mehriban davranar. Göydə quyruqlu ulduz peydə olar".

Salman dedi: "Ey Allahın Rəsulu, bu işlərin hamısı olasıdır?"

Peyğəmbər buyurdu: "Bəli! And olsun O kəsə ki, canım Onun əlindədir, bu işlər olacaq! Ey Salman! O zamanda qadınlar ərləri ilə birlikdə *(evdən qıraqda)* müştərək ticarətlə məşğul olarlar. Yağış yayda yağar. Şəxsiyyətli, böyük insanlar daim qəzəbə, qeyzə tuş gələrlər, kasıb adamlar təhqir olunar. O zamanda bazarlar bir birinə yaxınlaşar. Alış-satış mərkəzləri çox gileylənər, şikayət edər: Biri deyər, "mən bir şey satmamışam", o birisi deyər, "mən xeyir götürmədim". O vaxtda görərsən ki, bütün xalq yalnız Allahdan gileylənir, Onu qınayır".

Salman dedi: "Ey Allahın Rəsulu, belə işlər doğrudanmı olasıdır?"

Peyğəmbər buyurdu: "Bəli! And olsun O kəsə ki, canım Onun əlindədir, bu işlər olasıdır!

Ey Salman! O zamanda xalqa elə kəslər hökumət edər ki, əgər *(xalq kiçik hesab ediləcək hüququnu müdafiə etmək istəsə, azadlıq qoxusu gələn)* bir kəlmə dilinə gətirsələr, o saat onları öldürərlər. Əgər sükut etsələr *(və dillənməsələr),* mal və canlarını istədikləri kimi xərcləyərlər. Onların zəhmətini mənimsəyər, hörmətlərini ləkələyər və qanlarını axıdarlar. Onların qəlbləri xovf və dəhşətlə dolar. Sən onları ürkək, xoflu, dəhşətə salınmış və qorxmuş görərsən".

Salman dedi: "Ey Allah Rəsulu, bu mütləq baş verəcəkdir?"

Peyğəmbər buyurdu: "Bəli, canım əlində olan kəsə and olsun, ey Salman. Həmin vaxt məşriqdən bir şey, məğribdən başqa bir şey gətirilər. Bu vasitə ilə mənim ümmətimi rəngə salarlar. Ey vay, ümmətimin zəiflərinə ki, bu sitəmkarların əlindən çəkəcəklər! Ey vay, onlara ki, Allahdan görəcəklər! Nə kiçiklərə rəhm etməyəcəklər, nə də ağsaqqallara hörmət qoyma-

yacaqlar. Xəta etmiş, şəxsi işdə pislik etmiş adamın günahından keçməyəcəklər. Onların bütün danışıqları söyüş və murdarlıq olar. Zahirən adam şəklindədirlər, amma qəlbləri şeytan qəlbidir".

Salman dedi: "Ey Allahın Rəsulu, bu işlər doğrudanmı baş verəcək?"

Peyğəmbər buyurdu: "Bəli! And olsun O kəsə ki, canım Onun əlindədir, bu işlər olasıdır!

Ey Salman! O zamanda kişilər kişilərlə kifayətlənər, qadınlar qadınlarla. Əhli evdə cariyənin qeyrətini çəkdiyi kimi oğlan uşağının də qeyrəti çəkilər.[52] Kişilər özünü qadınlara, qadınlar da özlərini kişilərə bənzədərlər. Qadınlar yəhərə süvar olarlar. Ümmətimdən olan belə kəslərə Allahın lənəti olsun".

Salman dedi: "Bunlar mütləq baş verəcəkmi, ey Allah Rəsulu?"

Peyğəmbər *(sallallahu əlehi və alih)* buyurdu: "Bəli, canım əlində olan kəsə and olsun! Ey Salman, həmin vaxt məsihi və yəhudilərin məbədləri zinətləndirildiyi kimi məscidlər də bəzədilər. Müshəflər bər-bəzəkli olar, minarələr uzadılar, *(namazda camaatın durduğu)* səflər çoxalar, ancaq qəlblər bir-birindən qəzəbli, dillər isə müxtəlif olar".

Salman dedi: "Bunlar baş verəcəkmi, ey Allah Rəsulu?"

Peyğəmbər buyurdu: "Bəli, canım əlində olana and olsun! Ey Salman, həmin vaxt ümmətimin kişiləri qır-qızılla bəzənər, ipək qumaşdan libaslar geyinər və pələng dərilərini kölgənəcək edərlər".

Salman dedi: "Bunlar baş verəcəkmi, ey Allahın Rəsulu?"

Peyğəmbər buyurdu: "Bəli, canım əlində olana and olsun! Ey Salman, həmin vaxt sələmçilik ortaya çıxar, camaat bir-bir-

---

[52] Yəni qadın ər evində saxlanılıb qorunduğu kimi, cavan oğlan uşaqlarını da o cür evdə saxlayar, istifadə edər, başqa kişilərin gözündən uzaq tutar və qeyrətini çəkərlər. – müt.

ləri ilə müddətli və rüşvətli iş görərlər. Din *(kənara)* qoyular və dünya ucaldılar".

Salman dedi: "Bunlar baş verəcəkmi, ey Allah Rəsulu?"

Buyurdu: "Bəli, canım əlində olana and olsun! Ey Salman, həmin vaxt təlaq çoxalar, ancaq hədd icra olunmaz. Halbuki onlar Allaha heç bir şeylə zərər yetirə bilməzlər".

Salman dedi: "Bunlar baş verəcəkmi, ey Allah Rəsulu?"

Buyurdu: "Bəli, canım əlində olana and olsun! Ey Salman, həmin vaxt müğənni qadınlar, musiqi alətləri aşkar olar. Ümmətimin pisləri onlara başçılıq edər".

Salman dedi: "Bunlar baş verəcəkmi, ey Allah Rəsulu?"

Buyurdu: "Bəli, canım əlində olana and olsun! Ey Salman, həmin vaxt ümmətimin varlıları gəzinti, orta təbəqəsi ticarət, fəqirləri isə riyakarlıq və şan-şöhrət naminə həccə gedər. Həmin vaxt insanlar Allahdan başqası barədə dərin düşüncəyə qapılarlar. Zinadan doğulan uşaqlar çoxalar, Quranı ğina ilə *(musiqi janrında)* oxuyarlar, dünyanın üstünə düşərlər".

Salman dedi: "Bunlar baş verəcəkmi, ey Allah Rəsulu?"

Buyurdu: "Bəli, canım əlində olana and olsun. Ey Salman, həmin vaxt hörmətlərin yırtılıb aradan getdiyi, günah işləri əldə etmək, pislərin yaxşılar üzərinə müsəllət olduğu, yalanı yaydıqları, inadkarlığın zahir olduğu, fəqirliyin üzə çıxdığı, əyin-baş barədə bir-birinə təkəbbürlük göstərdikləri, yağışın başqa bir mövsümdə onlara yağdığı, musiqi alətlərinin gözəl hesab edildiyi, yaxşılıqlara əmr və pisliklərdən çəkindirməyin pis sayıldığı, hətta möminin həmin dövrdə ümmətin ən zəlili olduğu, qarilər və ibadətkarlarının öz aralarında olanlarla bağlı qarşılıqlı danlaq nümayiş etdirdikləri bir dövrdür. Belə şəxsləri göylərin mələkutunda bu cür səslərlər: Pisliklər, nəcislər!"

Salman dedi: "Bunlar baş verəcəkmi, ey Allah Rəsulu?"

Buyurdu: "Bəli, canım əlində olana and olsun! Həmin vaxt zəngin fəqir üçün ehtiyat eməz. O həddə olar ki, dilənçi camaat

arasında iki cümə arasında bir şey istəsə, onun əlinə bir şey qoyacaq kimsə tapılmaz".

Salman dedi: "Bunlar baş verəcəkmi, ey Allah Rəsulu?"

Buyurdu: "Bəli, canım əlində olana and olsun! Ey Salman, həmin zaman "rubiyzə" dil açıb danışar".

Salmen dedi: "Atam-anam sənə fəda, ey Allah Rəsulu, "rubiyzə" nədir?

Buyurdu: "Ümumi kütlənin işi barədə danışmayan birisi dil açıb danışacaqdır *(ləyaqətsiz və şərəfsiz insanlar xalqın adından danışacaqlar)*. Onlar bu vəziyyətdə çox qalmazlar..." *(Hədisin ardı vardır)*.[53]

Bu, canıma and olsun ki, bizim olduğumuz və ömür sürdüyümüz fisq və azğınlıq çağlarında daim müşahidə etdiyimizdir. Biz hiss və əyani surətdə bundan xəbərdarıq. Odur ki, belə bir durumdan bizi xəbərdar etdiyinə görə Allahın salavatı olsun sənə, ey Allah Rəsulu! Bütün bunları aradan aparıb, onu haqq-ədalətlə dəyişdirəcəyinə görə Allah-taalanın salamı olsun sənə, ey İslamın Məhdisi!

Qeyd etdiyimiz bu xəbərlər birbaşa hadisələrə işarə etmədən, dövrün fəsadına mütləq şəkildə dəlalət edir. Bilmək gərəkdir ki, sınaqlar dönəmi zühurun önündə gəlir. Yaxud bir sıra hədis və rəvayətlərin izahına əsasən, zülm əsri ədalətdən irəli keçəcək. .. İşarə etmək və bildirmək lazımdır ki, bu xəbərlərin bəzisinin Qiyamətdən öncəyə bağlı olması anladığımız şeylərə heç bir zərər vermir. Çünki Məhdinin zühurundan öncə baş verənlər, elə Qiyamətin qopacağından öncə baş verənlərdir. Həm də elə də zəruri deyil ki, Qiyamətin şərtləri *(əlamətləri)* ondan öncə dərhal baş vermiş olsun *(yaxud bu şərtlər baş verər-verməz dərhal Qiyamət qopsun)*.

---

[53] Bəşarətul-İslam, s.25 ; Muntəxəbul-əsər, s.432.

# İKİNCİ HİSSƏ

## TARİX BAXIMINDAN ÖNCƏDƏN XƏBƏR VERİLMİŞ QƏTİ XƏBƏRLƏR

Zühurun bütün əlamətləri gələcəklə əlaqədar xəbərləri özündə ehtiva edir... Gələcəkdən xəbər vermək isə yalnız Əllamul-ğuyub *(qeybləri bilən)* Allah tərəfindən öyrədilmə yolu ilə mümkün ola bilər. Bu yol ya vəhy, yaxud ilham vasitəsilədir, ya da vasitə, yaxud vasitələrlə onun əlaqəsi olsun. Necə ki, Peyğəmbər *(sallallahu əleyhi və alih)* və ondan sonrakı məsum imamların *(əleyhimussəlam)* xüsusiyyəti bu əsasda olmuşdur. Bu, İslam əqidəsində sabit və möhkəmdir. Allah-taala Öz Kitabında bu barədə buyurmuşdur: "*(Allah)* ***qeybi biləndir və öz qeybinin sirlərindən heç kimi agah etməz. Yalnız seçdiyi rəsuldan başqa!***"[54]

Ona görə də, məsum şəxs *(əleyhissəlam)* gələcəkdən xəbər verməyə malikdir, odur ki, gələcəkdə baş verəcəkdən xəbər vermək ona mümkündür.

Ancaq zühurdan öncə, uzun zaman öncə olsa belə, baş verəcəyinə dair rəvayətlərin xəbər verdiyi hadisə və əlamətlərə gəlincə, onları da zühur nişanələrindən bilmək istəsək, diqqət etməliyik ki, Peyğəmbər və imamlar *(əleyhimussəlam)* vəhy və ya ilham vasitəsilə xəbərdar olduqları böyük və diqqət olunası bəzi hadisələri zühurla əlaqələndirmişlər ki, həmin hadisələrin müasiri olan nəsil və bu cərəyanlardan sonra yaşayanlar bu xəbərlərin doğruluğuna *(həmçinin məsumlar tərəfindən öncədən deyilməsinə)* inansınlar. *(Həmçinin digər hadisələrin də baş verəcəyinə arxayın olsunlar. Digər cərəyanların və nəhayət,*

[54] Cinn, 26, 27.

*İmam Məhdinin zühurunun intizarında olsunlar. Başqa ifadə ilə desək, zühurla əlaqələndirilən nişanələr nə qədər çox gerçəkləşərsə, bu xəbərləri görüb eşidənlər onların doğruluğundan hələ baş verməmiş digər xəbərləri doğruluğunu anlayacaq. – müt.)* Rəvayətlərin xəbər verməsinə əsasən, zühura yaxın baş verəcək hadisələrə gəlincə isə, onun zühura dəlalət etməsindəki sirr budur, Allah-taala bəzi hadisələri ortaya çıxarır ki, özəlliklə zühura nişanə olsun, həmçinin xalqın, ələlxüsus müqəddəs sübhün səbirsizliklə intizarında olan xalis möminlərin nəzərini ona cəlb etsin. Deməli, rəvayətlərdə qeyd olunan bəzi əlamətlər zühura dəlalət edən aydın xəbərlərin bəzisini özündə ehtiva edir. Bir tərəfdən, Peyğəmbər *(sallallahu əleyhi və alih)*, yaxud imamların *(əleyhimussəlam)* söyləmiş olduğu, həmçinin hədis əhlinin öz kitablarında qeyd etdiyi bəzi xəbərlər həmin hadisə baş verməzdən öncə olub. Sonra tarix boyu praktiki olaraq bu hadisə baş verir və oradan əminliklə bilirik ki, bunlar hadisələr baş verdikdən sonra qaynaqlarda yazılmamışdır... Bu özü həmin rəvayətlərin doğru olmasına ən böyük dəlildir. Əlavə olaraq, Məhdinin *(əleyhissəlam)* isbatına təsiri vardır. Rəvayətlərdə qeyd olunan xəbərlər arasından baş vermiş, həmçinin tarixdə sübuta yetmiş bəzi hadisələrin misalından qeyd edirik:

***Birinci öncədən xəbər vermə:***

Peyğəmbər *(sallallahu əleyhi və alih)* və imamların *(əleyhimussəlam)* Bəni-Abbasın işlərindən, yollarını azmasından, fəsad törətməsindən və həqiqət yolundan çıxmasından xəbər verməsi:

Abdullah ibn Abbasın belə dediyi nəql olunmuşdur: “Allah Rəsulu *(sallallahu əleyhi və alih)* atama belə buyurmuşdur: “Ey Abbas, vay olsun sənin nəslindən mənim övladlarımın halına və vay olsun mənim nəslimdən sənin övladlarına”.

Abbas dedi: “Ey Allahın Rəsulu, qadınlara yaxın durmayımmı?”

Buyurdu: “Allahın elmi artıq keçmişdir *(və belə qərarlaşdırmışdır)*, həmçinin işlər onun əlindədir. Əmr mənim övladlarımda olacaqdır”.[55]

Bəni-Abbas dövləti, onunla Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* nəvələri, Əli və Fatimənin *(əleyhimussəlam)* övladları imamlar *(əleyhissəlam)* arasında baş verən müxalifətçilik, Bəni-Abbasdan çəkdikləri sürgünlük, təqib, təcavüzkarlıq açıq-aydın şəkildə tarixdə mövcuddur. Habelə bu məsələ qeyd olunmaqdan daha aydın və gizlədilməkdən daha məşhurdur.

Həmçinin daha artıq izah əldə etmək üçün Əbülfərəc İsfahaninin “Məqatilut-talibiyyin” kitabına müraciət etmək mümkündür. Habelə Bəni-Abbasın həlak olması və səltənətlərinin aradan getməsinə dəlalət edən bəzi rəvayətlər mövcuddur. Məsələn, varid olan bu xəbər kimi:

İmam Baqirin *(əleyhissəlam)* bir hədisdə belə buyurduğu nəql olunmuşdur: “Sonra Bəni-Abbas hakimiyyətə gələcək. Daim təravətli bir hakimiyyət və firavan bir həyat yaşayacaqlar. Ta ki öz aralarında ixtilaf edənədək. Elə ki ixtilafa düşdülər, hakimiyyətləri aradan gedəcək”.[56]

***İkinci öncədən xəbər vermə:***

Bəni-Üməyyə dövlətinin təbii şəkildə zavala uğramasından öncə, onun aradan getməsi rəvayətlərdə qeyd olunmuşdur. Məsələn, İmam Baqirdən *(əleyhissəlam)* nəql olunan bu rəvayət kimi:

İmam Baqir *(əleyhissəlam)* buyurmuşdur: “Qaim *(əleyhissəlam)* tək illərin birində qiyam edəcək: doqquz, bir, üç və ya beş”.

Sonra dedi: “Elə ki Bəni-Üməyyə ixtilaf etdi və hakimiyyətləri aradan getdi, Bəni-Abbas hakimiyyətə gələcək”. *(Hədisin ardı vardır)*[57]

---

[55] Bəşarətul-İslam, s.11.
[56] Ğeybətun-Numani, s.175.
[57] Ğeybətun-Numani, s.175.

Bilmək lazımdır ki, İmam Baqir *(əleyhissəlam)* Bəni-Üməyyə səltənəti zavala uğradıqdan və Abbasilər dövləti qiyama qalxdıqdan on səkkiz il öncə vəfat etmişdir.

***Üçüncü öncədən xəbər verme:***

Rəvayətlərdə məşriq və məğrib əhalisinin ixtilafı qeyd olunmuşdur. Məsələn, yenə də İmam Baqirdən *(əleyhissəlam)* nəql olunan bu rəvayət kimi. Belə ki, o, buyurmuşdur: "Məşriq və məğrib əhalisi ixtilafa düçar olar".[58]

Bu cür ixtilaflara tarixdə çox rast gəlmək olar. Məsələn, məşriq və məğrib əhalisinin İslam ölkələrinin sərhədləri barədə fikir ayrılığında olmaları. Bu, İslam tarixində praktiki olaraq uzun-uzadı davam edən məsələdir. Belə ki, şərqə Abbasilər, qərbə – yəni İslam Əndəlusuna – Əməvilər hökm edirdilər. Yaxud Qərbə – yəni Afrikanın şimalında Fatimilər dövlətinin əsasını qoyan – Fatimilər hökmranlıq edirdilər. Hər iki halda, bu ikisi Abbasilərin şərq xilafətindən ayrı idilər.

Yaxud elə müasir dövrdə, ikinci dünya müharibəsindən bu yana baş verənlər... Dünyada iki böyük dövlət vardır. Onlardan biri şərq bloqu adlanan liderliyi, digəri isə qərb adlanan önderiliyi təmsil edir. Hər bir halda, şərq əhalisi ilə qərb əhalisi arasında baş verən bu cür ixtilaflar zühurun əlamətlərindəndir... Canıma and olsun, bu özü elə bir möcüzələrdəndir ki, rəvayətlərin doğruluğuna dəlalət etməkdə payı vardır. Əlavə olaraq, rəvayətdə "Sahibul-beyət"i də *(beyət sahibi İmamımız)* isbat edir. Necə ki, Numaninin "əl-Ğeybət" kitabında nəql etdiyi hədisdə belə qeyd edilmişdir:

Bizə Əhməd ibn Muhəmməd ibn Səid hədis danışaraq dedi: Mənə Əhməd ibn Yusif ibn Yəqub Əbülhüseyn Cufi hədis danışaraq dedi: Mənə İsmail ibn Mihran hədis danışaraq dedi: Mənə Həsən ibn Əli ibn Əbu Həmzə öz atasından və Vəhbdən,

---

[58] Həmin.

o, Əbu Bəsirdən, o da Əbu Cəfərdən *(əleyhissəlam)* hədis danışaraq belə dedi: "Qaim *(əleyhissəlam)* tək illərin birində qiyam edəcək: doqquz, bir, üç və ya beş".

Sonra dedi: "Elə ki Bəni-Üməyyə ixtilaf etdi və hakimiyyətləri aradan getdi, Bəni-Abbas hakimiyyətə gələcək. Daim təravətli bir hakimiyyət və firavan bir həyat yaşayacaqlar. Ta ki öz aralarında ixtilaf edənədək. Elə ki ixtilafa düşdülər, hakimiyyətləri aradan gedəcək, şərq və qərb camaatı ixtilaf edəcək. Bəli, hətta qiblə əhli də *(ixtilafa düşəcək)*. İnsanlar onları bürüyən qorxu səbəbilə şiddətli bir çətinliklə qarşılaşacaq. Onların bu vəziyyətdə ikən, birdən səmadan bir carçı nida edəcək. O nida etdiyi zaman hamılıqla tələsin, tələsin! Allaha and olsun, elə bil onu görürəm ki, rükn və məqam arasında yeni əmr, yeni kitab və səmadan olan yeni bir hakimlik əsasında camaatdan beyət alır".[59]

Əvvəlcədən verilən öncəki üç xəbər və onların praktiki olaraq tarix boyu baş verməsi rəvayət sadir olduqdan və mühəddislər onu öz mənbələrində qeyd etdikdən sonra gerçəkləşdiyi üçün bunun doğruluğuna *(yəni məsumdan sadir olmasına)* ən üstün dəlildir.

***Dördüncü öncədən xəbər vermə:***

Allah Rəsulu *(sallallahu əleyhi və alih)* dəfələrlə özündən sonra İslam toplusunun *(rəhbərliyinin)* yolunu azacağından xəbər vermişdir. Məsələn, bu rəvayəti misal çəkmək olar:

İbn Abbas nəql etmişdir ki, Peyğəmbərlə Meracla əlaqədar söhbət etməsi əsnasında bu mətləbi zühurun əlamətlərindən hesab etmişdir: "Camaatın əmirləri kafirlər, onların dostları *(və müşavirlər)* pozğun kəslər, yardımçıları zülmkarlar, rəy sahibləri fasiq adamlar olacaq. Həmin zaman üç xüsuf *(çökmə)* olacaqdır: Məşriqdə, məğribdə və Ərəbistan yarımadasında. Bəs-

[59] Ğeybətun-Numani, s.175.

rə zürriyyətindən olan bir nəfərin əli ilə xarabalığa çevriləcək ki, zəncilər onun ardıcılı olacaqlar...” *(Hədisin davamı vardır)*[60]

Peyğəmbərdən *(sallallahu əleyhi və alih)* nəql olunan başqa bir hədisdə belə buyurmuşdur: “Məndən sonra elə başçılar olacaq ki, mənim hidayətimlə hidayət etməyəcək *(göstərdiyim yola sarı yol göstərməyəcək)*, mənim sünnəmlə rəftar etməyəcəklər. Onların arasında elə kəslər qiyam qaldıracaq ki, qəlbləri şeytan qəlbi, bədənlərisə insan bədənidir”.[61]

Bu həmin məsələdir ki, Allah Rəsulundan *(sallallahu əleyhi və alih)* sonra baş vermişdir. Hökümət bir sıra məsləhət, yaxud vərəsəlik yolu ilə əldən ələ keçdi. Bunun təfsilatı qeyd edilməkdən daha məşhurdur. Xəlifələrin saraylarında növbənöv şərablardan istifadə etmək az qala açıq-aydın bir məsələdir. Həm də tarix kitablarında çox açıqlanmışdır. Ola bilər ki, bunun ən üstün nümunəsi Mütəvəkkil Abbasinin İmam Hadiyə *(əleyhissəlam)* göstərdiyi rəftardır. O, bir dəstə türkü İmam Hadinin evinə yolladı ki, oraya basqın edib, gecənin qaranlığında həzrəti ələ keçirsinlər *(və onun sarayına gətirsinlər)*. İmamın mənzilinə yetişdikdə gördülər ki, İmam Quran qiraətilə məşğuldur. Onlar həzrəti tutub, Mütəvəkkilin yanına apardılar. İmam onun qarşısında durdu. Mütəvəkkilin əlində qədəh vardı və şərab içirdi. İmamı gördükdə onun heybəti Mütəvəkkili tutdu *(gözündə böyüdü)*. *(Çarəsizlikdən ona ehtiram göstərdi və)* onu öz kənarında əyləşdirdi. Əlindəki şərab qədəhini həzrətə təqdim etdi.

İmam buyurdu: “Əmir! Heç vaxt ətim və qanım indiyədək şəraba bulaşmamışdır. *(Şərab içməkdən)* məni üzürlü bil”. O da geri çəkildi...” *(Əhvalatın sonuna qədər)*[62]

---

[60] Bəşarətul-İslam, s.5.
[61] Tarixul-ğeybətil-kubra, s.450.
[62] Tarixul-ğeybətil-kubra, s.59.

***Beşinci öncədən xəbər vermə***

“Sahibul-zənc”in inqilabı barədə nəql olunan xəbərlər

İbn Abbasdan nəql olunan öncəki hədisdə bu şəxs barədə qeyd olunmuşdur... Və bu, həqiqətən də. “Sahibul-zənc”in əli ilə baş vermişdir. O elə bir şəxsdir ki, hicrətin 255-ci ilində Bəsrədə inqilab etmişdir. Həmin il İmam Məhdinin *(əleyhissəlam)* doğum ilidir. Onun adı Əli ibn Muhəmməd olmuşdur. İddia edirdi ki, ələvidir. Baxmayaraq ki, əqidə və düşüncə baxımından Əhli-beytlə uyğun gəlmirdi. On beş il ərzində cəmiyyət içərisində o qədər fəsad törətdi ki, nəhayət hicrətin 270 ilində qətl törətdi *(əli camaatın qanına bulaşdı)*. Özünü ələvilərə nisbət verməsindən əlavə, inqilabında söykəndiyi ümdə mətləb əsasən işçilər və cameənin zəhmətkeş təbəqəsi, xüsusilə özgələrinin tabeçiliyi altında olan qullara yönəlmişdi. Ona görə də “Sahibul-zənc” adlandırılmışdır. Yəni qulların rəhbəri.[63]

İslam cameəsində çoxlu fəsadlar baş verdi və Abbasi dövlətini olduqca zəhmətə saldı. Bəsrə sakinləri və bir çox şəhərlərin canı incidildi. Belə ki, qətllər, soyğunçuluq və sürgünçülüklər baş verdi.

Bu tarixi hadisə özü rəvayətin doğruluğuna və onu söyləyənin doğru danışmasına ən böyük dəlildir. Ən üstün salavat və salam olsun ona!

***Altıncı öncədən xəbər vermə:***

Qum adlanan şəhərdə elmin zühuru barədə nəql olunan xəbərlər

Bu barədə İmam Sadiqdən *(əleyhissəlam)* belə nəql olunmuşdur: “Kufə möminlərdən *(onların orada olmasından)* boş qalacaqdır. Elm oradan üz çevirəcəkdir. Necə ki, ilan öz yuvasında gizlənər *(və geri çəkilər)*. Sonra elm Qum adlanan şəhərdə üzə çıxar. O, elmin və fəzilətin mədəni halına çevrilər. O həd-

[63] Tarixul-ğeybətil-kubra, s.72.

də qədər ki, yer üzündə din barədə heç bir müstəzəf qalmaz. Gəlin üçün hazırlanan yerdəki *(zifaf otağındakı)* gəlinlər belə *(din baxımından məlumatlı olar)*! Bu isə Qaimimizin zühuruna yaxın bir zamanda baş verər..." *(Hədisin ardı var)*[64]

Bu məsələ son on illikdə praktiki olaraq irəli çıxmışdır və bu rəvayətin əzəməti oradan bilinir ki, İmamımızın həmin vaxt yeri belə məlum olmayan, həmçinin əhalisi hələ bütlərə və oda ibadət edən Qum şəhərində din elminin zühuru barədə danışdığını görürük. Halbuki min iki yüz ilə yaxın keçdikdən sonra Qum şəhəri şiənin elm şəhərinə və dərs aldıqları bir mərkəzə çevrildi.

İmam Sadiqdən *(əleyhissəam)* nəql olunan bu hədisi burada ona görə qeyd etdik ki, Qaimin *(əleyhissəlam)* qiyamından öncə elmin Kufədən *(Nəcəf Əşrəfdən)* Qum şəhərinə hicrət edəcəyinə aydın şəkildə işarə edir. Bunun səbəbi isə sultanların zülmü, din alimlərinin sürgün edilməsi, onların qətlə yetirilməsi və qovulmasıdır.

Rəvayətlərdə qeyd olunan çoxlu sayda əlamət və öncədən xəbər vermələr vardır ki, tarixdə baş vermişdir.

Bu barədə Cabir ibn Yezid Cufidən nəql olunan rəvayətdə qeyd edilmişdir: "Əbu Cəfər Muhəmməd ibn Əli Baqir *(əleyhissəlam)* buyurdu: "Ey Cabir, sənə deyəcəyim əlamətləri görənə qədər və o zamana yetişənə qədər yer*(ind)*ə otur və əlini, ayağını hərəkət etdirmə: Bu əlamətlərin birincisi Bəni-Abbasın ixtilaf etməsidir. Sənin o zamanı görə biləcəyini zənn etmirəm. Lakin bunu məndən sonra *(gələnlərə)* məndən nəql et. *(Digər bir əlamət)* səmadan nida edəcək bir nidaçıdır. Dəməşq tərəfdən sizə fəth *(xəbəri)* verən bir səs gələcək. Şam kəndlərindən olan Cabiyə adlı bir kənd yerə batacaq. Dəməşq məscidinin sağ tərəfinin bir hissəsi uçulacaq. Türklər tərəfdən dindən çıxmış bir dəstə xüruc edəcək. Bunun ardınca rumluların hərc-mərc-

---

[64] Muntəxəbul-əsər, s.443; Hivaratu hauləl-munqiz, s.296; Yaumul-xilas, s.480.

liyi baş verəcək. Türk qardaşları gəlib Cəzirəyə yerləşəcəklər. Rumlulardan olan dindən çıxmışlar da gəlib Rəmləyə yerləşəcəklər. O il, ey Cabir, Məğribin hər bir yerində çoxlu ixtilaflar baş verəcək. İlk dağılan yer Şam olacaq..." *(Hədisin ardı var)*.[65]

Əlavə olaraq, Şeyx Müfid özünün "əl-İrşad" kitabında zühur nişanələrindən müxtəsər qeyd etmişdir:

"Qaim Məhdinin *(əleyhissəlam)* qiyam dövrü üçün bir neçə əlamətlər qeyd olunmuşdur. Həmçinin onun qiyamından öncə baş verəcək hadisələr, nişanələr və dəlalətlər vardır. Onlardan bəziləri bunlardır: Süfyaninin xüruc etməsi, Həsəninin qətli, padşahlıq və dünyəvi hökümət uğrunda Bəni-Abbasın ixtilaf salması, Ramazan ayının ortasında günəşin tutulması, həmin ayın axırında ayın tutulması, hansı ki, hər ikisi adi halın ziddinədir *(yəni təbiətin adi durumunun əksinədir)*, səhrada çökmə, məşriqdə çökmə, həmçinin məğribdə baş verəcək başqa bir çökmə, günəşin zöhrdən əsrin yarısına qədər zaman ərzində hərəkət etməməsi, günəşin məğribdən çıxması, Nəfsi-Zəkiyyənin Kufənin arxasında yetmiş saleh insanın içində qətlə yetirilməsi, rükn və məqam arasında haşimi bir adamın başının kəsilməsi, Kufə məscidinin divarının xarab olması, Xorasandan qara bayraqların zahir olması, Yəmaninin qiyamı, Misirdə məğribli bir şəxsin ortaya çıxması və Şamda hökümət etməsi, türklərin Cəzirəyə enməsi, rumluların sahilə enməsi, ay kimi saçan məşriq ulduzunun çıxması, sonra onun elə bükülməsi ki, sanki az qala iki tərəfi bir-birinə dəysin; səmada zahir olan və üfüqlərinə yayılan qırmızılıq, məşriqdə üzə çıxan və üç, yaxud yeddi gün göydə *(havada)* qalan böyük atəş, ərəblərin sıxıntılarının sona çatması və onların ölkələr üzərində hökmranlığı, həmçinin əcəmlərin səltənəti altından çıxması, Misir əmirinin həmin diyarın sakinləri tərəfindən qətlə yetirilməsi, Şamın xaraba qalması, orada üç pərçəmin ixtilaf etməsi, Qeys və ərəb

[65] Ğeybətun-Numani, s.187; Biharul-ənvar, c.52, s.237.

bayraqlarının Misirə daxil olması, Kində bayraqlarının Xorasana sarı hərəkəti, məğrib tərəfdən qoşunun varid olması – o vaxta qədər ki, çaşqınlığın aradan getməsilə aramlıq tapar *(yaxud çaşqınlıq aradan gedənə qədər saxlayar)*, həmin surətdə məşriqdən qara bayraqların görsənməsi, Fərat çayının suyu Kufə küçələrinə daxil olacaq həddə parçalanması *(hədəqəsindən çıxması)*, altmış yalançı peyğəmbərlik iddia edən kəslərin xürucu, hamılıqla imamlıq iddiası edən Əbu Talib ailəsindən olan on iki nəfərin xüruc etməsi, Cəlula və Xaniqin arasında Bəni-Abbas ardıcıllarından olan dəyəri yüksək bir nəfərin yandırılması, Mədinətus-Səlam ilə Bağdad arasında su axan yerdə körpü vurulması, günün başlanğıcında qara küləyin əsməsi və çoxunun çökməsinə *(yerin içinə batmasına)* səbəb olacaq zəlzələnin baş verməsi, İraq və Bağdad əhalisini əhatə edəcək qorxu, oradakı qəfil ölümlər, mal-mülk, can, bədən və məhsulların azalması, başlanğıcında və qeyri-başlanğıcında *(yaxud mövsümündə və mövsümündən kənar)* çəyirtkələrin ortaya çıxması, o həddə qədər ki, əkin, taxıl və camaatın əkmiş olduğu azacıq məhsulun belə, üzərinə gələr, əcəmlərdən olan iki dəstənin arasında ixtilaf baş verməsi, onlardan çoxunun qanının axması, qulların ağalarını itaətindən boyun qaçırması, onların öldürülməsi, bidətçi dəstənin meymun və donuz şəklinə düşərək məsx olması, sahibkarların və ağaların əraziləri üzərində qulların qələbə çalması, yer üzündə hər kəsin öz dillərində eşidəcəyi bir nidanın səmadan gəlməsi, səmadan günəş diskində surət və sinənin insanlara görünməsi, ölülərin dünyaya qayıdıb, orada xəbərdar olmaları və ziyarət etmələri üçün qəbirlərindən qalxmaları, sonra bütün bunların yer üzünü ölmüş olduqdan sonra dirilməsinə səbəb olacaq iyirmi dörd yağışın vasitəsilə xətm verilməsi, həmin yağışın bərəkətləri ortaya çıxacaqdır, bundan sonra isə bütün bəlalar Məhdinin *(əleyhissəlam)* şiələrindən olan haqqa etiqad bəsləyən kəslərdən uzaqlaşacaqdır.

Həmin vaxt o həzrətin Məkkədə zühurundan xəbərdar olacaq, yardım etmək məqsədilə ona sarı yollanacaqlar”.[66]

Bu iki rəvayətdən belə görürük ki, bir sıra əlamət və xəbərlər tarix boyu artıq gerçəkləşmişdir. Biz onlardan bəzisini müxtəsər şəkildə qeyd edirik. Daha çox rəvayətlərdən xəbərdar olmaq üçün aşağıdakı kitablara müraciət edə bilərlər:

**1 –** Şeyx Muhəmməd ibn İbrahim ibn Cəfər Numaninin “əl-Ğeybət” kitabı. O, İbn Əbu Zeynəb kimi məşhurdur. Hicrətin üçüncü əsrinin alimlərindən və Siqətul-islam Kuleyninin şagirdi olmuşdur. Bu kitab bu babda yazılan ən nəfis kitablardandır. Onu Şeyx Müfid “əl-İrşad” kitabında mədh etmişdir. Buradan belə aydın olur ki, ondan öncə daha üstün bir müəllif olmamışdır.

**2 –** Şeyx Əbu Cəfər Muhəmməd ibn Əli ibn Hüseyn ibn Babəveyh Qumminin “Kəmalud-din və təmamun-nemət” kitabı. O, “Səduq” kimi tanınmışdır. Hicrətin dördüncü əsrinin alimlərindən olmuş və h.381-ci ildə vəfat etmişdir.

**3 –** Şeyx Əbu Cəfər Muhəmməd ibn Həsən Tusinin “əl-Ğeybət” kitabı. O, “Şeyxut-taifə” kimi tanınmışdır. Hicrətin 460-cı ilində vəfat etmişdir.

***Tarix boyu gerçəkləşən sair öncədən xəbər vermələr:***

Tarix boyu baş tutan sair öncədən xəbər vermələrə gəlincə, biz öncədən işarə etdiklərimizə əlavə olaraq, bəzisini müxtəsər şəkildə qeyd edirik:

**1 –** Xorasan istiqamətindən qara bayraqların üz tutması: Bu, Əbu Müslim Xorasaninin inqilabı ilə uyğun gəlir.

**2 –** Misirdə məğribli bir nəfərin ortaya çıxması və Şamata *(Şam ərazilərinə)* malik olması: Bu, hicrətin 396-cı ilində Şimali Afrikada dəvətini yayıb, Şamla vuruşduqdan sonra onu ələ keçirən Muiz Fatimi ilə uyğun gəlir.

[66] Əl-İrşadu lil-Mufid, c.2, s.368; Biharul-ənvar, c.52, s.220; Bəşarətul-İslam, s.175.

**3 –** Türklərin Cəzirədə enməsi: Cəzirə ərazisi uzun zaman ərzində türk Osmanlısının hökuməti altında qalmışdır. Bu isə hicrətin 941-ci ili başlamış və birinci dünya müharibəsi əsnasında Britaniyanın işğalı nəticəsində hicrətin 1335-ci ilində hakimiyyətləri süqut edənədək davam etmişdir.

**4 –** Rumluların Rəmlədə batması: Rum məsumların dövründə ümumi şəkildə avropalılara deyilirdi. Rəmlə isə Misirdə və Şamda olan bir məntəqədir. Bu öncədən xəbər vermə Napaleon Bonapartın başçılığı ilə Fransanın Misiri müstəmləkəyə çevirməsilə uyğun gəlir. Yaxud Birinci dünya müharibəsindən sonra Fransanın Suriyanı işğal etməsi və oradan osmanlıları çıxartması ilə uyğundur.

**5 –** Ərəblərin sıxıntılarının sona çatması, onların qüvvə *(və hakimiyyət)* əldə etməsi, məmləkətlər üzərində padşahlıq etməsi və əcəmlərin hakimiyyəti altından çıxmaları: Bu, müasir dövrdə yaşadıqlarımızdır. Belə ki, bu əsr ərəb inqilabları əsridir ki, özgələrinin hegemonluq və müstəmləkəçiliyi altından qurtulub, hakimiyyətə özlərinin yetişməyini istəyirlər.

**6 –** Misir əmirinin elə həmin məmləkətin əhalisi tərəfindən qətlə yetirilməsi: Bu, prezident Ənvər Sədatın Xalid İslambulinin adamları tərəfindən öldürülməsilə uyğun gəlir.

**7 –** Əcəmdən olan iki dəstənin ixtilaf etməsi, aralarında çoxlu qan tökülməsi: Bu, Avropa dövlətləri arasındakı döyüşlərə uyğun gəlir. Belə ki, Fransa və Almaniya, yaxud Britaniya və Almaniya, yaxud Türkiyə və Yunanıstan arasında getmiş olan döyüşü buna misal çəkmək olar... Miladi tarixi ilə on doqquzuncu əsrin birinci yarısı baş verən iki dünya müharibəsinə nəzər salmaq bizə kifayət edər.

Biz tarix boyu gerçəkləşən öncədən xəbər vermələrin bu qədəri ilə kifayətlənirik. O, məcmu halında onu söyləyən məsumların doğruluğuna dair qəti bir dəlildir. Bu doğruculluq onların İmam Məhdinin *(əleyhissəlam)* zühuru barədə verdikləri sair xəbərlərin də doğruluğunu göstərir. Elə isə İmamın *(əley-*

*hissəlam)* qəziyyəsilə əlaqədar duyğusal və şüurlu rabitəni artırmaq gərəkdir. Təkcə ideoloji mehvər deyil. Bu cərəyanın sonu şirin olsa da, üstün olan budur ki, qəlbi meyillik həvəsləndirilsin *(daha çox ümid edilsin)*, İmamla *(əleyhissəlam)* rabitənin dərəcəsi yaşayış, fəaliyyət və ciddilik baxımından ən ali və daha yüksək müstəviyə ucaldılsın. Həmçinin mömin fərddə əməl, davranış, mövqe və həyatın bütün ayrıntılarında İmama bənzəməklə onun kənarında *(onun himayəsində)* yaşaması üçün məsuliyyətlə düşünmək dərinləşsin.

# ÜÇÜNCÜ FƏSİL

# ZAMAN SİLSİLƏSİ BAXIMINDAN ZÜHUR İLİNİN HADİSƏLƏRİ

## *Birinci hissə: Ümumi və yığcam hadisələr*

### *Birinci: Zühurdan öncəki əlamətlər*

Əvvəldə yaxın hadisələri xarakterizə edəcək hadisələrə işarə etmək gərəkdir ki, bu yolla zühur əsrini, yaxud zühur illərinini vəsf edən hadisələri təsbit edə bilək. Xüsusilə də zühur ilini. Bu isə çoxdur, yüzlərə çatır. Burada isə aşağıdakılarla məhdudlaşmaq gərəkdir:

***1 – Zühur əsri***

Hədislər ümumi xüsusiyyətlər müəyyənləşdirmişdir. Həmçinin bir sıra hadisələr də bəlirləmişdir ki, zühur əsrini yığcam şəkildə müəyyən edir. "Həccətul-vidada" İbn Abbasın Peyğəmbərdən *(sallallahu əleyhi və alih)* nəql etdiyi və Salman Farsinin bu xəbərləri necə inanılmaz hesab etdiyi rəvayəti bu qəbildəndir. Biz bu rəvayəti kamil surətdə ikinci fəslin başlanğıcında qeyd etmişik.

***2 – Zühur illəri:***

Zühur illəri aydınlaşdırmağa çalışan hədislər çoxlu hadisələr, olaylar və əlamətlər bəyan edir. Bunun xəbərləri hədd təyin etməkdən çoxdur. Şeyx Müfidin "əl-İrşad" kitabında qeyd etdiyi əlamətlər – biz rəvayəti kamil surətdə ikinci fəsildə qeyd etmişik və oraya müraciət edilə bilər – bu qəbildəndir. Rəvayətlərə gəlincə isə, İmam Sadiqdən *(əleyhissəlam)* belə bir hədis nəql olunmuşdur:

"Camaat Ərəfatda vuquf etdikləri zaman sürətli bir dəvəyə minən bir süvari gəlib onlara bir xəlifənin ölüm xəbərini çatdıracaq. O öldüyü zaman Muhəmməd ailəsinin *(əleyhimussəlam)* və bütün insanların fərəci baş verəcək".[67]

Həmçinin Əbu Bəsirin nəql etdiyi də bu rəvayətlərdəndir:

[67] Ğeybətun-Numani, s.179; Biharul-ənvar, c.52, s.240; Bəşarətul-İslam, s.122.

“Əbu Abdullahın *(əleyhissəlam)* belə buyurduğunu eşitdim: “Kim Abdullahın ölümünü mənim üçün zəmanət versə, mən onun üçün Qaimi zəmanət verərəm”.

Sonra buyurdu: “Abdullah öldükdə insanlar daha heç bir kəsin üzərində cəm halına gəlməz. Bu məsələ isə Sahibiniz olmadan aramlıq tapmaz, inşallah! İllərin padşahlığı aradan gedər və padşahlıq aylar və günlərlə keçər”.

Mən dedim ki, bu uzun çəkəcək?

Buyurdu: Xeyr”.[68]

Habelə İmam Baqirdən *(əleyhissəlam)* nəql olunan da bu rəvayətlərdəndir. O buyurmuşdur: “Elə ki, Bəni-filan öz aralarında ixtilafa düşdü, fərəci gözləyin. Sizin fərəciniz yalnız Bəni-filanın ixtilafa düşməsindədir. Elə ki ixtilaf etdilər, Ramazan ayında baş verəcək güclü səsi və Qaimin xüruc etməsini gözləyin. Həqiqətən də, Allah istədiyini edər. Bəni-filan öz aralarında ixtilaf etməyənədək Qaim xüruc etməyəcək və istədiyiniz şeyi görməyəcəksiniz. Elə ki bu baş verdi, camaat onlara tamah salacaq, beləcə sözlər haçalanacaq və Süfyani zühur edəcək. Bəni-filan mütləq hakimiyyət başında olacaq. Elə ki, hakimiyyət etdilər və *(hakimiyyət etdikdən)* sonra ixtilafa düşdülər, hakimiyyətləri parçalanacaq, işləri bölünəcək...” *(Ta ki hədisin axırına qədər)*.[69]

***3 – Zühurun ili:***

Rəvayətlər dəqiq şəkildə müfəssəl olaraq bir sıra hadisələr müəyyən etmişdir. Xüsusilə də onların ikinci yarısında: Süfyaninin Rəcəb ayında xüruc etməsindən başlayaraq, Ramazan ayındakı nidaya, Zilhiccənin 25-də Nəfsi-Zəkiyyənin qətlinə, Məhərrəmin onu, altıncı gün müqəddəs sübhün *(İmam Məhdinin)* nurunun zühur etməsinə qədər. Həmin hadisələr özün-

---

[68] Biharul-ənvar, c.52, s.210; Bəşarətul-İslam, s.123.

[69] Ğeybətun-Numani, s.171; Biharul-ənvar, c.52, s.232.

də qəti əlamətlər ehtiva edir. Qeyd etmək lazımdır ki, İmamın *(əleyhissəlam)* zühurunu olduqca qısa müddətlə zamanlayan qəti əlamətlər yəqin və qəti qəbul edilən şeylərdəndir. Belə ki, orada heç bir bəda yoxdur. Möminlər bilməlidir ki, bu əlamətlər onlara hər bir yalandan Məhdiçilik iddia edənin yalanını aydın edir... Bu qəti əlamətlər baş verdikdə möminlərə fərəc gələcəkdir. Allah onların sinələrinə şəfa verəcək və qəlblərinin qeyzini aradan aparacaqdır.

Bütün imamlarımızdan *(əleyhissəlam)* Məhdidən *(əleyhissəlam)*, onun zühur əlamətlərindən, çıxmasının yaxın olmasından danışarkən bir sıra rəvayətlər varid olmuşdur. Mən qəti məsələlərdən olması ilə əlaqədar bəzi əlamətləri qeyd etmişəm. O əlamətlər ki, onlar baş tutmasa Məhdi *(əleyhissəlam)* zühur etməyəcəkdir.

***4 – Qiyamət qopmasının əlamətləri:***

Canlının yerdən çıxıb camaatla danışması *(dabbətul-ard)*, günəşin məğrib istiqamətindən çıxması, yerin dibindən atəşin çıxması və camaatı məhşərə çəkməsi və sair əlamətləri Qiyamət əlamətlərindən misal çəkmək olar. Həmçinin Əmirəlmöminindən *(əleyhissəlam)* bu barədə belə buyurduğu nəql olunmuşdur: "Allah Rəsulu *(sallallahu əleyhi və alih)* belə buyurdu: "Qiyamətdən öncə on əlamət vardır və bunların baş verməsi qaçılmazdır: Süfyani, Dəccal, tüstü, canlı *(dabbə)*, Qaimin çıxması, günəşin məğribdən çıxması, İsanın enməsi, məşriqdə xüsuf olması *(batma)*, Ərəb cəzirəsində batma, yerin dibindən odun çıxıb insanları məhşərə çəkməsi..."[70]

Bu mövzu bizim mətləbə aid deyil, yaxud bu kitabın mövzusuna aid deyil.

---

[70] Ğeybətuş-Şeyxit-Tusi, s.268; Biharul-ənvar, c.52, s.209; Bəşarətul-İslam, s.14.

***İkinci: Zühur ilinə məxsus əlamətlər***

Tezliklə bu ildə üzə çıxacaq hadisələrə işarə edəcəyəm. Həmin il İmamımız Məhdinin *(ruhumuz ona fəda)* zühuruna yaxın olmağı göstərir. Tezliklə bu ilin hadisə və əlamətlərinə yetişəcəyik. Necə ki, məsumlardan *(əleyhimussəlam)* zaman silsiləsi barədə rəvayətlər nəql olunmuşdur. Bu isə həmin ard-arda gələn əlamət və hadisələrdən ümid edilən faydanı əldə etmək üçündür. Çünki orada ümumi təsəvvür vardır və bu hadisə, əlamətlər möminlərə şamil olsun. Bilinsin ki, qətidir *(və İmamın zühuru artıq yaxındır)*. O, beş əlamətdir. Hansı ki, rəvayətlərin çoxunda qeyd edilmişdir.

Məymunin Əlban İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Qaimin qiyamından öncə beş hadisə vardır: Yəmani, Süfyani, səmadan nida çəkən carçı, beyda çökməsi və Nəfsi-Zəkiyyənin qətli".[71]

Zühur ilinin hadisələrinə gəlincə, bir neçədir. Onların daha tanınmışlarına işarə edirik, zaman silsiləsinə riayət edərək şərafətli rəvayətlərdən əlimizdə olan məlumatlara imkan qədərində toxunmağa çalışarıq.

Elə isə, icmali hadisələrə və bizim üçün zühur ilini izah edən ümumi dəlalətlərə işarə etməyimiz gərəkdir:

***1 – Zühur ilinin tək olması***

İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğu nəql olunmuşdur: "Qaim *(əleyhissəlam)* tək illərin birində qiyam edəcək: bir, üç, beş, yeddi, yaxud doqquz".[72]

Bu hədis zühur ilini icmali şəkildə tanıtdırır. Lakin müqəddəs sübhün nurunun doğması günün təzahürünə gəlincə, bunu bəzi hədislər daha dəqiq xarakterizə edir.

---

[71] Əl-İrşad lil-Mufid, s. c.2, s.379; Kəmalud-din və təmamun-nemət, s.649; Ğeybətut-Tusi, s.268; İlamul-vəra, s.426.

[72] İlamul-vəra, s.430; Biharul-ənvar, c.2, s.291; Muntəxəbul-əsər, s.464.

Əbu Bəsir İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Qaim Aşura günü qiyam edəcəkdir. O isə Hüseyn ibn Əlinin *(əleyhissəlam)* qətlə yetirildiyi gündür. Sanki mən Məhərrəmin onuncu günü, şənbə gününü görürəm ki, rükn və məqam arasında durmuşdur. Cəbrail isə onun qarşısında nida çəkir ki, ona beyət edilsin. Şiələri yer üzünün müxtəlif nöqtələrindən ona sarı tələsirlər ki, beyət etsinlər. Allah-taala onun vasitəsilə yer üzünü zülm və haqsızlığla dolmuş olduğu kimi haqq-ədalətlə dolduracaqdır".[73]

Bu və bunun kimi digər rəvayətləri oxuduqdan sonra biz onun *(əleyhissəlam)* zühur edəcəyi ilin əlamətlərindən bəzisini müəyyən edə bilərik. Bu əlamətlər içərisində zühur edəcəyi ilin tək illərdən olması qeyd edilmişdir. Bu isə ədəd, yaxud rəqəm nizamı və İslam təqvimi baxımından uyğundur. Həmçinin müqəddəs fəcr günü Məhərrəm ayının onuncu günü, şənbədir.

***2 – Çoxlu yağış yağan il***

Zühur ilinin əlamətlərindən biri də budur ki, həmin il çoxlu yağış yağacaq və buna görə də çoxlu məhsul, meyvə və müxtəlif xurmalar xarab olub, aradan gedəcək. Çünki yağış bəzən əzab və qəzəb, bəzən isə rəhmət və nemətdir.

İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğu rəvayət olmuşdur: "Qaimin *(əleyhissəlam)* zühurundan öncə həmin il çoxlu yağış yağacaq ki, məhsullar və xurmalıqlarda xurmalar xarab olacaqdır. Ancaq siz bu hadisədən şikayət etməyin".[74]

Səid ibn Cubeyrdən belə nəql olunmuşdur: "Qaim Məhdi qiyam edəcək ildə yer üzündə iyirmi dörd yağış yaxacaqdır ki, sən onun əsər və bərəkətlərini görəcəksən, inşallah".[75]

Məhz buna əsasən, hədisin dəlalətini dərk edə bilərik.

---

[73] Əl-İrşad lil-Mufid, c.2, s.379; İlamul-vəra, s.430.

[74] İlamul-vəra, s.428; Bəşarətul-İslam, s.125; əl-İrşad lil-Mufid, c.2, s.377; Ğeybətut-Tusi, s.272.

[75] İlamul-vəra, s.429; Ğeybətut-Tusi, s.269.

İmam Sadiq *(əleyhissəlam)* buyurmuşdur: "Fəth ilində Fərat elə parçalanacaq ki, su Kufə küçələrinə varid olacaqdır".

Başqa bir rəvayətdə buyurur: "Fəth ilində Fərat parçalanacaq və suyu Kufə küçələrinə varid olacaqdır".[76]

***3 – Çoxlu zəlzələlər, qorxu və fitnələr (sınaqlar) olacaq il***

Zühur ilinin əlamətləri, İmam Sadiqin *(əleyhissəlam)* buyurduğu kimidir: "Onun əlamətləri budur ki, həmin il çoxlu zəlzələlər və soyuqluq olar".[77]

"Sizə Məhdini bəşarət verirəm ki, ümmətim arasında baş verən ixtilaflar, çoxlu zəlzələlərdən sonra zühur edəcəkdir".[78]

"Həmin vaxt yer üzündə çoxlu ixtilaf və fitnə olacaqdır".[79]

"Bu əmrdən öncə "buyuh" qətli olacaqdır... Soruşdular ki, "buyuh" nədir? Dedi: "daimidir, sakitləşmir".[80]

"Qaim gəldikdə iki ölüm olacaqdır: Qırmızı və ağ ölüm. O həddə qədər ki, hər yeddi nəfərdən beşi öləcəkdir".[81]

Əmirəlmöminin *(əleyhissəlam)* buyurmuşdur: "Məhdinin qarşısında qırmızı və ağ ölüm olar. Həmçinin öz zamanında çəyirtkələrin hücumu, həm də öz zamanında olmayan *(qeyri-mövsüm, qəfil)* çəyirtkələrin həmləsi olar. Qan rəngləri kimi olar. Qırmızı ölümə gəlincə, qılıncdır, ağ ölümə gəlincə isə, taundur".[82]

---

[76] İlamul-vəra, s.429; Bəşarətul-İslam, s.125; əl-İrşad, c.2, s.377; Ğeybətut-Tusi, s.274.

[77] Yaumul-xilas, s.543; Bəyanul-Əimmə, c.2, s.431

[78] Əl-Muməhhidun lil-Mehdi, s.49; Kəmalud-din, s.655; Biharul-ənvar, c.52, s.182.

[79] Həmin.

[80] Əl-Muməhhidun lil-Mehdi, s.49; Kəmalud-din, s.655; Biharul-ənvar, c.52, s.182.

[81] Həmin.

[82] Ğeybətun-Numani, s. 185; əl-İrşadu lil-Mufid, c.2, s.372; Ğeybətut-Tusi, s.267.

Abdullah ibn Bəşşar Əmirəlmömininin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Allah-taala Ali-Muhəmmədin Qaimini zahir etmək istədikdə Səfər ayından Səfər ayına qədər müharibə başlayacaqdır. Bu isə Qaimimizin xürucunun vaxtıdır *(başlanğıcıdır)*".[83]

Cabir ibn Cufi deyir: "Əbu Cəfər Muhəmməd ibn Əlidən *(əleyhissəlam)* Allah-taalanın ***"Sizi mütləq bir az qorxu və aclıqla, eləcə də mal, can və məhsul azlığı ilə imtahan edəcəyik"***[84] – ayəsinin mənası barədə soruşdum.

Buyurdu: "Cabir, xüsusi bir mənası vardır. Bir xüsusi və bir ümumi mənaya malikdir. Xüsusi mənası budur ki, aclıq Kufədədir. Allah onu Ali-Muhəmmədin düşmənlərinə məxsus qərar vermişdir. Onun vasitəsilə onları həlak edəcəkdir. Ancaq ümumi mənası odur ki, Şamda gerçəkləşəcəkdir. Oranın əhalisi qorxu və aclığa mübtəla olacaqdır ki, kimsə onun kimisinə mübtəla olmamışdır. Aclıq Qaimin *(əleyhissəlam)* qiyamından öncədir və qorxu Qaimin *(əleyhissəlam)* qiyamından sonradır".[85]

İmam Baqir *(əleyhissəlam)* buyurmuşdur: "Məhdi yalnız camaatdan şiddətli qorxu, camaata yetişəcək zəlzələlər, taun, ərəblər arasında kəsən qılınc, xalq arasında şiddətli ixtilaf, dinlərində dağınılıq, durumlarında dəyişkənlik baş verdikdə, adam axşam və səhər ölüm təmənna etdikdə qiyam edəcəkdir". Ta ki buraya çatdı: "Onun xürucu məyusluq və naümidlikdən sonradır. Xoş olsun o kəsin halına ki, ona yetişmiş və ənsarından olmuşdur. Vay olsun o kəsin halına ki, onunla və əmrilə müxalifətçilik etmişdir".[86]

Əbu Bəsir İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Qiyamdan öncə fitnənin baş verməsi qaçılmaz-

---

[83] Bəyanul-Əimmə, c.1, s.335.
[84] Bəqərə, 155.
[85] Ğeybətun-Numani, s.168; Biharul-ənvar, c.52, s.229.
[86] Biharul-ənvar, c.52, s.231; İlzamun-nasib, c.2, s.162; əl-Məhdi – əs-Sədr, s.197.

dır. Camaat orada ac olar və döyüşlərdən onlara ağır bir qorxu üz verər. Mal, can və məhsul baxımından azlığa düçar olacaqlar. Bu məsələ Allahın Kitabında açıq-aydındır".

Sonra isə bu ayəni tilavət etdi: ***"Sizi mütləq bir az qorxu və aclıqla, eləcə də mal, can və məhsul azlığı ilə imtahan edəcəyik. Səbr edənlərə müjdə ver"***.[87]

Zühur ilini xarakterizə edən bu şərafətli hədislərin toplusundan belə nəticə əldə edirik ki, həmin il çoxlu zəlzələlər və fitnələr baş verəcəkdir. Həmin fitnələr siyasi stabilliyin aradan getməsinə, çoxlu ixtilaf və müharibələrə gətirib çıxaracaqdır ki, bu da dünya müharibəsinə səbəb olacaqdır. Rəvayətlərdə bu, Qirqisiya döyüşü kimi qeyd edilmişdir. Biz tezliklə buna işarə edəcəyik. Nəticə budur ki, çoxlu döyüşlər, xovf, aclıq, qətllər, ölümlər baş verəcəkdir. Bu ilin hadisələri müqəddəs fəcrin nurunun saçması *(Məhdinin (əleyhissəlam) zühuru)* ilə nəticələnəcək ki, dünya haqq-ədalətlə dolacaqdır.

Zühur ilinin hadisələrinə işarə edən ümumi və yığcam hədisləri bəsit şəkildə qeyd etdikdən sonra şərafətli hədislər görürük ki, dəqiq bəlirti ilə müfəssəl hadisələri, xüsusilə zühur ilinin ikinci yarısını aydın edir. Biz gələcək hissələrdə onu izah edəcəyik.

---

[87] Ğeybətun-Numani, s.168; Biharul-ənvar, c.52, s.229.

# İKİNCİ HİSSƏ:

# RƏCƏB AYININ HADİSƏLƏRİ

Bu hissədə biz Rəcəb ayında baş verəcək mühüm hadisələrə işarə edəcəyik. Bu aydan məqsəd İmamın *(əleyhissəlam)* Məhərrəm ayında zühur edəcəyi ilin fəqət beş ayından öncədir. Bu da dəlillərin təkidi sayəsindədir. Biz baş verəcək hadisələri bildirən rəvayətlərə əsasən, bu ayın hadisələrinə diqqət edəcəyik:

***1 – Leysan yağan yağışların sona çatması***

Ali-Muhəmmədin Məhdisi *(əleyhissəlam)* zühur edəcəyi il ağır bir qəhətlik baş verəcəkdir. Cəmadiul-ulya ayının iyirmisi olduqda leysan yağış yağacaqdır. Belə ki, Adəm *(əleyhissəlam)* yerə hübut etdikdən bəri məxluqat belə bir yağış görməmişdir. Bu yağış Rəcəb ayının onuna qədər davam edəcəkdir.

İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğu nəql olunmuşdur: “Qaimin *(əleyhissəlam)* qiyamı zamanı Cəmadius-sani və Rəcəbin on günündə məxluqata elə bir yağış yağacaq ki, onun kimisini bundan öncə görməmişlər”.[88]

Şeyx Müfid “əl-İrşad” kitabında belə qeyd etmişdir: “Sonra bu, iyirmi dörd ardıcıl yağan yağışla xətm olunacaq ki, yeri ölmüş olduqdan sonra dirildəcək və bərəkəti üzə çıxacaqdır”.[89]

Habelə rəvayətlər dəlalət edir ki, İmamın *(əleyhissəlam)* zühuruna yaxın əlamətlə leysan yağışların yağması, səmadan çoxlu suyun enməsidir. Bu isə bir növ zühur üçün hazırlıq gör-

---

[88] Biharul-ənvar, c.52, s.337; İlzamun-nasib, c.2, s.159; Tarixu ma bə`dəz-zuhur, s.137.

[89] Əl-İraşu lil-Mufid, c.2, s.370; Tarixu ma bə`dəz-zuhur, s.137.

məkdir. Çünki yer əkinçilik üçün kifayət qədər səmərəli və bərəkətli olsun.

Yağışın enməsi təbii durumu ilə möcüzə deyil. Ancaq müddət və kəmiyyəti baxımından istisnadır. Rəvayətlərin siyaqından belə aydın olur ki, möcüzəlik baxımındandır. Odur ki, Əmirəlmömininin *(əleyhissəlam)* kəlamının məğzini anlayırıq: "Cəmadi ilə Rəcəb arasında olan olduqca əcibdir *(təəccüblü, heyrətamizdir)*".

Bu yağışın müddəti barədə müxtəlif rəylər mövcuddur. Şeyx Əli Kurani qeyd edir: "Uzaq deyil ki, Cəmadidən Rəcəbə qədər davam edən bu yağışlar onun *(əleyhissəlam)* zühurundan sonra baş verəcək. Belə ki, zühurun əlamətlərindən olan bir neçəsi genişlik baxımından bu anlamda adlandırılmışdır".[90]

Lakin bunu zühurun nişanələrindən hesab edən Seyid Muhəmməd Sadiq Sədrin nəzərini daha məqbul hesab edirəm. O belə deyir: "Suyun və enən yağışın çoxluğunu zühurdan öncə bilməyimiz daha üstündür. Çünki əgər zühurdan sonra baş versə, Qaib Məhdinin *(əleyhissəlam)* yerinə yetirmək istədiyi bir sıra fəaliyyətlərə maneə törədər. Odur ki, onun zühurdan öncə olması yağışın faydaları üçün qazanc əldə edir, həm də sair faydalar ilə onun üçün ikiqat təsiri vardır".[91]

Bu mülahizəyə işarə etməyim gərəkdir ki, rəvayətlər bu yağışın baş verməsinin məkan və keyfiyyətinə dəlalət etməyib... Lakin mühüm olan budur ki, bu yağışları zühur zamanının yaxın olması üçün bir əlamət kimi nəzərdə tutmalıyıq. Daha onun yağmasının yerdə qalan yağışlardan nə ilə fərqlənməsi, miqdar və məkanın heç bir fərqi yoxdur.

[90] Əl-Muməhhidun lil-Mehdi, s.40.
[91] Tarixu ma bə`dəz-zuhur, s.137.

***2 – Süfyaninin xüruc etməsi (Qəti əlamətlərdəndir)***

Bir nəfər xüruc edəcək ki, ona Süfyani deyilər *(Osman ibn Ənbəsə Ali-Əbu Süfayndan, Yezid ibn Müaviyənin nəslindəndir)*. O, Şam hüdudunda *(Dəməşq dərəsində)* Yabis vadisində ortaya çıxacaq. O, yolundan çıxmış, həqiqətlə düşmənçilik edən müsəlman hakimlərinin rəmzi olaraq təmsil olunacaq ki, ondan sonra belə bir kəs görülməyəcəkdir. Onun xüruc etmə zamanı – etibarlı rəvayətlərə müvafiq olaraq[92] – Rəcəb ayındadır və ehtimal var ki, axır on günündə və Cümə günündə olsun. Belə ki, İmam Məhdinin *(əleyhissəlam)* Məkkədə zühur etməsilə Süfyaninin inqilab etməsi arasında yalnız altı ay fasilə vardır.

İmam Sadiq *(əleyhissəlam)* buyurmuşdur: "Süfyani qəti əlamətlərdəndir və onun xürucu Rəcəb ayında olacaqdır. Beş əraziyə yiyələndikdə doqquz ay başçılıq edəcəkdir. Onun hökuməti bir gün belə artıq olmayacaqdır".[93]

İmam Baqir *(əleyhissəlam)* buyurmuşdur: "Süfyani və Qaim – hər ikisi bir ildədir *(zühur etmələri eyni ilə təsadüf edir)*".[94]

Həmçinin buyurmuşdur: "Süfyaninin, Yəmaninin, Seyid Xorasaninin zühur etməsi eyni ildə, eyni ayda və eyni gündədir. Necə ki, təsbeh dənələri bir-birinin ardınca gələr, onlar da bir-birinin ardınca fasiləsiz olaraq zühur edəcək".[95]

İmam Baqirin *(əleyhissəlam)* belə buyurduğu nəql olunmuşdur: "Əmirəlmöminin *(əleyhissəlam)* buyurmuşdur: "Nizələr Şamda ixtilaf etdiyi zaman *(bu ixtilaf)* yalnız Allahın əlamətlərindən bir əlamət baş verincə sona çatacaq".

Dedilər: "Nədir o əlamət, ey möminlərin Əmiri?"

Dedi: "Şamda bir sarsıntının baş verməsi. Bu zaman yüz mindən çox insan həlak olacaq. Allah onu möminlər üçün rəh-

[92] Əs-Sufyani – Muhəmməd Fəqih, s.118.
[93] Ğeybətun-Numani, s.202.
[94] Ğeybətun-Numani, s.178.
[95] Ğeybətun-Numani, s.171; İlamul-vəra, s.429; Biharul-ənvar, c.52, s.232.

mət, kafirlər üçün isə əzab qərar verəcək. Bu baş verdiyi zaman kəsik qulaqlı boz atların sahiblərini və qərb tərəfdən gəlib Şama daxil olacaq sarı bayraqları gözləyin. Bu böyük qorxu və qırmızı ölüm baş verdiyi zaman olacaq. Bu baş verdiyi zaman, Dəməşqin Hərəsta adlanan kəndinin batmasını gözləyin. Bu baş verdiyi zaman ciyəryeyən qadının oğlu *(Süfyani)* quru vadidən xüruc edəcək. Ta ki, gəlib Dəməşq minbərinə əyləşəcək. Bu baş verdiyi zaman Məhdinin *(əleyhissəlam)* xürucunu gözləyin..."[96]

Bu, Süfyaninin xürucunun başlanğıcına açıq-aydın işarədir.

Ola bilər ki, Süfyaninin fəaliyyətləri və İslam cəmiyyətinin mübtəla olduğu müsibət və sıxıntılar barədə ən üstün təhlil və bəyanı Əllamə Seyid Muhəmməd Sadiq Sədr özünün "Ma bə`-dəz-zuhur" adlı kitabında (s.165-167) qeyd etmişdir ki, onun söhbətini bir az müdaxilə etməklə burada qeyd edirik:

Dəməşq *(Şam)* həmin zaman daxili döyüşlərin, üç dəstə arasında silahlı çəkişmələrin *(Əbqə, Əshəb və Süfyani... və o, siyası və hərbi ağırlıq mərkəzini təmsil edər)* səhnəsi olacaqdır. Hər üçü haqq yoldan azacaq və hər biri taxt-tac və hökuməti özü üçün istəyəcəkdir. – Rəvayətlər onların təfəkkür və ideologiyasını bizim üçün aydın etmişdir – Əbqə və qoşunları Süfyani ilə döyüşəcəkdir. Nəticəsi Süfyaninin qələbəsi, Əbqə və tərəfdarlarının ölümü ilə nəticələnəcəkdir.

Süfyani ilə Əshəb arasında gedən döyüşdə də bu cür olacaqdır. Döyüşlərin sonuncu fatehi Süfyanidir. Bu hadisələr bu ayənin bariz nümunəsidir: ***"Beləliklə onların arasından dəstələr ixtilafa düşdülər. Buna görə də vay küfr etmiş kəslərin böyük gündəki halına!"***[97]

Hökuməti zamanı Süfyaninin qərərgahı Şam olacaqdır və oranın əhalisi ona tabe olacaqdır. Az bir dəstədən savayı. Süf-

---

[96] Ğeybətun-Numani, s.206; Ğeybətut-Tusi, s.277; Biharul-ənvar, c.52, s.253.
[97] Məryəm, 37.

yani bu zaman beş məntəqəyə: Dəməşqə, Hümsə, Fələstinə, İordaniyaya və Qinnisrinə hökümət edəcəkdir.

Onun üçün bu qədərin müyəssər olduğunu gördükdə, İraqa da tamah salacaqdır və bu fikirə düşəcəkdir ki, oraya hərbi qoşun göndərsin. Ona görə də ən azı səksən min nəfər qüvvəsi olacaq və başçısı da özü olacaqdır. Yol əsnasında İraq hökümətinin müdafiə və qarşısında durması üçün onlara göndərmiş olduğu ordu ilə qarşılaşacaqlar. Bu iki qoşun bir-birilə Qirqisiya məntəqəsində *(İraq sərhədləri yaxınlığında Suriyada baş verəcəkdir)* vuruşacaqdır. Türklər *(ruslar)* və rumlular *(avropalılar və amerikalılar)* da döyüşdə iştirak edəcəklər. Onların döyüşü sarsıdıcı olacaq. Orada yüz min nəfər civarında zülmkar və qəddar insanlar öldürüləcəkdir. Həmin döyüşdə öldürülən zülmkar və qəddar insanlardan məqsəd fasiq, yolunu azmış kəslərdir. Bu cəhətə görə məntəqə Məhdinin *(əleyhissəlam)* zühurundan sonra onun müqabilində cəbhə qurması mümkün olan hərbi qüvvələrin ən əhəmiyyətlisindən xilas olacaqdır.

Hər bir halda, bu döyüşdə də Süfyani qələbə qazanacaq və İraqa varid olacaqdır. Orada "Ərzul-Cəzirə"də *(İraqın iki çayının arası)* naçar olaraq Yəmani ilə üz-üzə gələcəkdir *(yaxud Yəmaninin dairəsinə girəcəkdir – müt.)* ki, ona da qələbə çalacaq. Həmçinin Yəmaninin məntəqələrdəki hərbi əməliyyatlar nəticəsində topladığı qoşunlara sahib çıxacaqdır.

Sonra Kufəyə yollanaraq orada qətliamlar, edam və xalqı əsir götürməyə başlayacaqdır. Orada Ali-Muhəmmədin *(sallallahu əleyhi və alih)* yardımçılarını və həmçinin onlara mənsub olan bir nəfəri qətlə yetirəcəkdir. Sonra onun carçısı Kufədə nida çəkəcəkdir ki, kim Əli şiələrindən birinin başını gətirsə min dirhəm *(paylıq)* alacaqdır. Odur ki, bir qonşu İslamda həmməzhəb olmayan qonşusuna hücum çəkərək deyəcək: "Bu da onlardandır". Onun boynunu vurub, başını Süfyaninin hökümətinə təhvil verəcək, oradan min dirhəm alacaqdır.

Kufədə əhali və dəstəkçilər tərəfindən yaradılan zəif hərəkatlar və kiçik ordular bu şəhəri Süfyaninin ordurusun əsarəti altından xilas edə bilməyəcək. Əksinə, Süfyani bu hərəkatın başçısını Hirə və Kufə arasında qətlə yetirəcəkdir. Ondan sonra da çoxlu sayda qanlar axıdacaqdır.

Hökuməti İraqda davam etdiyi müddətdə İrana qoşun yeritmək sevdasına da düşəcəkdir. Odur ki, oraya yollanacaq və Şiraz məntəqəsinə *(Bab İstəxr)* çatacaqdır. Orada döyüş meydanında Seyid Xorasani ilə üzbəüz gələcəkdir.

Eyni halda Süfyani Hicazın müqəddəs ərazilərində hökümət etmək tamahına düşəcəkdir. Odur ki, Bəni Üməyyədən olan Xüzeymənin başçılığı altında bir qoşunu oraya ezam edəcəkdir. *(Əksər rəvayətlər qeyd edir ki, Süfyaninin özü bu qoşunda olmayacaq)* Qoşun bütün qüvvəsilə Mədinə istiqamətində hərəkət edəcəkdir və bu, o əsnada baş verəcək ki, İmam Məhdi *(əleyhissəlam)* Məkkədə olacaqdır. Onun zühur günlərinin başlanğıcı olacaqdır. Onun xəbərlərini izləyəcəkdir. Süfyani onun ardınca Məkkəyə tərəf ordu göndərəcək ki, onu qətlə yetirməyə, özünü və əshabını ortadan qaldırmağa çalışsın. Rəvayətlərin siyaqından görünən budur ki, Məkkəyə yönələn bu qoşun elə Mədinəyə gedən qoşundur ki, üç gün ərzində orada camaatını qarət və qətl, Rəsuləllahin *(sallallahu əleyhi və alih)* məscidini viran günə qoymuşdular.

Bircə bu var ki, Məkkə əmin-amanlıq hərəmidir və orada olan kəs öz canına görə qorxuya düşməməlidir. Habelə İmam Məhdi *(əleyhissəlam)* elə bir rəhbərdir ki, vəd olunan gün, aləmin hidayəti üçün saxlanılmışdır. Odur ki, qətlə yetirilməsi mümkün deyil və himayə olunması labüddür... Zərurət və məsləhət belə cərəyan edəcək ki, bu qoşun aradan gedəcək və ilahi qəza onlar üzərində icra olunacaqdır. İlahi möcüzə ilə səhra bu qoşunu udacaq və iki nəfərdən başqa qalanlarından heç bir əsər-əlamət qalmayacaqdır. *(Bu iki nəfər isə Bəşir və Nəzir kimi adlandırılırlar. Onlar Cüheynə qəbiləsindən olar. Ona görədir ki,*

*belə deyilib: "Yəqin xəbər Cüheynədədir")*[98] Bu iki nəfər camaata yoldaşlarının başlarına gələni xəbər verəcəklər.

İlahi təqdir Süfyaninin ordusunun yerə batması ilə nəticələnsə də Suriya, İraq, İordaniya, Fələstin, Ərəbistan yarımadasının geniş ərazisi hələ də Süfyaninin hökuməti altında qalacaqdır. Ordunun səhrada udulmasından qısa müddət sonra İmam Məhdi *(əleyhissəlam)* hərəkət edəcək və onu ordusu ilə birlikdə İraqa qaytaracaq, onunla döyüşəcək, onun üzərində qələbə çalacaq və öldürəcəkdir. Bu hadisə isə Rəmlə məntəqəsində baş verəcəkdir. İmam Məhdi *(əleyhissəlam)* Süfyaninin hökumət etmiş olduğu bütün məntəqəyə sahib olacaq və buradan İmam Məhdinin *(əleyhissəlam)* dünya fəthi üçün münasib fürsət yaranacaqdır".

Ardınca Süfyaninin xüruc etməsi və onun durumunu göstərən hədis mənbələrindən bəzi şərafətli hədislərə və rəvayətlərə bizə kifayət edəcək qədər işarə edək.

Əmirəlmöminin *(əleyhissəlam)* buyurmuşdur: "Ciyəryeyənin oğlu quru vadidən çıxar. O, orta boylu bir adamdır. Siması vəhşətlidir[99]. Başı enlidir *(və iridir)*, üzündə çiçək xəstəliyinin əlaməti var. Onu gördüyün zaman təkköz hesab edərsən. Onun adı Osman, atası Ənbəsədir. O, Əbu Süfyanın nəslindəndir. Qərargah və mənbə olan yerədək gəlib minbəri üzərində qərar tutar".[100] Qərargah və mənbə olan yer Dəməşqdir.

İmam Baqir *(əleyhissəlam)* buyurmuşdur: "Bəni-filan mütləq hakimiyyət edəcək. Elə ki hakimiyyət etdilər, sonra ixtilafa düşdülər və işləri *(birlikləri)* parçalandı, Xorasani və Süfyani onlara qarşı qiyam edəcəklər. Bu şərqdən, o isə qərbdən. İki yarış atı kimi Kufəyə doğru tələsəcəklər. Biri buradan, biri oyandan. Nəhayət onların *(Bəni-Abbasın)* həlak olmaları onların əli

[98] Bəşarətul-İslam, s.21; Yəumul-xilas, s.293.
[99] Yəni onu görən dəhşətə gələr və onunla ünsiyyət qurmaq istəməz.
[100] Kəmalud-din, s.651; Bəşarətul-İslam, s.46.

ilə baş verəcək. Bilin, onlar Bəni-Abbasdan bir nəfəri belə *(sağ)* saxlamayacaqlar".[101]

Cabir ibn Yezid Cufi İmam Baqirdən *(əleyhissəlam)* nəql etdiyi uzun bir hədisin gedişatında belə buyurduğunu nəql edib: "*(Digər bir əlamət)* səmadan nida edəcək bir nidaçıdır. – *(Rəcəb ayında üç nidaya işarədir)* – Dəməşq tərəfdən sizə fəth *(xəbəri)* verən bir səs gələcək. – *(Səslər Dəməşqdə baş tutacaq toplantı və görüşlərdir. Həmçinin bunun nəticəsində bəyanatlardan sadir olanlardır)* – Şam kəndlərindən olan Cabiyə adlı bir kənd yerə batacaq. – *(Batmanın daxili, yaxud dövtlətlə əlaqəli hərbi döyüşün olması mümkündür. Havadan bombalama batmağın səbəblərindəndir. Bu isə rəvayətlərdən görünən baxımından türklərin və rumluların məntəqəyə yetişməsindən öncədir. Tam olaraq Qirqisiya döyüşündən öncədir.)* – Dəməşq məscidinin – *(Əməvi məscidi)* – sağ tərəfinin bir hissəsi uçulacaq. Türklər tərəfdən dindən çıxmış bir dəstə xüruc edəcək. Bunun ardınca Rumluların hərc-mərcliyi baş verəcək. Türk qardaşları gəlib Cəzirəyə yerləşəcəklər . Rumlulardan olan dindən çıxmışlar da gəlib Rəmləyə yerləşəcəklər. O il, ey Cabir, Məğribin hər bir yerində çoxlu ixtilaflar baş verəcək. İlk dağılan yer Şam olacaq. Onun üstündə üç bayraq ixtilaf edəcək: Əshəbin bayrağı, Əbqənin bayrağı və Süfyaninin bayrağı. Süfyani Əbqə ilə qarşılaşacaq və onlar döyüşəcəklər. Süfyani onu və onun adamlarını öldürəcək. Sonra Əshəbi öldürəcək. Bundan sonra onun yeganə istəyi İraqa tərəf irəliləmək olacaq. Ordusunu Qirqisiyaya göndərəcək. Onlar Qirqisiyada döyüşəcəklər. Orada yüz min zalım öldürüləcək. Sonra Süfyani yetmiş minlik bir qoşunu Kufəyə göndərəcək. Onlar Kufə camaatını öldürəcək, asacaq və əsir edəcəklər. Onlar bu vəziyyətdə ikən Xorasan tərəfdən bayraqlar gələcək. Onlar mənzilləri çox sürətlə qət edəcəklər. Onlarla birgə Qaimin əshabından olan bir neçə nəfər də olacaq. Sonra Kufə camaatının

---

[101] Ğeybətun-Numani, s.171; Biharul-ənvar, c.52, s.234; İlzamun-nasib, c.2, s.130.

himayədarlarından *(böyük şəxslərindən)* olan bir kəs *(Süfyani ordusunun zülmünə qarşı)* zəif bir dəstə ilə qiyam edəcək. Lakin Süfyaninin qoşununun başçısı onu Kufə ilə Hirə arasında qətlə yetirəcək. Süfyani Mədinəyə bir qoşun göndərəcək. Məhdi *(bunu bilib)* Mədinədən Məkkəyə qaçacaq. Süfyaninin ordusunun rəhbərinə xəbər çatacaq ki, Məhdi Məkkəyə tərəf yollanıb. Beləliklə onun ardınca bir qoşun göndərəcək, lakin onu tuta bilməyəcək. O isə Musa ibn İmran *(əleyhissəlam)* kimi qorxan və gözdə-qulaqda olan bir halda Məkkəyə daxil olacaq".

Sonra dedi: "Süfyani ordusunun başçısı Beyda çölünə gələcək. Bu zaman bir carçı nida edib deyəcək: Ey Beyda, məhv et bu qövmü. O da onları udacaq. Onlardan yalnız üç nəfəri qurtula biləcək. Allah onların üzlərini başlarının arxasına çevirəcək. Onlar Kəlb qəbiləsindəndirlər. Bu ayə onlar barədə nazil olmuşdur: ***"Ey kitab verilmiş kəslər, bəzi üzləri məhv edərək arxalarına çevirməmişdən qabaq yanınızda olanın təsdiqi olan nazil etdiyimizə*** *(Qurana)* ***iman gətirin***"[102].[103]

İmam Sadiq *(əleyhissəlam)* buyurmuşdur: "Elə ki, Süfyani beş məntəqəni ələ keçirdi, onun üçün doqquz ay sayın".

Hişam idda etdi ki, beş məntəqə bunlardır: Dəməşq, Fələstin, Urdun *(İordaniya)*, Hums və Hələb" .[104]

Əmirəlmöminin *(əleyhissəlam)* buyurmuşdur: "...Bu baş verdiyi zaman Süfyani çıxacaq və hamilə qadının hamiləlik müddəti qədər – doqquz ay hakimiyyət edəcək. Şamda xüruc edəcək. Şam əhli haqq üzərində sabit qalan bir neçə dəstədən başqa hamılıqla ona tabe olacaqlar. Allah bu şəxsləri Süfyani ilə birgə qiyam etməkdən qoruyacaq. Sonra o Mədinəyə böyük bir qoşun göndərəcək. Qoşun gəlib Mədinə çölünə *(Beydaya)* çatınca Allah onları yerə batıracaq. Bu barədə izzət və cəlal sahibi olan Allah buyurur: ***"Sən onları vəhşət içərisində olduqları***

---

[102] Nisa, 47.
[103] Ğeybətun-Numani, s.187; Biharul-ənvar, c.52, s.238.
[104] Ğeybətun-Numani, s.205; İlzamun-nasib, c.2, s.116.

***zaman bir görəsən. Artıq onlar qaçıb can qurtara bilməzlər və yaxın bir məkandan yaxalanarlar”***[105].[106]

İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğu nəql olunmuşdur: “Sanki Süfyani və onun tərəfdarlarını görürəm ki, əşyalarını sizin Kufədəki məhəllələrinizə salmışdır *(Sizin məntəqəyə köç etmişdir)*. Onun carçısı nida edir ki, kim Əli şiəsinin başını gətirsə min dirhəm götürəcəkdir. *(Bu sözdən sonra)* qonşu öz qonşusuna hücum çəkib, deyər ki, bu onlardandır. Onun boynunu vurub, min dirhəm alar. Həmin vaxt sizin əmirləriniz yalnız pozğun qadınların övladları olar. Sanki mən Burqu *(rubənd, pərçəm)* sahibinə baxıram”.

Ravi soruşdu ki, “Burqu sahibi kimdir?”

Buyurdu: “Sizdən olan bir kişidir. Siz özünüz ona “O rubənd vurmuşdur *(üzünü örtmüşdür)*” – deyəcəksiniz. O sizə sarı gələr və sizi tanıyar. Ancaq siz onu tanımayacaqsınız. O tək-tək sizi yoxlayacaqdır. Amma ona gəlincə, pozğun qadının oğlundan başqası olmaz”.[107]

Süfyaninin hərəkatı və buna dair şərafətli rəvayətlərdən müxtəsər dəlilləri izah, buna aid çoxlu işarə və mətləblərə diqqət etdikdən, həmçinin bəzi Quran ayələrinə toxunduqdan sonra söz buna təkid edir ki, Süfyani rəvayətdə daha aydın, möhkəm və etimad olunası bir əlamətdir ki, az qala qüvvəsi səmadan nida eşidilməyənədək və çöldə yerə batmayanadək azalmayacaqdır. Belə ki, yaxın gələcəkdə görəcəyik ki, ona aid digər nişanələr də vardır. Xüsusən yerə batmaqdır ki, onun qoşununa aiddir.[108]

Süfyaninin dəlillər arasında qəti olması məqbul və dəlaləti açıq-aydındır. Şübhə yoxdur ki, Süfyani hesaba alınmadıqda “xüsuf” *(yerə batma)* məsələsinin də aradan çıxmasına gətirib

---

105 Səba, 41.
106 Ğeybətun-Numani, s.206; Biharul-ənvar, c.52, s.252.
107 Ğeybətut-Tusi, s. 273; Biharul-ənvar, c.52, s.215; Bəşarətul-İslam, s.124.
108 Əs-Süfyani – Muhəmməd Fəqih, s.106.

çıxaracaqdır. Belə ki, "seyhət" *(çığırtı)* və "xüsuf" rəvayətlərini Süfyani rəvayətlərinə cəm etsək, təkid olunası təvatür həddinə çıxacaqdır. Habelə, Süfyaninin aradan qaldırılması Əshəb və Əbqə və Qirqisiya cərəyanını da aradan qaldıracaqdır. Habelə Şam fitnəsi, İraq fitnələri, hətta Yəmani, Seyid Xorasani və başqa əlamətlərin bir hissəsi də Süfyani ilə əlaqədardır. Buna görə də təkid edirik ki, Süfyani qəti əlamətlərdəndir. Əlbəttə, Allah daha biliklidir.

Sonda Şeyx Tusinin "Əmali"də, Şeyx Səduqun "Məaniul-əxbar"da qeyd etdiyi hədisi zikr etmək yerinə düşər. İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğu nəql olunmuşdur: "Biz və Əbu Süfyan ailəsi iki ailəyik ki, Allaha xatir düşmən olmuşuq. Biz deyirik ki, Allah doğru deyir. Onlar isə "yalan deyir" – söyləyir. Əbu Süfyan Peyğəmbər *(sallallahu əleyhi və alih)* ilə, Müaviyə ibn Əbu Süfyan Əli *(əleyhissəlam)* ilə, Yezid ibn Müaviyə Hüseyn *(əleyhissəlam)* ilə döyüşdü. Süfyani də Qaim *(əleyhissəlam)* ilə vuruşacaqdır".[109]

### *3 – Yəmaninin xüruc etməsi (Qəti əlamətlərdəndir)*

Şərafətli hədislər bizə Yəmanini və onun hərəkatını hidayət bayrağı kimi xarakterizə edir. Belə ki, o, Yəməndə zahir olacaqdır və onun zühur etməsi Süfyanin Şamda çıxması ilə eyni zamana təsadüf edəcəkdir. Yəmani haqqa sarı dəvət edəcəkdir və onun dəvətini qəbul etmək vacibdir. O, İraqa və Şama sarı yollanacaqdır. Süfyani ilə döyüşdə Xorasani ilə birlikdə iştirak edəcəkdir. Həmçinin o, Zeyd ibn Əli ibn Hüseynin *(əleyhissəlam)* nəslindəndir.

İmam Baqirin *(əleyhissəlam)* belə buyurduğu nəql olunmuşdur: "Süfyaninin, Yəmaninin və Xorasaninin ortaya çıxması eyni ildə, eyni ayda və eyni gündə baş verəcək. Onların ortaya

[109] Bİharul-ənvar, c.52, s.190; İlzamun-nasib, c.2, s.131; əs-Süfyani, s.125; Yəumul-xilas, s.694.

çıxmaları sapa düzülmüş muncuqların məsəli kimi olacaq ki, biri o birisinin ardınca gələcək. Hər tərəfdə sıxıntı baş verəcək. Onlarla düşmənçilik edənin vay halına. Bayraqlar içərisində ən doğru yolda olanı Yəmaninin bayrağıdır. O hidayət bayrağıdır. Çünki o, insanları sizin sahibinizə tərəf dəvət edəcək. Yəmani xüruc etdiyi zaman camaata və hər bir müsəlmana silah satmaq haram olacaq. Yəmani xüruc etdiyi zaman ona tərəf tələs. Çünki onun bayrağı ən doğru bayraqdır. Heç bir müsəlmana ona qarşı çıxması halal deyil. Kim belə edərsə Cəhənnəm əhlidir. Çünki o, insanları haqqa və doğru yola tərəf çağıracaq”.[110]

Həmin zaman bütün aləmin durumu mədəniyyətlərin böyük döyüş meydanında xülasə olacaqdır. Belə ki, bu döyüş meydanı Şam, Fələstin, İraq, İran və Hicaz ərazilərini əhatə edəcəkdir. Bu döyüşdə iki dəstə və iki qoşun bir-birinin qarşısında siyasi-nizami mübarizəyə məşğuldurlar. Bu iki dəstə Məhdinin *(əleyhissəlam)* köməkçilərindən və onun qiyamı üçün zəminə yaradanlardan ibarətdir. Süfyaninin hərəkatına isə qərbdən kömək olunar *(rumlular və yəhudilər)*... Bu çağdaş döyüş meydanındakı və zühur ilinin hadisələrinin burulğanında hədəf nöqtəsi və ağırlıq mərkəzi Qüdsdür.

Bu hesabla belə deyil ki, İmam Məhdinin Məkkədə Məscidul-haramdan başlayan hərəkəti – hədəfi Fələstində Əqsa məscidinə yetişmək olan birinci hərəkətdir. Əksinə, İslam ümmətinin bütün hərəkətlərinin tacı və başlanğıcları elə Qüdsə sarı tələsməkləridir. Belə ki, İranda Seyid Xorasani, Yəmədən müsəlman başçısı *(Yəmani)* Qüdsə sarı yönələcəkdir. Rəvayətlər onun hərəkətini hidayət bayrağı kimi xarakterizə etmişdir.

### *4 – Xorasaninin çıxması*

Xorasan bayraqları, yaxud qara bayraqlar... Bu qoşunda Qaimin *(əleyhissəlam)* əshabından olan bir hissə Xorasaninin rəh-

[110] Ğeybətun-Numani, s.171; Biharul-ənvar, c.52, s.232.

bərliyi altında olar... İmam Baqir *(əleyhissəlam)* uzun bir hədisin gedişatında buyurmuşdur: "... Sonra Süfyani yetmiş minlik bir qoşunu Kufəyə göndərəcək. Onlar Kufə camaatını öldürəcək, asacaq və əsir edəcəklər. Onlar bu vəziyyətdə ikən Xorasan tərəfdən bayraqlar – *(Xorasaninin rəhbərliyi altında)* – gələcək. Onlar mənzilləri çox sürətlə qət edəcəklər. Onlarla birgə Qaimin əshabından olan bir neçə nəfər də olacaq.."[111]

Əmirəlmöminin *(əleyhissəlam)* buyurmuşdur: "Fərəci üç şeydən gözləyin: Şam əhlinin aralarında olanla əlaqədar ixtilaf etməsi, Xorasandan qara bayraqlar, Ramazan ayında qorxu"..[112]

İmam Baqir *(əleyhissəlam)* buyurmuşdur: "Sanki mən şərq tərəfdən çıxan bir qövm görürəm ki, haqqı tələb edirlər, lakin haqqı onlara vermirlər. Sonra yenə tələb edirlər, lakin yenə də vermirlər. Onlar belə olduğunu görüncə qılınclarını çiyinlərindən asacaqlar. Bu dəfə istədikləri şeyi onlara verəcəklər, lakin onlar qəbul etməyəcəklər. Beləcə qiyam edəcəklər və onu *(əldə etdikləri hakimiyyəti və ya haqqı)* yalnız sizin sahibinizə təhvil verəcəklər. Onlardan öldürülənlər şəhiddirlər. Lakin əgər mən o zamanda yaşasaydım özümü bu işin sahibi üçün saxlayardım".[113]

Əmirəlmöminin *(əleyhissəlam)* uzun bir hədisin gedişatında buyurmuşdur: "Süfyaninin qoşunu Kufə səmtinə çıxdığı zaman onları Xorasan əhlinin ardınca göndərər. Xorasan əhli də Məhdinin *(əleyhissəlam)* tələbində çıxar. Süfyani və qara bayraqlarla Haşimi *(Seyid Xorasani)* bir-birilə qarşılaşarlar. Ön xəttə Şüeyb ibn Salehdir ki, Süfyani ilə İstəxr qapısında *(Şiraz məntəqəsidir. Onun qarşısında körfəzin başqa bir sahili Qətif məntəqəsidir)* onların arasında əzəmtli bir savaş baş verəcəkdir. Qara bayraqlar qalib olacaq *(məğlub edəcək),* Süfyaninin qoşunu qaçacaqdır. Həmin vaxt camaat Məhdini *(əleyhissəlam)* arzulayacaq və onu istəyəcəklər. O, Məkkədən

---

[111] Ğeybətun-Numani, s.187.
[112] Biharul-ənvar, c.52, s.229; Yəumul-xilas, s.645.
[113] Ğeybətun-Numani, s.182.

çıxacaqdır və onunla birlikdə Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* bayrağı olacaqdır. Bu isə bəlalar uzun çəkdiyi üçün camaat onun zühur etməsindən məyus olduqdan sonra baş verəcəkdir.[114]

Hədislər Xorasaninin qoşununun bəzi xüsusiyyət və adlarını belə bəyan etmişdir:

Haşimi *(Xorasani)* siyasi bir rəhbərdir. Onun sağ əlində xal var. Əs-Seyyidul-Əkbər *(Böyük başçı)* o kəsdir ki, bayraqları onun möhürü ilə möhürlənər. Şüeyb ibn Saleh qarabuğdayı cavan, iti zəkalı, Rey əhlindəndir *(Tehran)* və qüvvələrinin başçısıdır. Taliqan xəzinələri elə Taliqan məntəqəsinin gəncləridir *(Tehranın şimal bölgəsi)*. Onlar Məhdinin *(əleyhissəlam)* əshabından olacaq. Onları hədislər Allahın xəzinələri kimi vəsf etmişdir".[115]

Rəvayətlər bunu göstərir ki, iranlılar düşmənləri ilə döyüşəcəkləri uzun bir müharibədən sonra Şüeyb ibn Salehi öz qoşunun başçısı seçən Haşimi ilə beyət edəcəklər. Hədislər iranlıların düşmənləri ilə döyüş meydanını həmin ərazindən xaricdə – yəni İraq, Şam və Fələstin kimi açıqlayır. Bu isə onların daxili siyasi vəziyyətlərinin stabilliyinə dəlalət edir. Bircə Qirqisiya döyüşü əsnasında iranlıların daxili vəziyyətində olan bircə nizamsızlıq durumu istisnadır. Hansı ki, bu durum Süfyani, türklər, bəzi rumlular *(qərblilər)* və bəzi iraqlı ordular arasında bir əsas olacaqdır. İranlıların qüvvəsi döyüş sahəsinə yaxın olacaq və onlar orada iştirak etmək istəyəcəklər. Ancaq onlar əlac tapmaq üçün Qirqisiyadan geri çəkiləcəklər *(daxili vəziyyəti düzəltmək üçün)*. Odur ki, öz ölkələrinə geri qayıdacaq, sonra Qirqisiya döyüşündə qələbə çaldıqdan sonra Süfyani ilə qarşılaşmaq üçün hazırlıq görəcəklər.

İranlıların qiyam etməkdə hədəfi Qüdsün azadlığıdır ki, İraqı keçdikdən sonra oranı fəth edərlər. Hədislər İstəxr məntəqəsin-

---

[114] Bəşarətul-İslam, s.184; Yəumul-xilas, s.651; əs-Süfyani – Fəqih, s.77.
[115] Əl-Muməhhidun lil-Məhdi, s.54.

dən olan milli yürüşdən xəbər verir ki, Hicaz hadisələri və Məhdinin *(əleyhissəlam)* Məkkədə çıxmasından *(zühur etməsindən)* sonra olacaqdır. Məşriq əhli onu qarşılamağa çıxar. O isə Məkkədən İraqa sarı yönələr və İstəxrdə onlara yetişər. Orada ona beyət edərlər və onunla birlikdə Süfyaniyə qarşı döyüşərlər.[116]

***5 – Günəş diskində kamil bədənin görsənməsi və səmadan işarə edən əl***

Rəcəb ayında rəbbani bir möcüzə baş verəcəkdir ki, bütün bəşəriyyət onun əzəmətindən heyrətdə qalacaqdır. Onlar aşağıdakılardır:

***A – Günəş diskində insan sinəsinin və simasının çıxması***

İmam Baqir *(əleyhissəlam)* Allah-taalanın ***"Əgər istəsək göydən onlara elə bir nişanə nazil edərik ki, onun müqabilində onlar boyun əyib itaət edərlər"***[117] ayəsi barədə belə buyurmuşdur: "Tezliklə Allah bunu onlarla edəcəkdir".

Ravi deyir ki, dedm: "Kimdir onlar?"

Buyurdu: "Bəni-Üməyyə və onların ardıcıllarıdır *(Süfyani və yardımçıları)*".

Dedim ki, bəs nişanə *(möcüzə)* nədir?

Buyurdu: "Günəşin zavalı ilə əsr vaxtı arasında durması, insan sinəsinin və simasının günəş diskində çıxmasıdır ki, onun dərəcə və nəsəbi tanınar. Bu Süfyaninin zamanında olacaqdır və həmin vaxt onun və qövmünün yox olması baş verəcəkdir".[118]

Bu hədis onu izah edir ki, bu əlamətin görsənməsi Süfyanin xüruc etməsindən sonradır. Biz öncə də təkid etmişdik ki, Süfyani Rəcəb ayında çıxacaqdır.

---

[116] Xorasanin hərəkatı ilə əlaqədar daha geniş və təfərrüatlı məlumatlar, hədis və rəvayətlər üçün Şeyx Əli Kuraninin "əl-Muməhhidun lil-Məhdi" kitabının üçüncü fəslinə müraciət et.

[117] Şuəra, 4.

[118] Əl-İrşad lil-Mufid, c.2, s.373; İlamul-vəra, s.428; Biharul-ənvar, c.52, s.221; əl-Məhdi əl-məvud, s.53; Yəumul-xilas, s.517; əs-Süfyani, s.121.

İmam Sadiq *(əleyhissəlam)* da bu əlamətin Rəcəb ayında baş verəcəyini bildirmişdir: "Güclü səsin baş verəcəyi ildən öncə Rəcəb ayında bir əlamət olacaq".

Ravi deyir ki, dedim: "Nədir o əlamət?"

Buyurdu: "Ayda *(başqa bir sözə əsasən, günəşdə)* bir üzün görünməsi və *(səmada)* açıq-aşkar bir əlin ortaya çıxmasıdır".[119]

Bu bariz bədən *(üz və sinə)* irəlidə görəcəyimiz kimi, Rəcəb ayında üç nida çəkəcək kəsdir.

İmam Rza *(əleyhissəlam)* uzun bir hədisin gedişatında buyurmuşdur: "... və üçüncü səs, onlar günəşin diski istiqamətində aşkar bir bədən görəcəklər".[120]

Bəzi alimlər belə düşünür ki, bu bədən Əmirəlmömininin *(əleyhissəlam)* cismidir ki, onu məxluqat tanıyacaqdır. Necə ki, Hacı Şeyx Muhəmməd Nəcəfi "Bəyanul-Əimmə" kitabının üçüncü hissəsində *(s.488)* bunu açıqlamışdır. Həmçinin bəziləri belə açıqlamışlar ki, bu, Məsihdir *(əleyhissəlam)*. Şeyx Əli Kurani özünün "əl-Muməhhidun lil-Məhdi" kitabında *(s.37)* belə açıqlamışdır... İkinci rəy mənə görə daha üstündür.

### *B – Səmadan çıxan əlin "Bu, bu!!" – deyə işarə etməsi.*

Bəzi ravilər bunun qəti əlamətlərdən olduğunu qeyd etmişdir. İmam Sadiq *(əleyhissəlam)* uzun bir hədisin gedişatında buyurmuşdur: "və əlin səmadan çıxması qəti olandandır".[121]

Həmçinin İmam Sadiqin *(əleyhissəlam)* vəd olunan günün əlamətlərini açıqlayarkən belə buyurduğu nəql olunmuşdur: "Səmadan olan əl həmin günün əmirliyinə *(və hökümətinə)* dəlalət edir və camaat ona nəzər salacaqdır".[122]

Bizim imamlarımız *(əleyhissəlam)* nə qədər əzəmətlidir ki, yüz illər öncə bizə bu cərəyanları xəbər vermişlər. Bədən

[119] Ğeybətun-Numani, s.169; Biharul-ənvar, c.52, s.233; Bəşarətul-İslam, s.120.
[120] Ğeybətun-Numani, s.120; Bəşarətul-İslam, s.120.
[121] Ğeybətun-Numani, s.172; Bəşarətul-İslam, s.120.
[122] Yəumul-xilas, s.519; Biharul-ənvar, c.52, s.233, başqa bir ləfzlə.

və əl ilahi bir möcüzədir. İndiki dövrdə insanlar camaat üçün sübuta yetiriblər ki, öz sözlərini ixtira və kəşflər, ən üstün bilikləri vasitəsilə ayın səthindən yerə çatdırmağı bacara bilirlər. Halbuki Allah öz məxluqatından daha biliklidir. Əzəmətli Allah pak-münəzzəhdir.

### *6 – Üç nida*

Üç səmavi nida vardır ki, Rəcəb ayında baş verəcəkdir. Onu hamı eşidəcəkdir. Onlar aşağıdakılardır:

Birinci nida: "Bilin ki, zalım qövmə Allahın lənəti olsun!"

İkinci nida: "Ey möminlər, yaxınlaşan *(Qiyamət)* yaxınlaşmışdır".

Üçüncü nida: Günəşin diskində kamil bədənin görsənib "Bilin ki, Allah Ali-Muhəmmədin *(sallallahu əleyhi və alih)* Məhdisini zalımlara öz qəzasını *(hökmünü)* icra etmək üçün göndərmişdir".

Həsən ibn Məhbub əz-Zad İmam Rzanın *(əleyhissəlam)* uzun bir hədisin gedişatında belə buyurduğunu nəql etmişdir: "O zaman insanlar bir nida eşidəcəklər. Bu elə bir nida olacaq ki, uzaqda olan onu yaxında olanın eşitdiyi kimi eşidəcək; möminlərə rəhmət olacaq, kafirlərə isə əzab".

Ravi deyir ki, dedim: "Atam, anam sənə qurban olsun, o nida nədir?"

Buyurdu: "Rəcəb ayında eşidiləcək üç səsdir. Birincisi*(ndə deyiləcək:)* "Bilin, Allahın lənəti olsun zalımlara!" . İkincisi*(ndə deyiləcək:)* "Yaxınlaşmalı olan yaxınlaşmışdır, ey möminlər". Üçüncüsündə isə günəş çıxan zaman *(səmada)* bir əl görəcəklər ki, belə səslənəcək: "Bilin, Allah zalımları məhv etmək üçün filankəsin oğlu filankəsi göndərmişdir". Bu zaman möminlərə fərəc və qurtuluş gələcək, Allah *(zalımları məhv etməklə)* onların qəlblərinə rahatlıq verəcək və qəlblərindəki qəzəbi aradan aparacaq" .[123]

---

[123] Ğeybətun-Numani, s.120; Ğeybətut-Tusi, s.268, Biharul-ənvar, c.52,

Həmçinin İmam Baqirdən *(əleyhissəlam)* buna yaxın bir rəvayət nəql olunmuşdur: “Allah bu nişanələri baş verdikdə inkarçıları heyrətə salacaqdır”.

Həmçinin İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğu nəql olunmuşdur: “Çığırtı olan ildən öncə, Rəcəb ayındakı əlamət vardır”.

Deyildi ki, o nədir?

Buyurdu: “Ayda çıxacaq bir simadır və bariz əldir ki, işarə edər. Həmçinin səmadan gələn nidadır ki, yer əhalisinin hərəsi öz dilində eşidəcək”.[124]

Buradan biz çığırtı ilə nidanı bir-birindən ayıra bilərik... Çığırtı Ramazan ayında baş verəcək və o, Cəbrailin *(əleyhissəlam)* nidası şəklində baş verəcəkdir. Nida isə Rəcəb ayında baş verəcəkdir *(üç nida)*. Axırıncı *(dördüncü)* nida Məhərrəm ayında müqəddəs sübh günündə olacaqdır... Ramazan ayındakı çığırtı “seyhət” qəti əlamətlərdən sayılmışdır. Ancaq Rəcəb və Məhərrəm ayındakı nidalar isə qəti əlamətlərdən sayılmamışdır.

### *7 – Günəşin sabit qalması və ayın bədr gecəsi tutulması*

Zühur ilinin qəti olmayan əlamətlərindən günəşin sabit *(və hərəkətsiz)* qalması, onun zöhrdən əsrə qədər hərəkət etməməsidir ki, Rəcəb ayının günlərinin birindədir. Həmçinin bu ayın bədr gecəsi ay tutulması baş verəcəkdir.

İmam Baqirdən *(əleyhissəlam)* Allah-taalanın ***“Əgər istəsək göydən onlara elə bir nişanə nazil edərik ki...”*** ayəsi barədə soruşdular ki, nişanə nədir?

Buyurdu: “Günəşin zavalı ilə əsr vaxtına qədər hərəkətsiz durmasıdır... Bu, Süfyaninin zamanında baş verəcək. Həmin vaxt onun və qövmünün yoxa çıxması olacaqdır”.[125]

---

s.289; Bəşarətul-İslam, s.16.

[124] Ğeybətun-Numani, s.169; Yəumul-xilas, s.541.

[125] Biharul-ənvar, c.52, s. 221.

Bu əlamət Süfyaniyə *(onun Rəcəb ayında xüruc etməsinə)* dəlalət edən ən bariz əlamətlərdəndir. Çünki bu əlamət onun zamanında baş verəcəkdir. Günəşin səmada durması az bir müddət ərzində baş versə də, Allah-taala tərəfindən qeyri-adi bir möcüzə hesab olunur. Bir cəhətdən, camaat anidən günortanın uzun çəkməsini hiss edəcəklər. Çünki onun hərarəti yer üzərinə hər zamankından daha çox düşəcəkdir. İkinci cəhətdən isə, onlar dəyişikliyi şüur, hiss baxımından başa düşəcəklər... Bu səmavi əlamətin *(Rəcəb ayında)* baş verməsi Süfyani, onun qövmü və hərbi qüvvəsinin həlak olma nişanəsidir.

Rəcəb ayında bu əlamətin *(günəşin yerində durması)* baş verməsinin vurğulanması günəş diskində bir kəsin sinə və simasının çıxması ilə yanaşı baş verəcəkdir. Biz bu hadisənin Rəcəb ayında baş verəcəyini daha öncə sübut etmişik. Həmçinin qeyd etdik ki, o və onun gerçəkləşməsi Süfyaninin dövründə olacaqdır. Necə ki, Süfyaninin xüruc etməsinin Rəcəb ayında olduğunu da bundan öncə izah etmişik.

Rəcəb ayında baş verəcək digər əlamətlər də vardır... Rəcəb ayının bədr gecəsi *(yarısı)* ayın tutulması bu əlamətlərdəndir.

Ümmü Səid Əxməsiyyə deyib: "Əbu Abdullaha *(əleyhissəlam)* dedim ki, sənə qurban olum, ey Allah Rəsulunun balası, mənə Qaiminin xüruc etməsi barədə bir əlamət söylə".

Ümmü Səid deyir: "Mənə belə dedi: "Ey Ümmü Səid, Rəcəb ayının bədr gecəsi ayın tutulması, onun ardınca bir nəfərin çıxma zamanıdır. Qaimin *(əleyhissəlam)* çıxması həmin vaxtdır".[126]

Daha öncə də izah etmişik ki, *(bir nəfərin cisminin görsənməsilə bağlı)* əlamət Rəcəb ayında zahir olacaqdır. Ondan sonra isə Ramazan ayında çığırtı baş verəcəkdir.

---

[126] Bəyanul-Əimmə, c.2, s.695.

## ÜÇÜNCÜ HİSSƏ:

## ŞƏBAN AYININ HADİSƏLƏRİ

Bu ayda İslam aləmində cərəyan edəcək təlaş, səfərbərlik və xovf başlayır. Bu da qarşılıqlı mübarizə siyasətinin və arenadakı qarşılıqlı rəqabətin nəticəsində olacaqdır. Hansı ki, hələ Rəcəb ayının hadisələrindən üzə çıxaraq üz-üzə qalmağın əlamətləri başlamışdı.

Belə ki, ümumi şəkildə iki rəqib cərəyanların təşəkkül tapması başlamışdı: Məhdi *(əleyhissəlam)* əshabı cərəyanı *(Yəməndən Yəmani, İrandan Xorasani)* və Süfyani cərəyanı *(rəqib qüvvələr arasındakı mərəkə Süfyaninin Əbqə və Əshəb üzərində qələbə çalması ilə bitəcəkdir)*. Oradan da rumlu və yəhudilərlə *(qərb cərəyanı)* ittifaq təşəkkül tapacaqdır. Odur ki, Şəban ayında işlər qruplaşma halını alacaq və camaat burada dəstələrə ayrılacaqdır... Ona görə də ümumi şəkildə görürük ki, zühur hadisələri və əlamətləri ilə bağlı hədislərdə Orta Şərq ərazisi bir neçə döyüşlərin və rahatsızlığın meydanı kimi təsvir olunmuşdur. Belə ki, Müsəlman məntəqəsinin hissəsi aludəçilik, gərginlik, çətin durumda ömür sürür. Bu isə siyasi stabilliyin olmamasının, həmçinin böyük dünya müharibəsinin püskürməsinin yaxınlaşması nəticəsindən doğur.

Əbu Bəsir İmam Sadiqdən *(əleyhissəlam)* belə nəql etmişdir: "Ondan Rəcəb ayı barədə soruşdum.

Buyurdu: "Cahiliyyət dövründə *(yəni İslamdan öncə)* bu ayı böyük hesab edirdilər *(və həmin ayda döyüşmürdülər)*. Onun adını "kar ay" *(yəni döyüş nidası olmayan ay)* qoymuşdular".

Əbu Bəsir deyir: "Bəs Şəban?"

Buyurdu: "Orada işlər bir-birindən ayrılar".

Dedim ki, bəs Ramazan?

Buyurdu: “Allah-taalanın ayıdır. Həmin ayda sizin sahibinizin və onun atasının adı car çəkilər”.

Dedim ki, bəs Şəvval?

Buyurdu: “Həmin ayda qövmün işi pərakəndə olar”.

Dedim ki, bəs Zülqədə?

Buyurdu: “Orada əyləşərlər”.

Dedim ki, bəs Zülhiccə?

Buyurdu: “O, qan ayıdır”.

Dedim, bəs Məhərrəm?

Buyurdu: “Orada halal haram edilər, haram isə halal edilər”.

Dedim ki, Səfər və Rəbi *(Rəbiul-əvvəl və Rəbius-sani)*?

Buyurdu: “Orada həlakedici rəzillik *(yaxud dəhşətli ölüm)* və böyük iş olacaqdır”.

Dedim, bəs Cəmadi *(Cəmadiyul-əvvəl və sani)*?

Buyurdu: “Başlanğıcından sonunadək fəth və qələbədir”.[127]

“Bihar”da Əbu Həmzə Sumalinin belə dediyi nəql olunmuşdur: “Əbu Cəfərin *(əleyhissəlam)* belə buyurduğunu eşitdim: “Elə ki aralarında olanlarla əlaqədar Şamın ixtilaf etdiyini eşitdiniz, Şamdan oradan qaçın! Çünki onun canına qətl və fitnə düşmüşdür”.

Dedim: “Bəs hansı ölkəyə *(gedək)*?”

Buyurdu: “Məkkəyə. Çünki ora camaatın qaçası ən üstün yerdir”.[128]

“Rövzətul-kafi” də belə bir rəvayət gəlmişdir ki, orada hadisələri xarakterizə edir, həmçinin möminləri həmin dövrdə etmələri vacib olan şeylərə yönləndirir. “Rəcəb olduqda Allahın adına üz tutun. Əgər Şəban ayına təxirə düşməyinizi istəyirsinizsə, zərəri yoxdur. Əgər qövm və yaxınlarınızın arasında toxunulmaz qalmaq *(yaxud oruc tutmaq)* istəyirsinizsə, bəlkə

---

[127] Biharul-ənvar, c.52, s.272; Bəşarətul-İslam,s.142; Bəyanul-Əimmə, c.2, s.686.

[128] Biharul-ənvar, c.52, s.271; əs-Süfyani, s.123.

də sizin üçün daha qüvvətli *(möhkəm)* olar, Süfyani də sizə əlamət olaraq kifayət edər".[129]

Bu hədisdə rüxsət verilmişdir ki, səfərə çıxmaqda tələsmək Ramazan ayının sonunadək təxirə salına bilər...

İmam Baqir *(əleyhissəlam)* şiələrinə yol göstərmək üçün uzun bir hədisin gedişatında belə buyurmuşdur: "Düşmənləriniz içərisində sizə bəla olaraq Süfyani kifayət edəcək. O sizin üçün baş verəcək əlamətlərdən biridir. Baxmayaraq ki, o fasiqin xüruc etməsindən bir və ya iki ay sonraya qədər sizə heç bir şey olmayacaq. O *(bu müddət ərzində)* sizdən deyil, başqalarından çoxlu sayda insan öldürəcək *(Qirqisiya döyüşünə işarə edir)*".

Səhabələrindən biri ona dedi: "Bu baş verdiyi zaman ailələrimizi nə edək?"

Buyurdu: "Kişiləriniz ondan gizlənsin. Çünki onun bütün hirsi, qeyzi və tamahı məhz bizim şiələrimizin üzərinədir. Qadınlara gəlincə isə onlar üçün bir qorxu yoxdur, inşallah".

Həzrətə deyildi: "Kişilər hara getsinlər, onun əlindən hara qaçsınlar?"

Buyurdu: "Sizlərdən hər kim *(bir yerə)* getmək istəsə, Mədinəyə və ya Məkkəyə, yaxud da başqa bir şəhərə getsin".

Sonra dedi: "Mədinəni nə edirsiniz? Fasiqin ordusu oraya da gələcək. Lakin, Məkkəyə gedin. Ora sizin toplanma yerinizdir. Onun fitnəsi bir qadının hamilə qaldığı müddət qədərdir: doqquz aydır. İnşallah ki, bundan artıq olmayacaq".[130]

---

[129] Biharul-ənvar, c.52, s.302; əs-Süfyani, s.122.
[130] Ğeybətun-Numani, s.203; əs-Süfyani, s.122.

## DÖRDÜNCÜ HİSSƏ:

## RAMAZAN AYININ HADİSƏLƏRİ

İslam ümməti müharibələr, fitnələr, döyüşmək səbəbi ilə ağır siyasi zəiflik içərisində yaşayacaqdır. Əcnəbi qüvvələr *(rumlular)* məntəqəyə daxil olacaqdır. Səmavi nişanələr *(əlamətlər)* baş verəcək və möminlərin qəlblərinə ümid səpəcəkdir. Məhdinin *(əleyhissəlam)* qəziyyəsi insanları məşğul edən işə çevriləcəkdir. Odur ki, bu ay baş verəcək əlamət və dəlalətlər bəşəriyyətin qafil ola bilməyəcəyi qədərdir. Məsələn:

***1 – Ay və günəşin adi olmayan vaxtlarda tutulması:***

İlahi qüdrət *(möcüzələr qanunu)* müdaxilə edəcək, xüsusilə xalis möminləri zühura ayıltmaq naminə işarə verəcəkdir... Belə ki, günəş Ramazan ayının on üç, yaxud on dördüncü günü tutulacaq, ay isə həmin ayın iyirmi beşinci günü tutulacaqdır. Bu iki əlamətin zühurdan öncə baş verməsinin dəlil-sübutu adi qaydanın əksinə olmasıdır. Belə ki, bəşəriyyətin əvvəlindən ta indiki durumuna qədər bunun bənzəri öncədən baş verməmişdir. Odur ki, səbəbi budur:

**A –** Müsəlmanlar arasında ümumi şəkildə Məhdi *(əleyhissəlam)* düşüncəsinin möhkəmləşdirilməsi;

**B –** Xalis möminlərə zühurun yaxınlaşmasını işarə etmək.

Sələbə Əzdi deyib: "Əbu Cəfər *(əleyhissəlam)* buyurdu: "Qaimin qiyamından öncə iki nişanə vardır: Ramazanın yarısında günəşin və axırında ayın tutulması".

Ravi deyir: Dedim ki, ey Allah Rəsulunun balası, günəş ayın axırında, ay isə yarısında tutulur".

Əbu Cəfər *(əleyhissəlam)* buyurdu: "Mən nə dediyimi daha yaxşı bilirəm. Ancaq onlar Adəm hübut edəndən bəri olmayan iki əlamətdir".[131]

Vərd ibn Zeyd Əsədi və Kumeytin qardaşı İmam Baqirin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Bu iş*(in baş verməsin)*dən öncə ayın bitməsinə beş gün qalmış ay, ayın on beşində isə günəş tutulacaq. Bu hadisə Ramazan ayında baş verəcək. Bu zaman münəccimlərin *(astronomların)* hesabları alt-üst olacaq".

Bu rəvayət batmanın ayın axırında deyil, əvvəlində olduğunu vurğulayır.

Əli ibn Əbu Həmzə Əbu Bəsirdən, o da İmam Sadiqdən *(əleyhissəlam)* belə rəvayət etmişdir: "Məhdinin çıxma əlaməti günəşin Ramazan ayının on üçü, yaxud on dördü tutulmasıdır".[132]

Ayın tutulması adətən yerin günəşlə ay arasında olması vasitəsi ilə baş verir. Onun vaxtı isə ayın ortasıdır. Günəşin tutulması adətən ayın yer kürəsi ilə günəş arasında olması zamanı baş verir. Bunun da vaxtı ayın axırlarıdır. Amma rəvayətlər qeyd etdiyi kimi, tutulma hadisəsinin ayın başqa vaxtlarında baş verməsi aşağıdakı ehtimalları nəzərə alaraq gerçəkləşə bilər. Həm də qeyd edək ki, bəda bu hadisəyə müdaxilə etməyəcəkdir:

***Birinci***: Bu hadisə möcüzə şəklində və *(elmi baxımından)* məqbul səbəbə əsasən baş verəcəkdir. Lakin bəsit ixtilafla yanaşıdır. Bu fərq isə zaman baxımındandır. Bu möcüzənin baş vermə yolu, yaxud onun necəliyini təsəvvür edə bilmirik. Bu qədəri bilmək bizə kifayətdir ki, o baş verəcək və Adəm hübut

---

[131] Əl-İrşadu lil-Mufid, c.2, s.374; Ğeybətun-Numani, s.181; İlamul-vəra, s.429; Ğeybətut-Tusi, s.270; Bəşarətul-İslam, s.96; Yəumul-xəlas, s.516; Tarixu ma bə`dəz-zuhur, s.118.

[132] Ğeybətun-Numani, s.182; Bəşarətul-İslam, s.97; Tarixul-ğeybətil-kubra, s.479; Yəumul-xilas, s.517.

edəndən bəri baş verməmişdir. Həmin zaman astronomların hesabı süqut edəcəkdir.

***İkinci***: Bu məsələ böyük bir cismin vasitəsilə baş verəcəkdir

Elmi terminologiyada deyildiyi kimi, fəzada sərgərdan halda gəzişən cisimlərin günəş sistüminə yaxınlaşması, bu cismin günəşin şüalarının yer üzərinə çatmasının qarşısını alması, beləliklə on gündən sonra tutulma baş verməsi mümkündür. Həmçinin ola bilər ki, günəşin şüasının aya yetişməyin qarşısını da alsın. Bu da ayın axırlarında olsun. Yəni ay hilal halında olarkən baş versin. Bununla da cismin ölçü və sürətindən asılı olaraq ya bir hissəli, ya tamamilə tutulma olsun... Qeyd olunan zühur əlamətlərinin mövzu ilə əlaqəsi vardır. Bu isə günəşin çıxmasından gönortanın üçdə ikisinə qədər nurunun getməsidir.[133] Səbəbi isə fəza obyektinin günəş ilə yer arasına girməsi və günortanın üçdə ikisi müddətində günəş şüalarının yer kürrəsinə çatmasına maneə yaratmasıdır. Bu isə bir saatdan üç saata qədər davam edən tutulma ilə fərq edir.

***Üçüncü***: Bu, günəşdə baş verən dəyişikliklər səbəbi ilə olacaqdır

Buna dair elmi açıqlama budur ki, günəşdə böyük partlayışlar, yaxud müəyyən fizioloji *(fizika qanunları əsasın)* dəyişikliklər baş versin. Belə ki, müəyyən zaman ərzində işıq saça bilməsin. Yaxud bir ayda *(Ramazan ayında)* iki ardıcıl partlayış baş verə bilər ki, onlardan biri ayın ortasında günəşin tutulmasına, digəri isə ayın axırında, ayın hilal durumunda "xüsuf"a *(yəni ayın tutulmasına)* səbəb olsun. Ola bilər ki, bu səbəb ehtimal baxımından daha yaxın və möhkəmdir... Elə ehtimal olunan da budur. Xüsusilə, bunu günəşlə əlaqəli baş verəcək nişanə və əlamətlərə də – hansı ki, daha öncə Rəcəb ayının hadisələrində izahını vermişik – bağlaya bilərik. Belə ki, Süfyaninin zamanında günəşin yerində durması *(ola bilər ki, bu, günəşdə baş verən*

---

[133] Əl-Muməhhidun lil-Mehdi, s.37.

*güclü partlayışın nəticəsi ola bilər. Hansı ki, baş verdikdə hərəkət etməsinin qarşısını alar, yaxud partlayışa reaksiya əlaməti olaraq iki, ya da üç saat ərzində ləng əks hərəkət etməsinə səbəb olar)*, günəş diskində aşkar bədənin görsənməsi – günəşdə baş verən güclü partlayışın nəticəsi ola bilər. Belə ki, partlayış günəşin səthində insan siması və sinəsi şəklində baş verəcəkdir. Müasir alimlər günəşdə baş verəcək hadisələr barəsində düşünmüş və ona aşkar nöqtələr aid etmişlər. Belə ki, şərafətli hədisdə Əmirəlmömininindən *(əleyhissəlam)* uzun bir hədisin gedişatında belə nəql olunmuşdur. Həzrət Ramazan ayında baş verəcək çığırtı və nida *(bu ayın 23-ü)* haqqında qeyd edərək bildirmişdir ki, sabah zöhr vaxtı günəşin saraldığını və qapqara hala düşdüyünü izləyəcəksiniz.[134] Bu, günəşin qaralma səbəbilə *(Ramazan ayının 25-də)* ayın tutulmasına dair aydın bir dəlildir... Ola bilər ki, bu, möcüzədən uzaqda səmavi əlamətlər və zühur nişanələri barədə dərin, yorucu düşüncədən sonra, daha əvvəl kimsənin buna işarə etmədiyi yetişə biləcəyimiz ən üstün elmi təfsir və daha yaxın ehtimaldır.

### *2 – Səmavi çığırtı (Qəti əlamətlərdəndir)*

Bu əlamət qəti baş verəcək beş əlamətdən biridir.... “Seyhət” səs və nidadan ibarətdir. Ramazan ayının iyirmi üçüncü gecəsi səmadan eşidiləcəkdir. Bu isə Qədr gecəsidir. Bunu yer əhalisi eşidəcəkdir. Hər bir qövm öz dilində duyacaq, bu səsdən çaşqın vəziyyətə düşəcək, yatan kəs ayılacaq, ayaq üstə olan əyləşəcək, əyləşən ayağa duracaq, gənc qız heybətin şiddətinddən gəlin otağından çıxacaqdır. Bu nidanın carçısı Cəbraildir *(əleyhissəlam)*. Sübhə yaxın olacaqdır.[135] Həm də açıq-aydın bir dildə nida çəkəcək ki: “Bilin, haqq Məhdi *(əleyhissəlam)* və onun şiələri ilədir”. Sonra lənətlik İblis bu nidadan sonra gü-

[134] Biharul-ənvar, c.52, s.275; Bəşarətul-İslam, s.59 və 70.
[135] Biharul-ənvar, c.52, s.274.

nortanın ortasında *(məğribə yaxın)* yer və səma arasında nida edəcək və bunu bütün camaat eşidəcəkdir: “Bilin ki, haqq Osman və onun şiələri ilədir *(Süfyani Osman ibn Ənbəsədir)”.*

Əbu Həmzənin belə dediyi nəql olunmuşdur: “Əbu Cəfərə *(əleyhissəlam)* dedim ki, Süfyaninin çıxması qətidir?

Buyurdu ki, bəli, nida da qəti əlamətlərdəndir.

Ona dedim ki, bəs nida necə olacaq?

Buyurdu: “Bir carçı səmadan, günün başlanğıcında car çəkəcək ki, bilin, haqq Ali-Əli və onun şiələri ilədir. Sonra İblis günortanın axırında nida çəkəcəkdir ki, bilin, haqq Osman və onun şiələri ilədir. Məhz həmin zaman batilə uyanlar şəkk-şübhəyə düşəcəklər”.[136]

Bu səmavi nidanın baş verməsi üçün səbəb aşağıdakılardır:

**a)** Xalqın diqqətini zühurun yaxınlaşmasına çəkmək;

**b)** Xalis möminlərdə nəfsi istedad yaratmaq *(yəni onları zühur üçün hazırlığa təşviq etmək).*

Xüsusilə, bu əlamətləri ilin ən üstün gecələrində, ən üstün aylarında bəlirlənmişdir. Həmçinin bu vaxtda dini meyil müsəlmanlar yanında öz zirvəsinə yetişmişdir. Həmçinin buna qarşı verilən reaksiya və əhəmiyyət məzmunu ilə ahəngdar olacaqdır. Belə ki, mövcudluğu Qaimə *(başçı və idarəçiyə, yəni Məhdiyə (əleyhissəlam)* işarə edir. O kəs ki, yer üzünü haqq-ədalətlə dolduracaqdır. Məhz həmin vaxt Məhdi insanların dilinə düşəcək, sevgisinə sarı yönələcək və onlar üçün ondan başqa bir zikr olmayacaqdır.

Əbu Bəsir İmam Baqirin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: “Güclü səs məhz Ramazan ayında baş verəcək. Çünki Ramazan ayı Allahın ayıdır. O ayda *(eşidiləcək)* səs Cəbrailin səsidir ki, insanlara səslənəcək”.

Sonra dedi: “Səmadan bir çarcı Qaimin *(əleyhissəlam)* adı ilə nida edəcək ki, şərqdə və qərbdə olan hər bir kəs onu eşi-

---

[136] Əl-İrşadu lil-Mufid, c.2, s.371; Ğeybətut-Tusi, s.266; İlamul-vəra, s.429.

dəcək. O səsin qorxusundan bütün uzananlar *(yatanlar)* ayılacaq, bütün ayaq üstə olanlar oturacaq və bütün oturanlar ayağa qalxacaqlar. Allah rəhmət etsin o kəsə ki, həmin səsə önəm verib ona cavab verəcək. Həqiqətən də, birinci səs Ruhul-Əmin Cəbrailin *(əleyhissəlam)* səsidir”.

Sonra dedi: “Bu səs Ramazan ayının cümə gecəsi*(nə təsadüf edən)* iyirmi üçüncü gecəsində eşidiləcək. Elə isə onun barəsində şəkk etməyin. Eşidin və itaət edin. Günün sonunda isə lənətlənmiş İblisin səsi eşidiləcək və camaatı şəkkə salıb fitnəyə düçar etmək üçün “Bilin, filankəs məzlumcasına qətlə yetirildi” – deyə nida edəcək. O gün nə qədər şəkk edən və çaşqınlığda olan insan cəhənnəmlik olacaq. Ramazan ayında səs eşitdiyiniz zaman onun Cəbrailin səsi olmasına şübhə etməyin. Onun əlaməti budur ki, *(Cəbrail)* Qaimin və atasının adını *(əleyhiməssəlam)* çəkib nida edəcək. Elə bir şəkildə ki, hətta bakirə qızlar oturduqları pərdə arxasından o səsi eşidəcək, atalarını və qardaşlarını çıxıb *(səsə hay verməyə)* təhrik edəcəklər”.

Həmçinin dedi: “Qaimin *(əleyhissəlam)* qiyamından öncə bu iki səsin baş verməsi mütləqdir: *(Birinci səs)* səmadan olan bir səsdir. Bu Cəbrailin səsidir ki, bu işin sahibinin və onun atasının adı ilə nida edəcək. İkinci səs isə yerdən olan bir səsdir. Bu səs məlun İblisin səsidir. Filankəsin adını çəkib onun məzlumca öldürüldüyünü deyəcək. Bununla fitnə yaratmaq istəyəcək. Birinci səsə tabe olun. Məbadə ikinci səsə aldanasınız”.

Sonra uzun söhbətin ardınca dedi: “Elə ki, Bəni-filan öz aralarında ixtilafa düşdü, fərəci gözləyin. Sizin fərəciniz yalnız Bəni-filanın ixtilafa düşməsindədir. Elə ki ixtilaf etdilər, Ramazan ayında baş verəcək güclü səsi və Qaimin xüruc etməsini gözləyin. Həqiqətən də, Allah istədiyini edər”.[137]

---

[137] Ğeybətun-Numani, s.170; Biharul-ənvar, c.52, s.231; ən-Nəcmus-saqib, c.1, s.126; Tarixu ma bə`dəz-zuhur, s.125.

Abdullah ibn Sinan deyib: "Əbu Abdullahın *(əleyhissəlam)* yanında idim. Bir nəfər həmədanlı şəxsin ona belə dediyini eşitdim: "Bu ammə camaatı bizə tənə edib deyirlər: "Siz iddia edirsiniz ki, bir carçı səmadan nida edib bu işin sahibinin adını çəkəcək".

Əbu Abdullah *(əleyhissəlam)* söykənmiş vəziyyətdə idi. *(Bu sözü eşidincə)* qəzəblənib oturdu və dedi: "Bunu məndən nəql etməyin, atamdan nəql edin. Bunu edə bilərsiniz, zərəri yoxdur. Şəhadət verirəm ki, atamın *(əleyhissəlam)* belə dediyini eşitmişəm:

"Allaha and olsun ki, bu izzət və cəlal sahibi olan Allahın kitabında bəyan edilmişdir. Belə ki, deyir: ***"Əgər istəsək göydən onlara elə bir nişanə nazil edərik ki, onun müqabilində onlar*** *(məcburi şəkildə)* ***boyun əyib itaət edərlər"***.[138] O gün yer üzündə elə bir kəs olmayacaq ki, onun qarşısında boyun əyib təslim olmasın. Yer əhli səmadan "Bilin, haqq Əli ibn Əbu Talib *(əleyhissəlam)* və onun şiələri ilədir" – səsini eşitdikləri zaman iman gətirəcəklər. Səhəri gün İblis yer əhlindən gizlənmək üçün *(və bununla onları aldatmaq üçün)* havaya qalxacaq və deyəcək: "Bilin, haqq Osman ibn Əffan və onun tərəfdarları ilədir. O məzlumcasına qətlə yetirilib. Elə isə onun qanını tələb edin".

Sonra *(əleyhissəlam)* buyurdu: "Allah sabit sözə iman gətirənləri haqq üzərində sabitqədəm edəcək. Haqq həmin birinci nidadır. O gün qəlblərində xəstəlik olan kəslər isə şübhəyə düşəcəklər. Allaha and olsun ki, xəstəlik bizə olan düşmənçilikdir. Bu zaman onlar bizdən uzaq olduqlarını bəyan edib bizi təhqir edəcəklər *(söyəcəklər)* və deyəcəklər: "Birinci nidaçı bu Əhli-Beytin sehrlərindən bir sehrdir".

Sonra Əbu Abdullah *(əleyhissəlam)* izzət və cəlal sahibi olan Allahın bu ayəsini tilavət etdi: ***"Onlar bir əlamət və***

---

[138] Şuəra, 4.

***möcüzə görəndə üzlərini döndərərək "daimi bir sehrdir" deyərlər"***[139].[140]

Zürarə ibn Əyən deyib: "Əbu Abdullahın *(əleyhissəlam)* belə buyurduğunu eşitdim: "Bir carçı səmadan belə nida edəcək: "Həqiqətən də, əmir filankəsdir". Başqa bir nidaçı isə belə səslənəcək: "Həqiqətən də, yalnız Əli və onun şiələri nicat tapan kəslərdir".

Dedim: Elə isə bundan sonra Məhdi ilə kim vuruşacaq?

Buyurdu: "Şeytan da belə nida edəcək: "Həqiqətən də, yalnız filankəs və onun şiələri nicat tapan kəslərdirlər". Bəni-Üməyyədən olan bir şəxsin adını çəkəcək".

Dedim: "Düzü yalandan kim ayıra biləcək?"

Buyurdu: "Bunu yalnız bizim hədislərimizi nəql edən, o baş verməmişdən əvvəl "o baş verəcək" – deyən və özlərinin haqq və doğru olduqlarını bilən şəxslər ayırd edə biləcəklər".[141]

Bu nida Allah-taalanın ayəsinin misdaqıdır: ***"Belə isə, arxasınca gedilməyə haqqa tərəf hidayət edən kəs daha layiqdir, yoxsa hidayət edilməyincə doğru yolu tapa bilməyən kəs? Sizə nə olmuşdur? Necə mühakimə yürüdürsünüz?!"***[142]

Deməli, bu nida və səmavi fəryad *(Cəbrailin səsi)* zamansız baş verən varlığı saran böyük bir hadisə kimidir. Bu sədada möcüzəlik ünsürü vardır, Allah düşmənlərinin qəlbində qorxu və hürküyə səbəb olacaqdır. Həmçinin möminlər üçün fərəcin yaxınlaşmasına dair böyük bir müjdə olacaqdır. Bu isə Allah-taalanın ayəsinin misdaqıdır: ***"Əgər istəsək göydən onlara elə bir nişanə nazil edərik ki, onun müqabilində onlar*** *(məcburi şəkildə)* ***boyun əyib itaət edərlər"***.[143] Həmçinin bu ayəsinin: ***"Carçının yaxın yerdən car çəkəcəyi gün qulaq as*** *(və həmin*

[139] Qamər, 2.
[140] Ğeybətun-Numani, s.173; Biharul-ənvar, c.52, s.292.
[141] Ğeybətun-Numani, s.175; Biharul-ənvar, c.52, s.295.
[142] Yunus, 35.
[143] Şuəra, 4.

*nidanı gözlə)*! ***Haqq olan həmin bağırtını eşidəcəkləri gün!*** *(Həmin)* ***o gün çıxma günüdür"***.[144]

Çığırtı, yaxud qorxu baş verdiyi əsnada möminlərə nə etmələri gərəkdir?

Əhli-beyt təlimləri aşağıdakıları təkid edir:

**A –** Qeyd olunan cümə günü sübh namazını qıldıqda evlərinizə daxil olun, qapılarınızı bağlayın, pəncərələri örtün, özünüzü gizlədin, qulağlarınızı qapadın. Xəbərdə gəlmişdir ki: Bu çığırtının əlamətlərindən biri budur ki, bu səsin qüvvətindən yetmiş min nəfər kar və yetmiş min nəfər lal olar.[145] Çığırtını hiss etdiyiniz zaman səcdəyə qapılıb deyin: "Çox müqəddəs Rəbbimiz Sübhandır *(hər bir eyib və nöqsandan pak və münəzzəhdir)*". Çünki kim bu cür etsə nicat tapar, kim səsin üstünə çıxsa həlak olar".[146]

Bundan əlavə, Allah-taala hər kimi intizarı çəkilən Qaimin *(əccələllahu fərəcəh)* zühuru ilə əlaqədar xeyirli əhdi *(zamanı)* idrak etmək nemətinə yetişməyə müvəffəq etmişsə, Allaha vacib şükür etməlidir.

**B –** Bir il müddətinə fərdə və onun ailəsinə kifayət edəcək yemək azuqə etmək:

İmam Baqir *(əleyhissəlam)* buyurmuşdur: "Ramazan ayında baş verəcək hadisələrin əlaməti: Səmada əlamət, ardınca insanların ixtilafa düşməsidir. Buna yetişsən, yeməyi *(yemək azuqəsini)* çoxalt".[147]

Səmavi nida baş verdikdən sonra insanlar ixtilafa düşəcəkdir, müharibələr və fitnələr baş qaldıracaqdır *(bu, Qirqisiya mərəkəsinə işarədir)*. Həmçinin bundan sonra qəhətlik, qida məhsulları bahalaşacaqdır.... İmamlar *(əleyhissəlam)* şiələrin-

[144] Qaf, 41, 42.

[145] Bəyanul-Əimmə, c.1, s.434.

[146] Yəumul-xilas, s.542.

[147] Yəumul-xilas, s.513; Bəyanul-Əimmə, c.2, s.361.

dən olan müsəlman və möminlərə qida məhsullarını qorumağı *(yığıb saxlamağı)* xəbər verərək qiymətli məlumat vermişlər. Çünki hadisələr baş verdikdə darlığa düşməsinlər. Qida azuqəsini çoxaltmaq və ərzaq hazırlığından məqsəd fərdə və təmin etdiyi kəslərə bir il müddətində kifayət edəcək miqdardır. Bu mövzunun qeydi tezliklə gələcəkdir. Allah eşqinə, görün bu böyük imamlar *(əleyhimussəlam)* nə qədər mükəmməl, şiələrinə və sevdiklərinə qarşı mərhəmətləri nə qədər böyükdür. Həqiqətən də, onlar – onları dost tutan və onlarla əlaqəli olan *(rabitəsi olan)* kəs üçün bir fəxrdir.

***3 – Bəni Kəlb qəbiləsindən otuz min adamın Süfyani ilə beyət etməsi***

Süfyani Rəcəb ayında çıxacaqdır. O, hərbi, cəbhə və siyasi müvəffəqiyyətlər əldə edəcək, onun nüfuz dairəsi genişlənəcək, insanlar və dindar olmayan qəbilələr ona qoşulacaq və onu dəstəkləyəcəklər... Peyğəmbər *(sallallahu əleyhi və alih)* buyurmuşdur: "Süfyani üç yüz altmış süvari ilə çıxacaq və Dəməşqə gələcəkdir. Ramazan ayı onlara çatmamış, onunla Kəlb qəbiləsindən üç min adam beyət edəcəkdir".[148] Kəlb qəbiləsi Süfyaninin dayılarıdır. Onlar elə Dəruz qəbilələridir. Onlar Süfyanilə birlikdə inqilab edəcəklər. Bu qəbilə Müaviyənin dönəmində xristianlığa bağlanmışdırlar. Müaviyə onlardan İmam Hüseynin *(əleyhissəlam)* qatili Yezidin anası ilə evlənmişdi. Süfyani Yezid ibn Müaviyə ibn Əbu Süfyanın nəslindəndir... Onun ailəsi Fələstinin şərqində Yabis vadisində Rəmlə məntəqəsində məskunlaşacaqdır. Bura həm də İordaniyanın qərbi, Suriyanın və Dəməşqin cənub qərbi ilə bir neçə mil uzaqlıqda sərhəddir.

---

[148] Yəumul-xilas, s.671; Bəyanul-Əimmə, c.2, s.586.

## BEŞİNCİ HİSSƏ:

## ŞƏVVAL AYININ HADİSƏLƏRİ

Bundan öncə baş vermiş hadisələr davam edəcək və hadisələri bir-birinə təsirli olacaqdır. Həmçinin əlamətləri aydın şəkildə bu müstəvidə özünü biruzə verəcəkdir. Bilmək lazımdır ki, Süfyani hərəkatı bir neçə aylar ərzində sürətli müvəffəqiyyətlər qazanacaqdır... Bu ayda baş verəcək hadisələr barədə rəvayətlərdə belə qeyd edilmişdir:

Məsələn:

– Şəvval ayında bir dəstənin *(Süfyani və ardıcıllarının)* ortaya çıxması;[149]

– Şəvval ayında qövmün işi qalxar *(artar)*.[150] *(Yəni inqilabçıları inqilab edər, əziyyətləri çoxalar, qəzəbləri şiddətlənər, xalqın sözü parçalanar)*

– Şəvvalda bəla olar[151] *(Yəni döyüş və fitnələr səbəbilə camaata bəla üz verər)*

– Bu ayda "məhməhə" olar.[152] *(Yəni ölkələrdə yoxsulluq olar, kişilərsiz və gənc oğlanlarsız qalar. Çünki döyüş və fitnələr sırasında onları itirərlər)*

– Şəvval ayında gurultu çıxar.

Səhl ibn Həuşəb deyib: "Allah Rəsulu *(sallallahu əleyhi və alih)* buyurmuşdur: "Ramazan ayında səs, Şəvval ayında isə gurultu olacaqdır".[153]

---

[149] Muntəxəbul-əsər, s.451; Yəumul-xilas, s.557; Bəyanul-Əimmə, c.2, s.354.
[150] Biharul-ənvar, c.52, s.272; Bəşarətul-İslam, s.142; Yəumul-xilas, s.705.
[151] Muntəxəbul-əsər, s.451; Yəumul-xilas, s.557; Bəyanul-Əimmə, c.2, s.354.
[152] Həmin.
[153] Bəşarətul-İslam, s.34; Muntəxəbul-əsər, s.451; Yəumul-xilas, s.532.

İbn Məsud Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* belə buyurduğunu nəql etmişdir: “Ramazanda çığırtı olduqda, Şəvvalda gurultu olar, Zülqədədə isə qəbilələr azuqə toplamağa çalışacaq və öz aralarında müharibələr apararlar”.[154]

Əksər rəvayətlər Şəvval ayında “mə`mə`ə” baş verəcəyini göstərir. Lüğətdə bu ifadə “borudan yanar səsin çıxması” *(döyüş şeypuru, yaxud təbili çalmaq)*, “müharibədə igidlərin səsi *(nəriltisi)*” anlamındadır. Bu isə çirkin odlu müharibənin baş verməsinə eyhamdır. Həmçinin təkid edir ki, Zülqədə ayında qəbilələr ailəsini dolandırmağa çalışacaqlar. *(Yəni qəbilələr qida almağa və onu zəhərli (yorucu) döyüşlərin çirkinliyindən özünə bulaşan şeylərə görə (onlardan amanda qalmaq naminə) azuqə saxlamağa çalışacaqdır)*. Şəvval gurultusu Qirqisiya döyüşünə aydın bir işarədir.

### *Qirqisiya mərəkəsi*

Qirqisiya Suriyanın şimalında, Fərat ilə Xabur *(kəndalaş)* olan çayın dənizə töküldüyü yer arasında, Şam ərazisində yerləşir. Bu şəhər təxminən 100 km. İraq əraziləri ilə və 200 km. Türkiyə sərhədləri ilə aralıdır. Dirəzzur şəhərinin yaxınlığında yerləşir... Tezliklə orada qızıl, gümüş və sair *(neft)* xəzinələr aşkarlanacaqdır. Necə ki, bu barədə rəvayətlərdə qeyd edilmişdir: “Fəratın suyu qızıl və gümüşdən bir dağ ortaya çıxarar ki, onun başında hər doqquz nəfərdən yeddisi öldürülər...”[155] Bu döyüşdə müxtəlif qövmlər iştirak edəcək:

**1 –** Türklər: Onlar Türkiyədən *(iki çay arasında olan ərazi)* Cəzirəyə enərlər.

**2 –** Rumlular: Yəhudilər və qərb dövlətləridir ki, Fələstinə girərlər.

**3 –** Süfyani: Bu əsnada Şam diyarına müsəllət olacaqdır.

---

[154] Bəyanul-Əimmə, c.2, s.431; Muntəxəbul-əsər, s.451; Yəumul-xilas, s.280.
[155] Əs-Süfyani, s.31.

**4 –** Abdullah: Rəvayətlər onun barəsində xüsusi bir mətləbə işarə etməmişdir. *(Zahirən o, Məğrib ərazisinin həmpeymanıdır)*.

**5 –** Qeys: Bayrağının mərkəzi Misirdir.

**6 –** Abbas övladları: İraqdan gələnlər.

Çəkişmə arasında böyük bir qanlı qarşıdurma, əzəmətli gurultu və şiddətli qətliam baş verəcəkdir. Belə ki, qısa müddət ərzində yüz min nəfər qətlə yetirilməyənədək dayanmaz *(başqa rəvayətə əsasən, dörd yüz min nəfər)*[156] Bu isə döyüşdə kütləvi silahlardan *(nüvə, atom, zəhərləyici kimyəvi, yaxud baktereoloji, yaxud elektron qazlar)* istifadə olunmasına işarədir. Belə ki, nəticədə heyvan və bitki *(qida)* aləminə döyüş əsnasında istifadə olunan silahlar səbəbilə zərər toxunacaqdır. Bu vaqeə dünya müharibələrindən biridir ki, bundan öncə onun kimisi görülməyib, görülməyəcəkdir.... Döyüşün sonuncu nəticəsi Süfyaninin müttəfiqlərinin qələbəsi ilə bitəcəkdir.

Buna açıq-aydın şəkildə dəlalət edən rəvayətlər vardır:

Əmmar ibn Yasirdən nəql olunan xəbərdə deyilir: "Qərb əhli Misirə sarı çıxar. Oraya daxil olduqda Süfyaninin əmirliyidir *(Süfyaninin gəlmə əlamətidir)*. Bundan öncə Ali-Muhəmməd üçün iddia edən kəs xüruc edəcəkdir. Türklər Hirəyə, rumlular isə Fələstinə enəcəklər. Abdullah önə keçəcək və çay kənarında, Qirqisiyada onların qoşunları ilə üz-üzə gələcəkdir. Böyük bir müharibə baş verəcəkdir. "Sahibul-məğrib" də *(qərblilərin müttəfiqi)* hərəkət edəcək. Kişilər öldürüləcək, qadınlar isə əsir götürüləcəkdir. Sonra Qeysə sarı dönəcək, nəhayət Süfyani Hirəyə daxil olacaqdır. Yəmani tələsəcək, bütün toplamış olduqlarını ələ keçirəcəkdir və Kufəyə sarı hərəkət edəcəkdir".[157]

Cabir ibn Yezid Cufi İmam Baqirin *(əleyhissəlam)* uzun bir hədisin gedişatında belə buyurduğunu nəql emtişdir: "Türklər

---

[156] Yəumul-xilas, s.698.

[157] Ğeybətut-Tusi, s.279; Biharul-ənvar, c.52, s.208; Bəşarətul-İslam, s.177; əs-Süfyani, s.128.

tərəfdən dindən çıxmış bir dəstə xüruc edəcək. Bunun ardınca Rumluların hərc-mərcliyi baş verəcək. Türk qardaşları gəlib Cəzirəyə yerləşəcəklər. Rumlulardan olan dindən çıxmışlar da gəlib Rəmləyə yerləşəcəklər. O il, ey Cabir, Məğribin hər bir yerində çoxlu ixtilaflar baş verəcək. İlk dağılan yer Şam olacaq. Onun üstündə üç bayraq ixtilaf edəcək: Əshəbin bayrağı, Əbqənin bayrağı və Süfyaninin bayrağı. Süfyani Əbqə ilə qarşılaşacaq və onlar döyüşəcəklər. Süfyani onu və onun adamlarını öldürəcək. Sonra Əshəbi öldürəcək. Bundan sonra onun yeganə istəyi İraqa tərəf irəliləmək olacaq. Ordusunu Qirqisiyaya göndərəcək. Onlar Qirqisiyada döyüşəcəklər. Orada yüz min zalım öldürüləcək. Sonra Süfyani yetmiş minlik bir qoşunu Kufəyə göndərəcək".[158]

Abdullah ibn Əbu Yəfur İmam Baqirin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Abbas övladları və Mərvanilər üçün Qirqisiyada elə bir hadisə olacaq ki, cavan və qüvvətli oğlan burada qocalacaq. Allah onlardan qələbəni əsirgəyəcək və göyün quşlarına və yerin vəhşi heyvanlarına belə vəhy edəcək: "Doyun zülmkarların əti ilə!" Bundan sonra Süfyani çıxacaq".[159]

Hüzeyfə ibn Mənsur İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Həqiqətən də, Allahın Qirqisiyada bir süfrəsi *(başqa bir hədisdə: ziyafəti)* vardır. Səmada bir nəfər aşkar olub deyəcək: "Ey səmanın quşları, ey yerin vəhşi heyvanları, gəlin zalımların ətləri ilə doymağa!"[160]

Muhəmməd ibn Müslim İmam Baqirin *(əleyhissəlam)* belə buyurduğunu nəql edib: "*(Uzun bir hədisin gedişatında)*... Məgər görmürsünüz ki, düşmənləriniz Allaha məsiyət yolunda

---

[158] Ğeybətun-Numani, s.187; Bəşarətul-İslam, s.102; əs-Süfyani, s.108; Yəumul-xilas, s.698; əl-Muməhhidun lil-Mehdi, s.112.
[159] Ğeybətun-Numani, s.205; Biharul-ənvar, c.52, s.251; Yəumul-xilas, s.690; əs-Süfyani, s.127.
[160] Ğeybətun-Numani, s.186; Yəumul-xilas, s.699; əl-Muməhhidun lil-Mehdi, s.113; əs-Süfyani, s.127.

bir-birləri ilə vuruşurlar? Sizi qoyub dünya üstündə bir-birlərini öldürürlər və bunun *(müqabilində)* sizlər onlardan uzaq olub öz evlərinizdə asudə şəkildə oturursunuz? Düşmənləriniz içərisində sizə bəla olaraq Süfyani kifayət edəcək. O sizin üçün baş verəcək əlamətlərdən biridir. Baxmayaraq ki, o fasiqin xüruc etməsindən bir və ya iki ay sonraya qədər sizə heç bir şey olmayacaq. O *(bu müddət ərzində)* sizdən deyil, başqalarından çoxlu sayda insan öldürəcək".[161]

Hər bir halda, Qirqisiya mərəkəsindən sonra məntəqədə hər bir siyasi və hərbi qüvvələrə vandalizm, qüvvədən salma və bir-birini öldürmək tamamlanacaqdır. O kəslər ki, zühur zamanı Məhdinin *(əleyhissəlam)* qarşısında cəbhə qurmaları ehtimal olunurdu. Bircə qalib Süfyani qalacaq ki, kibirlik göstərəcəkdir.

---

[161] Ğeybətun-Numani, s.203.

# ALTINCI HİSSƏ:

# ZÜLQƏDƏ AYININ HADİSƏLƏRİ

Qirqisiya mərəkəsinin nəticələri irimiqyaslı məhvə gətirib çıxaracaqdır. Belə ki, əkinçilik və nəsildə *(iş və yaşayışa kinayədir)* baş verəcəkdir. Bir tərəfdən, kişilərin qətlə yetirilməsi ən azı yüz min civarında olacaqdır. Başqa bir tərəfdən isə, qida *(heyvanat və bitki)* sahəsi fəsada uğrayacaqdır. Bütün bunlar mərəkə və döyüşdə istifadə olan ölümcül silahlara – zəhərləyici qazlar, nüvə silahları və atom bombaları – görə olacaqdır. Odur ki, qida sahəsində qəhətlik və qıtlıq olacaqdır. Bu ayda qəbilələr yaxın fərdləri üçün qida axtarışına çıxacaqlar *(xüsusilə xurma axtarışına)*. Həmçinin buna görə bir-birləri ilə döyüşəcəklər.

Allah Rəsulu *(sallallahu əleyhi və alih)* buyurmuşdur: "Ramazan ayında çığırtı baş verdikdə*(n sonra)* Şəvval ayında döyüş baş verəcəkdir *(Qirqisiya döyüşü)*. Zülqədə ayında isə qəbilələr *(ailələrinin ehtiyacını qarşılamaq üçün)* çırpınacaq və bir-birlərilə vuruşacaqlar. Zülhiccədə isə hacılar qarət olunar və qanlar axıdılar".[162]

### *1 – Qəbilələrin yemək axtarışında çarpışması*

Qəbilələrin çarpışması: yəni bir şəhərdən onlara yemək daşıdıqda, həmin daşınan yeməyə "mirəh" deyilər. Yəni qəbilələr bir məntəqədən başqa bir məntəqəyə azuqə tədarükü görərlər. Məna budur ki, qəbilələr başqa ölkələrə gedər ki, ailələri üçün azuqə alsınlar. Onlar bir illik azuqə tədarükü görərlər. Həmçi-

---

[162] Bəşarətul-İslam, s.34; Muntəxəbul-əsər, s.451; Bəyanul-Əimmə, c.1, s.431; c.2, s.354; Yəumul-xilas, s.280.

nin döyüşlər, qətillər, dağıdıcı silahlar səbəbi ilə yaranan qıtlıq, qəhətlik, bahalıq və qida pozuntusu *(kirlənməsi)* qorxusundan onu yaxşı qorumağa çalışarlar.

Muhəmməd ibn Müslim İmam Sadiqdən *(əleyhissəlam)* belə eşitdiyini nəql etmişdir: “Qaimdən *(onun gəlişindən)* öncə Allah tərəfindən möminlərə *(onları sınağa çəkmək naminə)* nişanələrə olacaqdır”.

Dedim ki, Allah məni sənə fəda etsin, həmin əlamətlər nədir? Buyurdu: “Allahın sözüdür: ***“Sizi** (yəni Qaimin çıxmasından öncə möminləri)* ***mütləq bir az qorxu və aclıqla, eləcə də mal, can və məhsulların azlığı ilə imtahan edəcəyik. Səbr edənlərə müjdə ver”***[163].[164]

Qəbilələlərin azuqə üçün çapalaması və yemək üstündə vuruşması Zülqədə ayında baş verəcəkdir... Bu cərəyan sonrakı aylara qədər davam edəcəkdir. Belə ki, hədisdə bu vurğulanır: “Hacılar Zülhiccə ayında qarət olunacaqlar”. *(Yəni onların mallarını oğurlayacaq və qənimət götürəcəklər)*

Firuz Deyləmi Allah Rəsulundan *(sallallahu əleyhi və alih)* nəql etmişdir ki, uzun bir hədisin gedişatında buyurub: “Səs Ramazan ayındadır, gurultu Şəvval, qəbilələrin azuqə toplamağa çalışmaları Zülqədə, hacıların qarət olunması Zülhiccə və Məhərrəm ayındadır. Nədir Məhərrəm? Əvvəli ümmətimə bəladır, axırı isə ümmətim üçün fərəcdir. Möminin dəvə yükü üzərində nicat tapması ona yüz min qazancı olan xəzinədən üstündür”.[165]

“Dəskərəh” yemək və bahalı şeylərin qoyularaq saxlanıldığı yerdir *(anbar, xəzinə)*. Mənası budur ki, Allahın saxladığı *(Bəqiyyətullah)* İmamla *(əleyhissəlam)* cihad etməyə getmək, köçmək yüz min nəfərə bəs edəcək qida toplamaqdan üstündür. Belə ki, bu yemək toplamağın kiməsə faydası və xeyri yox-

[163] Bəqərə, 155.
[164] İlamul-vəra, s.427.
[165] Bəyanul-Əimmə, c.1, s.432.

dur. İmamla *(əleyhissəlam)* birlikdə cihad etmək müvəffəqiyyətinə yetişmək ona dünya və axirətdə fayda verəcəkdir. Onda dünya və axirət faydası vardır".

Bundan öncə, Əhli-beyt imamlarının *(əleyhimussəlam)* şiələrinə, onları sevənlərə və ardıcıllarına öyrətmiş olduğu təlimlərdə görürük ki, Ramazan ayında çığırtını eşitdikdən sonra yemək azuqəsi toplamağı çoxaltmalıdırlar... Yəni hadisə *(Qirqisiya mərəkəsi)*, döyüşlər və fitnələr baş verməmişdən öncə bunu etməlidirlər. Həmin vaxt Ali-Beyt *(əlehyimussəlam)* şiələri yemək tədarükü görmək üçün ayıq olacaqlar. Onların əllərinə başqalarından ən azı iki ay öncə, həmçinin qida korlanmadan qabaq fürsət düşəcəkdir. Bu da imamların *(əleyhimussəlam)* təlimlərinin fəziləti və bərəkəti sayəsində olacaqdır. Bu, kitablarda gizli tutulmuş və qeybi sirlərdir ki, seyidlərimiz və başçılarımız bizə lütf etmişlər. Onlara ən üstün salavat və salam olsun.

***2 –İraq qətliamı***

**Bağdad soyqırımı**

Qirqisiya mərəkəsindən sonra Süfyani İraqdakı siyasi zəiflik durumdan istifadə edəcəkdir. O, hərbi həmlə icra edəcək, onun qüvvələri İraqa daxil olacaq, Bağdadda müsibət doğuran qətliam törədəcəkdir. *(Zülqədə ayının 21, yaxud 22-si başlayacaqdır)*. Həmçinin Kufədə soyqırım baş verəcəkdir *(Zülhiccə ayında mübarək qurban bayramı, bayram günü)*. Habelə başqa şəhərlərdə də baş verəcəkdir. O həddə çatacaq ki, Xorasaninin qüvvələri *(iranlılar)* daxil olacaq.

Uzun bir hədisin gedişatında İmam Sadiq *(əleyhissəlam)* buyurmuşdur: "İraqı şiddətli qorxu bürüyəcək və sabitlik olmayacaqdır. Onun qoşunu bağdada daxil olduqdan sonra sürətli ölüm düşəcəkdir. Belə ki, üç gün oranı mübah edəcəkdir. Əhalisinin altmış minini qətlə yetirəcəkdir *(yetmiş min də deyilmişdir)*. Evləri xarabaxanalığa çevirəcəkdir. Sonra orada

on səkkiz gecə qalacaq və mallarını bölüşdürəcəkdir. Orada ən salamat yer Kərx olacaqdır".[166]

İbn Vəhb deyib: "Əbu Abdullah *(əleyhissəlam)* İbn Əbu Əqibin şerindən beyti misal gətirdi: *(məzmunu)*

Onlardan səksən min nəfərin heyvan kimi Bağdadda başı kəsilmiş olar

Nəhayət bu yerinə çatdı: *(məzmunu)*

Zəvrada *(Bağdadın epitetlərindən biri)* səksən min adam qətlə yetirilər. Onların səksən nəfəri filankəsin övladlarından olarlar. Hamısı xilafət üçün layiqli olar".[167]

Əmirəlmöminin *(əleyhissəlam)* uzun bir hədisin gedişatında buyurmuşdur: "Zəvra *(Bağdad)* şəhəhərindən onların valisi, əmir beş min cəllad arasında çıxar. Körpüsü üzərində yetmiş min nəfər öldürərlər. O həddə qədər ki, camaat üç gün cəsədlərin üfunətli qanı ucbatından Fəratdan uzaq durar".[168]

İmam Sadiq *(əleyhissəlam)* buyurmuşdur: "Bəni-Abbas tərəfdarlarından dəyəri böyük olan bir nəfərin Kərxdən Bağdad şəhərinə gələn körpünün yanında yandırılması baş verər".[169]

İmam Hüseyn *(əleyhissəlam)* uzun bir hədisin gedişatında belə buyurmuşdur: "Yüz otuz min nəfərlik qoşununu Zəvraya *(Bağdada)* göndərər. Onlar üç gün ərzində oranın körpüsü üzərində yetmiş min nəfər adamı qətlə yetirərlər. On iki min bakirə qızı zorlayarlar. Sən Dəclə çayının suyunu qan və cəsədlərin üfunətindən qırmızıya bürünmüş görərsən".[170]

Zəvra Bağdaddır. Oranı Mənsur Dəvaniqi tikdirmişdir. Körpünün adı rəvayətlərdə dəfələrlə təkrar çəkilmişdir. Bu körpü Bağdadda "Cuəyfər" məhəlləsindən Kərx tərəfində bağlanmışdır. Dəclə çayının başqa bir tərəfində yerləşən "Mədinətut-tib-

---

[166] Yəumul-xilas, s.703; İlamul-vəra, s.429.
[167] Bəşarətul-İslam, s.153; Yəumul-xilas, s.657.
[168] İlzamun-nasib, c.2, s.119; Bəşarətul-İslam, s.57.
[169] İlzamun-nasib, c.2, s.149; Yəumul-xilas, s.657.
[170] Yəumul-xilas, s.657; Bəyanul-Əimmə, c.2, s.365.

b”-in qarşısındadır. Bu körpünün adının dəfələrlə hallanmasında görünən budur ki, bu körpü Süfyani qoşunu ilə iraqlıların qoşunu arasında baş verən vaqiənin yeridir. Belə ki, körpünün üzərində yetmiş min əskər öldürüləcəkdir. Onların qanı Dəclə çayına axacaqdır. O həddə qədər ki, çayın suyu qandan qırmızı rəngə boyanacaqdır. Həmçinin su qan və cəsədlərin çürüməsindən üfunət iyi verəcəkdir. O həddə çatacaq ki, camaat üç gün çayın suyunu içməkdən uzaq duracaqdır.

İmam Sadiq *(əleyhissəlam)* buyurmuşdur: “Sarı bayraqların, məğrib bayraqlarının və Süfyani bayrağının əlindən vay olsun Zəvranın halına!”[171]

Müfəzzəl ibn Ömər İmam Sadiqdən *(əleyhissəlam)* belə nəql etmişdir ki, həzrətə buyurdu: “Ey ağam, Bağdadda olan Zəvranın halı həmin zaman necə olacaq?”

Buyurdu: “Allah əzabının, qəzəbinin yeri olacaqdır. Sarı bayraqların, hər bir yaxın və uzaqlıqdan ona sarı hərəkət edən bayraqların əlindən vay onun halına. Allaha and olsun ki, ruzigarın əvvəlindən sonuna qədər sair üsyankar ümmətlərə nazil olan növbənöv əzablar, habelə o əzablar ki, nə göz görmüşdür, nə də qulaq eşitmir – mütləq nazil olacaqdır. Sellərlə birlikdə tufan oraya gələcəkdir. Vay olsun oranı məskən seçənin halına. Allaha and olsun ki, Bağdad bəzi vaxtlarda elə abad edilər ki, hətta onu görən kəs “dünya elə budur, başqası deyil” – deyər. Zənn edər ki, qızları hurul-eyn, övladları isə Cənnət övladlarıdır. Güman edər ki, Allah yalnız oraya ruzi bəxş edir. Allahı yalanlama üzə çıxar. Haqsız yerə hökm verilər, yalandan şahidlik edilər, məstedici şərab, zina, haram mal yemək, *(nahaq)* qan axıtmaq üzə çıxar. Bundan sonra Allah onu sınaqlar və hərbi qüvvələrin əli ilə çıxaracaqdır. O həddə qədər ki, oradan keçən kəs *(xaraba günə qalmış)* divardan başqa heç nə görməz. Əksinə, deyər ki, bu yer Bağdaddır. Sonra gözəl üzlü

---

[171] Bəşarətul-İslam, s.143; Yəumul-xilas, s.701.

Həsəni *(İmam Həsənin (əleyhissəlam) nəslindən olan)* bir gənc Deyləm və Qəzvin tərəfdən çıxacaq. Sonra səsi ilə çığıracaqdır: "Ey Muhəmməd ailəsi, bu qəmginə cavab verin *(dəvətini qəbul edin)*". Taliqanın xəzinələri ona cavab verər. O xəzinələr ki, qızıl və gümüşdən ibarət deyil. Əksinə, dəmir parçası tək olan adamlardır. Sanki mən onlara baxıram. Onlar *(kəsik qulaqlı)* boz atlara süvardırlar, əllərində də qısa silahlar vardır. Canavar kimi müştaq və döyüşmək üçün teşnədirlər. Onların başçısı Bəni Təmimdən olan bir nəfərdir ki, ona Şüeyb ibn Saleh deyərlər. O, üzünü onlar arasında ay kimi parlaq simalı Seyid Həsəniyə tutar və sonra zülmkarın üzərinə gəlib, onları qətlə yetirər, nəhayət Kufəyə yetişər".[172]

Süfyaninin qoşunu Bağdadda faciəli qətliama mürtəkib olar. Sonra ordusunu Kufəyə *(Nəcəfə)* yollayar. Orada şiddətli bir hadisə baş verər. Belə ki, ağılları mat-heyran qoyar. Bu qətliam yalnız Xorasaninin başçılığı ilə İraqa iranlıların qüvvəsinin daxil olması ilə durar.

---

[172] Biharul-ənvar, c.52, s.14 və 15; Bəşarətul-İslam, s.143; Yəumul-xilas, s.701.

## YEDDİNCİ HİSSƏ:

## ZÜLHİCCƏ AYININ HADİSƏLƏRİ

Müqəddəs fəcrin doğmasının zaman və məkanına hər nə qədər yaxınlaşırıqsa rəvayət və hədislərdə geniş açıqlamalar çoxalır. O həddə qədər ki, hətta yerlər, günlər və saatlar da vurğulanır... Bundan dolayı, rəvayətlərin bilgiləri baxımından hadisənin baş vermə gününü də təyin edə bilərik.

Çoxlu rəvayətlərdə qeyd edilmişdir ki, Zülhiccə ayı qan ayıdır. Əbu Bəsir uzun bir hədisin gedişatında İmam Sadiqdən *(əleyhissəlam)* soruşur ki, bəs Zülhiccə? O isə buyurur: "O, qan ayıdır..."[173]

Allah Rəsulu *(sallallahu əleyhi və alih)* buyurmuşdur: "Zülhiccə ayında hacılar qarət olunar və qan tökülər".[174]

Bu ayda baş verəcək mühüm hadisələr *(mühüm hadisələr, hansı ki, qəti baş verəcək beş əlamətdəndir)*, əlavə olaraq, digər bir çox hadisələrə rəvayətlər toxunmuşdur. Onlar aşağıdakılardır:

***1 – Kufə qətliamı***

Bayram günü, yəni mübarək Qurban bayramı *(Zülhiccənin onu)*: Süfyaninin ordusu Bağdadda törətdiyi qətliamdan və orada on səkkiz gecə qaldıqdan sonra, onun qoşunu Kufəyə sarı *(Nəcəfə)* yönələr. Orada qətliam və soyqırım törədər. Belə ki, nə sayı bilinər, nə də həddi.

Süfyani yüz otuz min nəfərlik qoşunu Kufə və Nəcəfə sarı yollayar ki, onun qüvvələri Ruha, Faruq, İsa və Məryəmin *(əleyhiməssəlam)* Qadisiyyədəki məqamında enərlər. Yəni Kufəyə sarı Babil yolunda enərlər. Ruha Fərata yaxın bir yer adıdır.

[173] Biharul-ənvar, c.52, s.272; Bəşarətul-İslam, s.142.
[174] Muntəxəbul-əsər, s.451, Yəumul-xilas, s.280.

Ona İsa *(əleyhissəlam)* çayı deyərlər. Faruq yolların *(dörd yolun)* bir-birindən ayrıldığı yerdir. Bu yollardan biri Qadisiyyə *(Divaniyyə)* səmtinə aparır. Digəri Babil, Bağdad və üçüncü yol isə Zülkifl, Kufə və Nəcəfə sarı gedir. Digər yollar da bu yoldan ayrılır.

Nəcəfə həmlə etmək niyyətində olan Süfyaninin səksən minlik qoşunu Nüxeylədə *(Nəcəf Əşrəfdə məqbərə, Vadius-səlamda geniş bir yer)* Hudun *(əleyhissəlam)* qəbri yerində enər. Qurban bayramı günü Babil yolundan Kufəyə onlara yetişər. Sonra Nəcəfə tərəf üz tutar. Bu iki şəhərdən yetmiş min cavan qızı əsir tutub, onları məhmillərə qoyarlar – yəni nəqliyyat vasitələrinə – və onları Kumeyl ibn Ziyad və Əmirəlmömininin *(əleyhissəlam)* sair tərəfdarlarının qəbirləri olan Suvəyyəyə apararlar. Bu ərazidə Kumeyl üçün böyük bir məqbərə, böyük bir hərəm həmçinin onun ətrafında məhəllələr və evlər tikmişlər. Qənimətlərlə birlikdə əldə etdikləri əsir götürülmüş qızlar və qadınları orada qoyarlar.

Süfyaninin ordusu Kufədə qətliamlar, edamlar və əsir tutduqdan sonra Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* xanədanının köməkçilərini və bu dəstədən olduğunu güman etdikləri hər bir kəsi öldürərlər. Bu qoşunun sözçüsü şəhərdə car çəkər ki, hər kəs Əli şiələrindən birinin başını gətirsə min dirhəm mükafat alacaqdır. Bunun ardınca qonşu öz qonşusuna İslam daxilində fərqli məzhəbdə olduqları səbəbi ilə hücum çəkər və deyər ki, bu da onlardandır. Onun boynunu vurub, başını Süfyaninin qoşununun başçısına verər və onlardan on min dirhəm alar.

Kufədə və onun əhalisi tərəfindən baş verən zəif hərəkat və kiçik üsyanlar *(Süfyaninin ordusunun qarşısında durmaqda və)* Süfyaninin iqtidarı altından xilas olmaqda bacarıqsız olar. Əksinə, onların zəif və qüdrətsiz olduqlarından Süfyani bu imkanı dəyərləndirər və hərəkatın başçısını Hirə və Kufə arasında qətlə yetirər.

Sanki onun hərəkatının müvəffəqiyyətsizliyindən sonra məğlubiyyətə uğrayacaq və yolda Süfyani səbəbkarı ələ keçirtməkdə imkan əldə edəcək və onu öldürəcəkdir. Həmçinin saleh kəslərdən yetmiş nəfəri də *(yəni din alimlərini)* qətlə yetirəcəkdir. Onların başında dəyərli bir adam olar ki, onu *(Süfyani)* yandırar və külünü Cəlula və Xaniqin arasında göyə sovurar. Sonra isə Kufədə dörd min şəxsi qətlə yetirər.

Rəvayətlər xəbər verir ki, Nəcəf və Kufədə sayları yüz min olan dindar olmayan müşrik, münafiqlərdən ibarət bir dəstə camaat, yaxud partiya olacaqdır ki, Süfyaniyə dəstək olaraq yürüş və nümayişə çıxacaqdır. Onlar Dəməşqə yetişəcək.

Süfyaninin qoşununun Nəcəfdə törətdiyi qətliamlardan, alimlərin, salehlərin, möminlərin şəhid edilməsindən, Əmirəlmömininin *(əleyhissəlam)* məqbərisinin dağıdılmasından, Nəcəf qadınlarının əsir götürülməsindən, mallarının tarac edilməsindən sonra döyüşü İranın İstəxr *(Şiraz)* məntəqəsinə qədər çəkərlər.

Seyid Xorasani qiyam edib, İran möminlərinə xəbər edər. Onlardan İraq əhalisinə yardım etmək üçün köməklik istəyər. Onun ardınca qüdrətli və hazırlıqlı bir qoşun toplanar ki, onların önündə Şüeyb ibn Saleh hərəkət edər. İstəxr darvazasında Xorasaninin qoşunu *(qara bayraqların sahibləri)* Süfyaninin qoşunu ilə üzbəüz gələr. Böyük bir döyüş baş verər. Qara bayraqlılar qələbə çalar, Süfyaninin qoşunu darmadağın edilər. *(Bu, Süfyaninin ard-arda və sürətlə gerçəkləşən bütün qələbələrindən sonra birinci məğlubiyyəti olar)* Seyid Yəmani də Yəməndən qiyam qaldırar *(onun adı Həsən, yaxud Hüseyndir)*. Bu hadisələrin xəbəri onun qulağına çatar və bu cür narahatedici olaylar onu xəstə halına salar. Bu üzdən özünü sürətlə Kufəyə çatdırar. Seyid Xorasaninin qoşunu ilə qarşılaşar və Süfyaninin qoşununun əleyhinə onunla birləşər. Öz silahlarını Süfyaninin ordusuna yönəldər, həmlə edərək Nəcəfdən çıxararlar, əsirləri və Süfayni, qoşunlarının qənimət götürdüklərini öz sahiblərinə

geri qaytarar. Ondan sonra xalq Məhdini *(əleyhissəlam)* arzulayar və onun axtarışına çıxarlar.

Kufə və Nəcəfdə baş verəcək hadisələrin əlamətlərini açıq şəkildə izah edən şərafətli rəvayətlər mövcuddur:

Əsbəğ ibn Nübatə deyib: "Əmirəlmömininin *(əleyhissəlam)* belə buyurduğunu eşitdim: "...Kufəyə yüz otuz min nəfər göndərər ki, Rəvha və Faruqda enərlər. Onlardan altmış min nəfəri yola düşər və Kufədə Hudun *(əleyhissəlam)* məzarı yerləşən Nüxeyləyə yetişərlər. Bayram günü oraya hücum çəkərlər. Xalqın əmiri inadkar tiran olar. Ona sehrbaz kahin *(əs-Sahirul-kahin)* deyilər..." Hədisin başqa bir hissəsində buyurur: "... *(Həmin vaxta qədər)* fatası və libası götürülməmiş *(çıxarılmamış)* yetmiş min bakirə qız əsir götürülər və onları nəqliyyat vasitəsilə Süveyləyə apararlar. O Ğuradır. Sonra yüz min münafiq və müşrik Kufədən çıxar və qüdrətli bir qüvvə onların hərəkətinə mane olmadan Dəməşqə daxil olarlar. Yerdən tanınmayan bayraqlar ucalar ki, pambıq, kətan və ipək materialından deyil. Nizənin başında *(bayraqda)* "əs-Seyyidul-Əkbər" *(böyük seyid)* – deyə həkk olunmuşdur. *(Bu qoşuna)* Ali-Muhəmməddən olan məşriqdən üzə çıxan bir nəfər başçılıq edər. Onun ətri eynən xoşqoxulu müşkün iyi kimi məşriqdə duyular. Ondan bir ay öncə *(qərblilər arasında)* qorxu hakim olar. Belə ki, atalarının qanını tələb edərək Kufəyə varid olarlar. Bu zaman onlar bu işlə məşğul olarkən, Yəmani və Xorasaninin qoşunları *(onlara tərəf)* üz tutar. Onlar saçları qarışıq, səfərin tozu bədəninə oturmuş yarışan at kimi, qılıncını qınından siyirmiş, düzqamət, polad iradəli, kaman oxu kimi olarlar. Onlardan biri bir nəfərin batininə baxdıqda "Bundan sonra məclisimizdə heç bir xeyir yoxdur. İlahi, həqiqətən də, biz tövbə edənlərik" – deyər. Onlar həmin "əbdal"-dırlar ki, Allah onları izzətli kitabında belə vəsf etmişdir: ***"Həqiqətən, Allah çox və tez tövbə edənləri, həm-***

***çinin pak olmağa çalışanları sevir"***[175]. Onların bənzərləri Ali-Muhəmməddəndir". [176]

Cabir ibn Yezid Cufi İmam Baqirin *(əleyhissəlam)* uzun bir hədisin gedişatında belə buyurduğunu nəql etmişdir: "Sonra Süfyani yetmiş minlik bir qoşunu Kufəyə göndərəcək. Onlar Kufə camaatını öldürəcək, asacaq və əsir edəcəklər. Onlar bu vəziyyətdə ikən Xorasan tərəfdən bayraqlar gələcək. Onlar mənzilləri çox sürətlə qət edəcəklər. Onlarla birgə Qaimin əshabından olan bir neçə nəfər də olacaq. Sonra Kufə camaatının himayədarlarından *(böyük şəxslərindən)* olan bir kəs *(Süfyani ordusunun zülmünə qarşı)* zəif bir dəstə ilə qiyam edəcək. Lakin Süfyaninin qoşununun başçısı onu Kufə ilə Hirə arasında qətlə yetirəcək".[177]

İmam Sadiqin uzun bir xəbərin gedişatında belə buyurduğu nəql olunmuşdur: "Qadın həmli kimi doqquz ay hökmdarlıq edəcək Əbu Süfyan ailəsindən bir nəfər çıxmayanadək bu, baş verməyəcəkdir. "Şeyx"in nəslindən biri çıxıb, Nəcəfin daxilində qətlə yetirilənədək hərəkət etməyincə olmayacaqdır. Allaha and olsun, sanki mən onların nizələrini, qılınclarını və tədarüklərini görürəm ki, bazar ertəsi Nəcəf divarlarından birinə qoymuş və çərşənbə şəhid olmuşlar".[178]

Əsbəğ ibn Nübatə deyib: "Əmirəlmöminin *(əleyhissəlam)* belə buyurduğunu eşitdim: "*(Uzun bir hədisin gedişatında)*... Nəzarətçilərin vasitəsilə Kufə ətrafına hasar çəkilməsi, xəndək qazılması, Kufə küçələrində *(yaxud dalanlarında)* guşələrin *(yaxud kiçik məscidlərin)* sökülməsi, məscidlərin qırx gecə tətil etməsi, heykəlin üzə çıxması, qatil və qətlə yetirilənin oda atılacağı ən böyük məscidin ətrafında üç bayrağın dalğalanması,

---

[175] Bəqərə, 222.
[176] Biharul-ənvar, c.52, s.274; Bəşarətul-İslam, s.58 və 69; İlzamun-nasib, c.2, s.120.
[177] Ğeybətun-Numani, s.187; Bəşarətul-İslam, s.102; Yəumul-xilas, s.637.
[178] Bəşarətul-İslam, s.155.

sürətli qətl və gözlənilməz ölüm, Kufə arxasında yetmiş nəfərin arasında Nəfsi-Zəkiyyənin öldürülməsi..."[179]

Əmirəlmömininin *(əleyhissəlam)* belə buyurduğu nəql olunmuşdur: "Yetmiş min salehin *(din alimlərinin)* qətlə yetirilməsi olacaqdır. Onların başında dəyəri böyük olan bir adam olacaq. O *(yəni Süfyani)*, onu yandıracaq, Cəlula və Xaniqin arasında külünü havaya sovuracaqdır. Bu isə Kufədə dörd min nəfər qətlə yetiriləndən sonra olacaqdır".[180]

Ömər ibn İban Kəlbi İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Sanki Süfyanini görürəm ki, onun yükü Kufədə meydanlarınıza atılmışdır. Onun carçısı nida çəkir: "Kim Əli şiələrindən olan bir şiənin başını gətirsə, beş min dirhəm *(mükafat)* alacaqdır". Sonra bir qonşu öz qonşusuna hücum çəkib deyər ki, bu onlardandır. Onun boynunu vurub, min dirhəm *(mükafat)* götürər. Sizim başçınız həmin dövrdə haramzadələrdir. Sanki həmin rubənd sahibi olan adamı görürəm".

Soruşdum: "O kimdir?"

Buyurdu: "Bir adamdır ki, sizlərdən biri və həməqidəniz kimi *(yəni ərəb və müsəlman olaraq)* rubənd taxar *(üzünü örtər)*. O sizi yaxşı tanıyır, ancaq siz onu tanımırsınız. Sonra sizi mühasirəyə alacaq və bir-bir yoxlayacaqdır *(yaxud yaxalayıb, yox edəcəkdir)*. O, zinazadədən başqa birisi deyil".[181]

Əmirəlmöminin *(əleyhissəlam)* buyurmuşdur: "Süfyaninin qoşunu Kufəyə sarı hərəkət etdikdə, Xorasan əhlinin axtarışına yollanar. Xorasan əhli isə Məhdinin sorağına çıxar. O *(yəni Süfyani)*, qara bayraqlarla olan və önündə Şüeyb ibn Saleh olan Haşimi *(Seyid Xorasani)* üz-üzə gələr. O və Süfyani İstəxr qapısında qarşılaşar. Onlar arasında böyük döyüş baş verər. Qara

---

[179] Biharul-ənvar, c.52, s.273; Bəşarətul-İslam, s.67; Yəumul-xilas, s.635.
[180] Biharul-ənvar, c.52, s.220; Yəumul-xilas, s.635
[181] Ğeybətut-Tusi, s.273; Bəşarətul-İslam, s.124; Yəumul-xilas, s.703; Bəyanul-Əimmə, c.2, s.612.

bayraqlar qələbə çalar və Süfyaninin qoşunu qaçar. Həmin vaxt camaat Məhdini arzulayar və onu axtararlar”.[182]

### *2 – Mina narahatçılıqları (düzənsizlikləri)*

Şərafətli hədislər həcc mövsümü əsnasında Minada hacılar arasında baş verən çaxnaşmanı xarakterizə etmişdir. Belə ki, hicaz əhli arasında hakimiyyət ətrafında müxalifətçilik yayılmaqla baş verəcəkdir.

İmam Sadiq *(əleyhissəlam)* buyurmuşdur: “Camaat birlikdə həcc edər. İmamsız olaraq birlikdə Ərəfatda vüquf edərlər. Minada olan əsnada şiddətli fitnə baş qaldırar və bütün qəbilələr ayağa durar. O həddə qədər ki, Əqəbə *(Cəmərə)* qana boyanar. *(Camaat)* dəhşətə gələr və Kəbəyə sığınarlar”.[183]

Bu hədisdən belə anlamaq olar ki, camaat həmin zaman camaat elə gərginlik durumunda yaşayacaqlar ki, mənasiklərini yerinə yetirən kimi, yaxud onu tamamlamadan öncə Minada bir-birinə girəcəklər və nəticədə narahatçılıqlar baş verəcəkdir. Minada “rəmyul-cimar” mənasikini *(ayin)* yerinə yetirmək əsnasında hacılar qarət olunacaq, onların malları qənimət olaraq götürüləcək, özləri qətlə yetiriləcək və təcavüz edilməyəcək xüsusiyyətlər yırtılıb gedəcəkdir *(hörmətsizlik olunacaqdır)*.

Səhl ibn Həuşəb deyib: “Allah Rəsulu *(sallallahu əleyhi və alih)* buyurmuşdur: “Ramazan ayında səs, Şəvval ayında gurultu, Zülqədədə qəbilələrin bir-birləri ilə vuruşması vardır. Həmin tarixin əlaməti Həccdir. Minada döyüş baş verəcək, orada çoxlu qətl baş verəcək və qanlar töküləcəkdir. O həddə olacaqdır ki, qanları Cəzirəyə *(Cəmrata)* çatacaqdır”.[184]

Abdullah ibn Sinan deyib: “Əbu Abdullahın *(əleyhissəlam)* belə buyurduğunu eşitdim: “İnsanları elə bir ölüm və qətl əhatə

---

[182] Bəşarətul-İslam, s.184; Yəumul-xilas, s.651.
[183] Əl-Muməhhidunə lil-Mehdi, s.60; Yəumul-xilas, s.570.
[184] Muntəxəbul-əsər, s.451; Bəşarətul-İslam, s.34; Yəumul-xilas, s.532; Bəyanul-Əimmə, c.1, s.433 və c.2, s.355.

edəcək ki, bu zaman insanlar Hərəmə *(Kəbəyə)* sığınacaqlar. Döyüş şiddətlənməsi səbəbindən sadiq bir carçı nida edib deyəcək: "Qətl və döyüş nə üçündür?! Sizin sahibiniz filankəsdir".[185]

***3 – Nəfsi-Zəkiyyənin öldürülməsi (Qəti əlamətlərdəndir)***

Bundan öncəki hadisələr və xəbərlər baş verdikdən sonra xalqa müqəddəs sübh gününün əlamətləri açıq şəkilə görünməyə başlayacaqdır. Həmçinin İmam Məhdi *(əleyhissəlam)* öz naibini *(elçisini)* Məkkədə camaata göndərəcəkdir ki, durumun aydın olması və xəbər əldə etməkdən əlavə, mübarək inqilab üçün hazırlıq da olsun. Haşimi gənc *(Muhəmməd ibn Həsən, Nəfsi-Zəkiyyə)* Zülhiccə ayının iyirmi beşində qiyam etdikdən sonra Məscidul-harama daxil olacaq. Rükn və məqam arasında duracaq, İmam Məhdinin *(əleyhissəlam)* tərəfindən şifahi bir məktubu Məkkə camaatına oxuyar. Bu məktubda təhqir, ehtiramsızlıq və təhdid olmaz. Sadəcə Məkkə camaatından köməklik və yardım istəməyə şamil olar... Hicazda rejimin qalıntıları çirkin cinayət işlədər və onu rüknla məqam arasında ikən qətlə yetirərlər. Bu cinayət onların hökümətinin sonunu bildirər. Onun qətlə yetirilməsi ilə İmamın *(əleyhissəlam)* zühuru arasında yalnız on beş gecə fasilə olar.

Mustafa *(sallallahu əleyhi və alih)* Mədinəsində də eyni durum olacaq. Belə ki, rejim qalıntıları bir başqa cinayətə mürtəkib olacaqlar. Bu cinayət öncəkindən heç də dala qalmaz. O da Nəfsi-Zəkiyyənin əmisi oğlunu öldürməkdir. Onun adı Muhəmməd, bacısı Fatimədir. Onu Peyğəmbər *(sallallahu əleyhi və alih)* məscidinin qapısı üzərində çarmıxa çəkəcəklər *(yaxud edam edəcəklər)*.

İmam Sadiq *(əleyhissəlam)* buyurmuşdur: "...Nəfsi-Zəkiyyənin öldürülməsi məhtumdandır *(qəti əlamətlərdəndir)*".[186]

---

[185] Ğeybətun-Numani, s.178.

[186] Ğeybətun-Numani, s.169; Bəşarətul-İslam, s.119; Yəumul-xilas, s.667.

Əbu Bəsir uzun bir hədisin gedişatında İmam Baqirin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Qaim *(əleyhissəlam)* öz əshabına deyər: "Ey qövm, Məkkə əhalisi məni istəmir. Ancaq mən onlara göndərilmişəm ki, höccəti onlara tamamlayım, habelə özüm də öz vəzifəmə əməl etmiş olum. *(Sizlərdən birini)* onlara tərəf göndərirəm". Sonra yardımçılarından birini çağırıb, ona deyər: "Məkkə əhalisinə sarı get və de: "Ey Məkkə əhalisi, mən filankəsin *(İmam Məhdinin)* elçisiyəm. O sizə belə ismarıc göndərir ki, biz rəhmət ailəsi, risalət və xilafət mədəniyik. Biz Muhəmmədin *(sallallahu əleyhi və alih)* nəvələri, peyğəmbərlərin sülaləsiyik. Bizə zülm olunmuş, incidilmişik, bizə məzəmmət ediblər. Haqqımızı bu günə qədər Peyğəmbərimiz dünyasını dəyişdiyi dövrdən bəri zorla almışlar. Sizdən kömək etməyinizi istəyirik. Odur ki, bizə kömək edin". Bu gənc bu elanı bildirdiyi zaman ona sarı gələrlər. Rükn və məqam arasında onun başını kəsərlər. O, Nəfsi-Zəkiyyədir".[187]

Əmirəlmöminin *(əleyhissəlam)* buyurmuşdur: "Sizə Bəni-filankəsin səltənətinin sonunu xəbər verimmi? Nəfsi-haramın *(canına qıyılması qadağan olan kəsin)* öldürülməsidir. Haram gündə, haram şəhərdə. And olsun o kəsə ki, dəni yarıb, insanı yaratmışdır, ondan sonra on beş gecədən artıq hökmranlıq edə bilməyəcəklər".[188]

Əbu Saleh Mövla Bəni İzar deyib: "Əbu Abdullahın *(əleyhissəlam)* belə buyurduğunu eşitdim: "Ali-Muhəmmədin Qaimi ilə Nəfsi-Zəkiyyənin qətli arasında yalnız on beş gecə fasilə vardır".[189]

---

[187] Biharul-ənvar, c.52, s.307; Bəşarətul-İslam, s.224; əl-Məhdi minəl-məhd iləz-zuhur, s. 368; Yəumul-xilas, s.662; Bəyanul-Əimmə, c.3, s.20.

[188] Ğeybətun-Numani, s.173; Biharul-ənvar, c.52, s.234; əl-Muməhhidun lil-Mehdi, s.61.

[189] Əl-İrşadu lil-Mufid, c.2, s.374; Ğeybətut-Tusi, s.271; Kəmalud-din, s.649; İlamul-vəra, s.427; Bəşarətul-İslam, s.128; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.368.

Zürarə ibn Əyən İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Mütləq bir gənc Mədinədə qətlə yetiriləcəkdir".

Soruşdum ki, onu Süfyaninin qoşunu öldürəcək?

Buyurdu: "Xeyr, onu Bəni-filankəsin qoşunu öldürəcəkdir. O, çıxıb Mədinəyə yetişər. Camaat onun nə dediyini və nə istədiyini bilmədən gənci tutub öldürəcək. Elə ki ədalətsizlik, düşmənçilik və zülm olunaraq öldürüldü, Allah onlara möhlət verməyəcəkdir. Məhz bu əsnada fərəci təvəqqe edin".[190]

İmam Baqir *(əleyhissəlam)* buyurmuşdur: "Həmin zaman Nəfsi-Zəkiyyə Məkkədə öldürüləcək, qardaşını isə Mədinədə həlak edəcəklər".[191]

Mədinədə öldürülən və bacısı ilə birlikdə edam edilən iki nəfər Nəfsi-Zəkiyyənin əmisi övladlarıdır. İmam Sadiq *(əleyhissəlam)* buyurmuşdur: "Məzlum Yəsribdə *(Mədinədən)* öldürülər, əmisi oğlu isə Hərəmdə *(Məkkədə)* qətlə yetirilər".[192]

Vurğulamaq lazımdır ki, Nəfsi-Zəkiyyənin qətlə yetirilməsi qəti əlamətlərdən hesab edilir. O, Muhəmməd ibn Həsəndir. Hansı ki, rükn ilə məqam arasında başı kəsiləcəkdir. Bu isə İmamın zühurundan on beş gecə öncə baş verəcəkdir... Rəvayətlərdə onu müxtəlif adlarla qeyd etmişlər: "Zun-Nəfsiz-Zəkiyyə" – çünki onu günahsız yerə öldürərlər. Allah-taala Musanın *(əleyhissəlam)* dili ilə Xızıra buyurmuşdur: ***"Günahsız bir canı öldürdünmü?"***[193] – yəni günahdan uzaq olan halda.

"Mustənsir" – çünki öldürülməmişdən öncə sözünə Ali-Muhəmmədə yardım edilməsini istəməklə başlayar.

"Rəculun haşimiyyun" *(haşimi kəs),* "Ğulam min Ali-Muhəmmədin" *(Muhəmməd ailəsindən olan gənc oğlan)*, "Həsəni" – sübut olunmuşdur ki, o, Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* nəslindəndir və seyidlərdəndir.

---

[190] Biharul-ənvar, c.52, s.147; Bəşarətul-İslam, s.117; Yəumul-xilas, s.666.
[191] Bəşarətul-İslam, s.177; Yəumul-xilas, 665.
[192] Bəşarətul-İslam, s.187; Yəumul-xilas, 666.
[193] Kəhf, 74.

# SƏKKİZİNCİ HİSSƏ

## MƏHƏRRƏM AYININ HADİSƏLƏRİ

Bu fəsildə mövqeyində durduğumuz tərtibatın son hissəsinə *(axırıncı aya)* yetişdik. Belə ki, bu ayda bütün əlamət və hadisələrin xətmedicisi başlayır. Bu isə Məhərrəm ayının onuncu günündə müqəddəs sübh nurunun saçmasıdır. Oradan isə azad etmə, İslama yenidən dəvət etmə, haqq-ədalətin yayğın ərazilərdə yayılması, peyğəmbərlər, övliyalar, salehlərin bütün cəhdlərinin tamamlayıcısıdır. Bu isə uğrunda qurban getdikləri hədəflərinin gerçəkləşməsi naminədir.

*(İndi isə)* xeyirli əhdin *(dövrün)* başlanğıc mərhələsinə yetişirik. Bu, Allahın Kərim Kitabında vermiş olduğu ilahi vədin, həmçinin Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* vermiş olduğu müjdənin gerçəkləşməsinin başlanğıcıdır:

**1 –** Allah-taala buyurmuşdur: ***“Allah sizdən** (müsəlmanlardan)* ***iman gətirib yaxşı işlər görən kəslərə vəd etmişdir ki, onları mütləq özlərindən qabaq olmuşları** (Nuhun, Hudun, Salehin və Yunusun qövmlərinin möminlərini)* ***canişin etdiyi kimi yer üzündə** (Öz)* ***canişin**(i)* ***və hakim edəcək, onlar üçün bəyəndiyi dini** (İslam dinini)* ***mütləq, onlar üçün bərqərar edərək möhkəmləndirəcək və onların halını şübhəsiz, qorxu və vahimədən sonra əmin-amanlıq və xatircəmliklə əvəz edəcəkdir. Belə ki, yalnız Mənə ibadət etsinlər və heç nəyi Mənə şərik qoşmasınlar. Kim bundan** (bu böyük nemətdən)* ***sonra nankorluq etsə, beləleri doğrudan da itaətsizdirlər”***.[194]

**2 –** Həmçinin buyurmuşdur: ***“Biz** (isə)* ***istədik ki, o yerdə** (məmləkətdə)* ***zəif salınmışlara mərhəmət göstərək və onları***

[194] Nur, 55.

*(camaata)* ***imam,*** *(yer üzünə)* ***varis edək. Və onlar üçün o torpaqda qüdrət və hakimiyyət vasitələri hazırlayaq*** *(ya onları o torpaqda yerləşdirək)*, ***Firona və*** *(onun vəziri)* ***Hamana və qoşunlarına onların tərəfindən qorxduqları və çəkindikləri şeyi göstərək***".[195]

**3 –** Həmçinin buyurmuşdur: ***"Həqiqətən Biz*** *(Lövhi-Məhfuzdan sonra bütün səma kitablarında)*, ***Zikrdən*** *(Musanın Tövratından)* ***sonra*** *(Davudun)* ***Zəbur****(un)****da*** *(və bu kitabların hamısından sonra Quranda)* ***yazdıq*** *(və qərara aldıq)* ***ki, bu yerin varisi*** *(sahibi, hakimi və bərəkətlərindən tam istifadə edən)* ***Mənim saleh bəndələrim olacaqlar***".[196]

**4 –** Habelə buyurmuşdur: ***"Öz Rəsulunu müşriklərə xoş gəlməsə belə, hidayət*** *(vasitələri)* ***və haqq din ilə bütün dinlərə qalib etmək üçün göndərən Odur".***[197]

**5 –** Həmçinin Allah Rəsulu *(sallallahu əleyhi və alih)* yüz iyirmi min müsəlmanın iştirak etdiyi Qədir günü xütbə söyləyərkən belə müjdə vermişdir: "....Camaat, Allahın nuru məndə hərəkət edir, sonra Əlidə, sonra isə Qaim Məhdiyə *(əleyhissəlam)* qədər onun nəslində hərəkət edəcəkdir. *(Məhdi)* o kəsdir ki, Allahın və bizə aid olan hər bir haqqa riayət edəcəkdir..."[198]

Bu o gündür ki, İmam Baqir *(əleyhissəlam)* onun barədə söz açmışdır: "Agah olun ki, mən onu haqlasaydım, sözsüz ki, özümü bu əmrin sahibi üçün *(qoruyub)* saxlayardım".[199]

Bu o gündür ki, yer əhalisindən öncə səma əhalisi onun intizarını çəkir... Bu saxlanılan, böyük gün düzgün İslamın yayılması və onun dünya üzərində tətbiqi baxımından böyük hədəflərin, ən yüksək qayələrin yerinə yetməsi üçündür.

---

[195] Qasas, 5 və 6.
[196] Ənbiya, 105.
[197] Tövbə, 33.
[198] Əl-İmamul-Mehdi minəl-məhd iləz-zuhur, s.57.
[199] Ğeybətun-Numani, s.182; Yəumul-xilas, s.267.

***Birinci: Müqəddəs sübh (İlahi vəddir)***

Hədislər qeyd edir ki, İslam dünyası ölkələrindən yollananlar Hicaza gələcək və gizli şəkildə Məhdini *(əleyhissəlam)* axtaracaqlar ki, ona beyət etsinlər *(onlar yeddi nəfər din alimi və onların köməkçiləri olacaq)*.[200] Bu əsnada Məhdi Mədinədən çıxmış, Məkkəyə sarı üz tutmuş halda olacaq. O, Musa ibn İmran *(əleyhissəlam)* kimi qorxub, gözdə-qulaqda olacaqdır. Həmin zaman onun vəzirləri və əshabı *(313 nəfər)* Məkkəyə gəlməyə başlayacaqlar. Onlar müxtəlif üfüqlərdən və öncədən vədələşməmiş halda bir gecədə bir yerə yığılacaqlar.

Altıncı gün *(Aşura günü – Məhərrəmin onu)* sübh çağı *(Günəş doğmamışdan öncə)*, Məkkədə İbrahim *(əlehissəlam)* məqamının arxasında iki rəkət namaz qıldıqdan sonra rükn və məqam arasında durar, birinci xitabını elan edər ki, xalq onu tanısın. O, xalqı beyət etməyə dəvət edər. Ona birinci beyət edən *(Kəbə mizabının (navalçasının) üzərində duran ağ quş)* Cəbrail *(əleyhissəlam)*, sonra hörmətli əshabı *(313)*, sonra isə möminlər və salehlər olar. O kəslər ki, ona kömək etmək üçün gəlmiş, onunla birlikdə cihad etmək naminə durmuşlar. O, Məkkədə yanında on min yardımçı toplanana qədər qalar.

Yunis ibn Zəbyan İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Cümə gecəsi olunca Rəbb-taala dünya səmasına bir mələk göndərər. Fəcr açıldığı zaman o mələk Beytül-Məmurun üzərində ərşdə əyləşər və Muhəmməd, Əli, Həsən və Hüseyn *(əleyhimussəlam)* üçün nurdan minbərlər hazırlayar. Onlar bu minbərlərin üzərinə çıxarlar, mələklər, peyğəmbərlər və möminlər isə onların ətrafına toplaşarlar. Səmanın qapıları açılar. Günəş zəval etdiyi zaman Allah Rəsulu *(sallallahu əleyhi və alih)* deyər: "Ey Rəbbim, öz kitabında mənə vəd etdiyin vəd*(i həyata keçir)*. O vəd həmin bu ayədir: ***"Allah sizdən iman gətirib yaxşı işlər görən kəslərə vəd etmişdir ki, onları mütləq***

---

[200] Əl-Muməhhidun lil-Mehdi, s.60.

***özlərindən qabaq olmuşları canişin etdiyi kimi yer üzündə canişin və hakim edəcək, onlar üçün bəyəndiyi dini*** *(İslam dinini)* ***onlar üçün bərqərar edərək möhkəmləndirəcək və onların halını şübhəsiz, qorxu və vahimədən sonra əmin-amanlıq və xatircəmliklə əvəz edəcəkdir”.***[201] Sonra mələklər və peyğəmbərlər də belə deyərlər. Sonra Muhəmməd, Əli, Həsən və Hüseyn *(əleyhimussəlam)* səcdəyə qapanar və deyərlər: “Ya Rəbb, qəzəb et. Çünki sənin haram etdiyin şey tapdanıb, seçdiyin insanlar qətlə yetirilib, saleh bəndələrin zəlil vəziyyətə düşüblər”.

Beləliklə, Allah istədiyini edər. Bu, məlum olan bir gündə baş verəcək“.[202]

***1 – Xüruc günü***

Şənbə günü *(Aşura)* Məhərrəm ayının onu

Əbu Bəsir İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql edib: “.... *(Qaim)* Aşura günü qiyam edər. O gün Hüseyn ibn Əlinin *(əleyhissəlam)* qətlə yetirildiyi gündür. Sanki mən şənbə günü, Məhərrəmin onu onunla birlikdə rükn və məqam arasında durmuşam. Cəbrail onun qarşısındadır. Ona beyət etmək üçün nida çəkir. Onun şiələri yer üzünün ətraf məntəqələrindən gəlir, yolu sürətlə qət edirlər ki, ona beyət etsinlər. Beləliklə, Allah onun vasitəsi ilə yer üzünü zülm və haqsızlıqla dolmuş olduğu kimi haqq-ədalətlə dolduracaqdır”.[203]

Əli ibn Məhziyar İmam Baqirin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: “Sanki mən Qaimi görürəm ki, Aşura günü, şənbə rüknla məqam arasında durmuşdur”.[204]

---

[201] Nur, 55.
[202] Ğeybətun-Numani, s.184; Biharul-ənvar, c.52, s.297.
[203] Əl-İrşadu lil-Mufid, c.2, s.379; Ğeybətun-Numani, s.189; İlamul-vəra, s.430; Muntəxəbul-əsər, s.448; Yəumul-xilas, s.317.
[204] Ğeybətut-Tusi, s.274; Tarixu ma bə`dəz-zuhur, s.222.

***2 – Xüruc etməmişdən bir neçə saat öncə (Ənsarının bir yerə cəm olması)***

Müfəzzəl ibn Ömər İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "O, təkbaşına zühur edər, təkbaşına Kəbəyə daxil olar, gecəni təkbaşına keçirər. Gözlər yatdığı zaman və gecə qaranlığa büründükdə Cəbrail, Mikail və sair mələklər cərgə-cərgə ona nazil olar. Cəbrail ona deyər: "Ey ağam, sənin sözün məqbul, əmrin caizdir". Əlini onun üzünə çəkib deyər: ***"Həmd bizim barəmizdəki vədini gerçəkləşdirən və cənnət yerini irsi olaraq bizə verən Allaha məxsusdur ki, cənnətin istədiyimiz yerində məskən seçirik. Əməl edənlərin mükafatı gözəldir!"***[205] O, rükn ilə məqam arasında durar, hayqırtı çəkərək deyər: "Ey mənim seçkinlərim, xüsusi kəslərim, ey o kəslər ki, Allah onları yer üzündə zühur etməmişdən öncə mənə kömək etmək üçün saxlamışdır, tələsərək tez bir zamanda yanıma gəlin". Onun fəryadı onlara yetişər. Halbuki onlar mehrablarında, yer üzərinin şərq və qərbində fərşləri üzərində olarlar. Hər bir kəs qulağı ilə bir səsləntidə onu eşidər. Onlar ona tərəf gələrlər və onlar üçün heç bir göz qırpımı keçməz. Nəhayət, hamısı rükn və məqam arasında onun qarşısında olarlar. Allah nura əmr edər, yer üzərinə səmadan bir sütun gələr. Yer üzündəki hər bir mömin onunla işıqlanar, evinin içərisindən nur onun yanına girər, möminlərin canları bu nurla fərəhlənər. Halbuki onlar *(hələ)* biz Əhli-beytin Qaiminin zühurunu*(n baş verdiyini)* bilməzlər. Sonra sübhü onun qarşısında duran halda açarlar. Onlar üç yüz on üç nəfər olar və Bədr günü Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* əshabının sayı qədər olarlar".[206]

Müfəzzəl ibn Ömər İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "İmama izin verildiyi zaman Allahı

---

[205] Zumər, 74.

[206] İlzamun-nasib, c.2, s.256; Bəşarətul-İslam, s.268; Yəumul-xilas, s.318.

Onun ibranicə olan adı ilə çağıracaq. Bundan sonra üç yüz on üç nəfər səhabəsi onun üçün payız buludları kimi hazır ediləcəklər. Onlar bayraqlar sahibidirlər. Onların içərisində elələri olacaq ki, gecə ikən yataqlarında yoxa çıxıb səhəri Məkkədə açacaqlar. Elələri də olacaq ki, gündüz vaxtı buludlarda yol getdikləri görüləcək. Onlar adları, atalarının adları, xüsusiyyətləri və nəsəbləri ilə tanınacaqlar".

Dedim: "Sənə fəda olum, onlardan hansı birisi imanca ən yüksəkdir?"

Buyurdu: "Gündüz vaxtı buludda yol gedənlər. Onlar itənlərdirlər. Bu ayə onlar barədə nazil olub: ***"Harada olursanız olun, Allah hamınızı** (bir araya) **gətirəcək"***[207].[208]

Əbu Bəsir İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "... Bunlar üç yüz on üçün nəfərdir. Onların sayı Bədr əhlinin sayı qədərdir. Allah onları bir gecədə Məkkədə cəm edəcəkdir. O cümə gecəsidir. Sübh hamılıqla Məscidul-haramda onun yanına gələrlər. Onlardan bir nəfər olsun belə, geridə qalmaz. Onlar Məkkə küçələrində yola düşərlər ki, qalmaqları üçün bir mənzil tapsınlar. Məkkə əhalisi tanınmayan bu kəslərin varid olmasından təəccüb edər. Çünki həcc və ümrə, yaxud ticarət karvanının gəlməsindən heç bir xəbər olmaz. Odur ki, onlardan bəzisi bir-birinə deyər: "Bu gün bir dəstə adam gördük ki, indiyədək onu görməmişdik. Onlar bir şəhər və çöldən *(hansısa bir nəsildən, soydan, qəbilədən)* deyillər, dəvələri də yoxdur. Heç başqa vəsaitləri də. Onlar bu söhbətlərə məşğul ikən, öz qapılarına yaxınlaşarlar. Bəni Məxzum qəbiləsindən bir nəfər daxil olar, camaatın yanından keçib onların başçısının yanına gedib, deyər: "Bu gecə qəribə bir yuxu görmüşəm. Bu yuxudan qorxuya düşmüşəm və qəlbim pərişan olubdur".

---

[207] Bəqərə, 148.

[208] Ğeybətun-Numani, s.213; Bəşarətul-İslam, s.203; Yəumul-xilas, s.256.

Başçı ona deyər: “Yuxunu danış”.

O deyər: “Oddan bir kürə gördüm ki, səmanın dərinliklərindən peyda oldu. O aşağıya enə-enə, gəlib Kəbəyə yetişdi. Onun ətrafında dövrə vurmağa başladı. İçində örtük kimi yaşıl qanadlı çəyirtkələr vardı. O qədər idi ki, sayını Allah bilər. Kəbənin ətrafına dövrə vurdular. Sonra şərq və qərbə uçdular. Hər hansı bir şəhərə çatan kimi oranı dərhal yandırırdılar. Elə bir yaşıllıq yanından keçmədilər ki, oranı xarabalığa çevirməsinlər. Yuxudan diksinib ayıldım və əsməyə başladım. İndi də pərişan və qorxan haldayam”.

Adam *(ona)* deyər: “Bunlar da onu görmüşdür. Gəl filankəs səqəfi adamın yanına gedək ki, yuxunu yozsun”.

Yuxunu ona danışar, o da deyər: “Qəribə *(yuxu)* görmüsən. Bu gün Allah ordularından bir qoşun sizin şəhərinizə daxil olmuşdur ki, sizin onların qarşısında müqavimət etməyə qüdrətiniz çatmaz”.

Onlar deyər: “Qəribədir. Onları bu gün görmüşük”.

Sonra görmüş olduqlarını ona bildirərlər. Onun yanından çıxıb, qərara gələrlər ki, onlar üzərinə hücum çəksinlər. O halda olarlar ki, Allah onların qəlblərini onların qorxu və hürküsündən doldurar. Bəziləri qalanlarına tapşırıq verər ki, onlara görə tələsməyin. Onlar indiyədək heç bir pisliyə mürtəkib olmamışlar. Onların zidd hərəkəti görülməmişdir. Ola bilər onlardan bəzisi sizin qəbilənizdən olsun. Əgər onlardan bir şey görmüş olsanız, sonra özünüz bilərsiniz. Bu gördüyümüz toplu ibadət əhlidir. Onların yaxşı *(və nurani)* çöhrəsi vardır. Həm də onlar ilahi amanlıq hərəmindədirlər. Kimsə orada zidd bir şey etməmiş olduğu halda amandadır. Onlar elə bir iş görməyib ki, onlarla döyüşmək üçün bəhanə olsun”.

Qövmün rəisi və rəhbəri olan Məxzumi deyər: “Axı biz arxayın deyilik ki, onların arxasında gərəkli nəsnələr *(yəni köməkçi, azuqə)* yoxdur. Əgər *(belə bir azuqə və ləvazimatları olsa və bu dəstə)* onlara yetişmiş olsa, qüvvələrinin həqiqi varlığı və

böyüklüyü seçilmiş olar. *(Dostlarımızın yuxusu yozulub və biz onlara qələbə çala bilmərik. Belə olduğu halda)* onlar qüvvə və imkan baxımından aşağı səviyyədə olduqları halda, həmçinin *(hələ)* yardım qüvvələri onlara qoşulmamışdan onlara həmlə edin. Onlar Məkkəyə yanınıza gəlməyiblər və tezliklə onların şəni olacaq *(ağalığa çatacaqlar)*. Mən yoldaşınızın yuxusunu yalnız həqiqət sayıram. Odur ki, onlara şəhərinizi zinətləndirin. Əyləşin, mövcud nəzarət və şəraəti qiymətləndirin".

Onlardan biri deyər: "Əgər elə özləri kimi *(həmin sayda olan bir dəstə)* onların yanına gəlsə, onlardan heç bir qorxu yoxdur. Çünki dəstənin nə silahı vardır, nə ətrafı vardır, nə qalası *(səngəri)* vardır ki, ona pənah aparsınlar. Həm də burada qəribdirlər, imkansızdırlar. Əgər onlar üçün qoşun gəlsə, bunlara birinci hücum çəkərsiz. Onlar susuz adamın su içməsi kimidir *(onları aradan aparmaq su içmək kimi rahatdır)*". Onlar elə bu söhbət, danışıqda olar ki, gecə camaatın arasını örtər. Sonra Allah onların qulaqlarını, gözlərini yuxu ilə vurar. Sabahı gün cəm olmamışdan öncə Qaim qiyam edər. Onların *(İmamın köməkçiləri)* bəzisi digəri ilə elə qarşılaşar ki, sanki bir atanın-ananın oğlanları kimidirlər. Yaxınlaşdıqda gecə ayrılıb, gündüz görüşərlər".[209]

Bu baş verdikdə Məkkədə İmamın *(əleyhissəlam)* əshabı, həvariləri və vəzirləri ilə görüşməsi tamamlanacaqdır. Bu isə ən seçkinləri və fəzilətliləri *(on iki nəfər əshab)* ilə görüşdən sonra olacaqdır.

### *3 – Birinci bəyanı (xütbə)*

Qaimin *(əleyhissəlam)* Aşura günü şənbənin sübhü xüruc etmə vaxtı yetişdikdə Məscidul-harama daxil olar. Qibləyə sarı durar, arxası məqama tərəf olar. Sonra iki rəkət namaz qılar... Sonra İmam Məhdi *(əleyhissəlam)* müqəddəs zühurunun əvvə-

---

[209] Bəşarətul-İslam, s.210; Yəumul-xilas, s.271; Tarixu ma bə`dəz-zuhur, s. 288.

lində Kəbəyə tərəf yaxın durar, rükn və məqam arasında arxasını çevirmiş halda kütləyə yönəlib onlara birinci sözünü söyləyər və tarixi xütbəsinə başlayar.

Allaha həmd-sənadan, Muhəmməd və pak ailəsinə salavat dedikdən sonra .... nida çəkər: “Ey insanlar, biz Allahdan kömək diləyirik. Sizlərdən kim bizə səs verəcək? Biz sizin peyğəmbəriniz Muhəmmədin *(sallallahu əleyhi və alih)* Əhli-Beytiyik. Biz insanlar içərisində Allaha və Muhəmmədə *(sallallahu əleyhi və alih)* ən yaxın olanlarıq. Kim Adəm barəsində mənimlə mübahisə edərsə, *(bilsin ki,)* insanlar içərisində Adəmə ən yaxın olan mənəm. Kim Nuh barəsində mənimlə mübahisə edərsə, *(bilsin ki,)* insanlar içərisində Nuha ən yaxın olan şəxs mənəm. Kim İbrahim barəsində mənimlə mübahisə edərsə, bilsin ki, insanlar içərisində İbrahimə ən yaxın olan mənəm. Kim Muhəmməd *(sallallahu əleyhi və alih)* barəsində mənimlə mübahisə edərsə, bilsin ki, insanlar içərisində Muhəmmədə *(sallallahu əleyhi və alih)* ən yaxın olan mənəm. Kim peyğəmbərlər barəsində mənimlə mübahisə edərsə, bilsin ki, insanlar içərisində peyğəmbərlərə ən yaxın olan şəxs mənəm. Məgər Allah öz kitabının möhkəm kitabında demir ki, ***“Həqiqətən Allah Adəmi, Nuhu, İbrahimin ailəsini və İmranın ailəsini*** *(öz zamanlarındakı)* ***bütün aləmdəkilərdən üstün etdi. Bəzisi digər bəzisinin nəslindən olan övladlardırlar. Allah eşidən və biləndir”***[210]? Elə isə, mən Adəmdən bəqiyyə *(qalan)*, Nuhdan zəxirəyəm, İbrahim*(in nəslin)*dən olan seçilmiş, Muhəmməddən olan arınmış şəxsəm – sallallahu əleyhim əcməin.

Bilin, kim Allahın kitabı barədə mənimlə mübahisə edərsə, *(bilsin ki,)* insanlar içərisində Allahın kitabına ən yaxın *(ən agah)* olan şəxs mənəm. Bilin, kim Allah Rəsulunun sünnəsi barədə mənimlə mübahisə edərsə, bilsin ki, insanlar içərisində Allah Rəsulunun sünnəsinə ən yaxın olan şəxs mənəm. Bu

---

[210] Ali-İmran, 33 və 34.

gün mənim sözümü eşidən kəsləri Allaha and verib istəyirəm ki, onlardan burada olanlar sözümü olmayanlara çatdırsın. Mənim sizin üzərinizdə Allah Rəsulunun yaxını *(ailə üzvü)* olmaq sarıdan bir haqqım vardır. Allahın, Onun peyğəmbərinin və özümün haqqına and verib sizdən istəyirəm ki, bizi çətin vəziyyətdə qoymayın və bizə zülm edənləri *(cəzalandırmaqda)* bizə mane olmayın. Bizi qorxutdular, zülm etdilər, öz diyarımızdan və övladlarımızdan ayrı salıb qovdular, bizə qarşı həddi aşdılar, bizi haqqımızdan uzaqlaşdırdılar və batilə uyanlar bizə iftira atdılar. Allah, Allah bizə qarşı diqqətli olun! Bizi köməksiz qoymayın, bizə yardım edin ki, Allah da sizə yardım etsin".[211]

Sonra İmam əlini səmaya qaldırar, dua edər, *(Allaha)* yalvarıb yaxarar və deyər: "*(O şəriklərmi yaxşıdır)* ***yoxsa darda qalan bir kimsə Onu çağırdığı*** *(dua etdiyi)* ***zaman ona cavab verən, onun zərər və çətinliyini aradan qaldıran, sizi yer*** *(üzünün)* ***canişinləri edən kəs?"***[212]

***4 – Beyət və yardım etmə***

İmam – ruhum ona fəda – kəlamını bitirnən kimi hərəm polisi onu tutmağa, yaxud öldürməyə çalışacaqdır. Necə ki, on beş gün öncə Nəfsi-Zəkiyyəni həmin məkanda qətlə yetirmişdir. İmamın *(əleyhissəlam)* əshabı irəli çıxıb, onu müdafiə edəcək, onu dövrəyə alacaqlar. Cəbrail *(əleyhissəlam)* Kəbənin arxasına enərək birinci beyət edənlərdən olar. Sonra əshabı üç yüz on üç nəfər, həmçinin orada iştirak edən yardımçıları onunla beyət edər.

Müfəzzəl ibn Ömər İmam Sadiqdən *(əleyhissəlam)* belə nəql etmişdir: "Ey Müfəzzəl, Qaim arxasını hərəmə çevirib, əlini uzadar, *(əli)* eyibsiz ağ görsənər. O deyər: "Bu, Allahın əlidir,

---

[211] Ğeybətun-Numani, s.121; Biharul-ənvar, c.52, s.223; Bəşarətul-İslam, s.102; Muntəxəbul-əsər, s.422; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.412; Tarixu ma bə`dəz-zuhur, s.228; Yəumul-xilas, s.303.

[212] Nəml, 65.

Allahdandır, Allahın əmri ilədir”. Sonra bu ayəni tilavət edər: ***“Həqiqətən, sənə beyət edənlər əslində Allaha beyət edirlər.*** *(Sənin)* ***onların əlinin üstündə olan*** *(əlin)* ***Allahın əlidir. Buna görə də kim əhdi pozsa, yalnız öz ziyanına pozur”***[213]Onun əlini birinci öpən kəs Cəbrail olacaq. Sonra onunla beyət edəcək, ardınca mələklər, sonra cinlərin nəcibləri, sonra isə nəqiblər bu cür edəcəkdir. Məkkədə sübhü açan camaat deyəcək ki, Kəbənin yanındakı adam kimdir? Onun yanındakı məxluq kimdir və gecə görmüş olduğumuz və bənzərini görmədiyimiz bu əlamət nədir?”[214]

Bu isə günəş çıxmamışdan öncə baş verəcəkdir.

Əli ibn Məhziyar İmam Baqirin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: ”Sanki Aşura günü, şənbə günü Qaimi rükn və məqam arasında duran görürəm ki, Cəbrail onun qarşısında Allah üçün beyət etməyə nida edir. O, yer üzünü zülm və haqsızlıqla dolmuş olduğu kimi haqq-ədalətlə dolduracaqdır”.[215]

Muhəmməd ibn Müslim İmam Baqirin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: “Cəbrail *(əleyhissəlam) (Kəbənin)* navalçası üzərində ağ rəngli bir quş şəklində duracaq. Allahın yaratdıqları içərisində ona beyət edən ilk varlıq o – yəni, Cəbrail – olacaq. Bundan sonra üç yüz on üç nəfər adam ona beyət edəcək. *(Həmin vaxt)* kim yolda olmuş olsa, o anda çatacaq, yolda olmayanlar isə yataqlarından itəcəklər *(və bir anda Kəbədə olacaqlar)*. Bu həmin sözdür ki, Əmirəlmöminin *(əleyhissəlam)* demişdir: “Onlar yataqlarından itəcəklər”. Bu həmin sözdür ki, izzət və cəlal sahibi olan Allah buyurur: ***“Xeyir işlərdə bir-birinizlə yarışın. Harada olursanız olun Allah hamılıqla sizi*** *(bir yerə)* ***toplayacaq”***.[216]

---

[213] Fəth, 10.

[214] Bəşarətul-İslam, s.268; İlzamun-nasib, c.2, s.257; Yəumul-xilas, s.320.

[215] Bəşarətul-İslam, s.97; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.426; Tarixu ma bə`dəz-zuhur, s.243.

[216] Bəqərə, 148.

Sonra buyurdu: "Xeyir işlər" biz Əhli-Beytin vilayətidir".[217]

Müfəzzəl ibn Ömər İmam Sadiqdən belə nəql etmişdir: "... Allah Cəbraili *(əleyhissəlam)* göndərəcək, nəhayət onun yanına gələcəkdir. O, "Hətim" *(Kəbə daşı)* üzərinə enib deyər: "Hansı şeyə sarı dəvət edirsən?" Qaim ona xəbər verər. Cəbrail deyər: "Mən sənə beyət edən birinci kəsəm. Əlini aç". Əlini onun əlinə sürtər. Üç yüz on neçə nəfər ona yetişib, onunla beyət edərlər. O, Məkkədə qiyam edər, nəhayət onun əshabı on min nəfərə çatar. Sonra oradan Mədinəyə gedər".[218]

Cabir Cufi İmam Baqirdən *(əleyhissəlam)* belə nəql edib: "Rükn ilə məqam arasında Qaim ilə üç yüz nəfərdən çox adam beyət edər. Onların sayı Bədr əhli qədər olar. Onlar arasında Misir əhlinin nəciblərindən, Şam əhlinin qəhrəmanlarından, İraq əhlinin yaxşılarından olar".[219]

Əmirəlmömininn *(əleyhissəlam)* buyurmuşdur: "O, əshabından beyət alacaqdır ki, onlar oğurluq, zina, müsəlmanı təhqir etməsinlər, canına qıyılması qadağan olan kəsi öldürməsinlər, möhtərəm hesab olunan hörməti sındırmasınlar, mənzil yerinə hücum çəkməsinlər, haqsız yerə kimisə vurmasınlar, qızıl, gümüş, buğda, arpa toplayıb saxlamağa *(xəzinə etməyə)* çalışmasınlar, yetim malı yeməsinlər, bilmədikləri şeyə şahidlik etməsinlər, məscid dağıtmasınlar, məstedici şeylər içməsinlər, xəzz və ipək geyinməsinlər, qızıl taxmasınlar, yol kəsməsinlər, yolu qorxulu etməsinlər, həmcinsbazlıqla məşğul olmasınlar, buğda və arpadan olan yeməklərin qarşısını almasınlar *(manapoliya etməsinlər)*, azla məmnun olsunlar, paklıq tərəfdarı olsunlar *(özlərini pak saxlasınlar)*, nəcasətdən çəkinsinlər, yaxşılıqlara əmr etsinlər, pisliklərdən çəkindirsinlər, cod paltar ge-

[217] Ğeybətun-Numani, s.214; Muntəxəbul-əsər, s.422; Tarixu ma bə`dəz-zuhur, s.s.265.

[218] Bəşarətul-İslam, s.277; Muntəxəbul-əsər, s.268.

[219] Ğeybətut-Tusi, s.284; Muntəxəbul-əsər, s.268; Bəşarətul-İslam, s.204; Tarixu ma bə`dəz-zuhur, s.275.

yinsinlər, torpağı başlarının altına qoysunlar *(yastıqları torpaq olsun)*, Allah yolunda layiqincə cihad etsinlər. Qaim özünü də onlar üçün şərt edəcək ki, onlar gəzdiyi yerdə gəzsin, geyindikləri kimi geyinsin, süvar olduqları kimi süvar olsun, onlar istədikləritək olsun, azla razı qalsın, yer üzünü zülm ilə dolmuş olduğu kimi haqla doldursun, Allaha layqincə ibadət etsin, nə cangüdən götürsün, nə də qapıçı".[220]

***5 – Qaimin (əleyhissəlam) adı ilə nida***

İmamla *(əleyhissəlam)* beyət tamamlandıqdan sonra Cəbrail *(əleyhissəlam)* onun adını çəkərək nida edər:

Əban ibn Təğlib deyib: "Əbu Abdullah *(əleyhissəlam)* buyurdu: "Qaimlə birinci beyət edən kəs Cəbraildir. O, ağ bir quş surətində nazil olub onunla beyət edər. Sonra bir ayağını Beytullahil-harama, bir ayağını isə Beytul-müqəddəsə qoyar, ardınca kəskin səslə nida edər, bu nidanı məxluqat eişdər: ***"Allahın əmri gəlib çatdı, buna görə də, onda tələsməyin"***[221].[222]

Allah-taala buyurmuşdur: ***"Carçının yaxın yerdən car çəkəcəyi gün qulaq as*** *(və həmin nidanı gözlə)* ***! Haqq olan həmin bağırtını eşidəcəkləri gün!*** *(Həmin)* ***o gün çıxma günüdür***".[223]

Bu barədə İmam Sadiq *(əleyhissəlam)* buyurmuşdur: "Carçı Qaimin və atasının adını çəkərək nida edər. Bu ayədəki "bağırtı" səmadan gələn bağırtıdır. Həmin gün isə Qaimin *(əleyhissəlam)* çıxma günüdür".[224]

Şəhr ibn Həuşəb deyib: "Mənə belə yetişmişdir ki, Allah Rəsulu *(sallallahu əleyhi və alih)* buyurmuşdur: "Ramazanda səs, Şəv-

---

[220] Muntəxəbul-əsər, s.469; İlzamun-nasib, c.2, s.205; Yəumul-xilas, s.292; Tarixu ma bə`dəz-zuhur, s.244.
[221] Nəhl, 1.
[222] Biharul-ənvar, c.52, s.286; Bəşarətul-İslam, s.259; Yəumul-xilas, s.319; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.340; əs-Süfyani fəqih, s145.
[223] Qaf, 41 və 42.
[224] Muntəxəbul-əsər, s.447; Yəumul-xilas, s.535.

valda gurultu, Zülqədədə qəbilələrin bir-biriləri ilə vuruşması, Zülhiccədə hacıların qarət olunması, Məhərrəm də isə səmadan carçının "Bilin ki, Allahın məxluqatı arasında seçkini filankəsdir. Ona qulaq asın və itaət edin" – deyə nida etməsi vardır".[225]

Müfəzzəl ibn Ömər İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "...Həmin gün *(Aşura günü)* günəş çıxıb işıq saçdıqda, bir kəs günəş diskindən aydın ərəb dilində çığırar. Onu göylərdə və yerdə olan hər kəs eşidər: "Ey məxluqat, bu, Ali-Muhəmmədin Məhdisidir. O, babası Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* adı, künyəsi və nəsəbi ilə adlandırılmışdır". Yer üzündə elə bir diri məxluq qalmayacaq ki, qulağı bu nidanı eşitməsin. Səhra, yaşıllıq, quru və suda olan məxluqlar qəbul edər, bir-birinə danışar, qulaqları ilə eşitdikləri barədə bir-birlərinə sual verərlər".[226]

İmam Rza *(əleyhissəlam)* buyurmuşdur: "... O kəsdir ki, səmadan bir carçı elə bir nida çəkər ki, onu yer əhalisinin hamısı eşidər. Carçı ona sarı dəvət edər ki, bilin, Allah höccəti artıq Allah evi yanında zühur etmişdir. Odur ki, ona tabe olun. Belə ki, həqiqət onunla birlikdədir və ondadır".[227]

Dəyərli oxucu bu fəsldə bundan əvvəl qeyd edilən hədislərin toplusundan belə nəticə əldə edə bilər ki, burada bir neçə nida vardır:

**1 –** Birinci nida: Rəcəb ayında olacaq *(Üç nida şəklində)*;

**2 –** İkinci nida: Ramazan ayında olacaq *(23-cü gecə, çığırtı)*;

**3 –** Üçüncü nida: Məhərrəm ayında olacaq *(Aşura, çıxma günü)*.

Bu nida və beyətdən sonra, İmam Məhdi *(əleyhissəlam)* üçün Məkkə üzərində hakimiyyət tamamlanacaq. Orada ordusunun əsası *(on min nəfər)* təşəkkül tapana qədər qalacaqdır.

---

[225] Muntəxəbul-əsər, s.451.

[226] Bəşarətul-İslam, s.269, Yəumul-xilas, s.543; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.341.

[227] İlamul-vəra, s.408; Yəumul-xilas, s.545; Bəşarətul-İslam, s.161.

Bu əsnada İmam Məkkədə olan mövcud camaata bir sıra xütbələr söyləyəcək və *(söylədikləri)* dünyaya yayılacaqdır. O, ordusu üçün ümumi xətlər qoyacaq, həmçinin Məkkədə bir sıra işlər görəcəkdir ki, müxtəsər şəkildə onlara işarə edirik:

**1 –** Məscidul-haramı İbrahim peyğəmbərin *(əleyhissəlam)* üzərində olduğu şeyə *(qoyduğu əsasa)* qaytarmaq;

**2 –** İbrahim məqamını əvvəlki yerinə qaytarmaq. Necə ki, Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* dövründə Kəbənin civarında idi;

**3 –** Müstəhəb təvafı qadağan etmək. Bu ona görədir ki, nafilə sahibi *(müstəhəb işlərlə məşğul olan)* fərizə sahibi *(vacib ayinləri yerinə yetirən)* üçün *(rahat şəkildə ayinini icra etsin deyə)* imkan yaratsın;

**4 –** Bəni Şeybənin əlini kəsmək... Allah hədlərini icra etmək. Çünki onlar Allah evinin oğrularıdır.

İmamın *(əleyhissəlam)* qoşunu nə zaman on min nəfər olaraq tamamlansa Mədinəyə sarı hərəkət etmək başlanacaqdır. Oradan İrana *(İstəxr məntəqəsinə)*, oradan İraqa *(Kufə İmam hökümətinin paytaxtı olacaqdır)*, oradan isə Beytül-müqəddəsə sarı yönələcəkdir.

### *İkinci: Beyda çölünün batması (Qəti əlamətlərdəndir)*

Süfyani İmam Məhdinin *(əleyhissəlam)* zühur xəbərini eşitdikdən sonra Hicazda olan müqəddəs yerlərə qoşun göndərəcəkdir. Süfyaninin qoşunu Mədinəyə Məhərrəm ayının 12-si yetişəcəkdir. Yəni İmamın *(əleyhissəlam)* xürucundan iki gün sonra. Hücum qoşununun əmiri Bəni Kəlb qəbiləsindən bir nəfərdir ki, ona "Xüzeymə" deyilər. Sol gözünü itirmişdir, gözündə qalın pərdə vardır. O, Əbülhəsən Əməvinin evində enər. Əməvi ordusu Rəsulun Mədinəsində üç gün müddətində qalar. Oranı talan edər, orada qətliam törədər, əhalisini dağıdar, kişilərini öldürər, qız-qadınları əsir tutar, Rəsulun *(sallallahu əleyhi və alih)* minbərini sındırar, şərafətli qəbiri dağıdar, hey-

vanları Mustafa *(sallallahu əleyhi və alih)* məscidini batırarlar. Sonra Süfyaninin ordusu Məkkədə döyüşmək və zühurunun başlanğıcında Məhdi *(əleyhissəlam)* hərəkatının qarşısını almaq naminə Mədinədən çıxar. Bu qoşunun əhəmiyyətli olduğuna görə "həməlat *(davamlı yağan yağış, sel, leysan)* qoşunu" deyə adlandırılmışdır.[228]

Qoşun məntəqədən on iki mil sonra dağı keçdikdən sonra Məkkə və Mədinə arasında yerləşən Beyda çölünə yetişər. O, Bədrül-kübra yaxınlığında düz səthli olan çöldür. Qoşun Məhərrəm ayının 15-də gecə vaxtı bu məntəqəyə yetişər. Gecəni orada keçirərlər. Allah-taala Cəbrailə əmr edər və o da qəzəbli şəkildə onlara fəryad çəkər ki, ey Beyda *(biyaban, çöl)*, bu zalım toplumu özünə ud. Yer onları bütün silahları ilə birlikdə udar. Təkcə Cüheynə qəbiləsindən olan iki nəfər qalar. *(Onlara Bəşir və Nəzir deyilər)* Onlar qurtularlar və üzlərinə elə sillə çəkilər ki, hər ikisinin çöhrəsi ənsəyə çevrilər. Bəşir Cəbrailin göstərişilə Qaimin *(əleyhissəlam)* yanına muştuluq vermək üçün gedib, onun əli ilə tövbə edər və Süfyaninin ordusunun bataraq həlak olmasını həzrətə müjdə verər. Digərini isə mələk Süfyaniyə Şamda xəbərdarlıq etməsi üçün yollayar ki, ona xəbərdarlıq etsin və qoşununun həlakət xəbərini ona çatdırsın. Nəzir Süfyaninin yanına gəlib, bunu ona xəbər verər və ölər.

Bu batmadan sonra Məkkə əmin-amanlıq yerinə çevrilər. Heç bir padşah və hökmdar cürət etməz ki, oraya getsin. Onu axtarmaq və ya Məkkəyə getmək, orada döyüşmək üçün vəzifələndirilən hər bir başçı, yaxud zalım istefa verər, geri qayıdar və onun da başına belə hadisə gələcəyindən qorxaraq *(bu cür göstərişləri)* qəbul etməz. Allahın hərəmi qorunan halda qalar. Ona heç bir zalım və ya zorba kəs yaxınlaşa bilməz. Əmr İmam üçün – ruhum ona fəda - bərqərar olar. Onun ordusu orada yerləşər və möminlər ona sarı toplaşar.

---

[228] Biharul-ənvar, c.52, s.223.

Qoşunun sayı *(on min nəfər)* tamamlandıqda Məkkədən Mədinəyə sarı yollanar. İmamın *(əleyhissəlam)* qoşunu batma yerindən keçər. İmam *(əleyhissəlam)* onlara batma yerini xəbər verər... Süfyaninin qüvvələrinin Hicazda *(Beydada bataraq)* həlak olmasından, həmçinin Xorasaninin əli ilə Minada və Yəmaninin əli ilə İraqda məğlubiyyətə düçar olmasından sonra cəhd edər ki, mərəkəni öz sahəsinə gətirsin və Şam məntəqəsində zühur hadisələri içərisində məntəqə döyüşlərinin ən böyüyünə hazırlıq görmək üçün qüvvə toplasın. Bu döyüş Qüdsün azad edilməsidir ki, onun mehvəri *(mərkəzi)* Dəməşqdən Təbəriyyəyə, oradan da Qüdsə qədər uzanar.

Həmçinin bir sıra rəvayətlər vardır ki, batmanın kiminlə əlaqədar baş verəcəyini, onun zamanını, yerini, necəliyini, kimin bundan qurtulacağını aydın şəkildə göstərir.

Ömər ibn Hənzələ İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: “Qaimin *(zühur etməsinin)* beş əlaməti vardır: Süfyani, Yəmani, səmadan gələn çığırtı, Nəfsi-Zəkiyyənin öldürülməsi və Bəydada çökmə”.[229]

İmam Sadiq *(əleyhissəlam)* buyurmuşdur: “... Beyda çökməsi məhtumdandır *(qəti baş verəcək əlamətlərdəndir)*”.[230]

Əsbəğ ibn Nübatə Əmirəlmömininin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: “... və Süfyaninin qırmızı bayraqlarla çıxması. Onun əmiri Bəni Kəlbdən olan bir nəfərdir. Süfyaninin qoşunundan on iki min Məkkə və Mədinəyə sarı yollanar. Onların əmiri Bəni-Üməyyədəndir. Ona Xüzeymə deyilər. Sol gözünü itirmişdir, gözündə qalın bir örtük var. Özünü kişilərə bənzədər. Mədinədə “Daru Əbilhəsən Əməvi” – adlanan evdə enməyənədək bayrağını qaytarmaz. O, Ali-Muhəmməddən olan bir nəfərin ardınca qoşun göndərər. Şiələrdən olan camaat

[229] Ğeybətun-Numani, s.169; İlamul-vəra, s.426; Muntəxəbul-əsər, s.458; Bəşarətul-İslam, s.119.

[230] Ğeybətun-Numani, s.172; Muntəxəbul-əsər, s.455; Tarixul-ğeybətil-kubra, s.500.

onun *(Ali-Muhəmməddən olan həmin adamın)* yanına toplaşar. Sonra əmiri Ğətəfandan olan qoşunun içində Məkkəyə sarı qayıdar. Yolun ortasında ağ çöllüyə yetişdikdə *(yer)* onu udar. Belə ki, yalnız iki nəfər xilas olar. Allah onların simalarını ənsələrinə çevirər ki, arxalarındakılara nişanə *(və ibrət)* olsunlar".[231]

Həmin an bu ayənin təvili *(həqiqi yozumu)* olar: ***"Sən onları vəhşət içərisində olduqları zaman bir görəsən! Artıq onlar qaçıb can qurtara bilməzlər və yaxın bir məkandan yaxalanarlar. Onlar deyərlər: "Biz ona iman gətirdik". Amma uzaq bir yerdən əlləri necə çata bilər?! Halbuki, onlar həqiqətən, bundan öncə onu inkar etdilər. Güman üzündən və görmədən, uzaq bir məkandan*** *(onlara)* ***töhmət oxu atdılar. Və*** *(aqibətdə)* ***onların və meylləri və iştahları çəkən şeylər*** *(dünya ləzzətləri)* ***arasında*** *(ölümün vasitəsilə)* ***ayrılıq salındı, necə ki, bundan öncə onların bənzərləri barəsində edilmişdir. Çünki onlar*** *(axirət aləmi barəsində)* ***tərəddüdlü və qaranlıq bir şəkk-şübhə içərisində idilər"***.[232]

Həmçinin Allah buyurmuşdur: ***"Ey*** *(səmavi)* ***kitab verilmiş kəslər, bəzi üzləri məhv edərək arxalarına çevirməmişdən, yaxud Əshabus-səbti*** *(şənbə günü balıq tutan balıqçıları)* ***lənətlədiyimiz*** *(və eybəcər hala saldığımız)* ***kimi onlara da lənət edərək*** *(rəhmətimizdən)* ***uzaqlaşdırmamışdan qabaq yanınızda olan*** *(din və kitab)****ın təsdiqi olan nazil etdiyimizə iman gətirin. Allahın əmri həmişə yerinə yetəndir"***.[233]

İmam Sadiq *(əleyhissəlam)* buyurmuşdur: "... Süfyani Mədinəyə qoşun göndərər. Onlar oranı xarabalığa çevirərlər. Şərif qəbri dağıdarlar, onların minikləri Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* məscidini batırıb bulayar".[234]

---

[231] Biharul-ənvar, c.52, s.273; İlzamun-nasib, c.2, s.119; Bəşarətul-İslam, s.58; Yəumul-xilas, s.677.
[232] Səba, 51–54.
[233] Nisa, 47.
[234] İlzamun-nasib, c.2, s.166; Yəumul-xilas, s.701.

Hüzeyfə ibn Yəman Peyğəmbərin *(sallallahu əleyhi və alih)* belə buyurduğunu nəql etmişdir: "...İkinci qoşun Mədinəyə daxil olar. Onlar üç gün gecəsi ilə birlikdə oranı viran günə qoyarlar. Sonra çıxıb Məkkəyə sarı yönələrlər. Nəhayət Beydaya çatarlar. Allah Cəbraili göndərərək deyər: "Ey Cəbrail, get və onları məhv et". O da ayağıyla bir zərbə vurar və Allah onları yerə batırar. Yalnız onlardan iki nəfər xilas olar ki, hər ikisi Cüheynə qəbiləsindəndir. Ona görə deyiblər ki, yəqin xəbər Cüheynənin yanındadır. Buna görə Allah buyurmuşdur: "Sən onları vəhşət içərisində olduqları zaman bir görəsən!".[235]

Cabir ibn Yezid Cufi İmam Baqirdən *(əleyhissəlam)* belə nəql etmişdir: "... Süfyani Mədinəyə bir qoşun göndərəcək. Məhdi *(bunu bilib)* Mədinədən Məkkəyə qaçacaq. Süfyaninin ordusunun rəhbərinə xəbər çatacaq ki, Məhdi Məkkəyə tərəf yollanıb. Beləliklə onun ardınca bir qoşun göndərəcək, lakin onu tuta bilməyəcək. O isə Musa ibn İmran *(əleyhissəlam)* kimi qorxan və gözdə-qulaqda olan bir halda Məkkəyə daxil olacaq".

Sonra dedi: "Süfyani ordusunun başçısı Beyda çölünə gələcək. Bu zaman bir carçı nida edib deyəcək: "Ey Beyda, məhv et bu qövmü". O da onları udacaq".[236]

İmam Baqir *(əleyhissəlam)* buyurmuşdur: "... Süfyani Əbu Süfyan ibn Hərbin nəslindəndir. Onlara sarı bir qoşun göndərər. Onlar aylı bir gecədə Beydada enərlər. Bir çoban onlara baxıb deyər: "Nə gəldiyinə görə vay Məkkə əhlinə *(biçarə Məkkə əhli, bunlar onların başlarına nə oyun açacaqlar?!)*" Sözün deyib gedər, sonra qayıdar, ancaq onları görməz. Deyər ki, Sübhanallah, onlar bir saatda yola düşdülər". Onların mənzil saldığı yerə çatar, bir paltar görər ki, bir hissəsi yerə batmış, digər hissəsi

[235] Biharul-ənvar, c.52, s.187; Muntəxəbul-əsər, s.456; Bəşarətul-İslam, s.21; Yəumul-xilas, s.673.
[236] Ğeybətun-Numani, s. 188; Bəşarətul-İslam, s.102; Tarixul-ğeybətil-kubra, s.521.

isə çöldədir. Onu çıxartmağa çalışar. Ancaq bacara bilməz. Başa düşər ki, onlar yerə batmışdır".[237]

Əmirəlmöminin *(əleyhissəlam)* buyurmuşdur: "... Mədinə qoşununa gəlincə, Beyda çölünün ortasına çatdıqda Cəbrail əzəmətli bir bağırtı salar. Onlardan elə bir kəs qalmaz ki, Allah onu yerə batırmasın. Qoşunun axırında iki nəfər olar. Biri Bəşirdir, digəri isə Nəzir. Cəbrail onların üstünə çığırar. Allah onların üzlərini ənsələrinə çevirər. Nəzir Süfyaninin yanına qayıdar və qoşunun başına gələnləri ona xəbər verər".[238]

Müfəzzəl ibn Ömər İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "... Sonra bir nəfər Qaimin yanına gələr. Onun üzü ənsəsinə tərəf olar. Ənsəsi isə sinəsi tərəfdə olar. O, Qaimin qarşısında durub deyər: "Ey ağam, mən Bəşirəm. Mələklərdən biri mənə əmr edib ki, sənə yetişim. Sənə Süfyaninin Beydada batması ilə müjdə verim".

Qaim ona deyər: "Özünlə qardaşının əhvalatını açıqla".

Həmin adam deyər: "Mən və qardaşım Süfyaninin qoşununda idik. Biz dünyanı Dəməşqdən Zəvraya qədər xarab günə qoyduq, oranı yeksan vəziyyətdə tərk etdik. Biz Kufə və Mədinədi də viran etdik. Minbəri sındırdıq. Bizim miniklərimiz Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* məscidini bulayıb batırdı. Biz oradan çıxdıq... Beyti *(Kəbəni)* də viran qoymaq istəyirdik. Niyyətimizdə əhalisini öldürmək var idi. Beydaya çatdıqda orada düşdük. Bir nəfər bağırtı saldı ki, ey Beyda, bu zalım qövmü ud. Yer yarıldı və bütün qoşunu uddu. Allaha and olsun ki, yer üzərində dəvənin ayağını bağlayan ip belə qalmadı. Bircə mən və qardaşım qaldı. Biz mələklə qarşılaşdıqda o zərbə endirdi və gördüyün kimi, üzümüz arxamıza çöndü. O qardaşıma dedi ki, vay olsun sənə, ey Nəzir! Dəməşqdə məlun Süfyaninin yanına get və onu Ali-Muhəmməddən *(sallallahu*

---

[237] Bəşarətul-İslam, s.184; Yəumul-xilas, s.692.

[238] İlzamun-nasib, c.2, s.198; Yəumul-xilas, s.679.

*əleyhi və alih)* olan Qaimin zühur etməsi ilə qorxut. Ona bildir ki, Allah onun qoşununu Beydada həlak etmişdir... Mənə isə dedi ki, ey Bəşir, Məkkədə Məhdiyə çat və ona zalımların həlak olmasını muştuluq ver. Həmçinin onun əli ilə tövbə et. Çünki o, sənin tövbəni qəbul edər".

Qaim öz əlini onun üzünə çəkər və onu, əvvəl olduğu kimi düz halına qaytarar. Bəşir onunla beyət edər və onunla birlikdə olar".[239]

İmam Baqir *(əleyhissəlam)* buyurmuşdur: "*(Qaim)* Mədinəyə sarı çıxar. Nəhayət Beydadan keçər. O deyər: "Bu o qövmün yeridir ki, yerə batmışlar. Bu isə Allahın buyurduğu həmin nişanədir: ***"Məgər öz hiylələri ilə çirkin tədbirlər tökən kəslər Allahın onları yerə batırmasından, yaxud onlara heç fikirləşmədikləri yerdən əzab gəlməsindən xatircəm və amandadırlar?! Yaxud onları gündəlik get-gəllərində*** *(ya günah tədbirlər tökdükləri halda)* ***yaxalamasından? Buna görə də, onlar əsla*** *(Allahı öz cəzaları barəsində)* ***aciz qoyan deyildirlər"***.[240]

***Üçüncü fəslin xülasəsi***

İmam Məhdinin *(əleyhissəlam)* zühur ilinin ikinci yarısının hadisələri üçün zaman cədvəli

Ay: Rəcəb

Gün: Cəmadiul-əvvəlin 20-dən Rəcəb ayının 1-ə qədər.

Məkan: ---

Hadisə: 1 – Leysan yağışın yağması və evləri dağıtması;

* * *

Ay: Rəcəb

Gün: Rəcəb ayının 10-u

Məkan: Şam *(Suriya)*.

Hadisə: 2 – Süfyaninin çıxması *(Osman ibn Ənbəsə)*;

---

[239] Bəşarətul-İslam, s.270; İlzamun-nasib, c.2, s.259; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.364; Yəumul-xials, s.293.

[240] Nəhl, 45 və 46.

* * *

Ay: Rəcəb
Gün: Rəcəb ayının 10-u.
Məkan: Yəmən.
Hadisə: 3 – Yəmaninin çıxması;

* * *

Ay: Rəcəb
Gün: Rəcəb ayının 10-u.
Məkan: İran.
Hadisə: 4 – Xorasaninin çıxması;

* * *

Ay: Rəcəb
Gün: ---
Məkan: Günəş.
Hadisə: 5 – Günəş diskində bədənin görsənməsi *(Məsihin (əleyhissəlam) üzü və sinəsi)*;

* * *

Ay: Rəcəb
Gün: ---
Məkan: Səma ilə yerin arası.
Hadisə: 6 – Üç nida:
1 – Bilin ki, Allahın lənəti olsun zalım qövmə;
2 – Ey mömimlər, yaxınlaşanın vaxtı yaxınlaşmışdır;
3 – Allah filankəsi göndərmişdir. Odur ki, ona qulaq asın və itaət edin!

* * *

Ay: Rəcəb
Gün: ---
Məkan: Yerlə səma arası.
Hadisə: 7 – Səmadan əlin çıxıb işarə etməsi;

* * *

Ay: Rəcəb

Gün: ---

Məkan: Günəş.

Hadisə: 8 – Günəşin üç saatlıq hərəkətsiz durması;

* * *

Ay: Rəcəb

Gün: Rəcəb ayının 15-i.

Məkan: Ay.

Hadisə: 9 – Ayın tutulması;

* * *

Ay: Şəban

Gün: ---

Məkan: İslam aləmi.

Hadisə: Bu ayda işlərin və siyasi hadisələrin şöbələrə ayrılması;

* * *

Ay: Ramazan

Gün: Ramazan ayının 14-ü.

Məkan: Günəş.

Hadisə: 1 – Günəşin tutulması *(adətindən kənar)*;

* * *

Ay: Ramazan

Gün: Ramazan ayının 23-ü, cümə günü.

Məkan: Səmadan.

Hadisə: 2 – Çığırtı:

Cəbrailin *(əleyhissəlam)* nidası: “Həqiqətən, haqq Məhdi *(əleyhissəlam)* və onun şiələri ilədir” – sübhdən sonra.

Məkan: Yerdən.

İblisin fəryadı: “Həqiqətən də, haqq Osman və tərəfdarları ilədir” – qürubdan öncə.

* * *

Ay: Ramazan
Gün: Ramazan ayının 25-i.
Məkan: Ay.
Hadisə: 3 – Ayın tutulması *(adətindən kənar)*;

* * *

Ay: Ramazan
Gün: ---
Məkan: Şam.
Hadisə: 4 – Kələbdən olan otuz min nəfərin Süfyani ilə beyət etməsi;

* * *

Ay: Şəvval.
Gün: ---
Məkan: Mədinənin yaxınlığı, Dirəzzur Suriya.
Hadisə: Qirqisiya döyüşü *(Yüz min zülmkarın öldürülməsi, Süfyaninin qələbə çalması)*.

* * *

Ay: Zülqədə
Gün: ---
Məkan: İraq.
Hadisə: 1 – Qəbilələrin ərzaq toplamağa çalışması;

* * *

Ay: Zülqədə
Gün: Zülqədə ayının 21–25-i.
Məkan: Suriya, İraq.

Hadisə: 2 – Süfyaninin Bağdadda qətliam törətməsi *(Səksən min adam öldürər)*.

* * *

Ay: Zülhiccə
Gün: Zülhiccənin 10-u.
Məkan: İraq.
Hadisə: 1 – Süfyaninin Kufədə qətliam törətməsi *(Yetmiş nəfər saleh din alimi öldürər)*;

* * *

Ay: Zülhiccə
Gün: Zülhiccənin 10–11-i.
Məkan: Məkkə.
Hadisə: 2 – Minada baş verən qarşıdurma *(Hacıların qarət olunması, ehtiramın saxlanılmaması)*;

* * *

Ay: Zülhiccə
Gün: Zülhiccənin 25-i.
Məkan: Məkkə.
Hadisə: 3 – Nəfsi-Zəkiyyənin öldürülməsi – Rüknlə məqam arasında, hərəmin içərisində;

* * *

Ay: Zülhiccə
Gün: ---
Məkan: Mədinə.
Hadisə: 4 – Bir nəfər Haşiminin öldürülməsi *(Muhəmməd və bacısı Fatimə. Peyğəmbər (sallallahu əleyhi və alih) məscidinin qapısı üzərində edam edilmələri)*;

* * *

Ay: Məhərrəm

Gün: Məhərrəm ayının 9-u.

Məkan: Məkkə.

Hadisə: 1 – İmamın *(əleyhissəlam)* yardımçılarının Məkkəyə yetişməsi *(313 nəfər)*;

* * *

Ay: Məhərrəm

Gün: Məhərrəm ayının 10-u.

Məkan: Məkkə.

Hadisə: 2 – Zühur günü *(Aşura, şənbə)* Rükn və məqam arasında; xütbə, beyət, Cəbrailin nidası;

* * *

Ay: Məhərrəm

Gün: Məhərrəm ayının 12-si.

Məkan: Mədinə.

Hadisə: 3 – Süfyaninin qoşununun Mədinəyə hücum çəkməsi, Peyğəmbərin *(sallallahu əleyhi və alih)* qəbrini dağıtması, Allah Rəsulunun minbərini sındırması, qoşunun miniklərinin Peyğəmbər məscidini bulayıb batırması *(Mədinənin üç gün ərzində halal edilməsi)*;

* * *

Ay: Məhərrəm

Gün: Məhərrəm ayının 15-i.

Məkan: Mədinə ilə Məkkə arası.

Hadisə: 4 – Süfyaninin qoşununun Beydada yerə batması.

# DÖRDÜNCÜ FƏSİL

## *Birinci hissə: Zühurun şərtləri*

## *İkinci hissə: Bəda və zühurun əlamətləri*

## BİRİNCİ HİSSƏ:

## ZÜHURUN ŞƏRTLƏRİ

Tələb və təklif qanunu zəruri edir ki, tələb təklif ilə mütənasib olsun. Çünki bundan başqa surətdə həyat və bərabərlik nizamı pozular, toplumun nizamına xaos, qarışıqlıq və fəsad hakim olar.

Bildiyimiz kimi, Allah-taalanın insanları hidayət etmək üçün tarix boyu bəşəriyyətə göndərmiş olduğu bütün peyğəmbərlər – müqəddəs əməllərini icra etmək əsnasında – şiddət və müxalifətçilik reaksiyası ilə qarşılaşmışlar. Bu davranışlar inkarçı camaat tərəfindən olmuşdur. Bundan əlavə, uca amal və peyğəmbərlərə aid insani risalətə diqqət ediblər...

Cahil şəxslər əngəl olmağa çalışmış, peyğəmbərlərə, böyük səmavi başçılara əziyyət etmişlər. Dərəcə baxımından onların ən böyüyü Muhəmməd peyğəmbər *(sallallahu əleyhi və alih)* olmuşdur. O buyurur: “Heç bir peyğəmbərin qövmü ona mənə əziyyət olunduğu kimi əziyyət etməmişdir”.

Həmçinin Allah-taala buyurur: ***“Vay bu bəndələrin halına! Onlara elə bir peyğəmbər gəlmədi ki, ona daim istehza etməsinlər”***.[241]Bu çarpışma zindan, sürgün kimi şiddətli nəticələrə gətirib çıxartmış və peyğəmbərlərə *(əleyhimussəlam)* əziyyət vermişdir.

Onların əksəriyyəti bu yolda həyatlarını itirmişlər. Hər şeyə rəğmən, Allah şəfqətli, rəhmlidir. O, öz höccətini tamamlamaq üçün bəndələrinə onların varlıq neməti əsirgəməmişdir. Əksinə, ətanı davamlı etmişdir. O, on bir nəfər tayı bərabəri olmayan kəs ortaya çıxartmışdır ki, onların heç bir bənzəri yox-

[241] Yasin, 30.

dur *(Əmirəlmömininindən (əleyhissəlam) başlayaraq İmam Həsən Əksəriyə (əleyhissəlam) qədər)*. Onlar Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* ən üstün xələfidir. Onlar ən bariz insani xüsusiyyətlərə, islami üstünlüklərə malik olmuşlar. Onlar öz dövrlərində İslam ümmətinin fərdlərinin ən fəzilətlisi olmuşlar. Onlar cəmiyyət idarəçiliyində fəzilət və ilahi ədaləti əsas hədəf götürürdülər. Bununla yanaşı, tarix də şahiddir ki, onlar Peyğəmbərlərin sonuncusu *(sallallahu əleyhi və alih)* dünyasını dəyişdikdən sonra iki əsr yarım müddətində islami siyasəti sahəsindən ya uzaq olmuşlar, ya da uzaqlaşdırılmışlar. O dərəcədə ki, onlar qafil insanları doğru yola yönəltməyə imkan tapa bilməmişlər. Çünki əziyyətə, həbsə və qətlə düçar olurdular... Buradan belə nəticə alırıq ki, bu *(peyğəmbər və imamları göndərmək şəklini almış)* səmavi istək insani tələb *(bəşər övladının səmavi risaləti inkar etmək şəklini almış)* ilə birlikdə mütənasib olmamışdır.

Həqiqətən, bəşərin üsyan və inadkarlıqla nəticələnən həddi aşan pis davranış və kobud reaksiyasını insan görsün deyə, bu səbəbdən ilahi hikmət əzəmətli başçıların sonuncu şəxsini (*İmam Məhdini (əleyhissəlam)* uzun bir müddət ərzində gözlərdən qeybə çəkməyi, insanlarda belə bir ali dəyərli şəxsiyyətə ehtiyac hissini üzə çıxartmağı zəruri bilmişdir. Yer üzü hazır vəziyyətdə olduğu zamanda isə Allah-taala onu ortaya çıxaracaq və ona ehtiyac duyan kəslərin arasında qərar verəcəkdir... Hər bir iş üçün münasib vaxt gəldikdə, buna şərait yaradacaq vəziyyət formalaşdıqda, əksər insanların qəlbində ümidsizlik özünə yer etdikdə, qəlblərinin dərinliklərində İzzətli və Hikmətli Allah tərəfindən başçı və xilaskar arzulayacaqdır. Allah da nizamından çıxmış, pozğunluğa düşmüş durumları köklü islah etmək, xalqı zülm və haqsızlıqdan qurtarmaq, haqq və ədaləti yaymaq naminə aləmin xilaskarını ortaya çıxaracaqdır.

Lakin... bu vəd olunmuş günün – hansı ki, intizarı çəkilən müqəddəs sübhdür, əlamət və şərtlərinin olması gərəkdir.. O

əlamətlər ki, ona dəlalət edir və müvəffəqiyyətinin gerçəkləşmə şərtləri vardır. Hansısa bir inqilabın qalibiyyəti, yaxud arzulanan hədəfin həyata keçməsi üçün münasib vəziyyətin mövcud olmasına söykənir. Odur ki, nə zaman ortam və müvəffəqiyyət ünsürləri hazır vəziyyətdə oldu, hədəf gerçəkləşir...

İmam Məhdinin *(əleyhissəlam)* inqilabı kimi hərəkat və renesans hər bir peyğəmbər, rəsul və imamların *(əleyhimussəlam)* çalışqanlıqlarının ümumi və müxtəsər formasıdır, ilahi ədalətin gerçəkləşməsini və bütün bəşəriyyətin Allahın əbədi şəriətinə sarı hidayətini hədəfə alır. Məhdi *(əleyhissəlam)* hərəkatı müqəddəs zühuru zamanı başlayacaqdır. O, dərin, əhatəli, köklü, daimi və insani bir hərəkatdır. Bu hərəkat dil, rəng, irq, soy sərhədlərini aşıb keçir. Həmçinin insan azadlığını reallaşdırır, zaman keçdikcə hədərə getmiş etibar və hörmətini geri qaytarır, fəsad, inhiraf və zülmün hər bir şəkli, rəngi və forması ilə birlikdə kökünü qazıb çıxartmağa çalışır.

Belə bir əhatəli və dərin hərəkatın bir şeyə malik olmadan baş verməsi mümkün deyil. Əksinə, ondan öncə xariquladə halların baş verməsi, müvəffəq olması üçün münasib dünyavi hazırlığın olması gərəkdir. Həmçinin qurtuluşun təməl faktorları və şərtlərinin yayğın olması labüddür. Ola bilər ki, bu şərtlərin ən əhəmiyyətli olanı aşağıdakılardır:

***Birinci:*** Kamil və hər bir imkan, zamanda xilas etmə qabiliyyətinə malik, həmçinin bəşəriyyəti sevərək xidmət etməyi ehtiva edən düşüncə ideologiyası.

Bu ideologiyanın cəmiyyət içərisində idarəedici qanun olması, həmçinin hər bir bəşəri problemləri üstünə alması, habelə bütün haqsızlıqları yox etməsi gərəkdir... Həmçinin bilirik ki, İslam dini sonuncu səmavi şəriətdir. Bəşəri ağıl aləmdə kamil ədalət yaratmaqda acizdir. Allah-taala Quranda yer üzərində kamil ədalətinin, həmçinin xalis ibadətin tətbiqini vəd

etmişdir. Bəlkə də bu, məxluqat üçün əsas qayənin özüdür[242]: ***"Mən cinn və insanları yalnız mənə ibadət etsinlər deyə, xəlq etmişəm"***.[243]

Odur ki, İslamda bu ideologiyanın mövcudluğu bəşəri ağıl tərəfindən hasil olması, həmçinin İslamdan sonra başqa bir şəriətin nazil olması mümkün olmadığına görə məhduddur: ***"Kim İslamdan başqasını din olaraq seçsə, ondan qəbul olunmayacaqdır"***.[244]

Zühur dövründə həqiqi İslam cəhətindən *(fikri ideologiya)* mədəni olaraq aləmin tərbiyyəsi tamamlanacaqdır. Hansı ki, İmam Məhdinin *(əleyhissəlam)* aləmi əhatə edən dövlətində onun nizamı bunun üzərində duracaqdır... Müsəlman olmayan xalqlar tezliklə İslama dəvət olunacaq *(yaxud bu dini qəbul edəcək)*, qane olmaqla və asanlıqla ona sarılacaqlar. Ardınca düşüncə ideologiyalarındakı ixtilafların aradan qaldırılması tamamlanacaq, hamı haqq və həqiqətə tabe olacaqdır... Yenicə müsəlman olan, yaxud daha öncə müsəlman olmuş hər bir kəs ümumi, zəruri İslam mədəniyyəti üzərində tərbiyə alacaqdır. Məhz oradan mədəni ucalıq və təkamül başlayır. Tutumu isə hər kəsin qabiliyyət və çalışqanlığı qədərindədir.

İslamı təmsil edən kamil fikri ideologiyanı tərif etmək üçün belə bir açıqlama edirik:

**1 –** Həqiqi İslam hökmləri, hansı ki, zühurdan öncə bildirilmişdir;

**2 –** Həmin vaxt yenilənməsi tamamlanacaq düşüncə və məfhumlar;

---

[242] Bu mövzu *(Zühurun şərtləri)* barədə daha ətraflı məlumat üçün İmam Mehdi *(əleyhissəlam)* ensiklopediyası, Böyük qeyb dövrünün tarixi, həmçinin Seyid Muhəmməd Sadiq Sədrin "Zühurdan sonrakı tarix" kitablarına müraciət edə bilərsiniz.

[243] Zariyat, 56.

[244] Ali İmran, 85.

**3 –** İslam təfəkkürünün inkişafından nəticələnən düşüncə və məfhumlar;

**4 –** Bundan öncə elan olunmayan, elan olunması dünya dövlətinin gerçəkləşməsinə bağlı olan təxirə salınmış düşüncə və məfhumlar;

**5 –** Başçı Məhdinin *(əleyhissəlam)* qətiləşdirəcəyi detallı sistemlər. Hansı ki, bunu müxtəlif durumları nəzarət altında saxlmaq baxımından şəriət hüdudları çərçivəsində özü edəcəkdir;

**6 –** Ümumi qaydalar, hansı ki, Rəhbər Məhdi *(əleyhissəlam)* yer üzündə yerləşdirilən hakimlər üçün qoymuşdur;

**7 –** Ümumi qaydalar, hansı ki, Qaib Məhdi *(əleyhissəlam)* onları bəşəri tərbiyyənin davamlılığı, həmçinin uzun dönəmdə təkamülü baxımından xüsusi kəsləri üçün qoymuşdur.[245]

Kamil fikri ideologiya bu əhkam və qaydalarla tətbiq olunmağa və bəşəri tərbiyəyə sarı tədricən yol götürə bilər.

**İkinci:** Təcrübəli, böyük liderin varlığı, hansı ki bütün aləmi idarə etmək və ədaləti yaymaq üçün kamil qabiliyyətə malikdir:

Bu təcrübəli liderin xüsusiyyətlərini vəd olunan gündə öz elmi və təlimləri ilə doğru-düzgün İslamı tətbiq etməyi üzərinə götürmək üçün bəşəriyyətin ən ideal lideri kimi Allah-taala Məhdidə *(əleyhissəlam)* yerləşdirmişdir... Bəşərin müxtəlif nəsilləri ilə birlikdə onun uzun müddət qalması müqəddəs fəcr günü liderlik vəzifələrinə təyin edilməsi üçün zəruridir.

Elə isə, Məhdinin *(əleyhissəlam)* dünya liderliyi üçün qabiliyyəti aşağıdakıları ehtiva edir:

**1 –** İsmət *(məsumluq)*... İlham və vəhyə əlavə olaraq... İlham və vəhy dedikdə İmran qızı Məryəm *(əleyhəssəlam)*, Musa peyğəmbərin *(əleyhissəlam)* anası üçün hasil olanı nəzərdə tu-

[245] Tarixu ma bə`dəz-zuhur, s.470.

turuq: ***“Biz Musanın anasına vəhy** (yəni ilham) **etdik ki, onu əmizdir”.***[246]

**2 –** Geniş kontrol və müşahidə etmək kimi təcrübə, hansı ki, qeyb dövründə uzun zaman ərzində bunu əldə etmişdir. Belə ki, bu, tarixi gedişatda qanunlardan, hadisələr ardıcıllıqlarından və bəşəri cəmiyyətlərə təsir qoyan şeylərdən birbaşa xəbərdar olmasına səbəb olur.

**3 –** Əməllər və fədakarlıqlar, hansı ki, qeyb dövründə İslam və müsəlmanlara görə icra etmiş, həmçinin kamal və kökləşməyin ucalmasında təsir qoymuşdur.

Bu qavrayışdan Məhdininin *(əleyhissəlam)* ismət və ilhamdan ayrı olduğunu, həmçinin zaman ərzində onun uzun təkamülünün olmadığını iddia edə bilərik. Hansı ki, bunlar ondan dünyavi liderlik qabiliyyətindən məhrum edir. Elə isə, bizə Məhdinin axırzamanda *(necə ki, ümumi kütlə etiqad bəsləyir)* doğulacağını qəbul etməliyik. Belə olduqda, bu cür təsəvvürdən belə nəticə hasil olur ki, Məhdi *(əleyhissəlam)* xalis mömin fərdlərdən artıq biri deyil. Əgər lider belə olsa, onda qoşun və yardımçıların halı necə olar? Bu cür təsəvvür ilə vəd olunan gün üçün böyük məsuliyyətlə qiyam etməsi, həmçinin orada vədin yerinə yetirilməsi imkansız olar. Bununla əlaqədar olaraq, imamiyyə şiələrinin Allah onu ortaya çıxaranadək varlığı və qeybə çəkilməsinə iman üzərində duran Məhdi *(əleyhissəlam)* fəhmi üçün araşdırmasına önəm vermək gərəkdir.

Bu şəkildə, mühüm xüsusiyyətlər ilə seçkin olan İmam Məhdi *(əleyhissəlam)* barədə imamiyyə şiələrinin təsəvvürünü *(dəlillər və birbaşa buyuruqlar (nəslər) bir yana)* hər bir asanlıq və açıqlama ilə qavraya bilərik:

**1 –** Məsum imamlardan *(əleyhimussəlam)* on ikincisi olmasına görə, İmam Məhdinin *(əleyhissəlam)* məsum olmasına inanmaq;

---

[246] Qasas, 7.

**2 –** İstər qeybdə olsun, istər olmasın, zaman boyunca varlığının ümumi olaraq aləmin, xüsusi olaraq xalq əsaslarının tək, şəriətə müvafiq lider olmasına inanmaq;

**3 –** Xüsusi olaraq İslam ümməti, ümumi olaraq bəşəriyyətin bir sıra nəsilləri ilə çağdaş olması;

**4 –** Günbəgün, ilbəil baş verən hadisələrdən məlamatlı olması və bu hadisələrin səbəb, nəticə və xüsusiyyətlərini tanıması;

**5 –** Qeyb dövründə insanlarla təmasda olması, onları görməsi, onların da onu görməsi, onlarla birlikdə iş görməsi, onların da onunla iş görməsi, ancaq onların onun həqiqətini *(gerçək kimliyini)* bilməmələri.[247]

Bunu qəbul etməliyik ki, İmam Məhdinin *(əleyhissəlam)* xüsusiyyətləri imamiyyə təsəvvüründə illüziya deyil. Əksinə, liderliyinin təşəkkül tapmasında, həmçinin ədalətli cəmiyyətin gerçəkləşməsinə hakim olması üçün əsas xüsusiyyətlərdir. Necə ki, bunu Allah belə istəmiş və vədə vermişdir... İşarə etməyimiz gərəkdir ki, böyük lider milyonların nidası, nəsillərin ürəklərinin arzuladığı, ümmətlərin gözlərinin dikildiyi, xalqların ümidlərinin hakimi məhz odur.

* O, hicrətin 255-ci ili, Şəban ayının 15-i dünyaya göz açmışdır. Atası İmam Həsən Əskəri *(əleyhissəlam)*, anası Seyyidə Nərcis *(Məleykə bint Yəşua ibn Qeysər – Rum padşahı, anası isə Məsihin vəsisi Şəmuna nisbət verilən həvarilərdən birinin nəslindəndir)*.

* Yaşamaqdadır. İndiyədək yer üzündə ömür sürür. O yeyir, içir, Allaha ibadət edir, çıxmaq və zühur ilə əlaqədar ona veriləcək əmrin intizarındadır.

* Gözlərdən qeybdədir. Camaat onu görsə də onu tanımırlar.

* Onun Allahın izni ilə yer üzünə nəzarəti, bəndələr və ölkələrin xəbərlərinə, habelə dünyada baş verən hər bir şeyə əhatəsi vardır.

---

[247] Tarixu ma bə`dəz-zuhur, s.39.

* Allah yanında məlum, bizə isə məchul olan gündə zühur edəcəkdir. Onun zühurundan öncə qəti əlamətlər baş verəcəkdir *(Biz bunlara üçüncü fəsildə geniş surətdə işarə etmişik)*.

* Zühur etdiyi zaman yer kürrəsinə hamılıqla hakim olacaqdır. Dünyadakı bütün dövlətlər, bütün xalqlar ona boyun əyəcəkdir.

* Doğru-düzgün İslamı Muhəmməd peyğəmbər *(sallallahu əleyhi və alih)* gətirmiş olduğu kimi tətbiq edəcəkdir. Həmçinin bütün dinlər və inanclar hamılıqla ona itaət edəcəkdir.

* İsa peyğəmbər *(əleyhissəlam)* səmadan enəcək və onun arxasında namaz qılacaqdır.

***Üçüncü:*** Böyük liderin hüzurunda sayı kifayət qədər olan yardımçı, köməkçi və xilaskarların olması

Liderin dünyanın məskən tutulan yerlərinin hamısında ədalətin tətbiq edilməsi üçün kifayət sayda köməkçi və tərəfdarının olmasına ehtiyacı vardır ki, İslam təbii yayım olaraq cihad vasitəsi ilə yayılsın. Odur ki, İmam Məhdinin *(əleyhissəlam)* inqilabının gerçəkləşməsi üçün qoşun hazırlanması, İmamı *(əleyhissəlam)* dəstəkləyəcək vuran qüvvəsi *(nüfuzedici qüdrəti)*, əmrlərinə itaət olunması gərəkdir. Bu, zəruri bir məsələdir və qaçılmaz zəruri ehtiyacdır... Burada ordu idarəçiliyi və onun fərdləri arasında fərqləndirmə aparmaq lazımdır.

***1 – Ordu başçısı (İmam Məhdinin (əleyhissəlam) əshabı)***

Onlar idarəçi və əshabdır. Onların ordu idarəçiliyində, ölkələrin fəthində, işlərin idarə olunmasında və sair işlər baxımından böyük rolu vardır... Bu əshab xalis möminlərdən mövcud olduğuna görə daha əhəmiyyətlidir. Onlar xüsusi inayət sayəsində seçilmişlər. O kəslər ki, İslamın ali hədəfləri yolunda fədakarlığa görə ləyaqət və qüdrətlərini möhkəmlətmişlər *(və özlərini sübut etmişlər)*. Hədəf nə qədər geniş və böyük olarsa, iman və ixlasın daha dərin forması tələb olunur... Bəs nə böyük

bir lider, nə də əzəmətli bir peyğəmbərin önə keçə bilmədiyi *(və reallaşdırmağa qüdrəti çatmadığı)* dünyanı saracaq hədəf olarsa necə?! Peyğəmbər və rəsulların xətti, onların göstərdiyi bütün fədakarlıqlar bu böyük hədəfin və metafizik hadisələrin müqəddiməsi olmuşdur... Odur ki, bu uca və ali hədəflərin yerinə yetirilməsində iştirak edən kəs xüsusi əhəmiyyət əldə etməlidir. Həmçinin ondan xüsusi şərtlər tələb olunur. Şərt qoyulan şeylərdən ən əhəmiyyətlisi isə bu idarəçilərdə *(əshab)* aşağıdakı xüsusiyyətlərin təşəkkül tapmasıdır:

**1 –** İdrak *(şüurlu və diqqətli olmaq)*... kəlmədə olan hər bir məna ilə əlaqədar. Əlavə olaraq, əhəmiyyətlə bağlı həqiqi şüur, lider Məhdinin *(əleyhissəlam)* səy göstərdiyi hədəfə ədalətli olmaq *(və dürüst davranmaq)*, tətbiq edilməsi üçün çalışdığı *(İslama aid)* ideologiyaya qarşı dərin iman bəsləmək.

**2 –** Hədəf uğrunda fədakarlıq istedadı, hətta fiziki qurbanlıq əmri tələb olunduğu yerdə olsa belə.

Bu idarəçilərin *(əshabın)* sayına gəlincə, rəvayətlər az qala mütəvatir həddə çatacaq şəkildə bu barədə söz açmışdır ki, onların sayı Peyğəmbərin *(sallallahu əleyhi və alih)* Bədr döyüşündəki qoşununun sayı qədərdir *(üç yüz on üç nəfər)*. Onlar o kəslərdir ki, İmam Əmirəlmöminin, İmam Sadiq *(əleyhiməssəlam)* onlar haqqında söz açmışdır: “Onlar bayraq əshabıdır *(bayraqdardır)*”.[248]

Habelə Cabir Cufidən nəql olunan xəbərdə deyilir: “Əbu Cəfər *(əleyhissəlam)* buyurmuşdur: “Qaimlə rükn və məqam arasında üç yüzdən çox kəs beyət edər ki, sayları Bədr əhlinin sayı qədərdir. Onların arasında Misir əhlindən nəciblər, Şam əhlindən qəhrəmanlar, İraq əhlindən xeyirlilər vardır”.[249]

Bu 313 nəfər idarəçi əshabın üstün tutulduğu ən əhəmiyyətli faktorlar aşağıdakılardır:

---

[248] Kamalud-din və təmamun-nemət, s.673; Yəumul-xilas, s.256; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.395.

[249] Ğeybətut-Tusi, s.284; Muntəxəbul-əsər, s.468.

**1 –** Gəncdirlər, onlar arasında yeməkdəki duz qədər, olduqca azdan az istisna olmaqla, orta yaşlılıq yoxdur;

**2 –** Onların ixlası və iman qüvvələrinin ən ali dərəcədə olması vəsf olunmuşdur *(gecə rahib, gündüz aslandırlar)*;

**3 –** Lider Məhdiyə *(əleyhissəlam)* qarşı ixlas, onun rəhbərliyinə iman;

**4 –** Cəbraildən *(əleyhissəlam)* sonra Məhdi *(əleyhissəlam)* birinci dəfədən beyət etmələri, onun xütbəsinə qulaq asmaları, onu ilk müdafiə etmələri;

**5 –** Döyüş ərzində qoşun başçısıdırlar;

**6 –** Onlar Məhdinin dünya dövlətində fəqih, hakim və qazi olacaqlar.

***2 – Qoşun fərdləri (ənsar)***

Onlar saleh möminlərdir. Hansı ki, İmam Məhdiyə *(əleyhissəlam)* Məkkədə və sair şəhərlərdə yetişəcək, onun bayrağı altında toplaşacaq və düşmənləri ilə vuruşacaqlar. Bu ənsarın ordudakı sayı olduqca çoxdur. Belə ki, hərəkatın başlanğıcı əsnasında ilk dəstəsində vuruşan şəxslərin sayı on mindən az olmayacaqdır. Belə ki, İmam Sadiqdən *(əleyhissəlam)* nəql olunan xəbərdə deyilir: "O, yalnız qüvvə sahibləri arasında çıxacaqdır. Qüvvə sahibləri isə on mindən az olmayacaqdır"[250]... Bu say Məhdi *(əleyhissəlam)* üçün onun birinci hərəkatında kifayətedicidir. Onun hərəkatı genişləndikcə, qoşunu da genişlənəcək, hədəfi bəlirlənəcək və silah-sursatı çoxalacaqdır. Odur ki, İmam Məhdinin *(əleyhissəlam)* qoşunu "Qəzəb qoşunu" adlandırılmışdır. Belə ki, onlar fəsad törədən toplu üzərində Allahın qəzəbini təmsil edənlərdir. Qoşunun şüarı "Ya Saratul-Huseyn" olacaqdır. Belə ki, şüarın mənası vardır. İmam Hüseyn *(əley-*

[250] Kəmalud-din və təmamun-nemət, s.654; əl-İrşad lil-Mufid, c.2, s.383 – müxtəlif ləfzlə; Tarixu ma bə`dəz-zuhur, s.270; əl-Məhdi minəl-məhd iləz-zuhur, s.428.

*hissəlam)* hərəkatı ilə İmam Məhdinin *(əleyhissəlam)* hərəkatı arasında hədəflər vəhdət daşıyır.

Hədis və rəvayətlərin icmalından nəticə əldə etmək olur ki, bu ənsar *(bəzi rəvayətlərin qeyd etdiyi kimi, dəstə, yaxud dairə)* camaat və toplumdur ki, onların kamil iman və köklü əqidədən payları vardır. *(313 nəfərdən daha az imtiyaza malikdirlər)* İmam Məhdi *(əleyhissəlam)* zühurunun başlanğıcında Məkkədən çıxacaq və bu sayda olan *(on min nəfər)* ənsar onun qoşununun əsasını təşkil edəcəkdir... Təbiidir ki, vaxt keçdikcə minlərlə insan ona qoşulacaqdır... Buna görə də İmamın qoşun və əskərlərinin getdikcə çoxalacağını təsəvvür etmək mümkündür.

***Dördüncü: İnkişaf və şüur standartlarını dəstəkləyən ümumxalq bazanın var olması***

Burada iki mühüm nöqtəyə işarə etməliyik:

***1 – Dünya xalqlarının istedadı:***

Xalis möminlər zühur günü ən önəmli idrak və liderliyi təmsil edir. Lakin *(İslama aid)* fikri ideologiyanın tətbiqi üçün kifayətedici ümumxalq bazasının daha böyük sayına ehtiyac vardır ki, həmin gün yayılacağının başlanğıcında dünyada İslam qanunları və təlimlərinin tətbiqi üçün düzgün örnək olsunlar.

Burada İslam ümmətinin tamamilə düşüncə və mədəniyyət baxımından yetişkin dərəcəyə çatması labüddür. Belə ki, İmam Məhdinin *(əleyhissəlam)* haqq və ədalət dövlətində tətbiq etdiyi yeni qanun və üslubları qavramaq və anlamaq mümkün olsun. Bu isə yalnız çoxlu sayda bəşər toplumunun hazır olması ilə tamamlana bilər ki, müqəddəs fəcr günü hərəkata və onun təlimlərinə cavab versin.. Bu şüur və bacarıq bu camaat üçün kifayət qədər olmalıdır. Zühurdan öncə üsyan və yolundan çıxmaqla əlaqədar bir şey etmiş olsa belə.

***2 – Sabiq təcrübələrdən dünyanı əhatə edən ümidsizlik***

Ümumdünya problemləri ilə əlaqədar ünsürlərin İslam yolu olmadan, hər bir həll etmə yollarından dünyanın ümidsizliyə qapılması, yaxud ümumi qənaətə gəlməsi... Burada insanlar başa düşməlidirlər ki, bütün öncəki təcrübələr yararsızdır. Hansı ki, bu təcrübələr ümumdünya problemlərini həll etməkdə iddialı idi. Lakin sonra onun işinin qüsurları ortaya çıxdı və saxtalığı aşkar oldu. Bu isə zülm, haqsızlıq, fəsad, şiddətli əziyyətin yayılmasına səbəb oldu və o dərəcəyə çatdı ki, insan toplumu müxtəlif ünvanları dayışan ümumdünya sistemlər tərəfindən islahatın reallaşmasından ümidini üzmək həddinə gəlib çatdı... Bu şüur yeni düşüncə, yaxud ədalətli incələmə aparmaq *(İslam ideologiyası)* tələbi üçün məcburiyyət, rəğbət və ehtiyac duymağa yönləndi. Hansı ki, bu, ümumdünya haqsızlıq və problemlərin həqiqi həllini öz öhdəsinə götürür. Toplumun zülm və sıxıntıları dərk etməsi, üstəlik zehni və fikri inkişaf, bu zülm və istibdadı aradan aparmaq istəyi inkişaf etdikdə bu, zühur günü və onun təlimlərini qəbul etmək üçün ən üstün zəmin olacaqdır.

İzah üçün zühur şəraiti barədə yığcam şəkildə danışmalı və onların ən əhəmiyyətli olanlarını təlxis etməliyik:

**1 –** Kamil fikri ideologiyanın *(İslam dinin)* mövcud olması, hansı ki, hər bir bəşəri problemlərin həllini, bütün haqsızlıqların aradan qaldırılmasını öz öhdəsinə götürür;

**2 –** Böyük, təcrübəli liderin var olması, hansı ki, zühur gününün önəmli vəzifələrini icra edəcək və bütün dünyada ədaləti yayacaq qabiliyyətə malikdir;

**3 –** Ədalət əsasında dünya fəthi üçün fərdlərin *(əshab-ənsar)* sayının kifayət həddində olması;

**4 –** İslam ümmətinin bütövlüklə fikri və mədəni yetkinliyə çatması. Belə ki, rəhbər Məhdinin *(əleyhissəlam)* haqq və ədalət dövlətində *(ümumxalq bazası)* bərqərar edəcəyi yeni qanun və üslubları qavrayıb, anlamağı bacara bilsin;

**5 –** Ümumdünya problemləri ilə əlaqədar ünsürlərin İslam yolu olmadan, hər bir həll etmə yollarından dünyanın ümidsizliyə qapılması, yaxud ümumi qənaətə gəlməsi *(ümumxalq əsası)*;

**6 –** Zalımların yolundan çıxması o həddə qədər radikallaşır ki, İslam şəriətindən imtina etmək və hökmləri ilə müxalifətçilik müstəvisinə yetişir.[251]

Eyni zamanda tələb olunan bütün şərtlər, yəni İslam təlimlərini örnək tutan bəşər arasında mövcud olan fikri ideologiya, İmam Məhdi *(əleyhissəlam)* timsalında liderin mövcud olması, ümmətin vəd olunan gün meydana çıxmaq əsnasında yerin qanun və təlimlərini anlamaq qabiliyyətində olması, onlara yardım edəcək faktorla – bu, zühurdan öncə qoyulan hər bir bəşəri təcrübələrin, prinsiplərin, qanunların zəif nöqtlərənin inkişafı, həmçinin yeni bəşərin həll etməsindən ümidsizliyə qapılmasıdır – yanaşı ümumdünya fəthi, ədaləti və salamatlığı yaymaq üçün ideoloji, öncül qoşunun kifayət edici sayının bol olması cəm olduqda zühur günü *(müqəddəs sübh)* gözlənilən ilahi vəd və nəbəvi müjdəni reallaşdırmaq üçün tamamlanmış olacaqdır. Buradan bilirik ki, zühurun vaxtı bu şərtlərin bir yerə cəm olmasından asılıdır... Bəlkə də deyə bilərik ki, bu şərtlər geniş forması ilə zühur gününün müvəffəqiyyət qazanması üçün əsas şərtlər olacaqdır. Onun üzərində onun üçün qurtuluş, irəliləyiş, genişlik və yayılma yazılır.

Bu hissədə zühur şəraitini izah etdikdən və üçüncü fəsldə zühur əlamətlərini şərh etdikdən sonra istər fəhm və məna baxımından, istər xüsusiyyətlər və sifətlər cəhətindən aralarındakı fərqləri izah edə bilərik:

**1 –** Zühurun şərtlərlə əlaqəsi həqiqi rabitədir. Əlamətlərlə rabitəsi isə dəlalət, bildiriş və göstərməkdir;

---

[251] Tarixu ma bə`dəz-zuhur, s.203.

**2 –** Zühur şərtlərinin səbəb və gerçək əlaqəsi vardır. Zühur əlamətlərinə gəlincə, bir sıra dağınıq hadisələrdən ibarətdir ki, aralarında həqiqi əlaqə mövcud deyil;

**3 –** Zühur şərtlərinin eyni zamanda bir yerdə cəm olması gərəkdir. Zühur əlamətləri isə əksinədir, zaman baxımından pərakəndə haldadır;

**4 –** Zühur əlaməti fövqəladə hadisədir. Təbiətinə uyğun hər nə qədər zamanı uzun çəksə də davamlı olması mümkün deyil. Ancaq zühur şərtləri və bəzi səbəbləri bunun əksinədir. Çünki o, öz təbiətinə uyğun olaraq qalıcılıq qabiliyyətinə malikdir;

**5 –** Əlamətlər hamılıqla zühurdan öncə baş verir və həyata keçir. Halbuki şərtlər yalnız zühur əsnasında daha əhatəli, kamil şəkildə mövcud olur;

**6 –** Zühurun şərtlərinin bir yerə cəm olmasından əmin olmaq tamamilə qeyri-mümkündür. Zühur əlamətlərinə gəlincə, diqqət və dəqiqlik ilə, onlardan qarşıya çıxanlardan və çıxmayanlardan xatircəm olmaq mümkündür *(Zühur şərtlərinin hamısının baş verməsi gərəkdir. Lakin zühur əlamətləri belə deyil. Qəti əlamətlərin baş verməsi kifayət edir. Digər əlamətlərin baş verməməsi də mümkündür – müt)*.[252]

[252] Tarixul-ğeybətil-kubra, s.396–399.

# İKİNCİ HİSSƏ

## BƏDA VƏ ZÜHUR ƏLAMƏTLƏRİ

İmam Məhdi *(əleyhissəlam)* və onun zühur əlamətləri barəsində danışmaq onun qeyb dövrü və gələcəkdəki hadisələrdən xəbər vermək haqqında danışmaqdır. Sual çıxa bilər ki, məsumlardan *(əleyhimussəlam)* varid olan və İmam Məhdinin *(əleyhissəlam)* zühur əlamətlərindən söz açan hər bir rəvayət rəvayətin sənədinin səhihliyinə xatircəm olduqdan, həmçinin Məsumun *(əleyhissəlam)* demiş olduğu təsdiq tapdıqdan sonra bütün bu qeyb xəbərlərinin və gələcəklə bağlı öncədən xəbər vermələrin gerçəkləşməsi labüddürmü? Yoxsa orada bunun qarşısını alacaq və Məsumun *(əleyhissəlam)* xəbər verdiyi gerçəkləşməni dəyişdirəcək nəsə vardır?

Burada bizə fəlsəfi və ideoloji mövzu kimi “Bədaya” yol *(tapmaq)* lazımdır. Bu mövzunun İmam Məhdi *(əleyhissəlam)* və onun zühur əlamətləri ilə təməlli və həssas əlaqəsi vardır.

Lüğətdə “bəda” gizli olduqdan sonra ortaya çıxmaqdır.

Terminoloji olaraq “bəda” bir şeyin camaata məxfi olduqdan sonra ortaya çıxmasıdır. Bu mənanı belə izah etmək olar: Allah öz peyğəmbərinin, yaxud vəlisinin dili ilə, ya da bu izharı gerçəkləşdirəcək məsləhət üçün zahiri durumda bir şey ortaya çıxarsın, ancaq sonra onu silsin və beləcə, ilk zahir olanın əksi olsun... Bu məntiq Allahın Kitabında öz sözündəndir: ***“Allah*** *(“məhv və isbat” lövhəsində yazılmış, olacaq hadisələrdən)* ***istədiyini məhv və*** *(bəzi hadisələri orada)* ***dərc edir və Ümmül-kitab*** *(Lövhi-Məhfuz və şeylərin sabit cəhətlərinin yazıldığı yer)* ***Onun yanındadır”.***[253]

---

[253] Rəd, 39.

Həmçinin buyurmuşdur: ***“Kəsb etmiş olduqları pisliklər onlar üçün zahir olacaqdır”***.[254]Yəni əldə etmiş olduqları pis əməllərin gizliliyi onlara aşkar olacaqdır...

Həmçinin buyurmuşdur: ***“Nişanələri gördükdən sonra qərara gəldilər”***.[255]

Bədanın bu mənası gizli, məxfi olduqdan sonra üzə çıxmaqdır. Yalnız insan üçün çox baş verir... Ancaq Allahın haqqında hasil olmur. Çünki belə olarsa, ona məlumatsız olmağı gərəkli edər. Halbuki biz belə etiqad bəsləyirik ki, Allah heç bir şeyi gözdən qaçırmaz. Əksinə, o hadisələrin hamısına alimdir. İstər bu hadisələr keçmiş olsun, istər indiki, ya da gələcəkdə olsun. Yer üzündə və göydə elə bir şey yoxdur ki, Allaha məxfi olsun. Məxfi olduqdan sonra üzə çıxmaq, ya da bilməzlikdən sonra bilgili olmaq Allah barəsində təsəvvür belə edilə bilməz. Əksinə, əşyalar dəqiqlik və incəliyinə qədər onun hüzurunda hazırdır *(aydın və aşkardır)*. Bunun misdaqı isə elə Allahın öz sözüdür: ***“Şübhəsiz, yerdə və göydə olanlardan heç bir şey Allaha gizli deyildir”***.[256]

Odur ki, bədanın Allaha nisbət verməsi bu mənadadır: Allah özünə deyil, xalqa gizli olan şeyi üzə çıxarır... Başqa bir ifadə ilə desək: Məxfi olduqdan sonra hər bir üzə çıxan şey Allah tərəfindən insanlara bədadır. Allah və insanlara bəda deyil. Bu, Allahın bu sözünə yaxındır: ***“Onlar üçün Allah tərəfindən güman etmədikləri*** *(şiddətli əzab)* ***zahir olacaqdır”***.[257]

Təsviri asanlaşdırmaq və izah etmək üçün deyirik ki, Quran ayələri və hədislər buna dəlalət edir ki, bəndələrin taleyi onların davranışları və saleh əməllərinə görə dəyişir. Sədəqə, ehsan, qohumluq əlaqələrini möhkəmlətmək, valideyinlərə yaxşılıq, istiğfar, tövbə, nemətə şükür etmək və haqqını əda

---

[254] Zumər, 48.
[255] Yusuf, 35.
[256] Ali İmran, 5.
[257] Zumər, 47.

etmək və s. kimi işlər taleni dəyişdirir, qəzanı *(baş verəcək hadisəni)* əvəzləyir, ruzi, ömür və əcəldə artım edir. Habelə pis əməllərin də onların taleyində bunun əksinə dəyişiklik etmə təsiri vardır... Buna Allahın bu ayəsi dəlalət edir: ***“Allah heç bir dəstə üçün*** *(mövcud)* ***olanı*** *(nemət və firavanlığı, yaxud bəla və çətinliyi)* ***onlar özlərində olanı*** *(iman və küfrü, yaxud itaət və fasiqliyi)* ***dəyişdirməyincə dəyişdirmir”***.[258]

Sözün xülasəsi budur: Bəda Allaha nisbət verildikdə onun tərəfindən bəda anlamındadır. Camaata nisbət verildikdə isə onlara aid bədadır. Allah tərəfindən olan bəda camaata gizli olanı üzə çıxarmaqdır. Camaat tərəfindən olan bəda isə onlara məxfi olan şeyin üzə çıxmasıdır.

Burada bir növ bəda vardır ki, adı qeybi, yaxud ixbari bəda kimi qəbul edilmişdir. Onun mövqeyi isə Peyğəmbər *(sallallahu əleyhi və alih)*, yaxud imamların *(əleyhimussəlam)* gələcəkdəki bir məsələnin baş verəcəyi barədə xəbəridir. Burada nəzərdə tutduğumuz bəhs, xüsusilə İmam Məhdinin *(əleyhissəlam)* zühur əlamətləri barədə olan xəbərdir, hamısı deyil... İzah etmək gərəkdir ki, Allah-taalanın iki lövhü vardır:

***Birinci:*** Lövhi-məhfuz. Bu o lövhdür ki, orada yazılanla əlaqədar dəyişiklik ola bilməz, orada müəyyən edilən şeylərlə bağlı əvəzetmə mümkün deyil. Bu, Allah-taalanın elmi ilə uzlaşır. Allah-taala buyurmuşdur: ***“Əksinə o, şanlı-şövkətli Qurandır. O, qorunmuş Lövhdə*** *(Lövhi-məhfuzda)* ***yazılmışdır”***.[259]

***Digəri*** isə: Lövhi-məhv və isbatdır. Orada gərəklilik səbəbi ilə bir şey yazılar. Ancaq şərtin olmaması, yaxud maneə səbəbi ilə çox keçmədən silinər. Allah buyurmuşdr: ***“Allah*** *(“məhv və isbat” lövhəsində yazılmış, olacaq hadisələrdən)* ***istədiyini məhv və*** *(bəzi hadisələri orada)* ***dərc edir və Ümmül-kitab*** *(Lövhi-məhfuz və şeylərin sabit cəhətlərinin yazıldığı yer)* ***Onun***

---

[258] Rəd, 11.

[259] Buruc, 21 və 22.

***yanındadır"***.[260]Həmçinin buyurmuşdur: ***"Şübhəsiz, yerdə və göydə olanlardan heç bir şey Allaha gizli deyildir"***.[261]

Sual çıxa bilər ki, İmam Məhdinin *(əleyhissəlam)* hədis kitablarında qeyd edilmiş, sənədinin səhihliyi sübut olunmuş zühur əlamətlərinin hər birinin baş verib gerçəkləşməsi labüddürmü? Yoxsa bəda ona da yol tapır?

Suala cavab vermək üçün zühur əlamətlərini iki hissəyə bölmək gərəkdir:

***1 –*** "Məvquf" *(yəni qarşısı alınan)* əlamət və məsələlər;

***2 –*** "Məhtum" *(yəni qəti, qaçılmaz)* əlamət və məsələlər.

Fəzl ibn Yəsarın İmam Baqirdən *(əleyhissəlam)* nəql etdiyi rəvayətdə qeyd olunur: "İşlərdən bəzisi qarşısı alına bilən işlərdir *(məvqufdur)*, bəzisi də mütləq baş verən işlərdir *(məhtum)*".[262]

Həmçinin Müəlla ibn Xuneys deyib: "Əbu Abdullahın *(əleyhissəlam)* belə buyurduğunu eşitdim: "İşlərin bəzisi "məhtum", bəzisi isə "məhtum" olmayandır".[263] Bunun üçün bədanı və onunla əlaqədar olanları izah edirik:

***Birinci: Zühur əlamətləri və qarşısı alına bilən işlər***

*(Bu cür)* zühur əlamətləri, qeyblə əlaqədar xəbərlər, yaxud gələcək hadisələrdəki əsas onun qarşısı alına bilən olmasıdır. Hansı ki, onun baş verəcəyinin qəti olmasına *(yəni məhtum olmasına)* dəlalət edən nə qəti dəlil, nə də qərinə vardır. Şeyx Müfid, Şeyx Səduq və Şeyx Tusi kimi görkəmli alimlər belə düşünmüşlər ki, bu növ xəbərlərdəki əsas onun "məvquf" olmasındandır. Hansı ki, qəti olacağına dəlalət edən dəlilin əksinə onu istidlal etmək mümkün deyil... Məsələn, İmamın sözü kimi: "Süfyani məhtumdandır..." Çox sayda zühur əlaməti vardır ki, hətta sənədi səhih olsa belə, məvquf işlərdəndir. Yəni Allahın

---

[260] Rəd, 39.
[261] Ali İmran, 5.
[262] Ğeybətun-Numani, s.204; Biharul-ənvar, c.52, s.249.
[263] Ğeybətun-Numani, s.202.

məşiyyətindən *(istəyindən)* asılıdır. Yəni onun bir hissəsinin gerçəkləşməməsi caizdir. Həmçinin dəyişilmə, əvəzedilmə, önə keçmə, yaxud təxirə salınması mümkündür.

Bu qarşısı alına bilən *(məvquf)* işlər, nişanələr və əlamətlərin digər lövhlə *(məhv və isbat lövhü)* əlaqəsi vardır... Peyğəmbər *(sallallahu əleyhi və alih)*, yaxud məsumlardan *(əleyhimussəlam)* biri bir şeyi xəbər verdikdə gərək xəbərlərində elə bir şeyə istinad etsin ki, xəbərləri üçün məsdər, məlumatı üçün mənşə olsun... Belə ki, xəbər vermiş olduğu şey gerçəkləşdikdə – hansı ki, olduqca çoxdur – bu, onun şərtlərinin gerçəkləşməsinin, maneələrinin yoxluğunun, habelə illət ünsürlərinin tamamlanmış olduğunun üstünü açır... Yəni hadisələr bu xəbərin həyata keçməsi üçün öz təbiəti əsasında hərəkət edir.

Ancaq xəbər, yaxud hadisə baş tutmasa *(yəni barəsində bəda baş versə)*, o zaman bu, şərtin yoxluğunun, yaxud maneənin üz verdiyinin və xəbərin gerçəkləşməməsi barədə təsirin baş verdiyinin üstünü açır. ***“Allah istədiyini məhv və dərc edir və Ümmül-kitab Onun yanındadır”***.

Bəla və başqa şeylərdə məvquf xəbər olduqda, bəzən möminlər Allaha təvəssül edir ki, onu aradan qaldırsın, yaxud baş verməsində maneə yaratsın, yaxud təxirə salsın və s... Ya da onlar elə əməllər edirlər ki, fərəci tezləşdirir, yaxud bəlanı dəf edir, ya da baş verməsinin qarşısını alır.

Hikmətin bəzi cəhəti bəzi xəbərlərin “məvquf” qərar verilməsi barədə sirri aydın edir. Sanki qarşısı alınan etməkdə hikmət xəbərdə olan əsasdır. O da sadəcə bəlanın baş verməsinin, yaxud fərəc kimi xeyirli işlərin tezləşdirilməsində fərdə *(müsəlman)* ixtiyar verməyin meyarıdır. Pis əməl gördükdə, təvəssül etmədikdə və boyun əymədikdə onunla əlaqədar verilən xəbər gerçəkləşir və iş öz qayəsinə hərəkət edir. Yaxşı əməl, yaxud tövbə və Allaha təvəssül etdikdə isə bu onun üzərindən *(bəlanı)* qaldırılır və fərəc tezləşdirilir... Bu səbəbdən belə rəvayət olunmuşdur ki, “Allaha bəda kimi heç bir ibadət olunmayıb”.

Sözün xülasəsi budur ki, bəda qarşısı alına bilən *(məvquf)* zühur əlamətlərinə müdaxilə edə bilir. Ona yol tapır. Yəni dəyişmə, əvəzedilmə qabiliyyətinə malikdir. Onun bəzilərinin baş verməməsi mümkündür.

***İkinci: Zühur əlamətləri və məhtum işlər***

Məhtum *(qəti baş verəcək)* zühur əlamətləri beşdir. Necə ki, bu barədə Ömər ibn Hənzələdən nəql olunan rəvayətdə deyilir: "Əbu Abdullahın *(əleyhissəlam)* belə buyurduğunu eşitdim: "Qaimin qiyamından öncə beş məhtum əlamət vardır: Yəmani, Süfyani, çığırtı, Nəfsi-Zəkiyyənin qətli və Beydada çökmə"[264]... Habelə İmam Sadiqdən *(əleyhissəlam)* nəql olunan rəvayətdə deyilir: "Ona dedik ki, Süfyani mütləq baş verəcək əlamətlərdəndir?

Buyurdu: "Bəli. Nəfsi-Zəkiyyənin qətli, Qaim, Beydada *(çölündə)* yerə batma, səmada görünəcək əl və səmadan eşidiləcək nida mütləq baş verəcək əlamətlərdəndir".

Dedim: "Nida nə olacaq?"

Dedi: "Bir carçı Qaimin və atasının *(əleyhiməssəlam)* adı ilə nida edəcək".[265] Burada çox sayda rəvayət vardır ki, bu beş qəti əlaməti o həddə vurğulamışdır ki, bu nəslər təvatür həddinə çatmışdır.

Məhtum əlamətlər baş verməsi labud olan xəbərlərdir. Belə ki, mütləq baş verəcəkdir. Onun zühurla olduqca möhkəm əlaqəsi vardır. Həm də onun *(əleyhissəlam)* zühuruna yaxın baş verəcəkdir. Orada bəda üçün heç bir əlaqə yoxdur. Ona görə də, məhtumda olan bəda onun qəti olması ilə uyuşmur. Çünki bədanın bir şeydə olmasının mənası ondan imtina etmək anlamındadır. Varlığın qəti olması bəda vasitəsilə qeyri-qəti

---

[264] Kəmalud-din, c.2, s.650; Ğeybətut-Tusi, s.628; Ğeybətun-Numani, s.169; Biharul-ənvar, c.52, s.204; İlamul-vəra, s.426; Muntəxəbul-əsər, s.439.

[265] Ğeybətun-Numani, s.172; Muntəxəbul-əsər, s.455.

olur. Əksi də bu cürdür... Bu Seyid Əbülqasim Xoi[266], Seyid Cəfər Murtəza Amuli[267] kimi böyük sütun alimlərin nəzəridir. Şeyx Tusi "əl-Ğeybət" kitabında qeyd etmişdir: "Başqa bir misal odur ki, şərtləri dəyişildikdə məsləhətin də dəyişilməsi üzündən özü-özlüyündə dəyişilməsi mümkün olan şeydir. Belə ki, biz bütün bunları keçərli hesab edirik. Gələcəkdə baş verəcək hadisələr barədə söylənilən xəbərlər kimi. Ancaq burada xəbər verilənin dəyişilə bilməyəcəyi bilinən tərzdə qeyd edilən xəbər istisnadır. Belə ki, bu halda biz onun varlığına *(baş verəcəyinə)* qəti şəkildə əmin oluruq. Bu səbəbdən qətilik – verilən xəbərlərin əksəriyyəti ilə yanaşı qeyd edilmişdir. Elə olduqda bilmiş oluruq ki, dəyişilməsi mümkün olmayan şeylərdəndir və həmin an biz ona əmin oluruq".[268] Buna görə də vurğulayırıq ki, qəti əlamətlər barədə Allah bəda etməyəcəkdir.

Bu rəyə qarşı çıxan əsas işkal Numaninin "əl-Ğeybət" kitabında qeyd etdiyi rəvayətdir: "Əbu Haşim Davud ibn Qasim Cəfəri deyib: "Əbu Cəfər Muhəmməd ibn Əli Rzanın *(əleyhissəlam)* yanında idik. Süfyanidən və hədisdə onun işinin məhtumdan olmasının qeyd edilməsindən söz düşdü. Mən Əbu Cəfərə dedim: "Allah məhtum olan işlərdə "bəda" edərmi?"

Buyurdu: "Bəli".

Dedim: "Qorxuruq ki, Allah Qaim barəsində də bəda edə".

Dedi: "Qaim "vəd"dəndir. Allah isə vədinə xilaf çıxmaz".[269]

Əllamə Məclisinin "Bihar" ensiklopediyasında əsaslandığı budur ki, qeyd edir: "Ola bilər ki, məhtumun iki mənası vardır və bəzisində bədanın baş verməsi mümkündür... Sonra ehtimal olunur ki, məhtumda bəda dedikdə onun xüsusiyyətlərində bəda olması nəzərdə tutulsun. Bəni-Abbasın getməsindən

---

[266] Necə ki, Muhəmməd Fəqih ondan yazışma əsnasında bunu soruşmuş və özünün "əs-Süfyani" kitabında qeyd etmişdir; s.102.
[267] Rəyini öz kitabında qeyd etmişdir: "Dirasətu fi əlamatiz-zuhur", s.60.
[268] Ğeybətut-Tusi, s.265.
[269] Ğeybətun-Numani, s.205; Biharul-ənvar, c.52, s.250.

öncə Süfyaninin xürucu və sair kimi baş verməsinin təməlində deyil".[270]

Ancaq biz Əllamə Məclisinin rəyinə yönəlmirik. Çünki məhtumda olan bəda məhtum və sair xəbər arasında fərq qoymur. Oradan qarşısı alına bilən və qəti işlər arasında bölgü aparmağa ehtiyac qalmır... Əlavə olaraq qeyd etmək lazımdır ki, rəvayətin sənədi zəifdir.[271] Həmçinin bu rəy *(məhtumda bəda olması)* bir çox rəvayətlər ilə ziddiyyət təşkil edir.

Əbdülməlik ibn Əyən deyir: "Əbu Cəfərin *(əleyhissəlam)* yanında idim. Qaimdən *(əleyhissəlam)* söz düşdü. Ona dedim: "İstəyirəm ki, *(onun zühuru)* tez ola və Süfyani olmaya".

Buyurdu: "Xeyr, Allaha and olsun ki, o baş verməsi mütləq və qaçılmaz olan "məhtum" əlamətlərdəndir".[272]

Fudeyl ibn Yəsar İmam Baqirin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "İşlərdən bəzisi qarşısı alına bilən işlərdir *(məvqufdur)*, bəzisi də mütləq baş verən işlər *(məhtum)*. Süfyani baş verməsi qaçılmaz olan məhtum işlərdəndir".[273]

Hümran ibn Əyən İmam Sadiqin *(əleyhissəlam)* belə buyurduğunu nəql etmişdir: "Qaimin qiyamından öncə baş verməsi mütləq olan əlamətlərdən *(bəziləri)* bunlardır: Süfyaninin çıxması, Beydada batma, Nəfsi-Zəkiyyənin qətli və səmadan bir carçı*(nın nida etməsi)*".[274]

Hümran ibn Əyən İmam Baqirin *(əleyhissəlam)* Allah-taalanın ***"... sonra müddət müəyyənləşdirən Odur. Müəyyən olunmuş bir müddət də Onun yanındadır"***[275] – ayəsi barədə buyurdu: "Onlar iki əcəldir: Məhtum əcəl və məvquf əcəl".

Hümran ona dedi: "Məhtum nədir?"

---

[270] Biharul-ənvar, c.52, s.s.251.
[271] Əs-Süfyani və əlamatuz-zuhur, s.102.
[272] Ğeybətun-Numani, s.203; Biharul-ənvar, c.52, s.s.249.
[273] Ğeybətun-Numani, s.204; Biharul-ənvar, c.52, s.s.249.
[274] Ğeybətun-Numani, s.176; Muntəxəbul-əsər, s.455.
[275] Ənam, 2.

Buyurdu: “Ondan qeyrisi mümkün olmayandır”.

Hümran soruşdu: “Məvquf nədir?”

Buyurdu: “O şeydir ki, onda Allahın məşiyyəti olsun *(Allahın iradəsinə bağlıdır)*”.

Hümran dedi: “İstəyərdim ki, Süfyaninin əcəli məvquf olsun”.

Əbu Cəfər *(əleyhissəlam)* buyurdu: “Xeyr, Allaha and olsun ki, o, məhtumdandır”.[276]

Burada çoxlu hədislər vardır ki, bu beş əlaməti qeyd edir və onların qəti baş verəcəyini vurğulayır. Yəni onun barəsində xəbər gerçəkləşəcəkdir. Bu isə onun şərtlərinin yetişməsi, maneələrinin aradan qalxması və illət ünsürlərinin tamamlanması ilə əlaqədardır.

Beş qəti əlamət əlamətlərin rəvayət baxımından ən təkid olunanı, ən etimadlısı, ən mətin olanıdır. Belə ki, bədanın ona müdaxilə etməməsi daha münasib rəydir... Bədanın ona müdaxilə etməsini fərz etmək *(digər rəy)* – yəni bu beş əlamətlərdən birinin dəyişməsi, məsələn, Süfyani surətinin məhv olması *(Beydada)* yerə batma surətinin məhvinə gətirib çıxaracaqdır. Çünki batma onun qoşunu ilə əlaqədardır. Habelə Süfyaninin aradan getməsi Əshəbin, Əbqənin də məhv olmasına gətirib çıxaracaqdır. Yəni Qirqisiya, yaxud ondan başqa bir şeyin aradan getməsinə. Şam fitnəsi də bu cürdür. İraq fitnələri də. Hətta Yəmani və Xorasani surətinin böyük hissəsi də bu qəbildəndir. Süfyaninin aradan getməsi *(yəni bu əlamətdə bəda baş verməsi)* bir çox zühur əlamətlərinin də aradan getməsinə səbəb olacaqdır *(Çünki onlar bir-biri ilə əlaqədardır)*. Odur ki, məhtumda Allahın bəda etməyəcəyini vurğulayırıq.

### *Üçüncü: İntizarı çəkilən İmam Məhdinin (əleyhissəlam) qiyamı və bəda*

İntizarı çəkilən İmam Məhdinin *(əleyhissəlam)* zühuru və onun qiyamı qəti *(məhtum)* əmrlərin ən təkid olunanıdır.

---

[276] Biharul-ənvar, c.52, s.s.249.

Bəlkə də bundan daha artıq şeydir. Çünki onun qiyamı ilahi bir vəddir. Allah-taala öz kitabında buyurmuşdur: ***"Allah sizdən iman gətirib yaxşı işlər görən kəslərə vəd etmişdir ki, onları mütləq özlərindən qabaq olmuşları canişin etdiyi kimi yer üzündə canişin edəcək, onlar üçün bəyəndiyi dini mütləq, onlar üçün bərqərar edərək möhkəmləndirəcək və onların halını şübhəsiz, qorxu və vahimədən sonra əmin-amanlıq və xatircəmliklə əvəz edəcəkdir. Belə ki, yalnız Mənə ibadət etsinlər və heç nəyi Mənə şərik qoşmasınlar. Kim bundan sonra nankorluq etsə, belələri doğrudan da itaətsizdirlər"***. [277]Bu, zülm və əzaba düçar olmuş möminlər üçün açıq-aydın ilahi vəddir ki, onları yer üzündə canişin edəcəkdir. Yəni Allah-taala nüfuzlarını, qüdrət və rəhbərliklərini bütün dünya üzərində yaymaqla onları müvəffəq edəcəkdir. Bu, tarix boyu gerçəkləşməyən bir şeydir. Keçmiş dönəmlərdən bizim indiki əsrimizə qədər... Odur ki, bu, gələcək dönəmdə yəqin şəkilində baş tutacaq şeydir. Bu, Allahın qəti vədi ilə uyğundur. Hansı ki, bu vəd heç cür dəyişkliyə, əvəz edilməyə, arxada saxlanılmağa, yaxud məhvə uğraya bilməz *(Yəni bədanın bura müdaxilə etməsi mümkün deyil)*.

İmam Məhdinin *(əleyhissəlam)* zühuru və qiyamının baş verməsi qəti olan işlərdəndir. Allah-taalanın buna qüdrəti çatsa da orada dəyişiklik aparmaqla müdaxilə etməyəcəkdir. Çünki müdaxilə etmiş olsaydı, onun hikmət və rəhməti ilə yanaşı rübubiyyət atributu ilə ziddiyyət təşkil edəcəkdir... Məsələn, Allah qəbih iş görməyə və zülm etməyə qadirdir. Ancaq bu işlərin ondan sadir olması qəti şəkildə mümkün deyil. Allah-taala buyurmuşdur: ***"Sənin Rəbbin heç kəsə zülm etməz"***.[278] Çünki bu, Allahın ədaləti ilə ziddiyyət təşkil edir. Buna baxmayaraq, qəbih iş də görməz... Qaim Məhdinin *(əleyhissəlam)* qiyamı da

---

[277] Nur, 55.
[278] Kəhf, 49.

bu cürdür, bu qəbildəndir. Çünki ilahi bir vəddir. Allah-taala isə vermiş olduğu vədə xilaf çıxmaz...

Yəhya ibn Vəssab Abdullah ibn Ömərdən belə nəql etmişdir: "Hüseyn ibn Əli ibn Əbu Talibin *(əleyhissəlam)* belə buyurduğunu eşitdim: "Dünyadan yalnız bircə gün qalmış olsaydı belə,Allah həmin günü o qədər uzadardı ki, nəslimdən bir nəfər çıxıb yer üzünü zülm və haqsızlıqla dolmuş olduğu kimi haqq-ədalətlə doldurardı. Mən Allah Rəsulunun *(sallallahu əleyhi və alih)* belə söylədiyini eşitmişəm".[279]

***Dördüncü: Qaimin (əleyhissəlam) zühuruna vaxt təyin etmək***

Bir sıra rəvayətlər vardır ki, İmam Məhdinin *(əleyhissəlam)* zühurunun vaxtını təyin etməyi, yaxud bunun üçün müəyyən bir zaman qoymağı qadağan etmişdir. Həmçinin onun *(əleyhissəlam)* müəyyən bir vaxtda zühur edəcəyinə dair vaxtı təkzib etmişdir. Çünki bu, Allahın sirlərindən biridir...

Muhəmməd ibn Müslim deyib ki, İmam Sadiq *(əleyhissəlam)* ona belə buyurmuşdur: "Ey Muhəmməd, kim sənə *(zühurla bağlı)* bizdən bir vaxt çatdırsa, onu təkzib etməkdən çəkinmə. Biz heç kəs üçün vaxt təyin etmirik!"[280]

Fudeyl deyib: "Əbu Cəfərdən *(əleyhissəlam)* soruşdum ki, bu işin bir vaxtı varmı?

Buyurdu: "Vaxt qoyanlar yalan deyib, vaxt qoyanlar yalan deyib!"[281]

Əbdürrəhman ibn Kəsir deyib: "Əbu Abdullahın *(əleyhissəlam)* yanında idim. Bu vaxt Məhzəm onun yanına daxil oldu və dedi: "Sənə fəda olum, mənə xəbər ver ki, gözlədiyimiz bu iş nə vaxt baş verəcək?"

---

[279] Əl-İrşadu lil-Mufid, c.2, s.340; İlamul-vəra, s.401; Biharul-ənvar, c.52, s.104.
[280] Ğeybətun-Numani, s.195; Biharul-ənvar, c.52, s.104; Ğeybətut-Tusi, s.262; Bəşarətul-İslam, s.298.
[281] Ğeybətut-Tusi, s.262; Biharul-ənvar, c.52, s.103; Muntəxəbul-əsər, s.463..

Buyurdu: "Ey Məhzəm, vaxt təyin edənlər yalan dedilər, tələsənlər həlak oldular və yalnız təslim olanlar nicat tapdılar".[282]

Əksər xəbərlərin məzmunu buna dəlalət edir ki, Höccət ibn Həsənin *(əleyhissəlam)* zühuru məxfi bir işdir. Onu Allah-taala hikməti üzündən camaatdan gizlətmişdir... Zühurun vaxtı, Allahın əzəli elmində bəlirlənmiş olsa da, illət və şərtləri ilə əlaqədar onun üçün bəlli bir vaxt fərz etməmək gərəkdir.

Əlamət və xüsusiyyətləri baxımından – hansı ki, xəbərlər zühur zamanına yaxın baş verəcəyini açıqlamışdır, həmçinin bu əlamətlər vaxt bəlirləməyi özündə ehtiva etmişdir; məsələn, Süfyaninin Rəcəb ayında xüruc etməsi, Ramazan ayında çığırtının olması, habelə Ramazan ayında gün və ay tutulması, zühurdan 15 gün öncə Nəfsi-Zəkiyyənin qətlə yetirilməsi kimi – bu, onu vurğulayır ki, əlamətlər baş verdikdə zühurun yaxınlaşmasına dəlalət etmiş olsa da, həmçinin bu doğru hadisə qəti şəkildə bunun barədə vaxt təyin etməyin qadağan olmasına şamil olmur. Sadəcə icmali şəkildə vaxt bəlirləyir. Bu əlamətlərin nə zaman baş verəcəyinə dair məlumat olmadığına görə təbii olaraq onun *(əleyhissəlam)* zühurunun zamanından məlumatsız olmaq, onun üçün bir vaxt təyin etməmək gərəkdir... Üçüncü fəsldə qeyd etdiyimiz hədis və xəbərlərdə zühur üçün bəlli bir zaman təyin etmək, yaxud vaxt açıqlamaq yoxdur. Sadəcə onlar zühur əlamətləridir. Necə ki, İmamlarımız *(əleyhimussəlam)* tərəfindən bunun işarət ifadə etdiyi, həmçinin zühurun yaxın olmasına dair əlamətlər olduğu açıqlanmışdır. Bu barədə bilgi isə Allah yanındadır: ***"Allah istədiyini məhv edər*** *(silər)* ***və sabit edər. Ümmül-kitab onun yanındadır"***.

İlahi hikmət belə istəmişdir ki, İmam Məhdinin *(əleyhissəlam)* zühur vaxtı müqəddəs fəcr günü müvəffəqiyyət tapsın

[282] Ğeybətun-Numani, s.198; Biharul-ənvar, c.52, s.104; Ğeybətut-Tusi, s.262; Muntəxəbul-əsər, s.463; Bəşarətul-İslam, s.299.

deyə, qəfil baş verməlidir. Çünki əgər zühurun tarixi açıq şəkildə bəlirlənmiş olsaydı, ümumdünya inqilabın fiaskoya uğraması və ədalət dövlətinin yoxa çıxması üçün ən güclü amillərdən biri olardı. Çünki düşmənlərin zühurun həmin tarixdə olmasını ehtimal etmələri bəs edir ki, onu yatırmaq üzərində cəm olsunlar. Bunu elə onun işinin başlanğıcında, inqilabının müvəffəqiyyət qazanmadan öncə, həmçinin hərəkatının yayılmasından qabaq etsinlər. Əlavə olaraq, xalis möminlər onun *(əleyhissəlam)* zühurunun vaxtını bildikləri zaman depressiyaya və ümidsizliyə qapılacaqlar. Bir halda ki, bu, onların dövrlərindən uzaq olduğu halda tənbəlliyə, halsızlığa, ixlas üçün daha çox irəliləməmələrinə, onun ənsar və köməkçilərindən olsunlar deyə, tutqu ilə təlaş göstərməmələrinə gətirib çıxaracaqdır. Fərəcin tezləşməsi üçün dua etməmək də bu qəbildəndir.

**İlahi, onun fərəcini tezləşdir və**
**çıxış yolunu asanlaşdır!**

## İSTİFADƏ VƏ MÜRACİƏT OLUNAN ƏDƏBİYYAT

1 – Qurani-kərim.

2 – Əmirəlmömininə *(əleyhissəlam)* aid “Nəhcül-Bəlağə”.

3 – “Əl-Ğeybət” kitabı, İbn Əbu Zeynəb kimi tanınan Şeyx Muhəmməd ibn İbrahim ibn Cəfər Numani. O, hicrətin üçüncü əsr alimlərindən olmuşdur.

4 – “Kəmalud-din və təmamun-nemət”, Şeyx Əbu Cəfər Muhəmməd ibn Əli ibn Hüseyn ibn Babəveyh Qummi *(Səduq)*. O, hicrətin dördüncü əsr alimlərindən olmuşdur.

5 – “Əl-Ğeybət” kitabı, Şeyx Əbu Cəfər Muhəmməd ibn Həsən Tusi. Hicrətin 460-cı ilində vəfat etmişdir.

6 – “İlamul-vəra bi-ə`lamil-huda”, Əbu Əli Fəzl ibn Həsən Təbərsi. Hicrətin altıncı əsr alimlərindən olmuşdur.

7 – “Əl-İhticac”, Əbu Mənsur Əhməd ibn Əli ibn Əbu Talib Təbərsi. Hicrətin altıncı əsr alimlərindən olmuşdur.

8 – “Ən-Nəcmus-saqibu fi əhvalil-huccətil-ğaib”, Mirzə Hüseyn Nuri Təbərsi.

9 – “İlzamun-nasibu fi isbatil-huccətil-ğaib”, Şeyx Əli Yəzdi Hairi.

10 – “Bəşarətul-islam fi zuhuri Sahibiz-zəman”, Seyid Mustafa Ali-Seyyid Heydər Kazimi.

11 – “Biharul-ənvar” ensiklopediyası, Şeyx Muhəmməd Baqir ibn Muhəmməd Təqi Məclisi *(Əllamə Məclisi)*.

12 – “Muntəxəbul-əsər fil-İmamis-sani əşər”, Lütfüllah Safi Gülpayqani.

13 – “Əl-Məhdi”, Ayətullah Seyid Sədrəddin Sədr.

14 – “Tarixu ğeybətis-suğra”, Seyid Muhəmməd Sadiq Sədr.

15 – “Tarixu ğeybətil-kubra”, Seyid Muhəmməd Sadiq Sədr.

16 – “Tarixu ma bə`dəz-zuhur”, Seyid Muhəmməd Sadiq Sədr.

17 – “Əl-Yəumul-məv`ud bəynəl-fikril-maddi vəd-dini”, Seyid Muhəmməd Sadiq Sədr.

18 – “Cənnətul-mə`va fi zikri mən fazə bi-liqail-Huccət”, Hacı Mirzə Hüseyn Nuri.

19 –“Əs-Səhifətul-hadiyətu vət-tuhfətul-Məhdiyyətu”, İbrahim Muhsin Kaşani.

20 – “Əl-Məhdi fil-Quran”, Əllamə Sadiq Hüseyni Şirazi.

21 – “Hivaratu həuləl-munqiz”, Şeyx İbrahim Əmini.

22 – “Dirasətu fi əlamatiz-zuhuri vəl-cəzirətil-Xədra”, Seyid Cəfər Murtəza Amuli.

23 – “Ət-Tarixul-islami durus və ibər”, Əllamə Muhəmməd Təqi Mudərrisi.

24 – “Liqa`atu mə`ə Sahibiz-zəman”, Seyid Həsən Əbtəhi.

25 – “Əl-İmamul-Məhdi minəl-məhd iləz-zuhur”, Seyid Kazim Qəzvini.

26 – “Miracur-ruh”, Seyid Həsən Əbtəhi.

27 – “Əl-İmamul-Məhdi əməluş-şu`ub”, Şeyx Həsən Səffar.

28 – “Yəumul-xilas fi zillil-Qaimil-Məhdi”, Ustaz Kamil Süleyman.

29 – “Əl-Muslihul-ğeybi vəl-hukumətul-aləmiyyətul-vahidə”, Seyid Həsən Əbtəhi.

30 – “Əs-Süfyani və əlamatuz-zuhur”, Muhəmməd Fəqih.

31 – “Əl-İlahiyyatu əla hudəl-Kitab vəs-sunnəti vəl-əql”, Şeyx Cəfər Sübhani.

32 – “Əqaidul-imamiyyə”, Şeyx Muhəmməd Rza Muzəffər.

33 – “Fi intizaril-İmam”, Şeyx Əbdülhadi Fəzli.

34 – “Əş-Şiətu vər-rəc`ət”, Muhəmməd Rza Təbəsi Nəcəfi.

35 – “Əl-Bəda fi dau`il-Kitabi vəs-sunnət”, Şeyx Cəfər Sübhani.

36 – “Əl-Muməhhidun lil-Məhdi”, Şeyx Əli Kurani.

37 – “Riayətul-İmamil-Məhdi lil-məraci` vəl-uləma vəl-ə`-lam”, Əli Kərimi Cuhrumi.

38 – “Əl-Məhdil-məv`ud”, Seyid Əbdülhüseyn Dəstğeyb.

39 – “Əl-kəlimatur-ruhiyyəti ən tariyqil-liqai bil-İmam Sahibiz-zəman”, Seyid Həsən Əbtəhi.

40 – “Məcmu`iyy”, Əli Muhəmməd Əli Dəxil.

41 – “Əqaiudunəl-fəlsəfiyyətu vəl-Qur`aniyyətu”, Şeyx Cəfər Sübhani.

42 – “Səhifətul-Məhdi”, Şeyx İsa Əhri.

43 – “Bəyanul-ə`imməri lil-vaqi`il-ğəriybəti vəl-əsraril-əciybəti”, Şeyx Muhəmməd Məhdi Zeynulabidin Nəcəfi.

44 – “Miətani və xamsunə əlamət hərra zuhur əl-İmamil-Məhdi”, Seyid Muhəmməd Əli Təbatəbai.

45 – “Səurətul-məuti`inə lil-Məhdi”, Məhdi Fətlavi.

46 – “Əl-Bəyanu fi əxbari Sahibiz-zəman”, Əbu Abdullah Muhəmməd ibn Yusif ibn Muhəmməd Qərəşi Kənci Şafei.

47 – “Əl-İrşadu fi mərifəti hucəcillahi ələl-ibad”, Şeyx Mufid İmam Əbu Abdullah Muhəmməd ibn Muhəmməd ibn Numan Əkbəri Bağdadi, hicrətin 413-cü ilində vəfat etmişdir.

48 – “Əl-Muqni fil-ğeybət”, Seyid Şərif Murtəza Əbülqasim Əli ibn Hüseyn Musəvi, hicrətin 436-cı ilində vəfat edib.

49 – “Əl-Məhdiyyul-Muntəzəru fil-fikril-islami”, “Ər-Risalə” mərkəzinin nəşri.